**PROF. İ.Z.İSMAYILOV**
(tarix elmləri doktoru)

# AZƏRBAYCANLILARIN II DÜNYA MÜHARİBƏSİNDƏ İŞTİRAKI

*Bakı şəhər veteranlar şurası*
*Nəzdindəki elmi-metodik komissiyanın*
*23.06.99 tarixli qərarına əsasən nəşr edilmişdir.*
*(protokol № 1)*

Bakı 2000

"BİZİM ÜÇÜN II DÜNYA MÜHARİBƏSİNDƏ, FAŞİZMƏ QARŞI APARILAN BÖYÜK VƏTƏN MÜHARİBƏSİNDƏ İŞTİRAK ETMİŞ HƏR BİR ŞƏXS YÜKSƏK HÖRMƏTƏ MALİKDİR..."

**HEYDƏR ƏLİYEV**

*Mətnə rəy vermişlər:*
Müharibə veteranı, **prof. Ə.ŞAKİRZADƏ**
Müharibə veteranı, **prof. H.HACIYEV**

**İsmayılov İ.Z. Azərbaycanlıların II dünya müharibəsində iştirakı.** Bakı, 2000.

***Kitabın nəşrinə qismən sponsorluq etdiyinə görə müəllif Azərbaycan Respublikası Nəsimi rayonu İcra Hakimiyyətinin başçısı Tahir QULİYEVƏ və Məişət Xidməti Şirkətinin prezidenti Eldar MİRZƏYEVƏ öz təşəkkürünü bildirir.***

***Nəşrin xərcinin bir hissəsi müəllif tərəfindən ödənilmişdir.***

**İ.Z.İSMAYILOV, 2000.**

***“Hətta ağılsızlar arasında belə müharibə istəyən olmamalıdır. Çünki dinclik olanda atalar övladlarının çiynində aparılaraq dəfn edilirlər, müharibə olduqda isə atalar övladları dəfn etməli olurlar”.***

**Herodot**

## Oxucuya müraciət

Eramızdan əvvəl beşinci əsrdə yaşamış və “Tarixin Atası” sayılan Herodotun bu sözləri müasir müharibələrin ön və və arxa cəbhələrində viranedici atış qüvvəsinin zərbələri müqabilində sönük görülür: çünki indiki geniş miqyaslı müharibələrdə atalar həlak olmuş övladlarının nəinki dəfn edə bilmir, hətta bir çox hallarda özləri də cəbhə arxasında təyyarələrdən buraxılan bombalardan və top atəşi zərbələrindən həlak olurlar. Lakin bununla belə Tarixin Atası Herodotun sözlərində böyük məna vardır. Burada söhbət müharibə dövründə valideyn və övladların aqibətindən gedir.

Müharibələrin xronikası tarixin ən qədim alt qatlarından başlayır. Lakin qədim dövrdəki və XX əsrə qədər baş vermiş müharibələr əsasən lokal xarakter daşımışdır. Hətta dünya ağalığı iddiası ilə ayrı-ayrı fatehlərin (Makedoniyalı İskəndər, Çingiz xan, Napaleon və s.) başladıqları böyük müharibələr dünyanın əksəriyyət ölkələrini eyni zamanda əhatə etməmişdir.

II dünya müharibəsində 60-dan çox ölkənin 2 milyarddan artıq əhalisi cəlb edilmişdi ki, bu da o zaman dünya əhalisinin 80 %-ni təşkil edirdi.

Birinci və ikinci dünya müharibələri arasında Dünyanın nisbətən dinc yaşaması dövrü 20 il çəkdi. Lakin bu “dinc dövr”də də bəşəriyyət hərbi qarşıdurmalardan böyük itkilər vermişdir. Məşhur İsveç siyasətçisi Pyer Almark “Açıq yara” kitabında (1997) yazır ki, XX əsrin “dinc dövrlərində” Dünyada 170 milyon insan məhv edilmişdir. 110 milyonu kommunistlərin hakimiyyətdə olduqları ölkələrin payına düşür (bundan 62 milyonu 1917-1987-ci illər üzrə Sovetlər İttifaqı xalqlarının verdiyi itkilərdir). Əlbəttə buraya repressiya dövrünün siyasi qurbanları da daxildir.

1920-ci ilin mayından 1921-ci ilin əvvəllərinədək 40 mindən çox azərbaycanlı Fövqəladə komissiyanın qərarı ilə məhv edilmişdir. 1934-38-ci illərdə isə yenə də siyasi düşmən adı ilə 27854 nəfər məhv edildi. Bütövlükdə 1920-30-cu illərdə Azərbaycanda xalq düşməni damğası ilə 400 mindən çox vətəndaş məhv edilmiş, yarım milyondan artıq azərbaycanlı isə sürgünlərə göndərilmişdir. Bu qədər böyük qırğının icraçılarının əksəriyyəti isə xalqımıza düşmən kəsilən yadlar olmuşdur (bax “Xalq qəzeti”, 28 mart, 1999).

XX əsrin 70 ilində SSRİ-də hökm sürmüş ifrat dərəcədə mərkəzləşmiş totalitar üsul-idarə, mərkəzin imperiya siyasəti Sovetlər İttifaqının dağılması

prosesini daha da sürətləndirdi. Zahirən möhtəşəm görünən Sovet dövlətinin nisbətən qısa müddətdə dağılmasının səbəbləri hətta tamamilə öyrənilməmişdir. Bu dağılma prosesinin nisbətən qısa müddətdə başa çatması həmin prosesin şahidləri olan hətta bizləri də bəzən təəccübləndirirsə, görünür, bu dağılmanı görməyən gələcək nəsillər üçün o, daha çox sirli görünəcəkdir.

Sovet hakimiyyəti illərində xalqın faşist Almaniyasının hücumuna qarşı apardığı ən ağır və qanlı müharibə Böyük Vətən müharibəsi adlanır və bu müharibədə SSRİ tərkibində yaşayan xalqlar 27 milyon nəfər itirdilər. Həmin müharibədə Azərbaycanın itkisi 300 min nəfərdən çoxdur.

Birinci dünya müharibəsinin başlanmasında əsasən Antanta (İngiltərə, Fransa, Rusiya) dövlətləri başçıları ittiham edilir. Lakin ondan dəfələrlə çoxdağıdıcı olan və bir neçə dəfə çox insan itkisi ilə nəticələnən İkinci dünya müharibəsinin əsas səbəbini Hitler ilə Stalin xarici siyasətlərinin barışmazlığı ilə izah edənlər də az deyildir. Ədalət naminə demək lazımdır ki, bu tezislə çıxış edənlər yaddan çıxarırlar ki, Hitler-Stalin qarşıdurması real olaraq 1941-ci ildə başladı, II Dünya müharibəsi isə 1939-cu ildə başlamışdı və Sovetlər İttifaqının müharibəyə cəlb edilməsi ilə başlanan Böyük Vətən müharibəsi II Dünya müharibəsinin davamını, ikinci dövrünü təşkil edir. II Dünya müharibəsinin sonunda antihitler ittifaqı dövlətləri (Sovetlər İttifaqı, Amerika Birləşmiş Ştatları və İngiltərə) Almaniya faşizmi və Yaponiya militarizmi üzərində qələbə çalsa da, qalib dövlətlərdən biri olan Sovetlər İttifaqının insan itkisi daha çox olmuşdur.

Müharibə qurtardıqdan sonra Sovetlər İttifaqının hakim dairələri bu itkinin müqabilində qələbə üçün onu əsas götürdülər ki, nəticədə dünya sosializm sisteminin yaradılmasına şərait əldə edildi və bu sistemin özəyi olan Sovetlər İttifaqı öz hərbi gücünə görə dünyanın ən güclü iki ölkəsindən birinə (ABŞ ilə yanaşı) çevrildi. SSRİ-nin dağılması ilə bu tarixi bəraətin (ümumi tarixi inkişaf nöqteyi nəzərindən) əsassız olduğu ortaya çıxdı.

SSRİ dağıldıqdan sonra onun yerində 15 müstəqil dövlət yarandı və bunların hər biri öz xalqlarının II dünya müharibəsində iştirakı haqqında tədqiqatlar apararaq əsərlər nəşr edirlər. Təəssüflər olsun ki, Azərbaycanda bu iş hələlik zəif aparılır.

Azərbaycanlıların II Dünya müharibəsində işrirakı mövzusunun geniş işlənməsi və təbliği bir neçə səbəbə görə vacibdir:

**Əvvəla:** Azərbaycan indi Dünya dövlətləri sistemində müstəqil dövlətdir və onun xalqının II Dünya müharibəsində iştirakı müstəqil bir mövzu kimi işlənməlidir. Məlumdur ki, bu iştirak "Sovetlər İttifaqının Böyük Vətən Müharibəsi" mövzusu içərisində çox səthi şərh edilirdi və solğun görünürdü.

**İkincisi:** Azərbaycan xalqı öz nefti və yanacağı ilə faşizm üzərində qələbə üçün tarixi xidmətlər göstərmişdir və bu haqda böyük qürurla bütün dünyaya car çəkmək lazımdır.

II Dünya müharibəsi tarixinin və xüsusilə 1941-45-ci illərin Böyük Vətən müharibəsi tarixinin araşdırılması sübut edir ki, "Əgər Bakının nefti olmasaydı Sovetlər İttifaqının qələbəsi bəlkə də mümkün deyildi..."(Heydər Əliyev). Bu nefti hasil edən isə qəhrəman Azərbaycan xalqı olmuşdur. Buna görə də Bakı şəhəri "Qəhrəman şəhər" adına layiq görülməli idi. Lakin bu da edilmədi.

**Üçüncü:** "Böyük Vətən Müharibəsi" adlı kitablarda və məqalələrdə Azərbaycanda yaradılmış və düşmənlə qəhrəmancasına döyüşmüş milli diviziyalarımız haqqında demək olar ki, çox az məlumat verilmişdir.

**Dördüncüsü:** İkinci dünya müharibəsi mövzusu, "Böyük Vətən Müharibəsi" mövzusundan çox geniş mövzudur. Bununla əlaqədar olaraq indi azərbaycanlıların ikinci dünya müharibəsi illərində xarici ölkələrdə müqavimət hərəkatında iştirakı da müstəqil mövzu kimi geniş öyrənilməli və təbliğ edilməlidir.

**Beşincisi:** Azərbaycan xalqının hərb tarixi Sovet hakimiyyəti dövründə öyrənilməmişdir və bunun səbəbləri məlumdur. İndi xalqımızın çoxəsrlik ümumi və mübarizə tarixi gerçəkliklə, olduğu kimi öyrənilərək, yüksək elmi tarixilik və dünya standartları səviyyəsində yazılmalıdır.

Bununla əlaqədar olaraq doğma Qarabağ torpağımıza sahib çıxmaq istəyən və onu son on ildə faktiki olaraq zəbt etmiş ermənilərə tutarlı cavab vermək üçün Qarabağımızın həqiqi tarixinin də hələlik yazılmaması böyük təəssüf doğurur.

Nə qədər acı olsa da, etiraf etməliyik ki, əgər 80-ci illərin sonlarında Qarabağda ermənilərin törətdiyi qanlı hadisələr və onun dalınca Ermənistan-Azərbaycan müharibəsi başlanmasaydı, bizim əksəriyyət tarixçilərimizin qədim və orta əsrlər tariximizə, hətta "Gülüstan Müqaviləsinə" (1828) açıq gözlə münasibətimizdə "qəflət yuxumuz" bir qədər də uzanardı.

Böyük Vətən müharibəsi qurtardıqdan sonra erməni müəllifləri əsərlərində öz xalqının bu qələbədə böyük rolunu erməni marşal və generalların sayca nisbi çoxluğu ilə əsaslandırmağa başladılar. Bu şovinistlər müharibədən sonrakı illərdə də ermənilərin digər Sovet xalqlarından üstünlüyünü hər addımda qeyd etməkdə davam edirdilər. Ölkəyə 1959-69-cu illərdə on il başçılıq etmiş Nikita Xruşşov isə daşnak Anastas Mikoyanın fitvası ilə erməniləri "talantlı xalq" adlandırmışdı.

Böyük Sovet Ensiklopediyası redaksiya heyətində baş redaktorun birinci müavini işləmiş Şaumyan (Azərbaycan xalqının qanını içən Stepan Şaumyanın oğludur) daşnakların çoxunu bolşevik etdiyi kimi, öz xalqının adına bu ensiklopediyada mədhiyyələr də yazmışdır. II cilddəki "Ermənistan SSR" haqqında yazıda göstərilir ki, Böyük Vətən müharibəsində ermənilərin "bir neçə milli

diviziyası" döyüşmüşdür və onlardan biri də "Taman atıcı diviziyası Qafqazdan Berlinədək döyüş yolu keçmişdir". Həmin Ensiklopediyanın birinci cildindəki "Azərbaycan SSR" haqqında məlumatda isə yalnız 416-cı Taqanroq diviziyasının adı çəkilir və səthi məlumat verilir.

*Bəs özümüzün Ensiklopediyasında necə?* Azərbaycan Sovet Ensiklopediyasının I cildində də yalnız 416-cı diviziyanın adı çəkilir. Azərbaycan dilində 1941-45-ci illər müharibəsi iştirakçıları haqqında nəşr edilmiş ilk kitablardan biri Museyib Qurbanovun "Qələbə yolu" (Azərnəşr, 1954) kitabıdır. Həmin kitabda Şimali Qafqzdan döyüşə başlamış 416-cı milli diviziyanın milli tərkibi haqqında məlumat çox zəif verilmişdir.

Milli diviziyalarımız haqqında ilk dəfə yığcam məlumat 1998-ci ildə rus dilində nəşr olunmuş "Qəhrəmanlar haqqında xatirə yaşayır" adlı kitabın 116-132-ci səhifələrində verilmişdir. (tərtib edənlər M.Abbasov, A.Qritçenko, R.Zeynalov, M.Feyzullayev).

Azərbaycanda doğulmuş və işləyərək orduda xidmətə çağırılmış döyüşçü və komandirlər (Sovet İttifaqı Qəhrəmanı fəxri adına layiq görülmüşlər) haqqında ilk kitab 1965-ci ildə nəşr edilmişdir. Oçerklər şəklində buraxılmış bu kitabın redaktorları V.A.Muradyan və E.İ.Meyeroviçdir.

Oxucuya təqdim edilən bu kitabda ilk dəfədir ki, Azərbaycan xalqının II dünya müharibəsi illərində ön cəbhələrdə və arxa cəbhədə faşizmə qarşı mübarizədə döyüş və əmək rəşadəti geniş planda şərh edilir. Bütün bunları nəzərə alaraq bu mövzuda yazılmış kitabların ingilis və digər dillərdə nəşr edilərək dünya ölkələrində yayılması son dərəcə vacibdir.

Böyük Vətən Müharibəsi mövzusunda SSRİ-də nəşr edilmiş siyasi və hərbi ədəbiyyatda Azərbaycan xalqının faşizm üzərində qələbədə rolu çox zəif verilmiş və həmişə kölgədə saxlanılmışdır. Hətta 1990-cı ildə "Siyasi nəşriyyat" tərəfindən Moskvada nəşr edilmiş "Böyük Vətən Müharibəsi; 1941-45, hadisələr, insanlar, sənədlər" adlı böyük həcmli tarixi məlumat kitabında (461 s.) bir nəfər də olsun azərbaycanlının adı çəkilmir. Halbuki burada digər millətlərdən külli miqdarda adi fəhlənin, şaxtaçının haqqında şəkilləri ilə birlikdə geniş məlumatlar verilir. İki dəfə Sovet İttifaqı qəhrəmanı, general-mayor Həzi Aslanov haqqında bu kitabda bir kəlmə də olsa yazılmayıb. Digər millətlərdən olan Sovet İttifaqı qəhrəmanları haqqında isə geniş məlumatlar verilmişdir. Belə ədalətsiz faktları çox göstərmək olar.

Yuxarıda adı çəkilən kitabda bu mövzuya aid nəşr edilmiş digər əsərlərdə müharibə illərində orduya silah hazırlayan müəssisələr sırasında "Maqnitaqorsk Rura qələbə çaldı" deyə müddəalar yazılır, lakin Azərbaycan Respublikasının qələbəni təmin edən qəhrəman neftçilərin əməyi haqqında susulur. Xoşbəxtlikdən müharibənin gedişi dövründə Sovet ordusuna rəhbərlik etmiş görkəmli

sərkərdələrdən G.K.Jukov və K.K.Rokossovski daha ədalətli idilər və Bakı neftçilərinin qəhrəman əməyini yüksək qiymətləndirdilər.

Azərbaycan xalqı içərisində II dünya müharibəsi illərində marşal rütbəli hərbçinin olmaması və generallarımızın nisbi azlığının səbəbləri haqda kitabın münasib bölmələrində konkret faktlarla deyiləcəkdir.

Və nəhayət, Böyük Vətən müharibəsi mövzusunun tədqiq edilməsində Sovet İttifaqı Qəhrəmanı mərhum akademik Ziya Bünyadov ilə yanaşı Azərbaycanın Böyük Vətən Müharibəsi dövrü tarixi üzərində işləmiş professorlar Qaraş Mədətovun, Məzahir Abbasovun, Rizvan Zeynalovun, Əhəd Bağırzadənin və Zeynal Ələkbərovun, eləcə də Nəsir İmanquliyevin, Qəzənfər Mehdiyevin, Adil Quliyevin, Mayıl Alıcanovun, Qurban Orucovun xidmətləri qeyd edilməlidir. Onların əsərlərində xalqımızın göstərilən müharibə illərində döyüş və əmək qəhrəmanlığı konkret faktlarla şərh edilmişdir və belə əsərlər ilkin mənbə kimi dəyərlidir.

***Bakı, may 1999***

## HƏRBİ-SƏRKƏRDƏLİK TARİXİMİZƏ ÖTƏRİ NƏZƏR

*(giriş əvəzi)*

XX əsrin birinci yarısında, 20 illik fasilə ilə baş vermiş iki dünya müharibəsi bəşər tarixində viranediciliyi ilə yanaşı, dünyanın bütün xalqlarının siyasi həyatına güclü təsir etmişdir. II dünya müharibəsinin başlanmasından əvvəlki 470 ilin yalnız iki ilində Şimali Azərbaycan müstəqil dövlət (1918-1920-ci illərdə) kimi yaşamışdır. Bu iki ildə xalqın ilk dəfə Milli orduya xidmətə geniş cəlbi ümummilli səviyyədə olmuş və yaradılmış ordu milli dövlətçilik mənafeyinə xidmət etmişdir.

Bununla belə Azərbaycan xalqının vətəni müdafiə uğrunda hərbi şücaəti qədim və zəngin tarixə malikdir. Məhəmməd Cahan Pəhləvan və Qızıl Arslan, Cavanşir və Babək, Uzun Həsən və Şah İsmayıl Xətai kimi hərbi sərkərdələr, Koroğlu və Qaçaq Nəbi kimi xalq qəhrəmanları müstəqilliyimiz uğrunda mübarizələrdə xalqa xidmət etmişlər.

Şimali Azərbaycanın Çar Rusiyası tərkibində olduğu 90 il (1828-1917) ərzində Rusiya çarlığı xalqımızı hərbi xidmətdən məhrum etmiş, müsəlman-azərbaycanlılar orduda xidmət əvəzinə cürbəcür vergilər ödəmişlər. Yalnız xalqın yüksək zadəgan və ziyalı zümrəsi içərisindən ayrı-ayrı şəxslər öz övladlarını Rusiyanın hərbi məktəblərinə göndərə bilmişlər və bu hesabdan göstərilən dövrdə müəyyən miqdarda azərbaycanlı zabit heyəti yaranmışdır və onlar döyüş cəbhələrində yüksək sərkərdəlik nümunələri göstərmişlər. Vitse-admiral rütbəsinə qədər yüksəlmiş İbrahim bəy Allahverdi oğlu Aslanbəyov (1822-1900) Peterburqda Hərbi Dəniz Korpusunu bitirmiş, Qara və Baltik dənizlərində hərbi gəmilərdə komandir olmuş, 1878-ci ildə kontr-admiral rütbəsi aldıqdan sonra Rusiyanın 8-ci Hərbi-Dəniz Donanmasının rəisi təyin edilmişdir. Admiral İ. Aslanbəyov 1879-1882-ci illərdə rəhbərlik etdiyi gəmi heyəti ilə dövr-aləm səyahətində olmuş, Sakit okeanda iti sürətlə üzən gəmilərin hərbi heyətinə komandanlıq etmiş və 1887-ci ildə vitse-admiral rütbəsinə yüksəlmişdir.

Mayor İskəndərbəy Məmmədkərim oğlu Hacınski (1809-1878) 1835-ci ildən rus ordusunda qulluqda olmuş, Krım müharibəsində (1853-56) iştirak etmişdir. O, Rusiyanın 3-cü dərəcəli Anna və 2-ci dərəcəli Stanislav ordenləri, İranın 2-ci dərəcəli "Şir-i Xurşid" ordeni ilə təltif edilmişdir.

Rusiya-Yaponiya müharibəsinin gedişində Yaponiya donanması Rusiyanın Uzaq Şərqdə olan Port-Artur qalasını mühasirəyə aldığı dövrdə (mühasirə 5 aydan çox davam etmişdir) bu əməliyyatlarda polkovnik S. Mehmandarov və kapitan Ə.Şıxlinski, polkovnik Hüseyn xan Naxçıvanski və polkovnik İlyas bəy Ağalarov da iştirak etmişdilər. Həmin müharibədə batalyon komandiri vəzifəsində döyüşən həmyerlimiz Şaxtaxtinski Əbülfət Nəcəfqulu oğlu 1912-ci ildə polkovnik

rütbəsində Rusiyanın hərbi nümayəndəsi kimi İsveçrə ordusunun manevrlərini müşahidə etmişdir.

Azərbaycanlı generallardan Teymur bəy Novruzov, Əmir Kazım Qacar, Əmənulla xan Qacar (Şuşada doğulmuşlar) I Dünya müharibəsinin iştirakçıları olmuşlar. General T. Novruzov dörd dəfə Müqəddəs Georgi ordeni ilə təltif edilmişdir.

Azərbaycan generallarının fəaliyyəti üzrə araşdırmalarını uğurla davam etdirən hərbi jurnalist və yazıçı Şəmistan Nəzirli 1999-cu ilin may ayında Azərbaycan televiziyası ilə çıxışında Tbilisi arxivlərində Azərbaycan generalları haqqında xeyli yeni materiallar əldə etdiyini bildirmişdir. O, eyni zamanda bildirdi ki, əslən Tovuzdan olan Novruzovlar nəslindən 3 general, Qacarlar nəslindən 7 general, Yadigarovlar nəslindən 4 general yetişmişdir[1].

Rusiya ordusunun 21-ci piyada diviziyası tərkibində (diviziyanın komandiri azərbaycanlı general Səməd bəy Mehmandarov idi) 81 saylı Abşeron alayı, Dağıstan alayı (№ 82), Samur alayı (№ 83), Şirvan alayı (№ 84), eləcə də Şamaxı alayı (№ 205) və Səlyan alayı (№ 206) I dünya müharibəsi dövründə hərbi əməliyyatlarda qismən iştirak etmişlər.

XIX əsrdə və XX əsrin əvvəlində Azərbaycan xalqını təmsil edən onlarla görkəmli hərbi sərkərdələr yetişmişdir. Bakıda Bakıxanovlar, Qazaxda Şıxlinskilər və Vəkilovlar, Qarabağda Cavanşirlər, Naxçıvanda Kəngərlilər, Gəncədə Cavadxanlar və digər bölgələrdə yaşayan nəsillər içərisindən çıxmış generallar Azərbaycan xalqının şan-şöhrətini bütün dünyaya yaymışlar. Döyüşdə cəngavər olan xalqımızın gücündən Çar Rusiyası da özünə lazım olduqda bəhrələnmişdir.

Hərbi jurnalist Şəmistan Nəzirli “Azərbaycan generalları” kitabında göstərir ki, Zaqafqaziya Rusiyaya birləşdirildikdən (1806-1810) sonra, 1829-cu ildə Azərbaycanda beş süvari alayı yaradılmışdı: I alay - Qarabağlılardan, II alay - Şirvanlılardan və Şəkililərdən, III alay – Gəncə, Qazax, Şəmsəddin və Borçalılardan, IV alay – İrəvan azərbaycanlılarından, V alay - əsasən Kəngərli nəslinin igidlərindən təşkil edilmişdi[2].

I dünya müharibəsi illərində Rusiya ordusu tərkibində 250-dən çox azərbaycanlı zabit döyüşmüşdür. Rus ordusunda xidmət edən Azərbaycanlı poruçik Fərrux ağa Qaibov 1916-cı ildə Vilno üzərində Almaniyaya məxsus 4 hərbi təyyarə ilə təkbaşına 4 saat ərzində döyüşərək, onlardan 3-nü vurub yandırmış və özü də həlak olmuşdur.

---

[1] Azərbaycan generalları haqqında daha geniş məlumat üçün bax: Şəmistan Nəzirli, Azərbaycan generalları, Bakı 1991; İsrafil İsmayılov, Dünya Azərbaycanlıları XX əsrdə, Bakı, 1997, səh. 172-174.

[2] Ş.Nəzirli, Azərbaycan generalları, Bakı. 1991. s.5-6

Azərbaycanda milli ordunun yaradılması haqqında ilk təklif Rusiya çarizmi dağıldıqdan sonra, 1917-ci ilin mayında keçirilən Qafqaz müsəlmanları qurultayında edilmişdir və bu qurultayda müsəlman alayları yaradılmasına başlamaq üçün xüsusi büronun təşkili haqda qərar qəbul edilmişdi. Bundan az sonra həmin ilin oktyabrında Azərbaycan Türk Demokratik Federalistlər Partiyası - "Müsavatın" I qurultayında milli ordunun yaradılması geniş müzakirə edilmişdi.

1917-ci ilin noyabrında Zaqafqaziya komissarlığı Zaqafqaziyanın respublikalarında milli hərbi korpuslarının yaradılması haqqında qərar qəbul etdi. Azərbaycan korpusunu təşkil etmək general Əliağa Şıxlinskiyə tapşırılmışdı. Lakin Ermənistandan və Gürcüstandan fərqli olaraq Azərbaycanda bu iş çox ləng gedirdi. Bunun nəticəsidir ki, Azərbaycan Xalq Cumhuriyyətinin elan edildiyi 1918-ci ilin 28 mayında ölkədə keçmiş müsəlman könüllü dəstələrindən ibarət 600 nəfərlik bir hərbi hissə var idi. Əlbəttə bu cüzi hərbi qüvvə ilə Azərbaycanın müstəqilliyini müdafiə etmək və Bakıda Şaumyanın başçılıq etdiyi Bakı Soveti (Bakı kommunası) qoşunlarının Gəncə üzərinə hazırlanan hücumunun qarşısını almaq çətin idi.

Belə bir vəziyyətdə Azərbaycanın kömək uma biləcəyi yeganə ölkə Türkiyə idi.

Bu məqsədlə Azərbaycan Xalq Cumhuriyyəti Nazirlər Şurasının sədri Fətəli Xan Xoyski Türkiyə hökumətinə hərbi yardım haqqında xahiş etmişdi. Bu xahiş Osmanlı imperiyası ilə Azərbaycan Respublikası arasında 1918-ci ilin 4 iyununda bağlanmış dostluq müqaviləsinin IV bəndinə əsasən edilmişdi. Müqavilənin bu bəndində deyilirdi: "Ölkənin təhlükəsizliyini təmin etmək üçün ehtiyac olduğu təqdirdə Azərbaycan Respublikası hökumətinə silahlı qüvvələrlə yardım etməyi" Türkiyə öz öhdəsinə götürür.

Müvafiq razılaşmaya əsasən Türkiyənin Hərbi Naziri və Ali baş komandan müavini Ənvər paşa öz qardaşı Nuru paşaya göstəriş verdi və o, Təbriz ətrafında olan Türkiyə hərbi qüvvələri ilə Gəncəyə doğru hərəkət etməyə başladı. Yaranmış vəziyyətlə əlaqədar olaraq Azərbaycan hökuməti 1918-ci ilin 26 iyununda Azərbaycanda hərbi vəziyyət elan etdi və məcburi hərbi mükəlləfiyyət haqqında fərman verildi. Həmin günlərdə "Əlahiddə Azərbaycan korpusu"nun tezliklə yaradılması üçün konkret tədbirlər görüldü. Eyni zamanda Türkiyənin V Qafqaz diviziyası (komandanı Mürsəl paşa idi) Gümrü-Dilican-Ağstafa istiqaməti ilə döyüşə-döyüşə Gəncəyə daxil oldu. Gəncəyə, eləcə də Türkiyənin Karpat cəbhəsindən götürülmüş XV Çanaqqala diviziyası (komandanı Nazim bəy) gətirilmişdi. Türkiyənin bu iki diviziyası Azərbaycan korpusu ilə birləşərək Qafqaz İslam ordusu adını aldı və Nuru paşanın komandanlığı altında Bakıya doğru yürüşə başladı. İslam ordusu Göyçay yaxınlığında Stepan Şaumyanın Gəncə üzərinə

göndərdiyi Bakı kommunası qoşunları ilə (komandirləri daşnaklar idi) döyüşə başladı və bu döyüşdə qələbə çalaraq Bakı istiqamətində irəliləməyə davam etdi.

1918-ci ilin iyununda Stepan Şaumyan Biçeraxovun[3] 1500 nəfərlik ordu hissəsini də (Kürdəmir yaxınlığında) döyüşə cəlb etsə də, Azərbaycan-Türkiyə ordu hissələrinin hücumunun qarşısında tab gətirə bilmədi.

Rusiya Sovet hökuməti S.Şaumyanın xahişi ilə Ukrayna cəbhəsindən Bakıya Petrovun komandası altında bir eskadron süvari, matros və topçular dəstəsi göndərmişdi. Lakin bunlar da Qafqaz İslam ordusunun Bakını düşmən qüvvələrindən təmizləmək əzminin qarşısını ala bilmədi və iyulun son günlərində Azərbaycan-Türkiyə birgə hərbi hissələri Bakının yaxınlığında vuruşurdular. Belə vəziyyətdə daşnak Şaumyanın başçılıq etdiyi Bakı kommunası istefa verməyə məcbur oldu.

Həmin günlərdə Bakıda Sentrokaspi hakimiyyəti yaradılmışdı və Ənzəlidən ingilis generalı Denstervilin başçılığı ilə 1500 nəfərlik hərbi qüvvə Bakıya dəvət edilmişdi. Belə bir şəraitdə sentyabrın 15-də Qafqaz İslam ordusu hissələri (birinci olaraq Azərbaycan hərbi hissələri) Bakıya daxil oldular. Ağır döyüşlərdə mindən artıq İslam ordusu əsgəri və zabiti, 5 mindən çox yerli əhali şəhid oldu.

Türkiyə I dünya müharibəsində məğlub olmuş ittifaqa daxil olan dövlət olduğuna görə qalib Antanta dövlətləri (ilk növbədə İngiltərə hökuməti) ona təklif etdi ki, öz qoşunlarını bir həftə ərzində Bakıdan, bir ay müddətində isə Qafqazdan çıxarsın. Buna uyğun olaraq Antanta müttəfiqlərinin qoşunlarının noyabrın 17-də Bakıya daxil olması gözlənirdi.

Bakını "rus şəhəri" hesab edən ingilis generalı Tomson özünü şəhərin general-qubernatoru elan etmişdi. General Tomsonun tələbi ilə Azərbaycan ordusunun qərargahı noyabrın 22-də Bakıdan Gəncəyə köçürüldü.

Bütün bunlara baxmayaraq Azərbaycan Xalq Cumhuriyyəti hökuməti (Nazirlər Şurası sədri Fətəli xan Xoyski) Milli ordu yaradılması işini ön plana çəkərək, general-polkovnik Səməd ağa Mehmandarovu 25 dekabrda (1818) Hərbi Nazir təyin etdi. Bir neçə gün sonra general-leytenant Əliağa Şıxlinski hərbi nazirin müavini təyin edildi.

1918-ci ilin oktyabrında Gəncədə təşkil edilmiş qısa müddətli hərbi məktəbin birinci buraxılışı oldu və bu hesabdan ordunun zabit hissəsi bir qədər qüvvətləndi. Lakin zabitlərin yarısını hələ də başqa millətlərin (əsasən rusların) nümayəndələri təşkil edirdi.

---

[3] Lazar Biçeraxov Rusiya kazaklarından təşkil edilmiş hərbi dəstənin komandiri, siyasi mövqeyini tez-tez dəyişən hərbçi idi.

Azərbaycan Xalq Cumhuriyyəti hökumətinin 1919-cu il dövlət büdcəsində hərbi xərclər büdcənin 24 faizini təşkil edirdi və həmin il 25 min nəfərlik milli ordu yaradılması nəzərdə tutulmuşdu.

Hərbi Nazir general S.Mehmandarov 1919-cu ilin 2 aprelində Nazirlər Şurasına göndərdiyi məktubunda Azərbaycan xalqının şöhrətli hərb tarixinə malik olduğunu və bu qəhrəmanlıqlar tariximiz əsasında ordumuzun şəxsi heyətinin milli vətənpərvərlik ruhunda tərbiyəsinə başlanmasının vacibliyini göstərərək yazırdı: "...yüzillik rus hökmranlığından azad olmuş türk xalqının yadına salmaq lazımdır ki, biz həmişə asılı vəziyyətdə olmamışıq"[4].

1919-cu ilin aprelində ingilis qoşun hissələri Zaqafqaziyadan geriyə çəkilməyə başladı. Lakin eyni zamanda Azərbaycan üçün Şimaldan Denikinin 150 minlik könüllü ordusu tərəfindən təcavüz qorxusu ("Vahid və bölünməz Rusiya" şüarı altında) reallaşmağa başlayırdı. Denikin Xəzər donanmasının bir hissəsini zəbt etmişdi və bunu 1828-ci ildə tərtib edilmiş Türkmənçay müqaviləsi ilə əsaslandırırdı. Azərbaycan Xalq Cumhuriyyəti hökumətinin buna cavab notasında deyilirdi ki, Türkmənçay müqaviləsinə imza edən çar hökuməti yıxılmışdır və bu müqavilə öz qüvvəsini itirmişdir. Denikinin Xəzər dənizinə şimaldan nəzarəti Bakıdan Həştərxana satılmaq üçün neft ixracına mane olurdu.

Denikinin hərbi hissələri 1919-cu ilin yayında Dağıstana daxil olmuşdu. 1919-cu ilin avqustunda ingilis hərbi hissələrinin Azərbaycanı tamamilə tərk etməsindən istifadə edən Denikin öz hərbi dəstələrinə Dərbənd istiqamətində hücuma keçmək haqqında əmr verdi. Belə bir vəziyyətdə Azərbaycan parlamanı fövqəladə iclasında Dövlət Müdafiə Komitəsi yaratdı və bütün idarəçiliyi Müdafiə Komitəsinə verməyi qərara aldı; ölkədə müharibə vəziyyəti elan edildi; Samur çayı hövzəsində müdafiə istehkamları yaradılmasına başlandı. Lazım gələrsə dövlət idarələrinin Bakıdan Gəncəyə köçürülməsi müəyyənləşdirildi. Azərbaycan ordusunda xidmət edən rus zabitlərinin xeyli hissəsinin Denikinə hüsn rəğbəti və onun xeyrinə casusluğu aşkar edildi və onlar Azərbaycandan sürgün edildilər.

1919-cu ilin sonlarında Azərbaycan ordusu iki piyada və bir süvari diviziyasından ibarət idi. Bundan əlavə Gəncədə iki artilleriya batareyası və yüngül toplara malik xüsusi diviziya yaradılmışdı. Ordunun tərkibində həmin dövrdə üç zirehli qatar, 4 hərbi təyyarə, 6 zirehli avtomobil və s. var idi.

1920-ci ilin əvvəlində Azərbaycan ordusunun şəxsi heyətinin 40 min nəfərə çatdırılması planlaşdırıldı. Hərbi xidmətə 19-24 yaşlı müsəlman əhalisinə məxsus gənclərin çağırılması nəzərdə tutulurdu. Ordunu gücləndirmək üçün 5 tank, 12 hidroplan, 6 aeroplan, 9 zirehli avtomobil və s. alınması planlaşdırılmışdı. Gəncədə bir hərbi zavod işləməyə başlamışdı. Lakin eyni zamanda Azərbaycanın Avropa

[4] Bax: Nəsib Nəsibzadə, Azərbaycan Demokratik Respublikası, Bakı, 1990, s.67.

ölkələrində silah alması da böyük çətinliklərə rast gəlirdi. Belə ki, Antanta ölkələri Azərbaycanın Osmanlı Türkiyəsi ilə əlaqələrini bilərək, ona silah satmaq istəmirdi. Ermənistana isə xristian nəvazişi ilə nə istəyirdisə verirdilər. Bütün bunlara baxmayaraq Azərbaycan ordusu xeyli möhkəmləndi və yüksək intizamlı ordu yaradılmışdı. 1919-cu ilin sentyabrında Bakıda olmuş ingilis hərbi müxbiri Skotland Liddel öz təəssüratlarında yazırdı: "Mənə deyirdilər ki, burada qarışıqlıqla rastlaşacağam, amma heç bir qarışıqlıq görmədim... yol boyu biz Azərbaycan ordusunun yüzlərlə cavan əsgəri ilə qarşılaşdıq, onlar iki il əvvəl gördüyüm əsgərlər deyildilər. Hətta bir ay əvvəlkilərə belə oxşamırdılar. Azərbaycan ordusu sürətlə təşkil olundu, sürətlə də lazımi şəklə düşdü. Azərbaycan dərk etdi ki, intizamsız ordu sadəcə olaraq yaşaya bilməz. Azərbaycanda dəmir intizam hökm sürür, elə bir intizam ki, Rusiyada belə yoxdur"[5]

Lakin əvvəllər Denikinlə ittifaqda olan daşnak Ermənistanı rəhbərliyi Denikinin məğlubiyyətindən sonra Rusiya bolşevikləri ilə də əlaqədə idi və Qarabağı zəbt etmək üçün bütün hazırlıq işini görmüşdü. Rusiyanın XI ordusu Azərbaycanın şimal sərhədlərinə yaxınlaşdığı dövrdə (Azərbaycan Ordusunun əsas qüvvələri Qarabağa göndərilmişdi) 1920-ci ilin Novruz bayramı günlərində Ermənistanın daşnak hərbi hissələri Xankəndi qarnizonuna hücum etdi. Bu hücum dəf edildikdən sonra onlar Qarabağa yeganə keçid olan Əsgəran qalasını ələ keçirdilər və Xankəndində olan Azərbaycan ordu hissələrini mühasirəyə aldılar. Belə bir vəziyyətdə Azərbaycan rəhbərliyi ölkənin Şimalında olan milli ordunun böyük bir hissəsini general Həbib bəy Səlimovun komandanlığı altında Qarabağa göndərməyə məcbur oldu. Azərbaycan ordusu daşnak ordusu hissələrini və Qarabağın erməni qiyamçılarını darmadağın edərək aprelin 2-də yuxarı Qarabağı düşməndən azad etdi.

Hərbi nazir general S.Mehmandarov bu qələbə münasibətilə Azərbaycan əsgərlərinə müraciətində demişdi: "*Qəhrəman əsgərlər. Mən şəxsən Almaniya cəbhəsində bir çox müharibələrdə olmuşam, fəqət sizin qədər qəhrəmanlıq göstərən əsgərlərə nadir halda təsadüf etmişəm. Siz mənim ümidlərimi qüvvətləndirdiniz. Siz qanınızla gənc Azərbaycan Ordusunun namusunu mühafizə etdiniz*".

Qarabağada istədiyinə nail olmayan Ermənistan hökuməti aprelin 26-da (1920) barışıq xahiş etdi.

Lakin həmin vaxtda aprelin 26-dan 27-nə keçən gecə 72 min nəfərlik XI Qırmızı Ordunun zirehli qatarları şimaldan Azərbaycan sərhədini keçərək Bakı üzərinə hərəkət etməyə başladı. Bu hücum parlamana məlum ultimatumdan 12 saat əvvəl başlamışdı.

---

[5] Bax: Nəsib Nəsibzadə, Azərbaycan Demokratik Respublikası, s. 68-69.

Azərbaycanda 1920-ci ilin 27 aprelində yaranmış vəziyyət Azərbaycan parlamanının 27 apreldə axşam çağırılmış fövqəladə iclasında müzakirə edildi. Həmin iclasa Azərbaycan K/b/P, Rusiya K(b)P Qafqaz Diyar Komitəsinin Bakı bürosu və Mərkəzi fəhlə konfransı adından hakimiyyətin bolşeviklərə təhvil verilməsi haqqında ultimatum verildi. Ultimatumun müzakirəsi gərgin vəziyyətdə keçdi. Bu müzakirədə bolşevik Əliheydər Qarayev demişdi: "Qarabağda zühur edən bu hadisə müttəfiqlərin bizi boğmaq üçün sardığı zəncirlərdən bir halqadır. Bu halqanı Azərbaycan öz qüvvəsi ilə parçalaya bilməz. Buraxın Şərq millətlərini müdafiə edən Qızıl Ordu gəlsin. Qarabağ üsyanını yatırsın, daha sonra Anadoluya getsin".

Anadoluya (Türkiyəyə) XI Ordunun köməyə gedəcəyinin tarixçəsi belədir: 1920-ci ilin 16 martında İstanbul Antanta hərbi qüvvələri tərəfindən işğal edilmişdi. Türkiyəyə qarşı yunanların və ermənilərin hərbi əməliyyatları da davam edirdi.

Belə bir vəziyyətdə 1920-ci ilin 23 aprelində Ankarada Türkiyə Böyük Millət Məclisi çağırılmışdı və Mustafa Kamal paşa Məclisin və hökumətin sədri seçilmişdi. Aprelin 26-da Mustafa Kamal paşa Rusiya Sovet hökumətinin başçısı V.İ.Leninə göndərdiyi məktubunda Rusiya ilə diplomatik əlaqələri yaratmağı və milli-azadlıq mübarizəsində Türkiyəyə hərbi yardım edilməsini təklif etmişdi. Göründüyü kimi bolşevik Əliheydər Qarayev XI Ordunu Azərbaycana dəvət etməyin lazımlığını bu ordunun Türkiyə üçün də xilaskarlıq missiyasına inandığı üçün əsas götürürdü. Lakin sonrakı hadisələr bu vədlərin doğruluğunu təsdiq etmədi[6].

Parlamanın göstərilən son iclasındakı çıxışında Milli Şuranın sədri Məhəmməd Əmin Rəsulzadə demişdi: "Bizə deyirlər ki, sərhədlərimizi keçən ordunun başında Necati adlı bir türk komandiri durur... Rusiyadan gələn bu təcavüzkar ordu bildirir ki, Türkiyənin xilası üçün gəlir... Anadolunun imdadına getmək bəhanəsiylə yurdumuza girən bu işğal ordusu bir daha vətənimizdən çıxmaq istəməyəcəkdir". Tarix M.Ə.Rəsulzadənin haqlı olduğunu sübut etdi.

Məhəmməd Əmin Rəsulzadə sonralar qələmə aldığı "Azərbaycan davası" adlı məqaləsində o müdhiş günləri xatırlayaraq yazmışdı: "Azərbaycan Cumhuriyyəti hökuməti aprel ayının 27-də yuxusundan sərsəm bir halda qalxdı... Xüsusi bir amansızlıqla Vətənimizə hücum edən bolşevik-daşnak ordu birləşmələri vətənpərvər oğullarımızı qan işində boğdu. Ölkəmiz təqibə, böhtana məruz qaldı. Min bir həngamələrlə izahı olmayan həbslərin dalğası gücləndi. On minlərlə günahsız adamlar güllələndi. Azərbaycan Milli Ordusunun min iki yüzdən çox

---

[6] Bu haqda daha geniş: İsmayılov İ.Z. Azərbaycanın XIX əsrdə dövlətçilik siyasəti məsələləri: B., 1995, s.49-53.

əsgər və zabiti Arazı keçərək o taylı qardaşlarımıza pənah apardı. Təqib olunan minlərlə ziyalımız Türkiyəyə, Fransa və Almaniyaya mühacirətə getdi".

Şəmistan Nəzirli "Cumhuriyyət generalları" kitabında (Bakı, 1995) yazır ki, Azərbaycan Xalq Cumhuriyyəti dövrü (1918-1920) Azərbaycanın 21 döyüş generalı olmuşdur (səh.49). Bunlar Səməd bəy Mehmandarov, Əliağa Şıxlinski, Xosrov bəy Sultanov, İbrahim ağa Vəkilov, İbrahim ağa Usubov, Hüseynxan Naxçıvanski, Mirkazımxan Talışxanov, Firudin bəy Vəzirov, Qalib bəy Vəkilov, Daniyal bəy Həlləcov, Əliyar bəy Haşımbəyov, Süleyman bəy Əfəndiyev, Teymur bəy Novruzov, Əmir Kazım Mirzə Qacar, Məhəmməd Mirzə Qacar, Əmənulla Mirzə Qacar, Feyzulla Mirzə Qacar, Cavad bəy Şıxlinsi, Məmməd Sadıq bəy Ağabəyzadə və digərləri idilər.

General-leytenant Məmmədbəy Sulkeviç (litva tatarı, Azərbaycan vətəndaşlığını qəbul etmişdi) 1918-1919-cu illərdə Azərbaycan ordusunda Baş qərargahın rəisi və az sonra korpusun komandiri olmuşdur.

General-mayor Cavad bəy Şıxlinski, general Məhəmməd Mirzə Qacar Gəncədə XI Orduya qarşı xalq mübarizəsinə rəhbərlik etmişlər. Azərbaycan generallarından Xalq Cumhuriyyəti hökumətinin I və II kabinələrində Hərbi Nazir Xosrov bəy Sultanov, Daxili İşlər Naziri isə Behbud Cavanşir olmuşdur. Xosrov bəy Sultanov 1919-cu ildə Qarabağın general-qubernatoru vəzifəsində çalışmışdır.

Rəsmi araşdırmalar göstərir ki, 1920-ci ilin bolşevik-daşnak terroru nəticəsində Azərbaycan Milli Ordusuna xidmət edən 12 general, 27 polkovnik və podpolkovnik, 46 kapitan və ştabs kapitan, poruçik və podporuçik, 148 praporşik və podpraporşik, 266 digər rütbəli hərbi qulluqçu məhv edilmişdir.

Həmin dövrdə qırmızı terrorun qurbanı olaraq əksəriyyəti 1920-ci ildə Nargin adasında güllələnmiş generallarımız aşağıdakılardır:

General-mayor Həbib bəy Hacı Yusif oğlu Səlimov (Azərbaycan Cumhuriyyətinin ilk Hərbi Naziri), general-mayor Əmir Kazım Qacar, general-mayor İbrahim ağa Usubov, general-leytenant Məmməd bəy Sulkeviç, general-mayor Əbdülhəmid bəy Şərifbəy oğlu Qaytabaşı, general-mayor Murad Gəraybəy oğlu Tlexas (milliyyətcə çərkəz olan Murad bəy 1918-ci ildə Azərbaycana könüllü olaraq gəlmişdi), general-mayor Əliyar bəy Mehdi oğlu Haşımbəyov.

Məlumdur ki, Azərbaycan Xalq Cumhuriyyəti hökumətinin ilk Baş Naziri Fətəli xan Xoyski də 1920-ci ilin 19 iyununda Tiflisdə erməni terrorçusu Aram Yevqanyan tərəfindən öldürülmüşdür.

***

Azərbaycan Sovet Respublikası 1920-ci ilin aprelin sonundan 1922-ci ilin 12 martına qədərki dövrdə müstəqil dövlət kimi fəaliyyət göstərirdi. Lakin

Rusiyanın XI Ordusunun Azərbaycanda yerləşdirilməsi bu müstəqilliyi heçə endirdi. Təkcə onu demək kifayətdir ki, XI Ordu 1920-ci ilin may ayının beş günündə Gəncədə qanlı hərbi əməliyyatlar keçirərək, yerli əhalidən 23 min nəfəri qətlə yetirmişdir.

Azərbaycan Respublikasının SSRİ tərkibində olduğu 1923-cü il yanvarın 1-dən sonrakı ilk 17 ildə (yəni Böyük Vətən müharibəsinin başlanmasına qədərki dövrdə) Respublika vətəndaşları Sovet Ordusu tərkibində ümumi əsgəri mükəlləfiyyətə cəlb edilməklə yanaşı Azərbaycanda bir milli atıcı diviziya da var idi. Həmin dağ-atıcı diviziyası 1920-ci ilin 30 oktyabrında təşkil edilmişdi və 1938-ci ilə qədər mövcud olmuşdur. 1924-1930-cu illərdə diviziyanın komandiri Cəmşid Naxçıvanski (1895-1938) olmuşdur. Sovet Ordusunun təşkili ərazi sistemindən sırf kadr sisteminə keçirildikdə (1938) həmin diviziya 77-ci diviziya adı ilə Zaqafqaziya hərbi dairəsi (1935-ci ildə yaradılmışdır) ordusu tərkibinə daxil edilmişdi.

***

İkinci dünya müharibəsindən əvvəlki dövrdə yetişmiş və böyük hərbi xidmət yolu keçmiş azərbaycanlı general və sərkərdələrdən bir neçəsi haqqında bir qədər geniş:

## General-polkovnik
## SƏMƏD BƏY MEHMANDAROV
(1857-1931)

Lənkəranda dünyaya göz açmış və Bakıda gimnaziya təhsili almış Səməd Sadıqbəy oğlu Mehmandarov Peterburqda artilleriya təmayüllü hərbi məktəbi bitirmişdir. Rus-yapon müharibəsində böyük rəşadət göstərmiş S.Mehmandarova 1908-ci ildə tam artilleriya generalı rütbəsi verilmişdir ki, bu da general-polkovnik rütbəsinə bərabərdir.

I Dünya müharibəsi başlanarkən general S.Mehmandarov Varşava ətrafında xidmət edirdi. Onun komandir olduğu 21-ci piyada diviziyası tərkibində 4 alay var idi: 81-ci Abşeron alayı, 82-ci Dağıstan alayı, 83-cü Samur alayı və 84-cü Şirvan alyı. Diviziya komandiri S.Mehmandarovun fitri istedadı nəticəsində Lodz istiqamətində aparılmış döyüşdə alman generalı Makenzonun ordusu üzərində qələbə əldə edilmişdi. Visla çayı yaxınlığındakı İvanqorod rayonunda da 21-ci diviziya 52-ci piyada diviziyası ilə birgə vuruşmuşdu və bu diviziyanın tərkibində 205-ci Şamaxı və 206-cı Səlyan alayları da var idi.

1915-ci ildə general S.Mehmandarov korpus komandiri təyin edilmişdi. 1917-ci ilin əvvəlində Rusiyanın bütün hərbi ordenləri ilə, eləcə də İngiltərə, Fransa və Rumıniyanın bir neçə hərbi ordeni ilə təltif edilmişdi.

1917-ci ilin fevral inqilabından sonra S.Mehmandarov Rusiyada hərbi xidmətdən çıxaraq Azərbaycana gəldi.

General S. Mehmandarov Azərbaycan Xalq Cumhuriyyəti hökumətində 1918-ci ilin 25 dekabrından Hərbi Nazir vəzifəsində olmuş və müstəqil Azərbaycanın qısa müddətdə 30 minlik ordusunu yaratmağa nail olmuşdu. 1919-cu ilin yazında ingilis hərbi hissələri Azərbaycanda olduğu dövrdə Hərbi Nazir S.Mehmandarov Azərbaycan Xalq Cumhuriyyəti hökuməti başçısı Nəsib bəy Yusifbəyliyə göndərdiyi rəsmi məktubda bildirmişdi ki, İngilis hərbi hissələri Azərbaycanda məskun olduqları yerlərdə talanlar edir, kəşfiyyat işi aparırlar. Bunlara etiraz olaraq S.Mehmandarov İngiltərə hökumətinin I Dünya müharibəsi illərində ona verdiyi ordenləri İngiltərə hökumətinə qaytarmağı Azərbaycan hökumətindən xahiş etmişdi.

Müstəqil Azərbaycan dövlətinin ərazisi Rusiyanın XI Ordusu tərəfindən zəbt edildikdən sonra S.Mehmandarov öz xalqının müqəddəratına biganə olmayaraq, Nəriman Nərimanovun şəxsi zəmanəti əsasında hərbi fəaliyyətini davam etdirmiş və Azərbaycanda yaradılmış hərbi komandirlər məktəbində 1921-1928-ci illərdə müəllimlik etmişdir. Qafqaz ordusunun komandiri olmuş Birinci dərəcəli Ordu komandiri İ.Ç.Yakir 1925-ci ildə yazmışdı: “Mehmandarov nadir artilleriyaçıdır” .

General Səməd bəy Mehmandarov 1924-1927-ci illərdə Azərbaycanda hərbi sahədə aparılan geniş islahatlarda və tədbirlərdə fəal iştirak etmişdir.

1928-ci ildə general S.Mehmandarov səhhətinə görə orduda xidmətdən tərxis olunmuş və ona fərdi dövlət təqaüdü verilməsi müəyyən edilmişdi.

General-polkovnik S.Mehmandarov dövrünün görkəmli şəxsiyyətlərindən bir olmuşdur. O, türk və fars dillərini yüksək səviyyədə bilirdi. Ömrünün son üç ilində islam tarixi və fəlsəfə ilə məşğul olmuşdur.

## General-leytenant ƏLİAĞA ŞIXLİNSKİ

(1865-1943)

Azərbaycanın Qazax qəzasında dünyaya göz açmış Əliağa İsmayıl oğlu Şıxlinski Peterburqda artilleriya məktəbini bitirdikdən sonra (1886) Rusiya-Yaponiya müharibəsində (1904) iştirak etmiş və Port-Arturun müdafiəsində igidliyinə görə Qızıl Qılıncla mükafatlandırılmışdı. Port-Arturun süqutundan sonra, ayağından yaralı olan Ə.Şıxlinski 1905-ci ilin aprelində dəniz vasitəsilə xarici ölkə

gəmilərində Sinqapuru və Seylonu keçərək Hind okeanı, Aralıq dənizi və Qara dəniz vasitəsilə Odessaya gəlmiş və məşhur kurort Yesentukidə (Həsən tiki) müalicə olunmuşdur.

1912-ci ildə Ə.Şıxlinski general-mayor hərbi rütbəsi almışdır. Onun artilleriya sahəsində yeni nəzəri müddəaları və ixtiraları dünya hərb elmində "Şıxlinski üçbucağı" və "Şıxlinski formulu" adı ilə məşhurdur və dərsliklərə "Artilleriya allahı"nın kəşfləri kimi daxil edilmişdir.

Birinci dünya müharibəsinin əvvəlində Petroqradın artilleriya müdafiəsi Ə. Şıxlinskiyə tapşırılmışdı. 1915-1916-cı illərdə o, qərb cəbhəsi artilleriya qoşunları rəisi, 1917-ci ilin sentyabrından isə Rusiyanın X Ordusunun komandanı olmuş və general-leytenant rütbəsinə layiq görülmüşdür.

Hərbi xidmətlərinə görə general Ə.Şıxlinski Rusiyanın 11 ordeni və Fransanın yüksək legion ordeni ilə təltif edilmişdi.

1921-ci ilin yayından general Ə.Şıxlinski Azərbaycan Sovet Respublikası qoşunları qərargahında işləməyə başlamış, 1924-1928-ci illərdə Birləşmiş Hərbi Komanda heyəti məktəbində rəis müavini işləmişdir. General Ə.Şıxlinski Azərbaycan tarixində ilk dəfə olaraq "Rusca-azərbaycanca qısa hərbi lüğət" tərtib etmiş və onu 1926-cı ildə nəşr etdirmişdir.

1929-cu ildə hərbi xidmətdən istefaya çıxmış general Ə.Şıxlinski hərbi-publisist əsərlər yazmış, tərcüməçiliklə məşğul olmuş, Səməd Vurğun və Osman Sarıvəllinin bir sıra şerlərini rus dilinə tərcümə etmişdir.

General-leytenant Ə.Şıxlinski haqqında məşhur filosof Heydər Hüseynov 1945-ci ildə geniş məqalə çap etdirmişdir. Sabir İbrahimovun "General Ə.Şıxlinski" adlı monoqrafiyası və yazıçı Qılman İlkinin "General" adlı povesti (1975) Ə.Şıxlinskinin həyat və fəaliyyətinə həsr olunmuşdur. Generalın özünün "Xatirələrim" kitabı ilk dəfə 1944-cü ildə nəşr olunmuşdur.

## General
## CƏMŞİD NAXÇIVANSKİ
(1895-1938)

Atası Gəngərli nəslindən olan Cəfər xan rus ordusunun zabiti idi və oğlu Cəmşidi Tiflisdəki yunkerlər məktəbində təhsilə qoymuşdu. Gənc Cəmşid 1914-cü ildə podporuçik rütbəsi ilə qvardiya məktəbini bitirmişdi.

Birinci dünya müharibəsi illərində tatar (azərbaycanlı) süvari eskadronu komandiri C.Naxçıvanski general Brusilovun adı ilə bağlı olan düşmən "Cəbhəsinin yarılması" adlı məşhur əməliyyatında fəal iştirak etmiş və buna görə də "Müqəddəs Georgi" ordeninin dördüncü dərəcəsi ilə təltif edilmişdi. O, eyni zamanda Avstriya və Rumıniya cəbhələrində döyüşərək, üç dəfə yaralanmış və

“Anna” ordeninin üç dərəcəsi, “Stanislav” ordeninin iki dərəcəsi ilə mükafatlandırılmışdır.

I dünya müharibəsi qurtardıqdan sonra C.Naxçıvanski komandiri olduğu süvari alayı ilə Azərbaycana qayıtmış və alay Şuşa şəhərində yerləşdirilmişdi. Burada o, daşnaklara qarşı hərbi əməliyyatlarda da iştirak etmişdir.

Azərbaycanda Sovet hakimiyyəti qurulduqdan sonra Xalq Komissarları şurasının sədri N.Nərimanov alay komandiri C.Naxçıvanskini milli ordunun yaradılmasında iştirak etmək üçün Bakıya dəvət etdi. Onun komandir olduğu süvari alayı da könüllü olaraq Sovet Ordusu tərəfinə keçmişdi. Az sonra C.Naxçıvanski Azərbaycanda yaradılmış Birləşmiş Hərbi Komandirlər məktəbinin rəisi təyin edilmişdi.

C.Naxçıvanski 1922-ci ilin əvvəlində yenicə yaradılmış Azərbaycan dağ-atıcı diviziyasına (sonralar 77-ci milli atıcı diviziyası adlandı) komandir təyin edildi.

1931-ci ildə C.Naxçıvanski M.V.Frunze adına məşhur Hərbi Akademiyada (Moskva) təhsilini qurtararaq, oradaca müəllim saxlanılmışdı.

Cəmşid Naxçıvanskinin qardaşları Davud və Kəlbalı Naxçıvanskilər Azərbaycan Sovetləşəndən sonra rəsmi icazə ilə İrana gedərək şah ordusunda xidmətə girmişdilər və 1934-cü ildə onların hər ikisi İranda edam edilmişdi. Dörd il sonra belə cəza Cəmşiddən də yan keçmədi və 1938-ci ildə o, “xalq düşməni” kimi həbs edilərək, güllələndi. Görünür, onun da güllələnməsi üçün əsas bəhanə qardaşlarının İranda şah ordusunda xidmət etməsi olmuşdur.

## General-mayor
## XOSROV BƏY SULTANOV
(1879-1947)

Xosrov Paşabəy oğlu Sultanov Zəngəzur mahalının Gürdhacılı kəndində dünyaya göz açmış və Gəncə gimnaziyasını bitirdikdən sonra Odessada tibb təhsili almışdır.

1918-ci ilin 28 mayında Tiflisdə Azərbaycan Milli Şurası adından Azərbaycan Xalq Cumhuriyyətinin elan edilməsi Bəyannaməsinə imza edən 26 nəfərdən biri də Xosrov bəy Sultanov olmuşdur. Xalq Cumhuriyyətinin həmin gün təşkil edilmiş birinci hökuməti kabinetində X.Sultanov Hərbi Nazir təyin edilmişdi. X.Sultanov Zaqafqaziya Seyminin və Azərbaycan parlamanının üzvü olmuşdur.

X.Sultanov 1919-cu ilin 15 yanvarında Qarabağın general-qubernatoru təyin edilmişdi. Az sonra həmin ilin 21 martında erməni-daşnak hərbi dəstələri Qarabağa yeganə keçid olan Əsgəran keçidini zəbt etmişdi. X.Sultanovun başçılığı ilə daşnak

generalı Dronun hərbi dəstələri mayın 30-da darmadağın edildi və Azərbaycan silahlı dəstələri Xankəndi və Şuşaya daxil oldular.

1923-cü ildə general Xosrov bəy Sultanovun həyatında mühacirət dövrü başlandı. O, Türkiyədə, İranda (1926), daha sonra Fransa və Almaniyada yaşadı, Almaniyada Tibb Universitetində professor vəzifəsində işləmişdir.

Bundan sonra, 1936-cı ildə Türkiyəyə qayıdan Xosrov bəy Sultanov, Trabzonda məskunlaşır, sonra isə 1941-45-ci illər müharibəsi dövrü əsir düşmüş azərbaycanlı əsgərlərin Almaniyadakı düşərgələrindən Türkiyəyə gətirilərək, xilas edilməsinə kömək etmişdir. Fəaliyyətinin son dövrü haqqında məlumat azdır.

## Cəsur sərkərdə CAVAD XAN
(1748-1804)

Cavad Şahverdi xan oğlu Gəncədə dünyaya göz açmışdır. Sonralar o, 19 il (1785-1804) Azərbaycanın qədim şəhəri Gəncənin xanı olmuş, vətənpərvər, mərd və cəsur sərkərdə kimi tanınmışdır. Onun şəxsi möhürünün üstündə bu sözlər yazılmışdır: "Düşmənə amansız, dostunun əhdini qırmayan Cavad xan".

Cavad xanın xanlığı dövrü Rusiya çarı I Aleksandr Qafqazı tamamilə ələ keçirmək siyasətini mərhələ-mərhələ həyata keçirirdi və bu müstəmləkəçilik siyasətinin növbəti mərhələsi 1801-1804-cü illərdə Gəncə xanlığını böyük ordu qüvvəsi ilə zəbt etmək əməliyyatı oldu. Bu qanlı əməliyyata Rusiya çarizminin cəlladlarından biri olan Qafqazın valisi knyaz Pavel Sisianov başçılıq etmişdir.

General-mayor Lazarov (Lazaryan) 1803-cü ilin yanvarında knyaz P.Sisianova yazılı bildirmişdi ki, o, Gəncəyə hücum etdikdə ermənilər ona kömək edəcəklər. Sisianov əməliyyatı dinc yolla həll etmək üçün Cavad xandan oğlu Uğurlu ağanı Tiflisə əmanət kimi göndərməyi tələb etdi. Cavad xan bu təklifi rədd etdi və Gəncənin mühasirəsi başlandı. Sisianovun şəhəri təhvil verməsi tələbinə Cavad xan 1803-cü ilin 28 dekabrında belə cavab yazdı: "... Xam xəyalından əl çək. Gəncəyə yalnız meyidimin üstündən keçə bilərsən...". Bir aylıq vuruşun nəticəsində şəhərin müdafiəçilərinin silahı və ərzağı tükənmişdi, şəhərə gələn su xətti də kəsilmişdi...

1804-cü ilin 3 yanvarı orucluq günü idi və həmin günü səhər erkən Sisianov Gəncə qalasının zəbtinə top atəşləri ilə başladı. Dəfələrlə üstün hərbi qüvvəyə malik olan düşmən qüvvələri nəhayət qala divarlarından içəri girə bildilər. Əlbəyaxa qılınc vuruşunda Cavad xan və oğlu Hüseynqulu ağa da qətl edildilər (Cavad xanı ruslar doğram-doğram doğradılar).

Cavad xanın arvadı Bəyimxanım ərinin və oğlunun parçalanmış meyitlərini xəlvəti olaraq qala divarlarından aşağıya, məscid həyətinə endirtdi. Səhəri gün

Sisianov Bəyimxanımı çərkəzi paltarda, ərinin qılıncı əlində öz ərinin cəsədi qarşısında gördü və qadının ağır zəhmi altında otağı tərk etdi.

Gəncə qalasının müdafiəçilərinin böyük itki verməsi səbəblərindən biri ermənilərin xəyanəti olmuşdur.

Cavad xanın cəsurluğu və xalqımızın həmin dövrdə öz Vətənini müdafiə əzmi haqda daha geniş məlumat almaq üçün bu kitabları oxumaq məsləhətdir: Əhməd İsayev, Gəncə və gəncəlilər (Bakı, 1991), Nüşabə Məmmədova, Cavad xan, (Gəncə, 1996).

***<u>I fəsil</u>***

## II DÜNYA MÜHARİBƏSİNİN BAŞLANMASI

### § 1. Müharibənin mərhələləri

Antanta İttifaqına daxil olan dövlətlərin I Dünya müharibəsində məğlub olmuş Almaniyaya 1919-cu ildə qəbul etdirdikləri Versal sülh müqaviləsinin şərtləri Almaniyanın yenidən silahlanmasının qarşısını ala bilmədi. Az sonra Almaniya öz hərbi maşınını gücləndirməyə başladı. Qərb ölkələrinin (ilk növbədə İngiltərə və Fransa) dövlət başçıları Almaniyanın silahlanmasına saymazyana yanaşaraq, onun hərbi qüvvəsini Şərqə, SSRİ-yə qarşı istiqamətləndirmək siyasətini seçdilər.

Qərbin bu məkrli siyasətini Sovetlər İttifaqının rəhbəri İ.Stalin tez başa düşdü və 1939-40-cı illərdə Pribaltikanı, Qərbi Ukrayna və Qərbi Belarusiyanı SSRİ tərkibinə birləşdirmək yolu ilə Sovet imperiyasının sərhədlərini qərb tərəfə xeyli məsafədə genişləndirdi.

İkinci dünya müharibəsi 1939-cu ilin 1 sentyabrında faşist Almaniyasının Polşaya hücumu ilə başlandı. Buna cavab olaraq Polşanın müstəqilliyi və ərazi bütövlüyünə 1939-cu ilin 31 martında rəsmi sənədlə zəmanət vermiş İngiltərə və Fransa hökumətləri sentyabrın 3-də Almaniyaya müharibə elan etdilər[7]. Beləliklə birinci və ikinci dünya müharibələri arasında bəşəriyyət yalnız 20 il nisbətən dinc yaşaya bildi.

Sovet rəhbərliyi Qərbin SSRİ-yə qarşı istiqamətləndirdiyi faşist Almaniyası ilə 1939-cu ilin avqustunda bir-birinə hücum etməmək haqqında saziş (pakt) imzaladı.

---

[7] А.Якобин, Второя Мировая война в хронике и документах.1939-1945; Дормштадт, 1961.

1939-cu ilin sentyabrında SSRİ Ali Sovetinin növbədənkənar IV sessiyası "Ümumi hərbi mükəlləfiyyət haqqında" qanun qəbul etdi.

İngiltərə və Fransanın Almaniyaya müharibə elan etməsi simvolik xarakter daşıyırdı. Belə ki, Polşaya hərbi kömək əvəzinə İngiltərə təyyarələri sentyabrın 4-dən başlayaraq (25 sentyabra qədər) Almaniya üzərinə 18 milyon təbliğat vərəqələri tullamışdı və İngiltərə Polşaya 8,5 milyon funt sterlinq maddi kömək vermişdi. Almanların Polşaya hücumda istifadə etdiyi 57 güclü diviziyasına və 2000 hərbi təyyarəsinə qarşı Polşanın 31 nisbətən zəif diviziyası və 800 təyyarəsi (bunların yarısı təyyarə meydanında məhv edilmişdi) güclü müqavimət göstərə bilmədi və sentyabrın 17-də Polşa Prezidenti və hökuməti başçısı Rumıniyaya qaçdılar.

1939-cu ilin 17 sentyabrında Sovet ordusu hissələri Polşanın şərqində yaşayan ukraynalıların və belarusların yaşadıqları ərazilərə daxil oldu və həmin ilin sonunda Qərbi Ukrayna və Qərbi Belarusiya adlandırılan bu ərazilər SSRİ tərkibinə daxil edildi.

* * *

II dünya müharibəsinin başlanması və mərhələləri haqqında hərbi tarixçilər arasında fikir ayrılığı mövcuddur. 1995-ci ilin 18-19 aprelində Moskvada keçirilmiş "İkinci dünya müharibəsinin dərsləri və faşizm üzərində qələbənin əhəmiyyəti" adlı Beynəlxalq elmi konfransda dünyanın 26 ölkəsindən hərbi tədqiqatçılar iştirak etmişdi və bunlardan bəziləri II dünya müharibəsinin başlanmasını İtaliya - Həbəşistan müharibəsindən (3 oktyabr 1935) hesablamağı məqbul sayırdılar.

II dünya müharibəsinin başlanması ərəfəsində Almaniya-İtaliya-Yaponiya dövlətlərinin bir ittifaq ətrafında birləşmələri faktiki olaraq başa çatmışdı.

Yaponiya ordu hissələri 1937-38-ci illərdə Çinin bir neçə vilayətini zəbt etmişdi. 1938-ci ilin iyulunda Yaponiya qoşunları Xasan (Həsən) gölü ətrafında SSRİ ərazisinə soxuldularsa da, Sovet Ordusunun əməliyyatları nəticəsində geriyə çəkilərək həmin ilin 11 avqustunda sülh sazişi bağlamağa məcbur oldular.

1939-cu ilin 11 mayında Yaponiya qoşunları Monqolustanın Xalxin-göl ətrafındakı ərazilərini zəbt edərək, Sovet sərhəddinə yaxınlaşdılarsa da Sovet-Monqol hərbi qüvvələrinin birgə hücumu ilə məğlub olaraq, geriyə çəkildilər.

1940-cı ilin 27 sentyabrında Almaniya-İtaliya-Yaponiya arasında "üçlük paktı" imzalandı. Bu pakt sonrakı hərbi əməliyyatların daha qanlı olacağını müəyyən etdi: 1941-ci ilin 22 iyununda faşist Almaniyası Sovet İttifaqına qəflətən hücum etdi. Həmin ilin 7 dekabrında Yaponiya donanması Sakit okeandakı ABŞ və İngiltərə hərbi bazalarına hücum edərək, onlara böyük zərbə endirdi. Faşist

Almaniyası ilə öz müttəfiqlik borcuna sadiq qalan Yaponiya hökuməti Sovetlər İttifaqı ilə olan sərhəddində bir milyon nəfərlik güclü Kvantun ordusunu saxlamaqla Uzaq Şərqdə SSRİ-yə qarşı daim müharibə təhlükəsini yaratmışdı ki, bu da Sovet dövlətinin faşist Almaniyası ordusuna qarşı mübarizəsini çətinləşdirirdi.

Hərbi-tarixi ədəbiyyatda II dünya müharibəsinin aşağıdakı mərhələləri əsas götürülmüşdür:

**I mərhələ:** 1 sentyabr 1939 - 21 iyun 1941-ci il

**II mərhələ:** 22 iyun 1941-ci ildən 8-9 may 1945-ci ilə (Almaniya faşist ordusunun məğlubiyyətinə) qədərki dövr

**III mərhələ:** 1945-ci ilin 2 setyabrına (Yaponiyanın təslim olması) qədərki dövr

****

II dünya müharibəsi Azərbaycan sərhədlərindən çox uzaqlarda başlansa da neft Bakısı müharibənin ilk günlərindən böyük qorxu altında idi. Belə ki, Bakıya bomba zərbəsi endirmək planı real bir addım kimi Qərbdə müzakirə edilirdi. Bu tədbir onunla izah edilirdi ki, Almaniya Rumıniya ilə 1939-cu ilin martında bağladığı müqaviləyə əsasən onun neftinə (Ploeşti rayonu) nəzarət edirdi və Bakı neftinə də nəzarət edə bilsəydi Fransanı və İngiltərəni müharibədə də tez diz çökdürə bilərdi.

Həmin dövrdə SSRİ ilə Almaniya arasında bir-birinə hücum etməmək paktının (1939) bağlanması Fransa və İngiltərəni daha çox narahat edirdi. Dünya mətbuatında SSRİ-nin Almaniyanı guya Bakı nefti ilə təmin etməsi haqqında qərəzli yazılar da verilirdi. Bütün bu səbəblərə görə London və Parisdə Bakı neft rayonunu bomba zərbəsi ilə sıradan çıxarmaq planı hazırlanmağa başlandı. Bu vəzifəni Fransanın Suriyada yerləşən hərbi-hava qüvvələrinin həyata keçirməsi nəzərdə tutulurdu. Fransa generalı Qamelen 1940-cı ilin 22 fevralında öz hökumətinə təqdim etdiyi məruzədə qeyd edirdi ki, Sovetlər İttifaqının neftinin 75 faizini Bakı verir və onu sıradan çıxarmaq lazımdır. Geniş müzakirələrdən sonra İngiltərə və Fransa hökumətləri bu qərara gəldilər ki, Bakıya bomba zərbəsi endirmək əvəzinə Bakı neftinin Almaniyaya Qara dənizlə göndərilməsinə sualtı qayıqlar vasitəsilə mane olmaq daha etibarlı və sərfəlidir. Ədalət naminə demək lazımdır ki, Bakının bombardman edilməsi planının göstərilən digər planla əvəz edilməsində Böyük Britaniyanın həmin dövrdəki hərbi-dəniz naziri U.Çerçillin və Fransa generalı De Qollun mövqeləri müsbət rol oynamışlar. Həmin günlərdə De Qoll Berlinə qarşı mübarizə əvəzinə Bakını bombardman etmək planını irəli sürənləri "qızğın başlar" adlandırmışdı.

İkinci dünya müharibəsinin başlanması ilə əlaqədar olaraq Azərbaycanda da gənclərin orduda xidmətə çağırılması işi gücləndirilmişdi. Lakin kənd məktəblərində müəllim kadrları çatışmadığı üçün Müdafi Naziri K.Voroşilovun göstərişinə əsasən bu müəllimlərin orduda xidmətə çağırılmasına müvəqqəti möhlət verilmişdi. 1939-cu ilin noyabrının sonunda başlanmış Sovet-Finlandiya müharibəsi uzandığı üçün kənd məktəbləri müəllimlərinə verilmiş möhlət də ləğv edildi və bunları da 1939-cu ilin oktyabr-dekabr aylarında hərbi xidmətə çağırdılar.

## § 2. Sovet-Finlandiya müharibəsi

Almaniya faşizminin Sovetlər İttifaqı ilə müharibəyə başlayacağı hamı üçün aydın idi. Lakin Sovet rəhbərliyi bu qarşıdurmanın vaxtını uzatmalı idi. Çünki Avropanın yarısını matorlar müharibəsi ilə diz çökdürən faşist ordusuna qarşı adekvat hərbi qüvvə yox idi.

1939-cu ildə SSRİ sərhədlərinin qərbə doğru genişləndirilməsindən sonra Sovet rəhbərliyi belə qərara gəldi ki, Leninqradın müdafiəsini gücləndirmək üçün Leninqrad vilayətinin şimal sərhədini şimala doğru genişləndirmək lazımdır. Buna uyğun olaraq 1939-cu ilin 30 noyabrında Sovet Finlandiya müharibəsi başlandı.

Millətlər cəmiyyəti (1919-cu ildə yaradılmışdır və SSRİ bu təşkilata 1934-cü ildə qəbul edilmişdi) Finlandiya ilə müharibəyə başladığı üçün Sovetlər İttifaqını 1939-cu ilin 14 dekabrında bu beynəlxalq təşkilatın üzvlüyündən xaric etdi. ABŞ Prezidenti F.R.Ruzvelt 1940-cı ilin fevralında öz ölkəsinin gənclərinin konqresində çıxış edərkən bu haqda belə demişdi: “Sovetlər İttifaqı... belə bir mütləq diktatura ilə idarə olunur ki, digər beləsini dünyada tapmaq çətindir. O, digər diktatura ilə İttifaqa girmiş və özündən hədsiz dərəcədə kiçik olan qonşusunun ərazisinə soxulmuşdur: halbuki o, Sovetlər İttifaqına heç bir ziyan və heç bir təhlükə yarada bilməzdi.

Sovetlər İttifaqı rəhbərliyi Finlandiya ilə müharibəni çox qısa müddətdə qurtarmağı planlaşdırmışdı. Lakin faşist Almaniyasının köməyi ilə Finlandiyada yaradılmış “Mannerheym xətti” adlı güclü istehkam xəttini dağıtmaq və Fin ordusunun müqavimətini qırmaq Sovet Ordusu üçün çox çətin oldu və 1940-cı ilin qışında aparılan hərbi əməliyyatlar böyük itkilərlə nəticələndi.

Azərbaycanlıların II dünya müharibəsində iştirakı da əsasən 1939-1940-cı ilin qışında Sovetlər İttifaqının Finlandiyaya qarşı başladığı hərbi əməliyyatlar dövründən başlanmışdır. Sovet-Finlandiya müharibəsində azərbaycanlılardan, sonralar iki dəfə Sovet İttifaqı Qəhrəmanı adı almış kapitan Həzi Aslanov, leytenant Məmməd Məhərrəmov (sonralar o da Sovet İttifaqı Qəhrəmanı oldu), baş serjant Əvəz Həşim oğlu Verdiyev, Semyon Levin və yüzlərlə digər azərbaycanlı döyüşçülər iştirak etmişlər. Zabit Əbdülrəhman Fətəlibəyli-Düdənginski (Şərur

rayonunun Düdəngi kəndində anadan olmuşdur) Finlandiya ilə müharibə döyüşlərində iştirak etmiş və "Qırmızı ulduz" ordeni ilə təltif edilmişdi. Həmin F.Düdənginski sonralar Böyük Vətən müharibəsində iştirak edərkən əsir düşmüş və müharibə qurtardıqdan sonra Münhendə işə başlamış Azadlıq radiostansiyasının Azərbaycan şöbəsinə rəhbərlik etmişdir.

Sovet Ordusu Xasan (Həsən) gölü və Xalxingöl rayonlarında Yaponiya ordu hissələrinə qarşı 1938-1939-cu illərdə döyüşlər aparmışdısa da, Finlandiya ilə müharibə onun zəifliyini göstərdi. Müdafiə naziri Voroşilovun vətəndaş müharibəsi dərslərinə əsaslanan hərbi doktrinası və süvari ordunun gələcək müharibələrdə də mühüm rolunu guya saxlayacağı haqqında fikirləri tank və digər texnika ilə silahlanmış müasir ordular ilə döyüşdə qələbəni təmin edə bilməzdi. Marşal A.Vasilevski sonralar, 1940-cı ilin hadisələrini xatırlayaraq Sovet-Finlandiya müharibəsi haqqında demişdir: Finlandiya ilə müharibə bizim üçün böyük rüsvayçılıq oldu və həm xaricdə, həm də ölkə daxilində bizim ordumuz haqqında xoşagəlməz təəssürat yaratdı.

Sovet-Finlandiya müharibəsi qurtardıqdan sonra Voroşilovun Müdafiə naziri vəzifəsindən azad edilməsi bu fikrin təsdiqi idi. Görünür İ.Stalin bu həqiqəti başa düşərək orduya rəhbərlikdə belə sərt addım atmağa məcbur olmuşdu (axı hamıya məlum idi ki, Stalin ilə marşal Voroşilovun şəxsi dostluğu möhkəm idi).

1940-cı ilin yayında Kiyev xüsusi hərbi dairəsində (komandiri K.K.Jukov) tank hissələrinin iştirakı ilə keçirilən tədris xarakterli iri həcmli hərbi əməliyyatda hücum taktikası əsas götürülmüşdü və bu da yeni dövrün tələblərinə uyğun idi.

Finlandiya ilə müharibə 105 gün davam etdi və Sovet ordusu 74 min nəfər canlı qüvvəsini itirdi, 17 min nəfər isə itkin düşən oldu. Yaralıların və şaxtadan don vurmuşların sayı isə 200 min nəfərə yaxın idi[8]. 1940-cı ilin 12 martında Finlandiya ilə sülh müqaviləsi imzalandı və bu müqaviləyə əsasən SSRİ-nin Koreliya körfəzi rayonundakı sərhəddi 150 km qədər şimala genişləndirildi.

Finlandiya ilə müharibə Sovet Ordusunda intizamın zəifliyini göstərdi və 1940-cı ildə SSRİ Müdafiə Naziri vəzifəsinə marşal Semyon Timoşenko təyin edildi.

Bu sətrlərin müəllifi 1939-cu ilin dekabrının əvvəlində orduda xidmətə Moskva hərbi dairəsində (51-ci zenit artilleriya diviziyasının 176-cı alayında) başlamışdır və Finlandiya cəbhəsinə göndərilmək üçün hazırlananlardan idi. Fin ordusunun diviziyalarının döyüşçüləri və snayperləri xizək üstündə ağ xalatda (qış mövsümünə uyğun olaraq) çox iti hərəkət edirdilər. Buna uyğun olaraq SSRİ-nin Şimal rayonlarında xidmət edən bütün Sovet qoşun hissələrində xizək üstündə

[8] Аргументы и факты, 1989, № 45, с. 48.

sürətlə getməyi öyrətdilər. Bunun üçün hətta imtahan norması müəyyən edilmişdi: meşə zonasında bir saatda 25 km məsafəni xizək üzərində qət etmək.

Sovet-Finlandiya müharibəsində Finlandiyaya hərbi sahədə kömək edən faşist Almaniyası rəhbərliyi Sovet Ordusunun müasir (o dövrə görə müasir) matorlar müharibəsi üçün Almaniyadan zəif olduğunu yəqin etdi və ona görə də ildırımsürətli müharibə aparmaq qərarına gəldi.

1940-cı ilin 31 iyulunda Hitler Almaniya hərbi komandanlığının yüksək vəzifəli rəhbərlərinə elan etmişdi ki, Sovetlər İttifaqına qarşı müharibəyə 1941-ci ilin mayında başlanacaqdır. Həmin müşavirədə gələcək müharibənin iki istiqamətdə (Kiyev və Moskva istiqamətləri) başlanacağı və bu istiqamətlərdə döyüşən orduların birləşərək qələbəni qısa bir müddətdə əldə edəcəyi və bu işğal zonasına Bakının da daxil edilməsinin vacibliyi xüsusi olaraq qeyd edilmişdi.

Faşist ordusunun qəflətən və böyük zərbə qüvvəsi ilə 1941-ci ilin 22 iyununda başladığı müharibənin ilk günlərində sürətlə irəliləməsi bütün dünyada böyük narahatlıq yaratdı. Müharibənin başlanmasının 6-cı günü faşist Almaniyası ordusu Minsk şəhərinə, 9-cu günündə isə Kiyev şəhərinə çatmışdı.

Sovet ordusunun bu ilk uğursuzluqlarının səbəbləri haqqında çox yazılmışdır və bu səbəblərin izahını təkrar etməyə ehtiyac yoxdur. Əsas səbəb isə o idi ki, Almaniya ordusu Avropanın böyük bir hissəsini (Fransa, Polşa, Çexoslovakiya və digərləri) asanlıqla və qısa müddətdə zəbt etdiyinə və özünə müttəfiqlər tapdığına (Rumıniya, İtaliya) görə döyüşə hazır idi və hərbi texnika və yanacaq ilə də yüksək dərəcədə təmin edilmişdi.

Almaniya rəhbərliyi Sovetlər İttifaqına qarşı müharibəyə hazırlaşarkən Türkiyə ilə də dostluq əlaqələri yarada bilmişdi. 1941-ci ilin 4 martında Hitler Türkiyə Prezidenti İsmət İnönyüyə şəxsi məktubla müraciət etmiş və həmin ilin 18 iyununda Almaniya ilə Türkiyə arasında dostluq haqqında müqavilə imzalanmışdı. Əlbəttə, burada Almaniyanın müttəfiqi İtaliyanın 1940-cı ilin 28 oktyabrında Yunanıstana hücumu və onun ordusunun Türkiyə sərhədlərinə yaxınlaşması da öz rolunu oynamışdı. Digər tərəfdən Türkiyə ilə ittifaq Almaniya üçün, öz təsiri altında olan İrana Türkiyə ərazisindən keçərək silah daşımaqdan ötrü də lazım idi. Almaniya-Türkiyə dostluq müqaviləsinin faşist ordusunun SSRİ-yə hücumundan cəmisi 4 gün əvvəl imzalanması isə Almaniyanın Sovetlər İttifaqına hücum planını gizlədə bilməsinə şərait yaratdı və Hitler müharibəni qəflətən başladı.

Sovetlər İttifaqı rəhbərliyi isə 1939-40-cı illərdə Qərbə doğru genişləndirdiyi sərhədlərdə, yeni ərazilərdə güclü müdafiə və hərbi istehkam xətləri yaratmağı 1-2 ilə başa çatdıra bilməmişdi və bunu qısa müddətdə etmək də mümkün deyildi.

Hitlerin dünya ağalığı iddiası İngiltərə və Amerika Birləşmiş Ştatları kimi böyük dövlət başçıları tərəfindən tez hiss edildi və bu müharibədə onlar Sovetlər

İttifaqına kömək edəcəklərini bəyan etdilər. İngiltərənin Baş Naziri U.Çerçill 1941-ci ilin 22 iyulunda radio ilə xalqa müraciətində demişdi ki, Hitler Rusiya üzərində qələbə çalarsa Britaniya adaları növbəti hədəf olacaq və o, Qərbi (ABŞ da daxil olmaqla) özünə tabe etməyə cəhd edəcəkdir. ABŞ prezidenti F.Ruzvelt iyulun 24-də etdiyi çıxışda bəyan etdi ki, ABŞ faşizmə qarşı mübarizədə Sovetlər İttifaqına kömək edəcəkdir. ABŞ Prezidenti demişdi: Hitlerin darmadağın edilməsi bizim təhlükəsizliyimizə aparan yoldur.

## ***II fəsil***

## BÖYÜK VƏTƏN MÜHARİBƏSİ – II DÜNYA MÜHARİBƏSİNİN ƏSAS VƏ ƏN AĞIR MƏRHƏLƏSİDİR

Faşist Almaniyasının Sovetlər İttifaqına hücumu ilə başlanan Böyük Vətən müharibəsi hərbi ədəbiyyatda II dünya müharibəsinin ikinci dövrünün başlanğıcı hesab edilir.

Faşist Almaniyasının SSRİ-yə qəflətən müharibə başlaması ərəfəsində hər iki ölkənin döyüşə hazır vəziyyətdə hərbi qüvvəsi və silahları aşağıdakı nisbətdə idi:

| **№** | **Ölkələr** | **Diviziyaların miqdarı** | **Döyüş vəziyyətində olan şəxsi heyət** | **Tankların miqdarı** | **Hərbi təyyarələrin miqdarı** | **Top və minomyotların miqdarı** |
|---|---|---|---|---|---|---|
| 1 | Almaniya | 190 diviziya | 5,5 milyon nəfər (ondan 4,6 mln.alman ordusu üzrə) | 4300 | 4980 | 47200 |
| 2 | SSRİ | 170 diviziya | 4 milyon (1/1 - 41tarixə olan məlumat) | 1861 | 2700 | 37500 |

Göründüyü kimi Avropa ölkələrində geniş hərbi əməliyyatlar aparmış faşist ordusunun səfərbər edilmiş qüvvəsi üstünlük təşkil edirdi.

Bəzi tədqiqatçılar rəsmi sənədlərdə SSRİ üzrə bu rəqəmlərin az göstərildiyini qeyd edərək bildirirlər ki, 1939-1941-ci ilin iyununa qədər Sovetlər İttifaqında 18 minə yaxın hərbi təyyarə və 7 mindən çox tank istehsal edilmişdir (Bax, “1418 dney voynı” (iz vospominaniy o Velikoy Oteçestvennoy, M. 1990, s.551). Əgər bu rəqəmlər dürüstdürsə, deməli SSRİ silah üzrə üstün vəziyyətdə idi. Bu isə ilk uğursuzluqlar mövqeyindən yenə də şübhə doğurur.

Müharibənin ilk aylarında Sovet Ordusunun uğursuzluqlarının əsas səbəblərindən biri bu ordunun komanda (zabit) hissəsinin zəifliyi olmuşdur. Belə ki, 1937-ci ilin mayından 1938-ci ilin oktyabrına qədərki dövrdə Sovet Ordusunda xidmət edən 39761 komandir və komissar həbs edilərək sürgün yerlərinə göndərilmişdi[9]. Müharibənin başlanması ilə əlaqədar olaraq bunların bir hissəsi həbs düşərgələrindən birbaşa cəbhələrə göndərilmişdilər.

## § 1. Böyük Vətən Müharibəsinin ilk dövrünün ağır döyüşləri

Müharibənin ilk günlərində bütün ölkədə olduğu kimi Azərbaycanda da ümumi səfərbərlik elan edildi: 18-47 yaşların hərbi xidmətə çağırılmasına başlandı, 15-50 yaşlarda olan vətəndaşlar isə arxa cəbhədə hərbiçi peşəsinə yiyələnmək üçün müxtəlif formada hazırlıq təlimlərinə cəlb edilmişdi.

1941-ci ilin 22 iyunundan sonrakı ilk günlərdə Azərbaycanda könüllü olaraq cəbhəyə getmək üçün 40 min nəfərdən çox ərizə vermişdi. Həmin ilin avqustunda könüllülük əsasında yerlərdə təşkil edilmiş 87 döyüş batalyonlarının tərkibində 186704 nəfər hərbi təlim keçirdi[10]. Respublika ərazisində 28 tabor yaradılmışdı[11].

Azərbaycanlı döyüşçülərdən böyük bir qrupu düşmənə qarşı döyüşə 1941-ci ilin 22 iyulunda Brest qalasının müdafiəsində başladılar. Bu qalanın qəhrəmanlıqla müdafiəsində 40 nəfərdən çox həmyerlimiz iştirak etmişdir[12].

Sovet İttifaqının rəhbərliyi Bakının və bütün Azərbaycanın müharibə illərində strateji əhəmiyyətini nəzərə alaraq müvafiq göstərişlər vermişdi. Azərbaycanda müdafiə xəttinin tikilməsinə 1941-ci ilin iyulundan başlanmışdı və xəttin uzunluğu 551 kilometr idi. Zaqafqaziyada 1942-ci ilin sentyabrınadək 146 istehkam-mühəndis batalyonu müdafiə xəttinin çəkilməsi ilə məşğul idi və burada əsas diqqət Bakı müdafiə-istehkam xəttinin tikilməsinə verilirdi. Yalnız bu məqsəd üçün 5 min inşaatçı cəlb edilmişdi. Azərbaycanın Şimalında Baş Qafqaz aşırımlarını Dağıstan tərəfindən mühafizə edən qoşun hissələri Balakən-Şəki-Qəbələ zolağında yerləşdirilmişdi. 1942-ci ilin yazında Azərbaycanın şimal

---

[9] Pravda, 6 oktyabr 1989-cu il

[10] Z.M.Bünyadov, R.Ə.Zeynalov, Qafqazdan Berlinədək. B.1990. s.13 (rus dilində)

[11] Azərbaycan Respublikası Xatirə kitabı, I cild, B. 1998, s.9

[12] Yenə orada, səh. 8

rayonları olan Zaqatala və Qusara paraşütlə bir neçə casus dəstəsi salınmışdı və bütün casuslar tutularaq zərərsizləşdirilmişdilər[13].

1941-ci ildə Alman ordusuna əsir düşmüş 6 nəfər erməni əsgəri müvafiq hazırlıqdan sonra 1942-ci ilin payız günlərinin birində paraşut vasitəsilə Azərbaycan ərazisinə endirilmişdi. Onlar da az sonra Xanlarda, Dəstəfurda və Bakıda həbs edilmişdilər[14].

Azərbaycanın və xüsusilə Bakının müdafiəsinə, müəyyən ərazilərdə səngərlərin qazılmasına hələ 1941-ci ilin iyulunda başlanmışdı və bu iş davam edirdi. Dövlət Müdafiə Komitəsinin 1942-ci il 16 sentyabr tarixli qərarına əsasən Bakı ətrafında müdafiə-istehkam xətləri tikintisi işində hər gün 90 min nəfər səfərbər olunmuşdu. Dağıstan tərəfindən faşist ordusu hücumlarına qarşı Baş Qafqaz aşırımları zonası olan Balakən-Zaqatala-Qax-Şəki-Vartaşen (indiki Oğuz) - Qəbələ rayonlarında da müdafiə - istehkam xətləri tikilirdi.

İranın hakim dairələri II dünya müharibəsinin əvvəlində Almaniya ilə sıx əlaqədə idi və İranda almanların 40 min nəfərə qədər silahlı təxribatçı qüvvəsi, 11 min tona qədər silah və sürsatı vardı. Almaniyanın Sovetlər İttifaqına hücumundan sonra Sovet-İran sərhəddi qorxu altına düşdü. Antihitler ittifaqa (Sovetlər İttifaqı, İngiltərə, ABŞ) daxil olan Sovet dövləti 1921-ci ildə bağlanmış Rusiya-İran müqaviləsinin 6-cı maddəsinə əsaslanaraq, İranın Şimal rayonlarına (Cənubi Azərbaycana) Sovet Ordusunun daxil edilməsi vacibliyini tələb etdi və İran hökuməti bu təklifi qəbul etməyə məcbur oldu. İranın cənubuna isə İngiltərə ordu hissələri daxil olmuşdu.

1941-ci ilin 25 avqustunda İrana (Cənubi Azərbaycana) daxil olan Sovet ordu hissələri SSRİ-nin cənub sərhədlərinin müdafiəsini təmin etdilər.

Şimali İrana (Cənubi Azərbaycana) yeridilmiş Sovet Ordu hissələri tərkibində 77-ci və 402-ci Azərbaycan milli atıcı diviziyaları var idi. Həmin diviziyalar 1941-ci ilin avqustun sonundan 1942-ci ilin mayına qədər Cənubi Azərbaycanda olmuşdur.

## MOSKVA ALTINDA DÖYÜŞLƏR

Moskva uğrunda vuruşlarda Almaniya rəhbərliyi ildırım sürətli müharibə yolu ilə Moskvanı zəbt etmək və qısa müddətdə müharibəni qurtarmaq xülyasında idi. Buna uyğun olaraq düşmənin ilk və əsas zərbəsi Moskva istiqamətinə yönəldilmişdi.

---

[13] *Bax:* Qurban Orucov, Azərbaycan Qafqaz döyüşlərində, Bakı, 1984, s.29

[14] Azərbaycanın Siyasi Partiyalarının və İctimai hərəkatlarının Dövlət arxivi, fond 1, bölmə 153. İş 222.

1941-ilin 14 oktyabrında faşistlərin 3-cü tank ordusu Qərb cəbhəsinin Şimal cinahını yararaq, Moskvanın şimalındakı Kalinin şəhərini zəbt etdi.

Bu ərəfədə (10/X-41) G.K.Jukov Moskvanı müdafiə edən Qərb cəbhəsinə komandan təyin edilmişdi.

Moskvanın müdafiəsinə göndərilmiş Bakı Zenit artilleriyası alayı qəhrəmancasına döyüşərək, düşmənin 40-a qədər təyyarəsini məhv etmişdi və geriyə qaytarmışdı[15].

Paytaxtın bu ağır günlərində onu səmadan mühafizə edən zenit artilleriya hissələrinin böyük bir hissəsi Moskva-Kalinin şossesi boyu Moskva çayının üstündəki körpünü və ətrafını müdafiə etmək üçün göndərildi. Çayın hər iki sahilində bu sətrlərin müəllifinin xidmət etdiyi 51-ci Zenit artilleriya diviziyası yerləşdirilmişdi və bizim zenit top hissələrinə əmr verilmişdi ki, atəş göydə təyyarələrə, yerdə tanklara qarşı aparılmalıdır. Almaniya hərbi tarixçisi Klaus Reynqardt öz kitabında belə yazır: "Stalin Moskvada olan bütün ehtiyatlarını Qərb cəbhəsinin sağ cinahına göndərmişdi, hətta zenit birləşmələri də cəbhənin ön xəttində tanklarla mübarizə üçün istifadə edilirdi"[16].

Moskvaya səmadan hücumlar müharibənin başlanmasının birinci ayının sonunda başlanmışdı. Belə ki, düşmənin 200-250 bombaatan təyyarəsinin Moskvaya ilk uçuşu iyulun 22-nə keçən gecə olmuşdu və bu gecə düşmənin 22 təyyarəsi məhv edilmişdi. Moskva səmasında noyabrın 14-də olan döyüşdə düşmənin 43 təyyarəsi vurulmuşdur. Alman müəlliflərinin yazdığı "Barbarossa"dan "Terminal"a[17] qədər "Qərbdən baxış" adlı kitaba daxil edilmiş Paul Karellin "Almanlar nə üçün Moskvanı ala bilmədilər?" adlı yazısında deyilir ki, Londondan fərqli olaraq (Almaniya təyyarələri Londonu da bombardman edirdilər) Moskva səmasında aparılan döyüşlərdə Sovetlər həmişə hegemon olmuşlar. [18] Məlumdur ki, faşist ordusunun Moskva altında darmadağın edilməsindən sonra, 1944-cü ilə qədər düşmən təyyarələrinin Moskvaya uçuşları davam etmişdir.

Moskvaya faşist təyyarələrinin uçuşlarının başlanmasından az sonra Sovet hərbi hava qüvvələri Berlinə cavab zərbələrinə başlamaq haqqında göstəriş aldı və belə ilk uçuş 7 avqustda (1941) oldu. Baltik flotunun 2 eskadrilya bombaatan

---

[15] Bakinskiy raboçiy. 2 dekabr 1966.

[16] Klaus Reynqardt. Moskva altında dönüş. Hitler strategiyasının 1941-42-ci ilin qışında iflası (Almancadan tərcümə). M. 1980. s.190-191.

[17] "Terminal" - Podstam konfransının gizli kod adı idi.

[18] "Barbarossa"dan "Terminal"a qədər Qərbdən baxış. M. 1988. s.50

təyyarələri (15 təyyarə) Ezel adasına köçürüldü və oradan 1760 km. məsafəni qət edərək, Berlinə ilk bomba zərbəsini endirdilər. Sentyabrın 4-nə qədər belə daha 9 uçuş həyata keçirilmişdi. Berlinə bu uçuşların iştirakçılarından biri də Goranboy rayonunda dünyaya göz açmış həmyerlimiz Ağasəf Məmmədhüseyn oğlu Səmədov olmuşdur. Bu uçuşa görə o, "Qırmızı Bayraq" Ordeni ilə təltif edilmişdi. 1947-ci ildə mayor rütbəsində orduda xidmətdən tərxis edilmiş A.Səmədov hazırda Bakı şəhərinin Yasamal rayonunda yaşayır.

1941-42-ci ilin qışında Moskva ətrafında döyüşlər və Alman faşist ordusunun bu döyüşlərdə darmadağın edilməsi II dünya müharibəsinin ən böyük döyüşlərindən idi və faşist ordusunun məğlubedilməzliyi haqqındakı əfsanələrə son qoydu. Bu döyüşlərdə düşmən qüvvələri Moskvadan 100-350 km qərbə qovuldular və Almaniya ordusunun 38 diviziyası məhv edildi.

Moskva uğrunda döyüşlər altı aydan artıq bir dövrü (30.09.41-20.04.42) əhatə etdi. Bu döyüşlərin sonu Almaniyanın məğlub olacağına böyük inam yaratdı. Müharibənin yekunlarına həsr olunmuş Nyunberq Məhkəmə prosesində Almaniya feldmarşalı Keytelə verilmiş suala ki, "Siz nə vaxt anladınız ki, bu müharibədə uduzmusunuz?". O, qısaca olaraq belə cavab vermişdi: "Moskva".

Azərbaycanlı komandir və döyüşçülərdən Moskva uğrunda döyüşlərdə tank hissəsi komandiri Həzi Aslanov, polkovnik Yaqub Quliyev, kapitan Muxtar Süleymanov, baş leytenant Museyib Allahverdiyev, leytenant-zenitçik Məmmədrəsul Paşayev, təyyarə hissəsində xidmət edən Pərviz Tağızadə, pulemyotçu İdris Vəliyev, tibb bacısı Aliyə Rüstəmbəyova, snayper Ziba Qəniyeva və digərləri öz rəşadətli döyüşləri ilə xalqımızın adını şöhrətləndirdilər.

Baş serjant İsrafil Məhərrəm oğlu Məmmədov 1941-ci ilin 3 dekabrında Moskvanın şimalında yerləşən Novqorod vilayətinin Pustınka kəndi yaxınlığında 20 nəfər döyüşçüsü ilə 400 nəfərdən çox düşmən qüvvəsinin 9-10 saatlıq aramsız hücumlarını dəf edərək mövqelərini daha da möhkəmləndirdilər. Bu döyüşdə İ.Məmmədovun özü 70-dən çox faşist məhv etdi. Dekabrın 11-də İsrafil Məmmədova Sovet İttifaqı Qəhrəmanı Fəxri adı verildi. O, Sovet İttifaqı Qəhrəmanı adına layiq görülmüş ilk azərbaycanlı idi.

Bu sətrlərin müəllifi də Moskvanın müdafiəsi dövrü hərbi əməliyyatlarda iştirak etmiş və Moskvanın müdafiəsində Azərbaycan xalqının böyük köməyi və hünəri haqqında 1991-ci ildə bir kitabça nəşr etdirmişdir[19]. Həmin yazıda Azərbaycanda yaşayan və Moskva uğrunda döyüşlərdə iştirak etmiş 260 nəfər komandir və döyüşçünün siyahısı verilmişdir. Bütövlükdə isə Azərbaycan

[19] İsrafil İsmayılov. Azərbaycan Moskva uğrunda döyüşlərdə (rus dilində). Bakı, 1991, s.87

vətəndaşlarından Moskvanın müdafiəsinə görə medalı ilə 1000 nəfərdən çox təltif edilmişdir.

## STALİNQRADIN MÜDAFİƏSİNDƏ AZƏRBAYCANLI DÖYÜŞÇÜLƏRİN GENİŞ İŞTİRAKI

1942-ci ilin yayında Bakıdan 800 nəfər könüllü gənc Stalinqradın müdafiəsinə göndərilmişdi. Stalinqrad altında Sovet Ordusunun əks hücumu noyabrın 19-da başlandı. Volqa sahilində ağır döyüşlər keçirən Stalinqradın müdafiəçilərinə bütün ölkə kömək edirdi. Podpolkovnik Həzi Aslanovun komandir olduğu 55-ci tank alayı 1942-ci ilin 16 dekabrında düşmənin 70 tankının hücumunu dəf etdi və 6 gün aramsız davam edən döyüşdən sonra əks hücuma keçdi. Hərbi təyyarəçilər Nuru Əliyev və kapitan Züleyxa Seyidməmmədova, pulemyotçu Əbdül Rəcəbov, leytenant Abdulla Axundov, snayper Baloğlan Abbasov və digərləri Stalinqrad uğrunda döyüşlərdə fəal iştirak etmişlər. Azərbaycanlı general Yaqub Quliyev 4-cü atlı korpusunun komandirinin müavini vəzifəsində idi və 1942-ci ilin 20 dekabrında Stalinqrad ətrafında keçirilən böyük hücum əməliyatı zamanı həlak oldu və ölümündən sonra Lenin ordeni ilə təltif edildi. Hesablamalara görə Azərbaycan vətəndaşlarından 1500 nəfərdən çoxu "Stalinqradın müdafiəsinə görə" medalı ilə təltif edilmişlər[20].

Almaniya faşizminin nəzəriyyəçilərindən olan Rozenberq tərtib etdiyi "Qafqazın idarə olunması" planında burada 5 böyük idarə yaradılmasını müəyyənləşdirmişdi: Azərbaycan, Gürcüstan, Dağlıq Qafqaz, Kuban, Terek. Hitlerin tələbinə görə Almaniyanın 1-ci tank ordusu 1942-ci ilin 25 sentyabrında Bakını zəbt etməli idi.

Stalinqrad döyüşlərinin ağır günlərində, 1942-ci ilin iyununda faşist ordusunun Qafqaz üzərinə hücumları başlandı. Belə ki, Almaniyanın 1-ci tank ordusu, 4-cü tank ordusunun bir neçə diviziyası, iki səhra ordusu (№11 və №17) Sovet ordusunun müdafiə xəttini Şimali Qafqazda yararaq, hücumu davam etdirirdi və sentyabrın 24-də Zaqafqaziya Respublikalarında hərbi vəziyyət elan olunmuşdu.

Sovet ordusu qəzeti "Krasnaya zvezda" 1942-ci ilin 26 sentyabr sayında yazmışdı: Üç aydır ki, ölkəmizin cənubunda qızğın döyüşlər gedir. Sovet ölkəsinin və bütün dünyanın nəzərləri Şimali Qafqaza və Stalinqrad ətrafına yönəlmişdir. Vətənin taleyi, milyonlarla Sovet adamının azadlığı və həyatı bu döyüşlərdən asılıdır... Buna ancaq 1941-ci ilin payızında Moskvanın müdafiəsi ilə müqayisə etmək olar.

[20] Qaraş Mədətov, Azərbaycan Böyük Vətən müharibəsində, B.1975, s.165 (rus dilində).

Görülmüş tədbirlərin nəticəsində Azərbaycan xalqının cəbhəyə köməyi və döyüşən orduda xidmətə könüllü olaraq getməsi daha da genişləndi. Bir neçə fakta nəzər salaq: Balakəndə yaşayan Alqayevlər nəslinə mənsub 1895-1923-cü illərdə anadan olmuşlardan 33 nəfər müharibə cəbhələrinə gedərək, həlak olmuş və ya itkin düşmüşlər, Bakıda yaşayan Aşurbəyovlar nəslindən 9 nəfər müharibə cəbhələrindən geri qayıtmamışdır. Belə faktlar Azərbaycan üzrə çoxdur.

## § 2. Qafqaz uğrunda döyüşlərin başlanması və Azərbaycanda milli diviziyaların təşkil edilməsi

Moskva altındakı məğlubiyyətdən sonra faşist ordusu komandanlığı 1942-ci ilin yayında əsas hücumlarını Stalinqrad və Qafqaz istiqamətinə yönəltmişdi.

Qafqaz uğrunda ağır döyüşlərin ərəfəsində burada faşist ordusunun hərbi qüvvəsi Sovet ordusundan piyada hissələri üzrə 1,5 dəfə, top və minomyotlarla 2,1 dəfə, tanklarla 2,3 dəfə, təyyarələrlə 1,7 dəfə çox idi[21].

Stalinqrad döyüşlərinin ağır günlərində, 1942-ci ilin iyununda Qafqaz uğrunda döyüşlər başlandı. Belə ki, Almaniyanın 1-ci tank ordusu, 4-cü tank ordusunun bir neçə diviziyası, iki səhra ordusu Sovet ordusunun müdafiə xəttini Şimali Qafqazda yararaq hücumu davam etdirirdi.

1942-ci ilin 18 avqustunda Vladiqafqaz şəhərində Şimali Qafqaz xalqlarının, 23 avqustunda isə Tbilisidə Zaqafqaziya xalqlarının antifaşist mitinqləri keçirildi. Tbilisidəki mitinqdə çıxışında böyük şairimiz Səməd Vurğun demişdi: "Nizami Gəncəvinin yatdığı torpağa faşist işğalçılarının ayağı dəyə bilməyəcəkdir... Qoy keçilməz Qafqaz dağlarının dibi, görünməyən dərələri alman işğalçıları üçün məzarıstan olsun. Mən düşmənə nifrət bəsləməyə çağırıram!".

Qafqaz uğrunda döyüşlər 1942-ci ilin 25 iyulundan 1943-cü ilin 9 oktyabrınadək davam etdi. Qafqazın müdafiəsi Şimali-Qafqaz cəbhəsinə (komandiri ilk aylarda marşal S.M.Budyonnı) və Zaqafqaziya cəbhəsinə (ordu generalı İ.V.Tülenov) tapşırılmışdı.

Qafqaz istiqamətində düşmən hücumunun başlandığı günlərdə Almaniya ordusuna ("A" qrupu ordu hissələri, komandir-general-feldmarşal V.List) nisbətən buradakı Sovet Ordu hissələrində hərbi texnika tanklar üzrə 9 dəfə, hərbi təyyarələr üzrə 8 dəfə az idi.

---

[21] История Второй Мировой войны, 1939-1945 г. том V, М.1975, с.202.

Moskvanı zəbt etmək haqda Hitlerin planı boşa çıxdıqdan az sonra Hitler Yaponiyanın səfiri Osimanı qəbul edərkən, ona demişdi: "Mən qərara gəlmişəm ki, daha mərkəzi hissədə hücumu dayandırım. Mənim məqsədim Cənub cəbhəsində hücuma keçməkdir... Qafqaz istiqamətində zərbə endirəcəyəm. Neft üçün İrana və İraqa çıxmaq vacibdir"[22].

Stalinqrad istiqamətində hücum edən 6-cı alman ordusunun komandanı general-feldmarşal Fridrix Paulyus (1890-1957) müharibədən sonra yazdığı "Xatirələr"ində Almaniya ordusunun Stalinqrad altında döyüşlərini 3 mərhələyə bölür: 1) 1942-ci ilin yay hücumları ilə müharibəni qələbə ilə qurtarmaq mərhələsi (buna nail olunmadı), 2) Sovet (rus) ordusunun payız hücumu başlandı və 6-cı ordu mühasirəyə alındı. Bu dövrdə Hitlerin vəd etdiyi kömək olmadığı üçün, 3-cü mərhələdə əsas vəzifə Şərq cəbhəsinin cənub hissəsini bərpa etmək və Qafqazda yerləşən alman ordusunun iri hissələrini xilas etmək idi[23]. Bütün mərhələlər məğlubiyyətlə nəticələndi.

Qafqaz uğrunda döyüşlər Stalinqradı müdafiə edən Sovet ordu hissələri üçün böyük kömək idi və əsasən bu zəmində Stalinqrad altında əks hücumlar başlandı və Almaniya ordusunun böyük bir hissəsi burada mühasirə və darmadağın edildi, təslim oldu.

1942-ci ilin avqustun sonunda Almaniya silahlı qüvvələrinin birinci tank ordusu Şimali Qafqazda Terek və Baksan çayları sahillərinə çıxdılarsa da, irəliləyə bilmədilər. Beləliklə Qafqaz uğrunda döyüşlərin beş ay davam edən müdafiə dövrü qurtardı və Sovet Ordusunun əks hücumu başlandı.

Marşal G.K.Jukov "Xatirələrim və düşüncələrim"də yazır ki, 1942-ci ilin 27 avqustunda İ.V.Stalin ona zəng edərək dedi: Cənubda vəziyyət pisdir (söhbət Stalinqrad haqqında gedir). Şimali Qafqazda da ondan yaxşı deyil... Timoşenko ştabı özbaşına tərk edərək öz adyutantı ilə Dona çimməyə gedibmiş. Biz onu azad etmişik və onun əvəzinə Yeryomenkonu göndərmişik..." Sonra İ.V.Stalin K.Jukova bildirir ki, biz Sizi Ali Baş komandanın müavini təyin etdik və qərara gəldik ki, Sizi Stalinqrada göndərək ki, orada döyüşlərə ümumi rəhbərlik edəsiniz.

Məlumdur ki, Stalinqrad cəbhəsində yerləşən 66-cı ordu 1942-ci ilin sentyabrın 5-də əks hücuma başlamışdı. Lakin Stalinqrad uğrunda əsas döyüşlər hələ qarşıda idi.

1942-ci ilin 12 və 13 sentyabrında İ.Stalinin kabinetində Cənub cəbhəsində vəziyyət yenidən müzakirə edildi. Qeyd edildi ki, feldmarşal Paulyusun ordusu və

---

[22] Bax: А.Якобин, 1939-1945гг. (Второя Мировая война в хронике и документах), Дормштадт, 1961, с.228 (almancadan tərcümə).

[23] Bax: «1418 дней войны», М. 1990, с.295-296.

general Qotun 4-cü tank ordusu Stalinqrad istiqamətindəki döyüşlərdə böyük itkilər vermişdir və onların hücumları zəifləyir. Müşavirədə (üç nəfərin iştirakı ilə: İ.Stalin, G.Jukov və A.Vasilevski) Stalin əks hücuma keçmə planını təsdiq etdi və göstəriş verdi ki, eyni zamanda Qafqaz cəbhəsi haqqında da fikirləşin”[24].

Volqa sahillərində, Stalinqradı zəbt etmək üçün apardığı vuruşlarda Almaniyanın iki ordusunun darmadağın edilməsi nəticəsində 300 min nəfərlik alman ordusunun məhv edilməsi və əsir düşməsi II dünya müharibəsində antihitler qüvvələrinin qələbə çalacağına inamı daha da artırdı. Həmin dövrə qədər Şərq cəbhəsində Almaniya faşizminin 112 diviziyası məhv edilmişdi.

Faşist Almaniyası rəhbərliyi SSRİ-yə qarşı müharibəni başladığı ilk günlərdə hesab edirdi ki, Bakı neftini tezliklə zəbt edəcəkdir və buna görə də qərara gəlmişdi ki, Bakıya bomba zərbəsi endirmək lazım deyil. Bununla belə SSRİ-yə qarşı ildırımsürətli müharibə baş tutmadığından 1942-ci ilin 4 mayında gündüz Bakı üzərində Almaniyanın kəşfiyyatçı təyyarəsi müşahidə edildi. SSRİ Xalq Komissarlar Sovetinin 05.05.42-ci il tarixli gizli iclasında Alman təyyarəsinin Bakıya uçuşu məsələsi müzakirə edildi və qeyd edildi ki, şəhər əhalisi hava hücumundan müdafiə üçün hazırlanmamışdır.

1942-ci ilin 23 iyununda İ.Stalinin yanında Bakının müdafiəsi məsələsi müzakirə olundu və onun göstərişi ilə 58-ci ordu və Birləşmiş Süvari Korpusu İrandan və Orta Asiyadan (həmin ilin 28 avqustunda) bu regiona gətirildi.

1942-ci ilin 16 sentyabrında SSRİ Dövlət Müdafiə Komitəsi Bakının müdafiəsi üçün xüsusi qərar qəbul etdi. Sentyabrın 24-də Zaqafqaziyada hərbi vəziyyət elan olundu.

Qafqazın müdafiəsinə yuxarıda göstərilən Şimali Qafqaz və Zaqafqaziya cəbhələrindən əlavə Qara dəniz donanması, Xəzər və Azov dənizləri hərbi donanmaları da cəlb edilmişdi.

Görülmüş bütün tədbirlərin nəticəsində faşist ordu hissələrinin Qafqaz istiqamətindəki hücumları dayandırıldı və 1943-cü ilin əvvəlində Sovet ordusu əks hücuma keçdi.

Şimali Qafqazdan başlanan bu əks hücumda Azərbaycanın milli diviziyaları böyük döyüş rəşadəti göstərdilər.

* * *

---

[24] 1418 дней войны. М. 1990, с.233-242.

Azərbaycanın ilk milli diviziyası olan 77-ci dağ-atıcı diviziya 1920-ci ilin oktyabrında təşkil edilmişdir. Diviziya 1935-ci ilin dekabrında SSRİ Mərkəzi İcraiyyə Komitəsi tərəfindən Qırmızı Bayraq Ordeni ilə təltif edilmişdi. Həmin diviziya 1938-ci ilin martına qədər fəaliyyətdə olmuşdur.

Belə ki, 1937-ci ilin noyabrında SSRİ-nin yeni Konstitusiyasının qəbul edilməsi ilə əlaqədar olaraq Ümumittifaq Kommunist (bolşeviklər) Partiyası mərkəzi Komitəsi və SSRİ Xalq Komissarlar Sovetinin 1938-ci il 7 mart tarixli qərarı ilə SSRİ-də olan bütün milli hərbi hissələr ləğv edildi və ölkənin bütün vətəndaşlarının ümumi əsaslarla (vahid hərbi hissələrdə) həqiqi hərbi xidmətə çağırılmasına başlandı. Qeyd etmək lazımdır ki, həmin dövrdə SSRİ-nin bəzi xalqları (özbəklər, türkmənlər; qırğızlar, Şimali Qafqazın müsəlman xalqları və s.) ümumiyyətlə orduda xidmətə çağırılmırdılar.

Azərbaycanda (o cümlədən Zaqafqaziyanın digər iki Respublikasında) milli diviziyaların yaradılması müəyyən dərəcədə 1941-ci ilin sonunda Almaniya faşist rəhbərliyinin Qafqazı zəbt etmək planını həyata keçirmək cəhdi ilə əlaqədar idi.

Belə şəraitdə Azərbaycanda aşağıdakı milli diviziyalar yaradıldı:

1. 27-ci dağ-atıcı diviziyası (1938-ci ildə ləğv edilərək, digər ümumi qoşun hərbi hissəsinə qatılmışdı), 1941-ci ildə bərpa edildi və 1941-ci ilin avqust-sentyabr aylarında İranda (Cənubi Azərbaycanda) yerləşdirilmişdi.
2. 402-ci atıcı diviziya; 1941-ci ilin avqustunda Naxçıvanda yaradılmış və 1941-ci ilin oktyabr 1942-ci ilin apreli arası Cənubi Azərbaycanda yerləşdirilmişdi.
3. 223-cü atıcı diviziya 1941-ci ilin oktyabrında Quba-Qusar-Dəvəçi zonasında təşkil edilmişdi.
4. 416-cı atıcı diviziya 1942-ci ilin fevralında Ucar - Göyçay - Ağdam - Şəmkir - Ələt zonasında təşkil edilmişdi.
5. 396-cı atıcı diviziya (1941-ci ilin avqustunda Cənubi Azərbaycanda yerləşdirilmişdi).

Bunlardan başqa həmin illərdə Azərbaycanda bir neçə qarışıq milli tərkibli diviziyalar (217-ci, 227-ci, 151-ci) da yaradılmışdı.

Azərbaycan diviziyalarının şəxsi heyətinin milli tərkibi və döyüş yollarının əsas istiqamətlərini geniş öyrənmək və təbliğ etmək müasir dövr üçün çox vacibdir. Çünki Qafqaz dağları ətəklərindən başlayaraq Şimala və Qərbə doğru Ukrayna, Belarusiya, Moldaviya və Baltikyanı ölkələrində, Polşa, Bolqarıstan, Rumıniya, Macarıstan və Yuqoslaviya torpaqlarında, Oder və Şpreye çayları sahillərində yüzlərlə və minlərlə Azərbaycan oğullarının məlum və naməlum məzarları vardır. Onlar öz qəhrəmanlıqları ilə xalqımızı Avropa və bütün dünyaya tanıtmışlar. Xalqımızın bu qəhrəman övladlarının xatirəsini əbədiləşdirmək bizim vətəndaşlıq borcumuzdur.

1942-ci ilin əvvəlində Hitler bu qərara gəldi ki, Qafqaz neftini ələ keçirmədən müharibəni davam etdirə bilməyəcəkdir. II dünya müharibəsi illərində ABŞ prezidentləri F.Ruzvelt və T.Trumenin məsləhətçisi olmuş admiral Uilyam Leki xatirələrində yazır ki, 1941-ci ilin yayında Hitler Rusiyaya hücum edəndə biz hesab etdik ki, "Alman orduları SSRİ-nin Qərb rayonlarını və Qafqazı işğal etdikdən sonra Hitler Stalinə sülh təklifi ilə müraciət edər... Qafqazın neft mədənlərinin işğalı isə bütünlüklə Avropanın istilasını reallaşdıra bilərdi. Lakin bu təhlükəli hadisə baş vermədi. Hitler Rusiyanın içərilərinə doğru irəlilədi və bununla da alman ordularının bütün əvvəlki nailiyyətlərini heçə endirdi. Almanlar 1941/42-ci illərin qış kompaniyası dövründə Stalinqradda və Rostovda ağır məğlubiyyətlərə uğrayaraq geri çəkiləndə hamımız rahat nəfəs aldıq. Bununla da nəinki Bakı və onun tükənməz nefti, eləcə də bütün Yaxın Şərqin zəngin neft mədənləri alman işğalçılarından azad edildi"[25].

Müharibə illərində ABŞ ordusunun Baş Qərargahının rəisi vəzifəsində işləmiş general Devid Marşal 1945-ci ilin iyununda hərbi nazirə ordunun son iki illik hesabatında yazmışdı: Sovet Ordusunun Faşist Almaniyası üzərində qələbəsi Amerika Birləşmiş Ştatlarını gələcəkdə faşist ordusu hücumundan xilas etdi.

* * *

Qafqaz uğrunda döyüşlərin son nəticəsi Sovet ordusunun gələcək döyüşləri üçün həlledici əhəmiyyət kəsb edirdi. Buna görə də Sovet rəhbərliyi Qafqazın müdafiəsinə bu regionun xalqlarını daha geniş cəlb etmək üçün milli diviziyaların yaradılması haqqında göstəriş verdi. Zaqafqaziyanın üç respublikasında milli diviziyalar təşkil edilərək, tezliklə cəbhəyə göndərildilər.

## § 3. Milli diviziyaların döyüş yolu

### *77-ci milli atıcı diviziya*

Azərbaycanın ilk atıcı milli diviziyası olan bu diviziya 1920-ci ilin 30 oktyabrında yaradılmışdır. İlk dövrdə onun tərkibinə iki polk, kursantlar polku və artilleriya divizionu daxil idi. 1924-30-cu illərdə diviziyanın komandiri Cəmşid Naxçıvanski (1895-1938) olmuşdur. Diviziya 1927-ci ildə Qara dəniz sahillərində

---

[25] Bax: Respublika qəzeti, 6 yanvar 1994.

hərbi məşqlərdə iştirak etmiş və ona 1930-cu ildə dağ-atıcı diviziyası adı verilmişdir. Diviziya 1935-ci ildə Qırmızı Bayraq ordeni ilə təltif edilmişdir.

SSRİ Müdafiə Naziri müavini marşal S.M.Budyonnı 1940-cı ilin sentyabrında Zaqafqaziya hərbi dairəsinin ordu hissələrinin taktiki hazırlığını yoxlayarkən 77-ci diviziya ən yaxşı diviziyalardan biri kimi qiymət almışdı.

77-ci dağ-atıcı diviziya 1941-ci il avqustun sonunda İran (Cənubi Azərbaycan) sərhəddini keçərək Pəhləvi və Rəştə daxil oldu. Diviziyanın komandiri həmin dövrdə polkovnik Pimenov, hərbi Komissar isə Əmrulla Dadaşov idi. Sovet ordusunun İranda müvəqqəti yerləşdirilməsi antihitler ittifaqı ilə İran dövləti arasında müqaviləyə əsasən edilmişdi.

1941-ci ilin sonunda Kerç yarımadası (Krım) faşistlər tərəfindən zəbt edilmişdi və Sevastopol mühasirə vəziyyətində idi. Krımı düşmən ordusundan azad etmək vəzifəsi Zaqafqaziya cəbhəsinə və Qara dəniz hərbi donanmasına tapşırılmışdı. 1941-ci ilin 29 dekabrında Kerç yarımadasına çıxarılmış desant Feodosiya rayonuna daxil oldu və faşistlər Kerçdən qovuldular. Lakin 1942-ci ilin yazında faşist Almaniyası ordusu Kerç istiqamətində yenidən hücuma keçdi və Sovet Ordu hissələri Taman yarımadasında öz mövqelərini möhkəmlətdilər. Bu əməliyyatlar ilə Novorossiyskinin müdafiəsi dövrü başlandı. 1942-ci ilin mayında 77-ci diviziya Qafqaz cəbhəsində hərbi əməliyyatlarda iştirak edirdi. 1942-ci ilin 1 oktyabrında 77-ci diviziya öz şəxsi heyətini tamamlamaq üçün Dağıstana gətirildi və 58-ci ordunun tərkibinə daxil edildi. Həmin dövrdə onun şəxsi heyəti tərkibinin 66%-ni azərbaycanlılar təşkil edirdi.

Azərbaycan Respublikası rəhbərliyi diviziyanın döyüşçüləri ilə görüşə xalqın görkəmli şəxsiyyətlərindən olan Səməd Vurğunu, Rəsul Rzanı, Heydər Hüseynovu və digər ziyalıları göndərmişdi, diviziyaya göstərilən hərtərəfli kömək nəticəsində o, yeni döyüşlərə hazır vəziyyətə gətirildi.

Şimali Qafqazın düşməndən azad edilməsi üzrə 1943-cü ilin yanvarında başlanmış hərbi əməliyyatlarda 77-ci diviziya da fəal iştirak etdi və 3 yanvarda Mazdok şəhəri düşməndən azad edildi. Bundan sonra diviziya döyüşlərlə 850 km məsafəni qət edərək, Donbasın düşməndən azad edilməsi əməliyyatlarında 44-cü ordunun tərkibində iştirak etdi, Dneprin sol sahillərində və Cənubi Ukraynada uğurlu əməliyyatlar apardı. Həmin dövrdə azərbaycanlılar diviziyanın (komandir-polkovnik A.P.Radionov, komissar polkovnik Kazım İsmayılov) şəxsi heyətinin 30% təşkil edirdi. Sivasın azad edilməsi (Azov dənizi rayonunda körfəz) üzrə 11 apreldə başlanmış hücumlarda 77-ci diviziya ən təhlükəli mövqelərdən birində yerləşdirilmişdi. Sevastopolun azad edilməsində də 77-ci diviziya ən təhlükəli mövqelərdən birində yerləşdirilmişdi. Sevastopolun azad edilməsində 77-ci diviziya mühüm sahə olan Sapun-Qarada gərgin döyüşlərdə iştirak etmişdir. 10 günlük döyüşlər nəticəsində Sapun-Qara düşməndən azad edildi. Sapun-Qaranın ən

yüksək zirvələrdən birinə Qırmızı Bayrağı serjant Abduləziz Qurbanov (07.05.43) sancdı. Simferopolun azad edilməsindəki döyüşlərdə fəal iştiraka görə 77-ci diviziya II dərəcəli Suvorov Ordeni ilə təltif edildi. Bütövlükdə Krımın düşməndən azad edilməsində göstərilən qəhrəmanlıqlara görə diviziyanın 3140 əsgər və zabiti orden və medallarla təltif edilmişdi. Diviziyaya isə Simferopol diviziyası fəxri adı verildi.

Krımın azad edilməsindən sonra 77-ci diviziya I Pribaltika cəbhəsinin tərkibində Litvanın düşməndən azad edilməsi əməliyyatlarında iştirak etdi. Burada döyüşlər müharibənin son günlərinə qədər davam edirdi və yalnız mayın 8-də qurtardı.

II dünya müharibəsi illərində 77-ci diviziya 10900 kilometrlik məsafəni qət etmiş və bundan 2555 km məsafəni döyüşlərlə getmişdir. Bu döyüşlərdə diviziyanın şəxsi heyəti Simferopol, Baxçasaray, Balaklava, Sevastopol və digər şəhərlərin düşməndən azad edilməsində fəal iştirak etmişdir. Diviziyanın 8 nəfər zabit və döyüşçüsünə Sovet İttifaqı Qəhrəmanı adı verilmiş, şəxsi heyətdən 11237 nəfər isə orden və medallarla təltif edilmişdir[26]. Bunların içərisində Sovet İttifaqı Qəhrəmanı Abdurahman Abdullayev, polkovnik Hacıağa Tağızadə, kapitan İsmayıl İbrahimov, starşina İslam Səfərli və yüzlərlə digərləri öz qəhrəmanlıqları ilə xalqımızın döyüş bacarığını bütün dünyaya nümayiş etdirmişdilər.

Azərbaycanın 77-ci dağ-atıcı diviziyası sonralar yaranmış milli diviziyalarımız üçün əsas baza olmuşdur.

77-ci Azərbaycan diviziyası tərkibində aşağıdakı generallar yetişmiş və döyüşmüşlər: Tərlan Əliyarbəyov, Mahmud Əbilov, Məmmədbağır Bağırov, Hacıbaba Zeynalov, Hüseyn Məmmədov, Heybət Heybətov (Zyuvanov). Bu generallar müharibə illərində və bu müharibədən sonrakı dövrlərdə böyük sərkərdəlik məharəti göstərmişlər.

77-ci diviziya və onun alaylarının komissarları və siyasi şöbə rəisləri olmuş Əmrulla Dadaşov, Kazım İsmayılov və digərləri şəxsi heyət içərisində böyük siyasi-tərbiyə işinə nail olmuşdular.

Sevastopolun azad edilməsi əməliyyatının tərkib hissəsi olan Sapun-Qaradan düşmənin qovulmasında 77-diviziyanın 105 saylı alayı böyük hünər göstərdi.

---

[26] Z.M.Bünyadov, R.Ə.Zeynalov, Qafqazdan Berlinədək, B. 1990, s.97; 77-ci Simferopol diviziyası, B., 1981, s.121.

Krımın Kerç rayonunda Sapun-Qara yaxınlığındakı döyüşlərdə həlak olmuş azərbaycanlı döyüşçülərin xatirələrini əbədiləşdirmək məqsədilə burada möhtəşəm abidə ucaldılmışdır.

### *223-cü atıcı diviziya*

223-cü atıcı diviziya 1941-ci ilin oktyabrında Quba-Qusar-Dəvəçi zonasında təşkil edilmişdi. Qafqaz uğrunda döyüşlər 1942-ci ilin 25 iyulundan başlanmışdı və 223-cü Azərbaycan milli diviziyasının döyüş əməliyyatları da bu dövrdən başlandı.

1942-ci ilin avqustunda faşist ordusu Mazdoku zəbt etmişdi və Qroznı-Bakı istiqamətində döyüşlərin güclənəcəyinə şübhə yox idi. Həmin dövrdə 44-cü Sovet Ordusunun tərkibində olan 223-cü diviziya (komandiri general-mayor H.Heybətov) Mahaçqala-Buynaksk-Xasavyurd istiqamətində Terek çayının cənubuna çıxaraq Qudermesdən Kaspi dənizi sahilinə qədərki 150 km-lik cəbhədə yerləşdirilmişdi. Dekabrın ortalarına doğru diviziya Mazdokun şimal hissəsində altı kəndin azad edilməsi ilə döyüşə başlayaraq, Mazdokun azad edilməsində (3/1-43) iştirak etdi. Bundan sonrakı döyüşlərdə diviziyanın iki polku yanvarın 11-də Georgiyevsk şəhərinə birinci daxil olaraq onu azad etdi. Diviziya 37-ci Ordunun tərkibində yanvarın 20-də Çerkesk şəhərinin azad edilməsində iştirak etdi və fevralın əvvəlində Krasnodar istiqamətinə marş ilə hərəkət etməyə başladı.

1942-45-ci illərdə diviziyanın alaylarının komandirləri: mayor Abbas Abdullayev (1037-ci alay), mayor Ruhulla Abdullayev (1039-cu alay), mayor Baxış Mehdiyev və mayor Hüseyn Hacıyev (1041-ci alay) olmuşdur.

Qafqaz uğrunda döyüşlərin ilk 100 günü ərzində 223-cü diviziya 4 min kvadrat kilometrdən çox ərazinin düməndən azad edilməsində (o cümlədən Mazdok, Georgievsk və 50-dən çox kənd) iştirak etmişdi[27]. Sonrakı dövrdə 223-cü diviziya 46-cı Ordunun tərkibində yeni hücuma Şimali Don rayonuna gətirilərək, Xarkovun cənubi-qərb istiqamətində döyüşlərə başladı və düşmənin mühasirəyə düşmüş ordu hissəsinin 20 gün ərzində məhv edilməsində fəal iştirak etdi.

Azərbaycanın ədəbiyyat və insəsənət xadimləri milli diviziyaların döyüşçüləri ilə tez-tez görüşürdülər. 1943-cü ilin martında Səməd Vurğun, Rəsul Rza, Süleyman Rüstəm, Mehdi Hüseyn, Məmməd Rahim, Zeynal Xəlil, Əhməd Cəmil 223-cü milli diviziyanın fəxri əsgəri adına layiq görülmüşdülər. Belə görüşlər döyüşçülərimizdə vətənpərvərlik əhvalı ruhiyyəsinin güclənməsinə böyük təsir edirdi.

[27] Z.M.Bünyadov, R.Ə.Zeynalov, Qafqazdan Berlinədək, B. 1990, s.104 (rus dilində).

Məşhur bəstəkarlar Üzeyir Hacıbəyov və Çingiz Hacıbəyov 223-cü diviziyada döyüşçülər qarşısında geniş proqramla müsamirə vermişdilər.

1943-cü ilin oktyabrın 20-də 223-cü diviziya 2-ci Ukrayna cəbhəsində 7-ci qvardiya ordusunun tərkibinə daxil edilmişdi və o, 31 oktyabrda Kirovoqrad istiqamətində döyüşlərə başladı. 1943-cü ilin sentyabr-dekabr aylarında diviziya 400 kilometr döyüş yolu keçərək, Ukraynanın təxminən 1000 kvadrat km ərazisini düşməndən azad etmiş və Dnepri keçərək Sovet Ordusunun Kirovoqrad döyüş dəstəsi tərkibində yeni döyüşlərə hazırlaşırdı. Dneprin keçilməsində H.Hacıyev, M.Məmmədov, S.Əsgərov, A.Abdullayev, C.Həşimov, H.Qasımov, Ə.Əsədov, N.Babayev və digərləri böyük hünər göstərmişdilər.

1944-cü ilin aprelində diviziya 57-ci ordunun tərkibində Dnestr çayının sağ sahilində Benderi şəhərinin şimali-qərbində hərbi əməliyyatlarını genişləndirirdi. Düşmənin güclü təyyarə və top atəşləri altında diviziya bu istehkam xəttini 130 gün müdafiə etdi. 1944-cü il avqustun əvvəlində başlanan Yassa-Kişinyov əməliyyatında 223-cü diviziya Tiraspol şəhərinin cənubi-qərbində döyüşürdü. Diviziyanın növbəti hərbi əməliyyatları Rumıniya sərhəddi istiqamətində aparıldı və onun alayları 1944-cü ilin 2 sentyabrında Dunay çayını keçdikdən sonra istiqamətlərini Bolqarıstan sərhədlərinə tərəf götürdülər. 20 gün ərzində 800 km məsafəni döyüşlərlə irəliləyən diviziya Rumıniyanın Konstansa limanının və Bolqarıstanın Şumen və Razqrad şəhərinin azad edilməsində iştirak etdi.

Milli diviziyanın döyüş yolunun sonrakı mərhələsi Yuqoslaviya torpaqlarının faşistlərdən azad edilməsi və Belqrad səmtində hücum əməliyyatları oldu. On gün ərzində şərqi Serbiya vilayəti düşməndən azad edildi və 223-cü diviziyanın alayları (№1037, 1041) Morova çayı vadisinə çatdılar. Burada, Bor adlı şəhərdə 223-cü diviziya Yuqoslaviya ordusunun 23-cü diviziyası ilə görüşdü.

1944-cü ilin 17-20 oktyabrında Belqrad şəhərində yerləşmiş 20 minlik faşist ordusu darmadağın edildi. Belqrad uğrunda döyüşlərdə fərqlənən və qələbə salyutu münasibətilə Ali Baş Komandanın əmrində adı çəkilən diviziyalardan biri də 223-cü diviziya idi və ona Belqrad diviziyası adı verildi.

1944-cü ilin 24 dekabrında 223-cü diviziya Macarıstan sərhəddini keçərək Budapeşt istiqamətində döyüş əməliyyatlarında iştirak etdi. Balaton gölü ətrafında aparılan döyüşlərdən sonra 1945-ci il fevralın 13-də Macarıstanın paytaxtı Budapeşt şəhəri də düşməndən azad edildi.

Müharibənin son həftələrinin döyüşlərini 223-cü diviziya Avstriya ərazilərində keçirmişdir. Aprelin 6-da Dunay çayını keçən diviziya Vyana istiqamətində döyüşlərdə iştirak etmiş, 13 apreldə Vyana şəhəri də faşistlərdən azad edilmişdir. Diviziyanın 1037-ci alayına "Vyana" adı verilmişdir.

223-cü diviziyanın son döyüşləri 1945-ci ilin 7 mayında Avstriyanın Qollabrun şəhərinin azad edilməsində olmuşdur və bu şəhərin azad edilməsində

həlledici döyüşlərə görə diviziya Ali Baş Komandanın təbrikinə layiq görülmüşdür. Bu müharibə illərində diviziyanın Ali Baş Komandandan aldığı 11-ci təbrik idi.

İkinci dünya müharibəsinin tərkib hissəsi olan Böyük Vətən Müharibəsi illərində 223-cü Belqrad atıcı diviziyası 30 ay ərzində döyüşlərdə fasiləsiz iştirak etmiş, Mazdokdan Vyanaya qədər 3600 kilometrlik yolu keçmişdir. Bu yol üstündə Rumıniya, Bolqarıstan, Yuqoslaviya, Macarıstan, Avstriya və Çexoslovakiya əraziləri yerləşir.

Diviziyanın bütün döyüşçüləri "Qafqazın müdafiəsinə görə", "Belqradın azad edilməsinə görə", "Budapeştin alınmasına görə" və "Vyananın alınmasına görə" medalları ilə təltif edilmişdir. Diviziyanın 1037-ci alayı Suvorov ordeni ilə, 1039-cu alayı Kutuzov ordeni ilə, 181-ci Artilleriya alayı isə Boqdan Xmelnitski ordeni ilə təltif edilmişdir.

Diviziyanın əsgər və zabitlərindən 3483 nəfər orden və medallarla təltif edilmişdir. Diviziyanın veteranlarından Əli Məhərrəmov hazırda Nəsimi rayonu veteranlar Şurasının işində fəaliyyət göstərir.

### *396-cı milli atıcı diviziya*

396-cı atıcı diviziya 1941-ci ilin avqustunda İranda 44-cü ordunun tərkibində olmuşdur. Həmin ilin sonunda diviziya respublikanın Quba bölgəsinə gətirilmiş və Şimali Qafqaza göndərilmək üçün hazırlanırdı. Diviziyanın ilk komandiri Q.Korçakov, komandir müavini polkovnik Əsədullayev: komissarı polkovnik Xavər Vəliyev olmuşdur. Diviziyanın şəxsi heyətinin əksəriyyəti azərbaycanlılardan ibarət idi.

1941-ci ilin son günlərində diviziya Krım yarımadasına desant yolu ilə göndərildi və 51-ci Ordunun tərkibinə daxil edildi.

396-cı diviziyanın tərkibində 803-cü, 816-cı, 819-cu atıcı alayları və 957-ci artilleriya alayı (komandir Musa Heybətov) olmuşdur. Digər alayların komandirləri isə polkovnik Abdullayev və polkovnik Əsədullayev idi.

1942-ci ilin may döyüşləri ərəfəsində Krımda 44-cü, 47-ci və 51-ci Sovet Orduları yerləşdirilmişdi. Mayın 7-də faşist ordusunun geniş miqyaslı hücumları nəticəsində 44-cü Sovet Ordusu hissələri böyük itki ilə geri çəkilməyə məcbur oldular. Bu döyüşdə 396-cı diviziya böyük itki verdi. Həmin döyüşdən sonra Sovet hərbi hissələri Krımdan Taman yarımadasına köçürüldülər. 396-cı diviziyanın şəxsi heyəti isə Armavirdən keçərək Tiflisə, oradan da Qubaya (Azərbaycana) göndərilərək, tərtib edilən yeni (223-cü) diviziyanın tərkibinə qatıldı.

Yuxarıda göstərilən gərgin döyüşdə 396-cı milli diviziyanın alay və batalyon komandirləri və komissarlarından X.Vəliyev, Y.İsmayılov, Əmirulla Dadaşov (həlak olmuşdur), Ə.Hüseynov, A.Abbasov, K.Ağayev, N.Aslanov,

Mehdi Muxtarov, T.Axundov, İ.Əsgərov, Q.Süleymanov döyüşlərdə xüsusilə fərqlənmişdilər.

Hazırda Nəsimi rayonunda yaşayan və işləyən veteranlardan Abdulrəhman Dadaşov və Nəsir Aşurov vaxtı ilə 396-cı milli diviziya tərkibində döyüşmüşlər.

### *402-ci milli atıcı diviziya*

402-ci milli atıcı diviziya 1941-ci ilin avqustunda Naxçıvanda və Ordubadda təşkil edilmişdir və onun tərkibində Azərbaycan türkləri 90% təşkil edirdi. Diviziya 1941-ci ilin oktyabrınadək İranda (Cənubi Azərbaycan) yerləşirdi. Bundan sonra Vətənə qaytarılan diviziya 1941-ci ilin oktyabrının əvvəllərində Ordubad və Kivraq şəhərlərindən müharibə zonasına göndərildi. Qafqaz uğrunda döyüşlərə 44-cü ordu tərkibində döyüşə başlayan diviziya Qroznı şəhərinin müdafiəsi xəttində (Terek çayının sağ sahilində) yerləşdirildi. Diviziyanın komandiri polkovnik A.Hüseynov olmuşdur. Diviziyanın tərkibində 833-cü, 840-cı atıcı alayları, 960-cı topçular alayı, tank əleyhinə divizion və 4 əlavə batalyon var idi.

1942-ci ilin 30 noyabrında diviziya Mazdok istiqamətində başlanan hücum əməliyyatlarında iştirak edərək, dekabrın ilk on günündə 34 km irəliləyə bildi. Bu döyüşlərdə diviziyanın 833-cü alayının komandiri mayor Akim Abbasov xüsusilə fərqləndi. 840-cı alayın komandiri mayor Manaf Abdullayev də sərkərdəlik nümunəsi göstərmişdi.

Mazdok istiqamətindəki döyüş əməliyyatlarında kapitan Məcid Əliyev (833-cü alayın 3-cü batalyonunun komandiri), baş leytenant Abdulla Dadaşov (960-cı topçu alayının 2-ci divizionu komandiri), leytenant Bilal Rəsulov (840-cı atıcı alayın 2-ci batalyonu komandiri), həmin batalyonun bölmə komandirləri baş leytenant Məmməd Tahirov və leytenant Ələkbər Hacıyev, pulemyotçu serjant Osman Hacıyev, döyüşçü Mirzəyev xüsusilə fərqlənmişdilər. Həmin günlərdə cəbhədə olmuş görkəmli şair Rəsul Rza Ağcabədi rayonunun Hindarx kəndində anadan olmuş pulemyotçu serjant Osman Abdulla oğlu Hacıyev haqqında "Osman Hacıyevin hünəri" adlı oçerk yazmışdı. Bu oçerkdə göstərilir ki, cəsur pulemyotçu Osman Hacıyev düşmənin avtomatçılar dəstəsinin hücumlarını iki dəfə dəf etmişdir.

1942-ci ilin 12 dekabrından sonra diviziyanın tərkibinə yeni döyüş hissələri əlavə edildi və o, yeni döyüşlərə hazırlaşmağa başladı. 1943-cü ilin ilk üç ayı ərzində diviziya Azərbaycan dilini bilən kiçik komandirlər heyəti ilə təmin olundu, diviziyaya hərtərəfli kömək üçün Bakıdan müvafiq hərbi və siyasi mütəxəssislər göndərildi. Az sonra döyüşə hazırlanmış 1500 nəfər 402-ci milli diviziyanın

tərkibinə göndərildi və sonrakı illərdə diviziya Azərbaycandan yeni çağırışçılar dəstəsi alaraq onların da döyüşə hazırlığına başladı.

1943-1944-cü illərdə 402-ci diviziya digər milli diviziyaların tərkibini möhkəmləndirmək üçün döyüşçü və komandirlər hazırlamaq üzrə əsas ehtiyat bazası kimi istifadə edilmişdir. Məsələn, diviziya 1943-cü ildə 2200 nəfər, 1944-cü ildə 1500 nəfər yeni çağırışçı qəbul edərək döyüşə hazırlamışdı.

Böyük Vətən müharibəsi cəbhələrində döyüşən azərbaycanlı komandirlərdən Heybət Heybətov, Mahmud Əbilov, Hacıbaba Zeynalov, Tərlan Əliyarbəyov, Akim Abbasov və digərləri yüksək hərbi sərkərdəlik qabiliyyətinə malik olduqlarını sübut edərək, general-mayor rütbəsi aldılar. Müharibə illərində yaradılmış Milli diviziyalarda siyasi tərbiyə işlərinə respublikadan 322 nəfər rəhbər partiya işçisi göndərilmişdi. Bunların içərisində polkovniklər Xavər Vəliyev, Rəşid Məcidov, Kazım İsmayılov, Mehbalı Əmiraslanov, Əbdül Rəcəbov, Ələsgər Qasımov və digərləri var idi. Bu diviziyaların döyüşçüləri ilə görüşə Səməd Vurğun, Üzeyir Hacıbəyov, Rəsul Rza, Bülbül Məmmədov, Niyazi, Mustafa Topçubaşov, Heydər Hüseynov və digər ictimai xadimlər tez-tez gedir və özləri ilə incəsənət kollektivləri qruplarını aparırdılar.

Milli diviziyalarda Azərbaycan dilində 12 adda qəzet buraxılırdı: "Vətən şərəfinə", "Vətən uğrunda", "Həyəcan" və başqa adlarda çıxan cəbhə qəzetləri redaktorları sırasında Rəsul Rza, Abbas Zamanov, Cəfər Xəndan, Əhməd Cəmil, Xasay Vəzirov, Ənvər Məmmədxanlı və digər ədib və jurnalistlər fəaliyyət göstərirdi. Həmin illərdə bəstəkarlardan Tofiq Quliyev "23-cü diviziya" adlı mahnını, Niyazi "402-ci diviziya", "Can Azərbaycan", "402" yürüş marşlarını yazmışdı.

### *416-cı milli atıcı diviziya*

1942-ci ilin fevralından başlayaraq ayrı-ayrı hissələri Ucar-Göyçay-Şəmkir zonasında və Ələtdə təşkil edilən 416-cı milli diviziyada şəxsi heyətin 92%-i Azərbaycan türkləri idi.

416-cı milli diviziyanın döyüş yolu Qafqazdan başlanmışdır. Diviziya 1942-ci ilin sentyabrın əvvəllərində 44-cü ordunun tərkibinə daxil edilərək Şimali Qafqazda Xasav-yurt rayonuna göndərilmişdi. Diviziyanın cəbhəyə getdiyi vaxt Qafqaz uğrunda döyüşlərin ən şiddətli dövrü idi. Faşist Almaniyası rəhbərliyi özünün "Cənub" ordu qrupu komandanlığına 1942-ci ilin 25 sentyabrında Bakını zəbt etməyi əmr etmişdi. Lakin faşist ordusunun əsas qüvvələri Sovet ordusunun güclü müqavimətinə rast gələrək, Şimali Qafqazda sentyabr ayında döyüşlərdə böyük itkilər verdi.

1942-ci ilin oktyabrında 416-cı diviziya 58-ci ordunun tərkibinə daxil edilərək, Sulak çayının şərq sahilində düşmənin Mahaçkala istiqamətindəki hücumlarına qarşı mövqedə yerləşdirildi. Həmin ilin noyabrında diviziya yenidən 44-cü ordunun tərkibinə daxil edildi və təcili olaraq marş ilə Terek stansiyası zonasında yeni döyüş xəttinə göndərildi.

1942-ci ilin 30 noyabrında diviziya hücuma keçdi. Hücum ərəfəsi noyabrın 29-da keçirilən mitinqdə diviziyanın 1373-cü alayının əsgərləri B.Mustafayev və Ç.Quliyev öz çıxışlarında demişdilər ki, biz hamımız Qafqazı son damla qanımıza qədər müdafiə edəcəyik və bu torpaqda faşistlər özləri üçün məzarlarını tapacaqlar.

Faşistlərin Şimali Qafqazdan qovulması məqsədilə başlanan ümumi hücum 1942-ci ilin noyabrının 30-da başlandı və bu hücumda diviziyanın 4 alayı iştirak edirdi. İlk döyüşlərdə baş leytenant K.Rzayev, leytenant Ə.Abdullayev, kiçik leytenant K.Hacıyev, sıravi əsgərlərdən B.Cabbarov, İ.Heydərov, A.Zülfüqarov qələbə əzmi ilə böyük mətanət göstərdilər. Dekabrın son günlərində Mazdok istiqamətindəki döyüşlər daha gərgin keçdi. Döyüşlərin birində 1368-ci alayın əsgəri Məmmədov, "Doğma Azərbaycan uğrunda!" sözləri ilə düşmənin səngərinə daxil oldu. Beləliklə 1943-cü ilin yanvarının əvvəlinə qədərki dövrdə diviziyanın döyüşçüləri Qafqazdan Azov sahilinə qədərki məsafəni döyüşlərlə keçərək, növbəti döyüşlərə hazırlaşdılar. Bu dövrdə diviziyanın komandirlərindən biri polkovnik (az sonra general-mayor) Tərlan Əliyarbəyov olmuşdur.

1942-ci ilin 19 noyabrında Stalinqrad rayonunda Sovet Ordusunun hücumlarının başlanması ilə əlaqədar olaraq Şimali Qafqazdan da başlanan əks hücumlar nəticəsində üç ay ərzində Şimali Qafqaz düşməndən azad edildi və Rostov istiqamətində döyüşlərə başlamaq üçün zəmin yaradıldı.

1943-cü ilin 21 fevralında 416-cı diviziya əməliyyatlarının II dövrünə hazırlığa başladı. Bunun üçün diviziyaya Azərbaycandan 1500 nəfər yeni döyüşçü və siyasi işçi göndərilmişdi.

1942-ci ilin 3 oktyabrında SSRİ Ali Sovetinin Rəyasət heyətinin qərarı ilə orduda hərbi komissarlar institutu ləğv edilərək vahid rəhbərlik prinsipinə keçildi. Komissarların apardıqları siyasi tərbiyə işlərini icra etmək üçün komandirlərin siyasi işlər üzrə müavinləri vəzifəsi təsis edildi. Milli diviziyalarda siyasi işlər üzrə komandirlərin müavinlərinin əksəriyyəti Respublikadan göndərilmiş təcrübəli partiya işçilərindən ibarət idi.

416-cı diviziya 1943-cü ilin 17 avqustunda Taqanroq istiqamətində başlanmış hücumlarda iştirak edirdi və avqustun 30-da diviziya 28-ci ordunun tərkibində Taqanroq şəhərinin düşməndən azad edilməsində böyük qəhrəmanlıq göstərdi və bu qələbəyə görə ona Taqanroq diviziyası fəxri adı verildi.

Milli diviziya 1943-cü ilin sentyabrında Azərbaycandan öz tərkibinə 2500 nəfər yeni döyüşçü heyəti adlı və müvafiq hazırlıqdan sonra oktyabrın 10-dan

başlayaraq növbəti döyüşlərə başladı və Nikolayev şəhərinin düşməndən azad edilməsində fəal iştirak etdi.

1944-cü ilin yanvarında 416-cı diviziya 3-cü Ukrayna cəbhəsində 5-ci zərbə ordusu tərkibində hücuma keçərək, Dnestr çayını keçdi və döyüşlərlə Dnepr çayı sahillərinə çıxdı. Dneprin keçilməsində qəhrəmanlıq göstərdiklərinə görə Mikayıl Ələkbərov, Bahəddin Mirzəyev, Ablul Vəliyev, Fəriz Səfərov və Ağaşirin Cəfərov Sovet İttifaqı Qəhrəmanı fəxri adına layiq görüldülər.

Həmin ilin 9 aprelində diviziya Odessa şəhəri yaxınlığına çatdı və onun düşməndən azad edilməsində fəal iştirakına görə II dərəcəli Suvorov ordeni ilə təltif edildi.

1944-cü ilin yayından başlayaraq 416-cı diviziya 3-cü Ukrayna cəbhəsi tərkibində məşhur Yassa-Kişinyov döyüş əməliyyatında və Moldaviyanın paytaxtı Kişinyov şəhərinin və bütün Moldaviyanın faşizm tapdağından azad edilməsində fəal iştirak etdi. 1945-ci ilin martında diviziyanın 1054-cü alayı "Qırmızı bayraq" ordeni, 1368-ci alayı - "Boqdan Xmelnitski ordeni", 44-cü divizionu isə "Aleksandr Nevski" ordeni ilə təltif edilmişdi.

Taqanroq şəhərində 1981-ci ildə "Slava" memorialının təntənəli açılışında 416-cı diviziyanın müharibə dövründəki alay və batalyon komandirlərindən polkovnik Mehdi Mahmudov, polkovnik İsmayıl Aslanov, kapitan Bahəddin Mirzəyev iştirak etmişlər.

416-cı milli diviziya döyüşçüləri ilə cəbhələrdə görüşmək üçün görkəmli şair Səməd Vurğun və dahi bəstəkar Üzeyir Hacıbəyov, xalq artisti Bülbül Məmmədov, professorlardan M.Mirqasımov və Məmməd Qazıyev, məşhur neft ustası Ağa Nemətulla və digər ziyalılar dəfələrlə ezam edilmişdilər və bu görüşlər diviziya döyüşçülərinin hərbi-vətənpərvərlik ruhunda tərbiyə edilməsinə böyük təsir etmişdir.

416-cı diviziyanın tərkibində baş leytenant Tahirə Dadaşova, tibb işçiləri Zəhra Səlimova, M.Hacıyeva, B.Mirzəcanov, R.Qasımzadə, D.Kazımova, R.Babayeva və digərləri böyük fədakarlıqlar göstərmişlər.

1945-ci ilin yanvarında Sovet ordusu bütün cəbhələrdə hücuma keçmişdi və əsas istiqamət Varşava-Berlin istiqaməti idi. 416-cı diviziya I Belorusiya cəbhəsinə daxil olan 5-ci zərbə ordusu tərkibində Visla çayı istiqamətində hücumu davam etdirərək, Varşavanın azad edilməsində iştirak etdi və Oder çayının qərb sahilinə çıxaraq, düşmənin Kyustrin şəhərini zəbt etdi.

Berlinə ilk dəfə daxil olan hərbi hissələr içərisində 416-cı diviziya da var idi (komandir general-mayor D.M.Sızranov, siyasi şöbənin rəisi polkovnik Rəşid Məcidov). Diviziyanın 1373-cü alayı (Komandir general Heybət Heybətov, eyni zamanda diviziya komandirinin müavini idi) mayın 1-də Berlinə daxil oldu.

Berlin uğrunda döyüşlərdə kapitan X.Gülməmmədovun batalyonu xüsusilə fərqləndi. Kayzerin sarayı üstündə Qələbə bayrağını ilk dəfə mayın 1-də sancanlardan olan baş leytenant Vahab Osmanov düşmən gülləsindən həlak oldu. Brandenburq qapıları üstünə mayın 2-də qələbə bayrağını taxanlardan biri isə leytenant A.Məcidov və onun döyüşçüləri oldular.

Beləliklə 416-cı Azərbaycan milli diviziyası 27 ay ərzində döyüşlərlə 40 çayı keçərək (o cümlədən Dnepr, Visla, Oder) 2500 kilometr məsafəni qət etdi və 7900 kv. kilometr ərazini düşməndən azad etdi.

Qafqazdan Berlinədək döyüş yolu keçmiş 416-cı Azərbaycan Milli diviziyası və onun alaylarına müharibə illərində general-mayorlar Tərlan Əliyarbəyov, Heybət Heybətov, Hacıbaba Zeynalov (diviziyanın qərargah rəisi) komandirlik etmiş, diviziyanın siyasi şöbə rəisləri isə polkovniklər Rəşid Məcidov və Xavər Vəliyev, eləcə də Əmrulla Dadaşov, İsmayıl Aslanov olmuşdur.

Hazırda 416-cı milli diviziyanın veteranlarının şurası Bakıda fəaliyyət göstərir (sədri polkovnik Abu Müslüm Baxışevdir) və bu diviziyanın veteranlarından 125 nəfəri əmrlərini davam etdirirlər. Diviziyanın Qafqazdan Berlinədək döyüş yolu haqqında plakatlar və kitabçalar nəşr edilmişdir.

## § 4. Qafqaz uğrunda döyüşlər - Böyük Vətən Müharibəsində Qələbənin ən mühüm mərhələlərindən biridir[28]

Almaniya faşizmi özünün "Şərqə yürüş" (Dranq nax Osten) adlı ümumi işğalçılıq planında Qafqazı və onun zəngin yataqlarını zəbt etmək planına xüsusi yer verirdi. Bununla da eyni zamanda Şərqin Hindistan hüdudlarına qədər uzanan geniş ərazilərini zəbt etmək üçün əsas baza əldə edilməsi nəzərdə tutulurdu. Hitlerin 1940-cı ilin 18 dekabrında imzaladığı 21 saylı gizli direktiv sənədində Almaniyanın SSRİ-yə qarşı müharibəyə başlaması üzrə "Barbarossa" planında Almaniyanın başlayacağı müharibə "Şərq kompaniyası" adlandırılmışdı və onun qələbə ilə qurtarmasına üç aydan beş aya qədər vaxt müəyyən edilmişdi. 1941-ci ilin fevralında Almaniya ordusunun yüksək komandanlığına Hitlerin bu tələbi

[28] "İkinci dünya müharibəsinin dərsləri və faşizm üzərində qələbənin əhəmiyyəti" adlı Beynəlxalq elmi konfrans Qələbənin 50 illiyi münasibətilə 1995-ci ilin 18-19 aprelində Moskvada keçirilmişdir. Bu kitabın müəllifi həmin konfransın plenar iclasında göstərilən mövzuda məruzə etmişdir. Konfransda 26 ölkədən (o cümlədən, ABŞ, Çin, İngiltərə, Almaniya, Yaponiyadan) nümayəndələr iştirak etmişdir. Müəllifin rus dilində etdiyi məruzənin tərcüməsi verilir.

çatdırılmışdı ki, "Şərq kompaniyası" qurtaran kimi Hindistana yürüşün başlanmasına hazırlıq nəzərdə tutulmalıdır. Həmin ilin iyun ayının əvvəlində Almaniya hərbi komandanlığı planlaşdırmışdı ki, İranın, İraqın, Misirin və Hindistanın zəbt edilməsi üzrə hərbi əməliyyatlara 1941-ci ilin payızından başlanacaqdır. Göründüyü kimi Hitlerin bu qlobal işqalçılıq planının həyata keçirilməsi üçün ən əvvəl Qafqaz zəbt edilməli idi. Aydındır ki, Hitlerin bu geniş işğalçılıq planına qarşı Sovet rəhbərliyi ölkənin cənub sərhədlərinin, ilk növbədə Qafqazın müdafiəsi üçün lazımi tədbirlər görməli idi və görürdü.

Almaniya faşist ordusunun SSRİ-yə qəflətən hücumu dövründə İranda Almaniyanın 4 min nəfərlik casus şəbəkəsi var idi və bu təxribat qüvvəsi gizli yollarla Sovetlər İttifaqına qarşı yönəldilmişdi. Sovet hökuməti İran şahı Rza Pəhləviyə öz ölkəsinin faşist Almaniyası ilə ittifaqının yolverilməzliyi haqqında dəfələrlə xəbərdarlıq etmişdisə də, Rza şah Pəhləvi bu xəbərdarlıqlara məhəl qoymurdu. Buna görə də Sovet hökuməti İran rəhbərliyinə göndərdiyi rəsmi Notada bildirdi ki, 1921-ci ilin 26 fevralında imzalanmış Sovet Rusiyası-İran müqaviləsinin 6-cı maddəsinə uyğun olaraq Sovet qoşun hissələri Şimali İran ərazilərinə göndərilir. Eyni zamanda Sovet-İngiltərə razılaşmasına əsasən İngiltərənin qoşun hissələri də Cənubdan İran ərazisinə daxil olacaq idi.

1942-ci ilin 29 yanvarında Tehranda SSRİ, Böyük Britaniya və İran arasında müttəfiqlik haqqında müqavilə imzalandı və həmin müqavilədə göstərildi ki, müttəfiqlərə (SSRİ və Böyük Britaniya) İran ərazisində quru, dəniz və havadan silahlı müdafiə üzrə qüvvələr yerləşdirməyə icazə verilir və bu ordu hissələri İrandan Almaniya ilə müharibə qurtardıqdan sonra 6 ay müddətində çıxarılacaqdır.

Almaniya ordusu komandanlığı SSRİ-yə qarşı qəflətən başladığı müharibənin ilk həftələrinin uğurlarından məst olaraq, 1941-ci ilin iyulunda müharibənin III mərhələsinin planını cızmağa başlamışdı. Bu plana görə 1942-ci ilin sentyabrında Almaniya ordusu Qafqaz keçidlərindən keçərək İran-İraq əraziləri ilə Bağdad üzərinə hücumu davam etdirməli idi.

Lakin Sovet-Almaniya cəbhələrində müharibənin 1941-ci ilin sonunda gedişi Hitlerin bu planlarını alt-üst etdi. 1941-ci ilin 5 dekabrında Sovet ordusu Moskva altında əks hücuma keçərək faşist ordusunu 100-350 kilometrə qədər Qərbə sıxışdırdı və bununla da düşmənin Moskvanı və Şimali Qafqazı 1941-ci ildə zəbt etməsi planı boşa çıxdı.

1942-ci ilin yayında faşist ordusu komandanlığı Cənub istiqamətində yeni hücum əməliyyatına başladı və burada əsas vəzifə Qafqazı zəbt etmək idi. Bunun üçün "Edelveys" adlı xüsusi plan hazırlanmışdı və həmin planda o da göstərilirdi ki, faşist ordusu Qafqaza yaxınlaşdıqda bu diyarda yaşayan xalqlar rus xalqına qarşı mübarizəyə başlayacaqlar.

Müharibənin gedişi faşist nəzəriyəbazların bu ümidini də boşa çıxardı. Qafqazın bütün xalqları ölkənin digər xalqları ilə birlikdə ümumi düşmən faşizmə qarşı ölüm-dirim mübarizəsinə qalxdılar. Qafqazı müdafiə edən cəbhələrdən biri olan Zaqafqaziya cəbhəsi tərkibində şəxsi heyətləri əsasən Qafqaz xalqlarından tərtib edilmiş 12 milli diviziya vuruşurdu. Bunların içərisində 77-ci, 223-cü, 396-cı, 402-ci, 416-cı diviziyalar Azərbaycan Milli diviziyaları idi.

Qafqaz uğrunda döyüşlərin ikinci mərhələsinin başlanması və Stalinqrad uğrunda ağır döyüşlər faktiki olaraq eyni zamanda (1942-ci ilin iyulunda) başlanmışdı. Lakin faşist orduları 1943-cü ilin fevralının əvvəlində Stalinqrad ətrafında darmadağın edildikdən sonra, Almaniya hərbi komandanlığı bütün qalmış qüvvələrini Qafqaz cəbhəsinə yönəltdi və Qafqaz uğrunda döyüşlər 14 ay davam etdi.

Qafqaz regionunda iqtisadi və hərbi strateji cəhətdən ən güclü respublika Azərbaycan olduğuna görə düşmənin əsas qüvvələri də bu istiqamətə yönəldilmişdi. Təkcə onu demək kifayətdir ki, müharibənin bütün gedişi dövründə cəbhələri benzin və digər yanacaqla əsasən Azərbaycan neftçiləri təchiz edirdi. Azərbaycan neftçilərinin bu böyük tarixi xidmətləri hələ müharibə illərində Marşal G.K.Jukov və marşal K.K.Rokosovski tərəfindən dəfələrlə minnətdarlıqla qeyd edilmişdir. Bütün bunlara baxmayaraq Sovetlər İttifaqının matorlar müharibəsində əldə etdiyi tarixi qələbədə cəbhənin benzin və sürtkü materiallarına olan tələbatının 75-90%-ni fasiləsiz olaraq təchiz edən Bakı şəhərinə “Qəhrəman şəhər” adı verilmədi, halbuki bu ada o, bəzi şəhərlərdən əvvəl layiq görülməli idi. Azərbaycan Respublikası Prezidenti Heydər Əliyev böyük iftixar hissi ilə qeyd etmişdir ki, “Əgər Bakının nefti olmasaydı, Sovetlər İttifaqının qələbəsi bəlkə də mümkün deyildi...”

Faşist Almaniyasının Qafqazı zəbt etmək planının baş tutmaması onun Türkiyəni də bu müharibəyə cəlb etmək ümidini də puça çıxardı və SSRİ-nin cənub sərhədlərinin təhlükəsizliyi təmin edildi.

Bununla belə Almaniyanın o dövrdəki müttəfiqləri olan Yaponiya və Türkiyənin 1942-ci ildə Sovetlər İttifaqına qarşı müharibəyə başlamamalarının səbəbləri hələ indi də bəzi hərbi tarixçilərin və hərbi sərkərdələrin tədqiqat obyekti kimi qalmaqdadır.

Aydındır ki, Sovetlər İttifaqının Ali Baş komandanlığı belə təhlükənin mövcudluğunu hiss edirdi və ölkəyə qarşı ikinci və ya üçüncü cəbhənin açıla bilməsi ilə əlaqədar olaraq həmin istiqamətlərdə kifayət qədər hərbi qüvvə saxlayırdı. Təkcə Qafqazda 1942-43-cü ildə 11 atıcı diviziya və 2 hərbi hava

qüvvələri ordusu saxlanılırdı[29]. Qafqaz eləcə də Qara dəniz, Kaspi və Azov dənizləri donanmaları tərəfindən müdafiə edilirdi.

Müharibə illərinin diplomatik sənədlərinin öyrənilməsi sübut edir ki, 1943-cü ilin əvvəlində Yaponiya və Türkiyənin faşist Almaniyasına münasibəti xeyli soyumuşdu. Almaniya ordusunun güclü müqavimətinə baxmayaraq, o, 1943-cü ilin sonundan etibarən heç bir əməliyyatda təşəbbüsü öz əlinə ala bilmədi və dünya xalqları Almaniya hərbi qüvvələrinin yaxın vaxtlarda məğlub olacağını gözləyirdilər.

Faşist ordusunun Qafqaz dağları ətəklərində məğlub edilərək geriyə çəkildiyi dövrdən az sonra Sovet siyasi rəhbərliyi öz daxili siyasətində bağışlanılmaz bir səhv buraxdı: 1944-cü ilin əvvəlində Şimali Qafqazda yaşayan çox saylı müsəlman xalqları bütövlükdə Qazaxıstan və Sibirə sürgün edildilər. Öz ölkəsinin bir qrup müsəlman xalqına qarşı bu qəddar cəza tədbiri üçün heç bir əsaslı səbəb yox idi və Stalin-Beriya-Mikoyan qrupunun bu qanlı tədbiri müharibə dövrünün siyasətinin qara ləkəsi kimi tarixə düşdü. Belə mürtəce siyasətin davamını biz müharibə qurtardıqdan az sonra öz evlərinə qaytarılmış hərbi əsirlərin 1949-cu ildə hərbi düşərgələrə sürgün edilməsində gördük.

Bu məruzənin müəllifi 30 il bundan əvvəl, 1944-cü ildə Qazaxıstana sürgün edilmiş çeçen yazıçısı Xalid Oşayev ilə öz evində görüşmüşdür. 1926-cı ildən Sov.İKP üzvü olan Xalid Oşayev söylədi ki, NKVD-də xidmət edən azğınların tələbi ilə gecə qapımı açdıqda, onlara partiya biletimi göstərdim, lakin həmin bileti üzümə çırparaq mənə dedilər: “çeçensən?, düş qabağımıza, sürgünə gedirsən” və bizi mal-qara daşınan çirkli vaqonlara doldurdular. Məlumdur ki, onları 17 il tikanlı məftillər arxasında yaşatdılar və əksəriyyəti də məhv edildi.

Hörmətli Veteranlar! 50 il bundan əvvəl II dünya müharibəsi kimi qanlı müharibəni antifaşist və demokratik qüvvələrin qələbəsi ilə qurtararkən, biz hamımız güman edirdik ki, ölkəmizdə, o cümlədən Qafqazda həmişə sülh və əmin-amanlıq olacaqdır. Lakin sizə məlumdur ki, Şimali Qafqazda indi müharibə gedir və qan tökülür. Zaqafqaziyanın hər üç respublikasını əhatə edən iki ərazidə isə qanlı döyüşlərdən sonra atəşkəsə nail olunmuşsa da, əldə edilmiş atəşkəs möhkəm deyildir. Bütün Qafqazın xalqlarına isə dinc Qafqaz evi lazımdır və bu haqda konkret təkliflər Azərbaycan prezidenti tərəfindən verilmişdir.

Dünya ictimaiyyətinə məlumdur ki, dinc Qafqaz evinin açarı Rusiyanın əlindədir. Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev 1994-cü ilin iyununda “Rusiya qəzeti” və 1994-cü ilin dekabrında “Reklam xəbərləri” qəzeti

[29] А.А.Гречко, Битва за Кавказ, М., 1967, s.473-477

müxbirlərinin suallarına cavabında Rusiyanın Qafqaz problemlərinin həllində iştirakını yüksək qiymətləndirərək, arzu etmişdir ki, Rusiyanın siyasətində Qafqazın hər bir respublikasına münasibəti bu respublikaların xalqlarının dini mənsubiyyətlərindən və Rusiya ilə tarixi əlaqələrindən asılı olmayaraq formalaşsın. Yalnız belə ədalətli münasibət Qafqaz regionundakı bütün ziddiyyətləri dinc yolla həll etməyə kömək edər.

### § 5 Azərbaycan xalqının faşizm üzərində qələbədə böyük xidməti

*Əgər Bakının nefti olmasaydı*
*Sovetlər İttifaqının qələbəsi*
*bəlkə də mümkün deyildi...*
**HEYDƏR ƏLİYEV**

Bakı şəhəri ikinci dünya müharibəsinin gedişində və müqəddəratında böyük rolu olmuş şəhərlərdən biridir. Bu hər şeydən əvvəl onun zəngin neft yataqları və strateji mövqeyi ilə əlaqədardır.

Hələ 1881-ci ildə Bakıda dənizçilik peşələri üzrə qarışıq tipli məktəb yaradılmışdı və bu məktəbin peşə siniflərini 20 ildə (1881-ci 1901-ci illər) 945 nəfər qurtarmışdı ki, bunlardan da 136 nəfəri azərbaycanlı idi. 1903-cü ildə həmin siniflər əsasında Bakı Dənizçilik məktəbi yaradıldı. 1899-cu ilin sentyabrın əvvəlində Xəzərdə 345 neft daşıyan gəmi var idi. Dünyada dizel mühərrikləri olan ilk tanker (yükgötürmə qüvvəsi 820 ton, sürəti saatda 7,4 mil olan gəmi) də (1903-cü ildə) Bakı limanında üzməyə başlamışdır.

Bakı neft rayonunun inkişafı və müdafiəsi ilə əlaqədar olaraq 1920-ci ildən başlayaraq Bakının hava hücumundan müdafiəsi üzrə tədbirlər görülməyə başlandı. 1920-ci ilin noyabrında Bakıda bir atıcı diviziya təşkil edilmişdi (sonralar bu, 77-ci diviziya kimi məşhurlaşdı). 1925-ci ilin avqustunda Bakıda 12 təyyarədən ibarət qırıcı təyyarələr dəstəsi yerləşdirilmişdi.

1938-ci ilin sentyabrında Bakı hava hücumundan müdafiə hissələrində 2 zenit topları batareyası (hər birində 4 top) mövcud idi. Az sonra burada zenit artilleriyası divizionu yaradıldı. Həmin divizionun batareyalarından birinin komandiri H.E.Hüseynov 1943-cü ildə Bakıda yerləşən zenit artilleriya diviziyasının komandiri vəzifəsinə təyin edildi[30]. Göstərilən diviziya Bakıda 1941-ci ildə açılmış zenit artilleriya məktəbini qurtarmış zabitlər ilə təmin edilirdi.

---

[30] Бакинский округ ПВО. Б. 1974, s.51

1941-ci ilin fevralında Bakını havadan hərbi hücumlardan müdafiə etmək üçün üçüncü korpus yaradılmışdı. Bu korpusun 193-cü zenit artilleriya alayı Moskvanın 1941-ci ilin qışında müdafiəsində fəal iştirak etmişdir.

Azərbaycanda neft sənayesinin inkişafında fəal iştirak etmiş SSRİ-nin keçmiş neft sənayesi naziri N.K.Baybakov demişdir: “Faşizm üzərində qələbə üçün Azərbaycanın etdiklərini bəlkə də heç bir respublika etməmişdir[31]. Çünki 40-cı illərdə SSRİ-də çıxarılan 33 milyon ton neftin 23,5 milyon tonu Azərbaycanın payına düşürdü.

Faşist Almaniyasının İrana öz hərbi hissələrini çıxarmaq planının qarşısını almaq üçün 1941-ci il avqustun 25-də 44-cü Sovet Ordusu hissələri müvafiq Sovet-İran müqaviləsinə əsasən (2500 nəfərlik desant ordusu) Kaspi hərbi flotiliyası tərəfindən Bakıdan İranın Pəhləvi, Bəndərşah və Nouşəhr vasitəsilə 31 avqust gecəsi Xevi kəndi ətrafına (Astara limanının cənubunda) çıxarıldı. Həmin desant ilə eyni zamanda 77-ci milli Azərbaycan diviziyası da Kaspi sahili ilə hərəkət edərək, İran ərazisinə daxil oldu.

Müharibənin ilk iki ilində Kaspi dənizi Sovet İttifaqının Avropa hissəsinin Orta Asiya Respublikaları və İran ilə əlaqələndirən əsas yol idi. Qərbdən Şərqə köçürülən sənaye müəssisələri, əhalinin şərqə köçürülməsi Bakı-Krasnovodsk xətti ilə həyata keçirilirdi. 1942-ci ildə Kaspi dənizi donanması 1 milyon 255 min ton yük daşımışdı. Cəbhələrə dəniz yolu ilə müharibə illərində daşınan benzin isə 2 milyon 400 min tondan çox idi.

Almaniya hərbi komandanlığı Qafqazı zəbt etmək üçün hərbi əməliyyatları 1942-ci ilin 25 iyulunda başlamışdı və bu döyüşlər 14 ay davam edərək düşmənin məğlubiyyəti və geri çəkilməsi ilə qurtardı.

Faşist ordusu Mahaçqala-Kizlyar-Astraxan dəmir yolu xəttini zəbt etdiyi dövrdə Şimali Qafqaz ilə Zaqafqaziyanın nəqliyyat əlaqələri yalnız Kaspi dənizi vasitəsilə mövcud idi. Beləliklə, 1942-ci ilin 8 avqustundan Kaspi dənizi də hərbi əməliyyatlar meydanına çevrildi. Həmin dövrdə Bakı-Astraxan istiqamətində hərbi yüklərin daşınması (benzin, sürtkü yağları, silah və s.) getdikcə artırdı və liman düşmən təyyarələrinin zərbəsinə məruz qalırdı. Həmin dövrdə Bakının hava hücumlarından müdafiəsi xüsusi əhəmiyyət kəsb edirdi və Kaspi flotiliyasının zenit artilleriya qurğuları ilə təmin edilməsi gücləndirilmişdi.

1941-ci ilin sonunda Bakıda 75-ci dəniz atıcı briqadası təşkil edilmişdi. Həmin briqada Moskva altındakı döyüşlərdə və Kalinin cəbhəsində döyüşmüş və üçüncü qvardiya dəniz atıcı briqadası adına layiq görülmüşdü. Kaspi flotiliyası

[31] Xalq qəzeti, 10 mart 1999

1942-ci ilin 8 avqustundan hərbi vəziyyətə keçirildi və yuxarıda göstərilən 75-ci atıcı briqada Qafqazın müdafiəsi üzrə döyüşlərə cəlb edildi.

Qafqaz uğrunda döyüşlərdə rabitəçi-matros Qafur Məmmədov 1942-ci ilin 18-19 oktyabrında Kaçkanova kəndi yüksəkliyində apardığı döyüşlərdə 13 faşist avtomatçısını və bir minomyot heyətini məhv etdi və həmin döyüşdə komandirinə tuşlanan snayper atəşini öz bədəni ilə örtərək yüksək qəhrəmanlıq nümunəsi göstərdi. Bütün bu şüsaətinə görə ona Sovet İttifaqı Qəhrəmanı fəxri adı verildi.

Bakıda təşkil edilmiş dəniz atıcı briqadası da Qafqaz uğrunda döyüşlərdə fəal iştirak etmişdi. Kaspi flotiliyasının hərbi gəmiləri 1942-ci ildə şimala yükdaşıyan 1200 gəmini 216 dəfə hava hücumlarından müdafiə etmiş və düşmənin 6 bomba atan təyyarəsini vurmuşdu.

Stalinqrad və Şimali Qafqaz uğrunda döyüşlərin gərgin vaxtında Kaspi hərbi flotiliyası və nəqliyyat gəmiləri cəbhələrə 434472 nəfər döyüşçü və mülki şəxs, 791 tank, 46 təyyarə, 4458 maşın, 213257 ton silah və s. daşıdı. Bundan əlavə Kaspi vasitəsilə külli miqdarda yaralı döyüşçü və köçürülən əhali daşındı.

Qafqaz uğrunda döyüşlərin qızğın çağında Kaspi flotiliyasının qırıcı təyyarələri Bakı-Astraxan istiqamətində daşınan hərbi sursatın və cəbhə üçün yanacağın havadan müdafiəsini təmin edirdi. 422 gün davam edən bu döyüşlər zamanı Almaniya faşist ordusunun təyyarələri Zaqafqaziya istiqamətinə 7493 uçuş təşkil etmişdi. Bu təyyarələrdən 74-ü Bakı rayonuna çatmışdı və onlardan 8-i vurulmuş və yalnız 7-si Bakı səmasına çata bilmişdi.

II dünya müharibəsi illərində Bakının maşınqayırma zavodlarında cürbəcür minomyotlar hazırlanır, məşhur “katyuşa” üçün mərmilər istehsal edilirdi. Burada eləcə də tanklar təmin edilir, döyüş sursatı və cəbhə üçün digər ləvazimatlar hazırlanırdı.

Marşal A.A.Qreçko sonralar yazmışdı ki, Qafqazın müdafiəsi dövründə cəbhəyə Azərbaycandan tükənməz axın kimi yüksək keyfiyyətli benzin, silah, döyüş sursatı və ərzaqla dolu yük qatarları gəlirdi[32].

1941-45-ci illər müharibəsi dövründə cəbhələrdə düşmənə qarşı “Motorlar müharibəsi”ndə istifadə edilən benzin və digər yanacağın dörddə üçündən çoxunu Azərbaycan və onun paytaxtı Bakı vermişdi. Müharibə illərində Bakı cəbhə üçün 73 milyon ton neft məhsulları, 1 milyon 42 min ton təyyarə benzini vermişdi. Müharibə illərində hər üç təyyarə və tankdan ikisi Bakı nefti hesabına hərəkət edirdi.

Azərbaycan Prezidenti Heydər Əliyev demişdir: *“Tarix bu gün də, gələcəkdə də bilməlidir ki, İkinci Dünya müharibəsində, Böyük Vətən*

[32] А.А.Гречко, Битва за Кавказ, М., 1967, s.35.

*müharibəsində Azərbaycan Respublikasının xidməti, fəaliyyəti, rolu çox böyük olmuşdur".*

Göstərilən illərdə Bakının dəmir yolu və Xəzər dənizi donanması Orta Asiya Respublikalarında tikilən yeni müdafiə zavodları üçün avadanlıq daşıyan əsas nəqliyyat vasitəsi idi[33]. Xəzər dənizçiləri bütün yükləri düşmən bombardmanı altında daşıyırdılar.

Kaspi flotiliyası Qara dəniz donanması və Azov flotiliyası ilə birlikdə Taqanroq, Mariupol, Berdyansk, Yeysk, Temryuk və Kerç şəhərlərinin, bütün Krım yarımadasının faşistlərdən azad edilməsində fəal iştirak etmişdir.

Müharibənin sonrakı illərində Kaspi flotiliyası döyüşçüləri Dnepr flotiliyası tərkibində Rumıniyadan başlayaraq Berlinin alınmasına qədərki döyüşlərdə iştirak etmişdir. Bütövlükdə isə müharibə illərində Kaspi flotiliyasının 5 min nəfərdən çox döyüşçüsü hərbi əməliyyatlarda iştirak etmişdir.

Müharibə illərində Bakı eyni zamanda yaralı döyüşçülərin müalicəsi üçün böyük bir mərkəzə çevrilmişdi. Bütün respublikada yaralı əsgər və komandirlərin müalicəsinə qayğı və rəhbərlik üçün 1944-cü ilin yanvarında Xüsusi yardım komitəsi yaradılmışdı və bu komitəyə dövlət xadimi və professor Əziz Əliyev sədr təyin edilmişdi. Tam olmayan məlumata görə müharibə şəraitində Bakıda və Azərbaycanın digər yerlərində 441 min döyüşçü müalicə olunmuşdu.

## § 6. Müharibənin sonrakı mərhələlərində Azərbaycanlı zabit və əsgərlərin döyüş rəşadəti

1943-cü ilin yayında Almaniya faşist ordusu ilə ən ağır döyüşlər Kursk-Oryol rayonlarında və Belqorod ərazilərində baş verdi. Bu döyüşlərdə hər iki tərəfdən onlarla tank diviziyaları iştirak edirdi. 50 gün davam edən bu döyüşlərdə düşmənin 30 diviziyası darmadağın edildi. Kursk ətrafındakı döyüşlərdə rota komandiri qvardiya kapitanı İ.İlyasovun (Şamaxıda anadan olmuşdur) döyüşçüləri düşmənin tank batalyonuna və piyada alayına qarşı mübarizədə ən təhlükəli mövqedə idi. Batalyon komandiri həlak olduqda İ.İlyasov komandirliyi öz üzərinə götürdü. Döyüş 13 saat davam etdi və düşmənin dörd tankı və 800 əsgəri məhv edildi. Kursk ətrafındakı döyüşlərdə leytenant Osman Osmanov və Davud Quliyev, avtomatçı Hüseyn Əjdərov və digərləri xüsusilə fərqləndilər.

[33] История Второй Мировой войны, 1939-1945 гг. t. V, M. 1975, s.205

Ukraynanın düşməndən azad edilməsində 416-cı və 223-cü Azərbaycan Milli diviziyaları və 271-ci qarışıq tərkibli diviziyanın döyüşçüləri (böyük bir hissəsi azərbaycanlılardan ibarət idi) cəsarət və hünər göstərdilər. 223-cü diviziya düşməndən Ukraynanın 16 yaşayış məntəqəsini azad etdi.

Dneprin keçilməsində aparılan döyüşlərdə mayor Baxış Mehdiyev, leytenant Məlik Məhərrəmov, baş leytenant Səlahəddin Kazımov, Məhəmməd Məhərrəmov Sovet İttifaqı Qəhrəmanı adına layiq görüldülər. Kiyev şəhərinin düşməndən azad edilməsində xidmətlərinə görə batalyon komandiri, mayor Xıdır Mustafayev də Sovet İttifaqı Qəhrəmanı adına layiq görüldü.

1944-cü ilin qışında Sovet Ordusu Baltik dənizindən Qara dənizə qədərki bütün cəbhələrdə hücuma keçmişdi. Həmin hücumlarda əsas vəzifə Ukraynanın sağ sahilini, Belarusiyanı, Pribaltikanı, Krımı və Moldaviyanı azad etməkdən ibarət idi. Həmin ilin yanvarında Leninqradın mühasirəsi də ləğv edildi.

Qərbi Ukraynanın düşməndən azad edilməsində 416-cı Azərbaycan Milli diviziyası xüsusilə fərqləndi. 1944-cü ilin aprelində Odessa düşməndən azad edildi. Kirovoqrad və Kaxovka şəhərlərinin azad edilməsində 223-cü Azərbaycan milli diviziyasının döyüşçüləri fərqləndilər. 223-cü və 416-cı diviziyalar Kişinyov şəhərinin də azad edilməsində döyüşmüşlər. Krımın faşistlərdən təmizlənməsində 77-ci və 223-cü Azərbaycan Milli diviziyaları fəal iştirak etdilər.

Belarusiyanın azad edilməsində (1944-cü ilin yayı) Sovet İttifaqı Qəhrəmanı General-mayor Həzi Aslanovun komandir olduğu 35-ci tank briqadası böyük şücaət göstərdi. General Həzi Aslanovun tank briqadası Pribaltikanın da faşist ordusundan azad edilməsində qəhrəmanlıq nümunələri göstərdi və həmin döyüşlərin birində (1945-ci ilin 24 yanvarında) əfsanəvi general H.Aslanov həlak oldu. Təəssüflər olsun ki, onun layiq görüldüyü ikinci dəfə Sovet İttifaqı Qəhrəmanı adını xalqımıza qənim kəsilmiş düşmən qüvvələr gizlətdilər və bu ad ona ölümündən çox sonra 1990-cı ildə verildi.

77-ci Azərbaycan milli diviziyası 1944-cü ildə Pribaltikanın azad edilməsində fəal iştirak etmişdir. Təyyarəçi kapitan Adil Quliyev səmada düşmənlə keçirdiyi 54 döyüşdə faşistlərin 18 təyyarəsini məhv etmişdi və ona 1945-ci ilin fevralında Sovet İttifaqı Qəhrəmanı adı verildi.

Belə cəsur komandirlərdən biri də Dnepr sahillərindən Vyanaya qədərki məsafədə iki il ərzində aparılan ağır döyüşlərdə 78-ci atıcı diviziyanın 453-cü alayına komandirlik etmiş qvardiya polkovnik Əşrəf Gəncəli oğlu Məmmədov (Mərəzə rayonunun Mərəzə kəndində 1904-cü ildə dünyaya göz açmışdı) olmuşdur. O, 1942-ci ildə məşhur 416-cı diviziyanın siyasi-komissarı təyin edilmişdi və 1943-cü ilin iyunundan 78-ci diviziyada alay komandiri vəzifəsinə göndərilmişdi. Cəsur komandir Əşrəf Məmmədov (1904-1979) 7 hərbi orden və 13 döyüş medalı ilə təltif edilmişdir.

Hərbi döyüş rəşadətinin ən yüksək nümunələri sırasına geniş hücum əməliyyatına mane olan düşmən atəşini susdurmaq üçün həmin atəş yerini son anda öz bədəni ilə örtərək, hücum əməliyyatı üçün şərait yaratmaq kimi çox yüksək fədakarlıq və şəhidlik əzmi daxildir. Azərbaycanlı döyüşçülərdən qvardiya serjantı Gəray Əsədov, matros Qafur Məmmədov bu qəhrəmanlıq nümunəsini təkrar etdilər. Berlinə Qələbə bayrağı sancılması günlərində həlak olan və Sovet İttifaqı Qəhrəmanı adına layiq görülən döyüşçülər içərisində Azərbaycanlı Məstan Əliyev də vardır.

Yuxarıda göstərilən Milli diviziyalardan əlavə müharibə illərində 151-ci, 271-ci, 275-ci, 295-ci, 319-cu, 320-ci qarışıq milli tərkibli diviziyalarda da külli miqdarda Azərbaycanlı döyüşçülər düşmənlə mübarizədə qəhrəmanlıq nümunələri göstərmişlər[34]. Bu diviziyaların əksəriyyəti Azərbaycanda təşkil edilmişdir.

Bütün bunlardan əlavə Azərbaycanlı döyüşçülər Sovet Ordusunun digər diviziya və polklarında da xidmət etmiş və döyüşlərdə xalqına layiq qəhrəmanlıq nümunələri göstərmişlər[35].

## § 7. Azərbaycanlı döyüşçülərin faşizmə qarşı partizan və müqavimət hərəkatlarında iştirakı

Almaniya faşist ordusunun işğal etdiyi Sovet ərazilərində partizan müharibəsinin təşkili haqqında göstəriş ölkənin ali partiya orqanı xəttilə 1941-ci ilin 18 iyulunda qəbul edilmiş qərarda nəzərdə tutulmuşdu. Sovet Məlumat Bürosunun 1941-ci il 5 iyul xəbərində deyilirdi: “Düşmən tərəfindən zəbt edilən ərazilərdə kortəbii kütləvi partizan hərəkatı baş verir”. Partizan dəstələrinin tərkibinə mühasirəyə düşmüş döyüşçülərin bəziləri də daxil ola bilirdilər. İşğal olunmuş Sovet ərazilərində 1941-ci ilin sonunda 3500 partizan dəstəsi və qrupu mövcud idi. Onların gizli fəaliyyətinə 800 şəhər və rayon partiya komitəsi rəhbərlik edirdi.

Sovet hökumətinin 1942-ci il 27 aprel tarixli notasında faşistlərin partizanlara qoşulmuş döyüşçülərə qarşı tətbiq etdikləri ağır işgəncələr haqqında beynəlxalq ictimaiyyətə xəbər verilmişdi və burada adları çəkilənlər içərisində azərbaycanlı Cəfər İsmayılzadə, Əlibəy Quluzadə, İslam Məmmədəli oğlu, Əsgər Mustafa oğlunun da adı var idi (Bax: “Pravda”, 28 aprel 1942).

---

[34] Bax: Ф.Е.Боков, Бессмертный подвиг сынов Азербайджана, Б.1971
[35] Bax: Герои Советского Союза - сыны Азербайджана, Б. 1965

Ukraynanın Xarkov vilayəti ərazisində 1942-ci ilin yanvarında faşist ordusuna qarşı mübarizə aparan 57-ci ordunun batalyonlarından birinin komissarı Vəli Hüseyn oğlu Axundov (Azərbaycan Respublikası Ali Sovetinin deputatı idi) batalyon ilə birlikdə mühasirəyə düşdükdə qərara gəldi ki, döyüşə-döyüşə mühasirədən çıxaraq xırda hissələrlə partizan dəstələrinə qoşulsunlar. Bu yol ilə Vəli Axundov mühasirədən çıxaraq, Aleksandr Matveyeviç adı ilə yaxın ərazidə aqronom vəzifəsində işləməyə başladı. "Pan aqronom" Ukraynanın Lazovoy dəmir yol qovşağı ətrafında təşkil edilmiş gizli antifaşist dəstələrə rəhbərlik edirdi. Həmyerlimiz xeyli hərbi əsirin faşist düşərgəsindən qaçmasını təşkil etmişdi. V.Axundovun komissar olduğu partizan dəstəsi 1943-cü Sovet ordusu hissələri ilə birləşir və 1943-cü ilin yayında birgə aparılan döyüşlərin birində qəhrəmancasına həlak olur və ölümündən sonra "İgidliyə görə" medalı ilə təltif edilmişdir. Həmyerlimizin ölməz obrazı V.Milyuxa və Q.Qalkinanın "Komendant saatı" pyesində öz təcəssümünü tapmışdır və bu əsər Xarkov Akademik Dram teatrında dəfələrlə tamaşaya qoyulmuşdur[36].

1942-ci ildə yenə də Ukraynada partizan hərəkatına qoşulmuş Azərbaycanlı döyüşçü Aslan Əliyev iki dəfə Sovet İttifaqı qəhrəmanı Sidor Kovpakın rəhbərlik etdiyi partizan dəstəsinin rabitəçisi olmuşdur. Faşist ordu dəstələri ilə növbəti döyüşlərin birində həlak olan Aslan Əliyevin məzarı üstündəki nitqində S.Kovpak onu "əsil qəhrəman" adlandırmışdı. Aslan Əliyev ilə birgə partizanlara qoşulan və sonralar Belarusiya torpaqlarında döyüşən Babaş Dadaşovun qəhrəmanlıqları haqqında Səməd Vurğun "Partizan Babaş" adlı şer yazmışdır. Babaş Dadaşova Çerniqovun fəxri vətəndaşı adı verilmişdir.

Sonrakı illərdə S.Kovpakın rəhbərliyi altında döyüşən Sumsk partizan bölgəsi tərkibində Qafar Əliyev, Əsəd Əliyev, Mehdi Əliyev, Həsən Quliyev, Xanoğlan Kərimov, Firudin Rzayev və başqa Azərbaycanlılar döyüşmüşlər.

Mayıl Alıcanovun "Azərbaycan döyüşçülərinin partizan hərəkatında iştirakı" kitabında Əli Dadaşovun, Xanlar Babanlının, Nadir Teymurzadənin, İsmayıl Nəbiyevin, Məmməd Əliyevin, Aslan İbadovun, Mirzəli Hacıyevin, Alfa Əli qızı Şirazinin, Sara İbrahimovanın, Əlimərdan Əlimərdanovun, Məmməd Axundovun, İzzətulla Nəsrullayevin, Hümmət Namazovun, İbrahimxəlil Məmmədovun, Ələkbər Əliyevin, Məmməd Məmmədovun, İsa Hüseynovun, Məzahir Hənifəyevin, Musa Əliyevin, Zəfər Qədimovun, Qara Qurbanovun, Hacı Hüseynovun, Məmməd Əliyevin, Sahib Hacıyevin, Hacı Qafarovun, Niyazi Axundzadənin, Mövlud Süleymanovun, Aliyə Rüstəmbəyovanın, Şəfahət

---

[36] Mayıl Alıcanov, Azərbaycan döyüşçülərinin partizan hərəkatında iştirakı, Bakı, 1975, s.55-59

Şükürovun, İsmayıl Əliyevin, İsmayıl Ağalarovun, Ağahüseyn Əliyevin, İsgəndər Alxasovun Rusiya Federasiyası, Ukrayna, Belarusiya və Pribaltika ərazilərində 1941-1944-cü illərdə partizan hərəkatında fəal iştirakları haqqında məzmunlu oçerklər verilmişdir.

Kapitan İsmayıl Əliyev 1942-ci ilin oklyabrında Kalinin vilayətində təşkil edilmiş partizan briqadasının ştab rəisi işləmiş və 1943-cü ilin aprelinə qədər düşmənə qarşı təşkil edilmiş bir çox əməliyyatlara rəhbərlik etmişdir. Cəsur həmyerlimiz həmin ilin 23 aprelində rəhbərlik etdiyi döyüşdə həlak olmuşdur.

Smolensk ətrafında fəaliyyət göstərən partizanlar içərisində hərbi həkim Aliyə Rüstəmbəyova 1942-ci ildə "Deduşka" adlı dəstədə fəaliyyət göstərmiş və həmin ilin payızında döyüşdə həlak olmuşdur.

Krasnadon şəhəri ətrafında təşkil edilmiş "Gənc qvardiya" partizan dəstəsi rəhbərliyi tərkibində Azərbaycanlı Əli Nəsrulla oğlu Dadaşov da olmuşdur və o, 1943-cü ilin 15 yanvarında öz yoldaşları ilə birlikdə vəhşicəsinə qətl edilmişdir.

Alfa Əli qızı Şirazinin (1925-1943) atası Əli Bağır oğlu Moskvada işləmiş və atası vəfat etdikdən (1927) sonra o, anası ilə Rostov şəhərinə köçmüşdür. Alman faşist ordusu Rostovu ikinci dəfə (1943-cü ilin əvvəlində) işğal etdiyi zaman Alfa partizan hərəkatına qoşulmuş və Ukraynanın Pavlovka kəndində olan Sovet partizan dəstəsində faşist işğalçılarına qarşı döyüşmüş və döyüşlərin birində (1943-cü il) həlak olmuşdur. Göstərdiyi hərbi sücaətə görə o, "Vətən müharibəsi" ordeni ilə təltif edilmişdir.

1943-cü ilin yayında Krımda fəaliyyət göstərən partizan dəstələri içərisində Azərbaycan partizan dəstəsi də var idi. Sonrakı illərdə Belarusiya torpaqlarında və Pribaltika Respublikalarında da Azərbaycanlı partizanlar düşmənə qarşı mübarizədə geniş miqyasda iştirak etmişlər.

Azərbaycanlılardan Ukrayna torpaqlarında faşistlərə qarşı mübarizədə 5000 nəfərə qədər, Belarusiya torpaqlarında isə 1000 nəfərə qədər döyüşçü partizan dəstələrində fəal iştirak etmişlər[37].

Azərbaycanlı döyüşçülər partizan dəstələri tərkibində Avropanın bir neçə ölkəsində faşizmə qarşı müqavimət hərəkatında fəal iştirak etmişlər.

Sovet ordusunun 1943-cü ildə böyük qələbələri Hitler Almaniyası ordusu tapdağında olan Avropa ölkələrində antifaşist müqavimət hərəkatını daha da gücləndirmişdi.

Hələ 1942-ci ilin yayında Polşanın Yedlin şəhərində Azərbaycanlı əsirlərin gizli antifaşist təşkilatı yaradılmışdı. Onun təşkilatçıları Hadı Qiyasbəyov,

---

[37] Ə.Mədətov, Azərbaycan Böyük Vətən müharibəsində, B.1975 s.268-293.

Mirzəxan Məmmədov, İsmayıl Heydərov və digərləri olmuşdu. Həmin təşkilat hərbi əsirlər arasında 1942-ci ildə 3000-dən çox antifaşist məzmunlu vərəqə yaymışdı.

Fransanın Rodez rayonu yaxınlığında 1943-cü ilin sentyabr-oktyabrında saxlanılan Azərbaycanlı hərbi əsirlər qrupuna rəhbərlik edən həkim Şahbazov və feldşer Tağı Quliyev yerli (fransız) partizan dəstəsi ilə əlaqə yaradaraq tərtib etdikləri antifaşist ruhlu vərəqələri fransızca, rusca və Azərbaycan dilində geniş yayırdılar. Faşistlər tərəfindən həbs edilərək ölüm cəzasına məhkum edilmiş Şahbazov özünün qətli ərəfəsində (06.10.43) döyüş yoldaşlarına müraciət edərək demişdi: "Mənim əziz dostlarım!... faşizmə qarşı mübarizəni onun darmadağın edilməsinə qədər davam etdirin!...[38]

SSRİ-yə qarşı "İldırım sürətli müharibə"ni başlayanda Almaniyada hərbi əsirlər üçün 28 düşərgə vardısa, 1944-cü ildə onların sayı 85-ə çatdırılmışdı[39].

1943-cü ildən başlayaraq Almaniya hərbi rəhbərliyi Sovet əsirlərinin böyük bir hissəsini Avropada zəbt etdikləri ərazilərdə (Polşa, Fransa, Yuqoslaviya, İtaliya) yerləşdirmişdilər. Burada əsas məqsədlərdən biri həmin əsirlərdən yerli partizanlara qarşı mübarizədə istifadə etmək idi.

1943-cü ildə Berlində "Şərq Xalqları Nazirliyi" təşkil edilmişdi. Bu nazirliyin əsas məqsədi əsirlərdən təşkil edilmiş milli legionları Sovet ordusuna qarşı mübarizəyə hazırlamaq idi.

Mətbuatda verilən məlumatlara görə (rəsmi məlumatlar yoxdur) II dünya müharibəsi illərində Sovetlər İttifaqı vətəndaşlarından Yuqoslaviyada 6000 nəfər, Polşada 12000 nəfər, İtaliyada 5000 nəfər, Fransada 3000 nəfər, Belçikada 800 nəfər hərbi əsir və mülki şəxs partizan hərəkatında iştirak etmişdir.

Polşanın Yedlino stansiyasında 500 nəfərdən ibarət 5 taborlu "Azərbaycan milli legionu" təşkil edilmişdi. Lakin faşist komandanlığının bu tədbiri heç bir nəticə vermədi.

1943-cü ilin payızında Krım yarımadasında Feodosiya şəhəri yaxınlığında yerləşən və tərkibi əsasən Azərbaycanlı əsirlərdən ibarət olan 804-cü və 806-cı taborların şəxsi heyəti də yerli partizanlarla əlaqə yaradaraq Sovet ordusu komandanlığının əmrlərini yerinə yetirəcəklərini bildirmişdilər. Eyni zamanda bəllidir ki, Azərbaycan legionunun 805 saylı taborunun bir qrup döyüşçüsü 1944-

---

[38] Q.Ə.Mədətov, Azərbaycan Böyük Vətən müharibəsində (rus dilində) B. 1975, s.34.

[39] Бакинский рабочий, 22 iyun 1957.

cü ildə Ukrayna partizan hərəkatına qoşularaq Mir Cəfər Bağırov adına partizan dəstəsi yaratmışdı[40].

Azərbaycanlı döyüşçülər özlərindən asılı olmayaraq mühasirə vəziyyətində əsir düşdükdən sonra da Avropa ölkələrində faşizmə qarşı müqavimət hərəkatı çərçivəsində mübarizələrini davam etdirmiş və öz millətinin adını Azərbaycandan çox uzaqda şöhrətləndirmişlər:

Azərbaycanlı hərbi əsirlərin bir dəstəsi 1943-cü ilin oktyabrında İtaliyanın şimalına gətirilmişdi. Həmin ilin sonunda Triyest vilayətinin Udine şəhərində yerləşdirilmiş Azərbaycanlı əsirlərdən 45 nəfər qaçaraq yerli partizanlarla birləşdilər. 1944-cü ilin fevralında təşkil edilmiş böyük partizan dəstəsinin komandiri Cavad Həkimli, komissarı isə Mehdi Hüseynzadə idi. Onların rəhbərliyi altında yaradılmış təxribat qrupuna Mirdaməd Seyidov, Tağı Əliyev, Ənvər Məmmədov və alman antifaşisti Qans Frits daxil idi. Adriatikanın uzaq sahillərində partizan Mixaylonun (Mehdi Hüseynzadənin) əfsanəvi qəhrəmanlıqları "Uzaq sahillərdə" kinofilmində geniş təsvir edilir.

Əfsanəvi partizan **Mehdi Hənifə oğlu Hüseynzadə** (1918-1944) vətəndən uzaqlarda - Adriatika sahillərində, İtaliya və Yuqoslaviya partizanları ilə birlikdə faşizmə qarşı mübarizədə öz xalqının adını bütün dünyada ucaltdı.

Leytenant Mehdi Hüseynzadə bir müddət 223-cü Azərbaycan Milli diviziyasında xidmət etmiş, Stalinqrad ətrafındakı şiddətli döyüşlərin birində ağır yaralanaraq əsir düşmüşdür. O, Polşa, İtaliya və Yuqoslaviyada hərbi əsir düşərgələrində olmuş və Yuqoslaviyada əsirlərin faşist hərbi dəstələri ilə mübarizəsində böyük rəşadət və mahir təşkilatçılıq nümunələri göstərmişdir. 1944-cü ilin əvvəlində əsirlikdən qaçaraq Yuqoslaviya partizanlarına qoşulmuş və 9-cu partizan korpusunun 31-ci diviziyasında diversiya qrupunun rəhbəri olaraq ən çətin tapşırıqların icrasında iştirak etmişdir. Bu tapşırıqlar isə faşist hərbi hissələrin arxasında hərbi eşelonları partlatmaq, hərbi qüvvələri məhv etməkdən ibarət idi.

Mehdi Hüseynzadə 1944-cü ilin 16 noyabrında Sloveniyada faşistlərlə döyüşdə sonuncu gülləsini öz ürəyinə vuraraq həlak oldu və partizanlar tərəfindən dəfn edildi. Onun qəbri üstündə yazılmışdır: "Rahat yat, bizim əziz Mehdimiz, Azərbaycan xalqının qəhrəmanı, azadlıq uğrunda sənin böyük hünərin sənin dostlarının ürəyində həmişə yaşayacaqdır".

1942-44-cü illərdə Azərbaycanlı əsirlər Polşanın Yedlino şəhərində, Fransanın Rodez şəhərində, İtaliyanın Udins şəhərində gizli antifaşist təşkilatları yaratmışlar. Bu təşkilatlar əsirlər arasında antifaşist məzmunlu vərəqələr yayırdı.

---

[40] Bax: Ayna qəzeti, 7 dekabr 1996-cı il

Rodez şəhərində yerləşən azərbaycanlı əsirlər özləri üçün "Azrodez" sözünü parol qəbul etmişdilər. Rodeziyada yerləşən antifaşist düşərgəsi Fransa Kommunist partiyası Mərkəzi Komitəsi ilə əlaqə yarada bilmişdi. Burada olan azərbaycanlı əsirlərdən 52 nəfərini faşistlər vəhşicəsinə qətlə yetirmişdilər. Nəhayət 1944-cü ilin 17 avqustunda fransız və Azərbaycanlı partizanları Rodezi faşistlərdən azad edə bildilər.

Rodezdə mübarizə aparan Azərbaycanlı partizanlardan biri də **Əhmədiyə Mikayıl oğlu Cəbrayılov** olmuşdur. Əhmədiyə Cəbrayılov 1942-ci ilin mayında Donbasda faşist ordusuna qarşı aparılan qanlı döyüşlərin birində ağır yaralanaraq əsir düşmüş və Fransa ərazisindəki əsirlər düşərgəsinə aparılmışdır. Həmin ilin noyabrında o, əsirlikdən qaçaraq Fransa müqavimət hərəkatı iştirakçılarına qoşulmuşdu. Əhmədiyə Cəbrayılov 3 il ərzində Fransa partizanları ilə birlikdə faşistlərlə mübarizə aparmış və bu xidmətlərinə görə o, Fransanın 8 orden və medalı ilə təltif edilmişdir. 1944-cü ilin 20 avqustunda Paris şəhəri faşistlərdən azad edildikdə mitinqdə Əhmədiyə Cəbrayılov da çıxış etmişdir. Ona Fransanın milli qəhrəmanı adı verilmişdir[41].

Fransada 1944-cü ildə fəaliyyət göstərən birinci Sovet partizan alayında 200 nəfərə qədər azərbaycanlı olmuşdur. Həmin alayın bir bölməsinin komandiri Azərbaycanlı Xalaf Hacıyev idi. Bölmənin faşistlərə qarşı həyata keçirdiyi uğurlu hərbi əməliyyatlara görə X.Hacıyev Fransanın 4 orden və medalı ilə təltif edilmişdir.

Fransa müqavimət hərəkatına Əhmədiyə Cəbrayılovdan əlavə Əliyev Ənvər Cəlal oğlu (Bakı), Mürsəlov Məmmədtağı Xanbaba oğlu (Bakı), Kərimov Mətanəli Dadaş oğlu (Bakı), Süleymanov Abdulla Ramazan oğlu (Bakı), Haməddin Hacımuradov (Xudat), Seyfəddin Qazanbəyov və Cəbrayıl Mürsəlov (Qusar), Əmir Quliyev (Xaçmaz), Ənvər Həsən oğlu Rüstəmov (Bakı), Əşrəf Səməd oğlu Əşrafov (Bakı), Xalid Hacıyev (Göyçay), Fərhad Kərimov (Siyəzən), Daniyal Abdulla oğlu Abdullayev (Balakən), Nuru Mahmud oğlu Abdullayev (Şəki), Eynulla Səfərov (Ağdaş) da iştirak etmişlər.

Fransa müqavimət hərəkatında vaxtilə iştirak etmiş üç nəfər Azərbaycanlı (Qədir Süleymanoğlu, Tofiq Tağıyev, Qüdrət Bəkirzadə) indi də Parisdə yaşayırlar və oradakı "Azərbaycan evi" adlı cəmiyyətdə fəal iştirak edirlər.

---

[41] Mehdi Hüseynzadə və Əhmədiyə Cəbrayılovun müqavimət hərəkatında iştirakları haqqında müəllifin "Dünya Azərbaycanlıları XX əsrdə" kitabında (B. 1997) müfəssəl məlumat verilmişdir (s.31-32).

Şimali İtaliyada partizan dəstələrinin tərkibində 300 nəfərdən çox Azərbaycanlı partizan mübarizə aparırdı. Burada Azərbaycanlı əsirlər dəstəsinə rəhbərlik edən Həmzə Əsgərov (1944-cü ilin payızı) Betola qəsəbəsi yaxınlığındakı döyüşdə qəhrəmancasına həlak olmuşdur. Onun qəbirüstü daşında "Azərbaycanlı Həmzə Betola uğrunda döyüşlərdə misilsiz döyüş qabiliyyəti və hünər göstərmişdir" sözləri yazılmışdır.

İtaliya müqavimət hərəkatında eləcə də partizan batalyonu komandiri Əli Babayev, Şahbaba Məhərrəmov, Məhərrəm Nəcəfov, Əlisa Qasımov, Xançoban Cəfərov və digərləri iştirak etmişlər.

Tanınmış yazıçı-publisist Süleyman Vəliyev 1939-cu ildən Sovet ordusunda xidmət etmiş, qərbi Ukraynada aparılmış hərbi əməliyyatlarda (1939) və Böyük Vətən müharibəsi dövrü Ukrayna və Krımda döyüş əməliyyatlarında iştirak etmişdir. Onun əsirlik dövründə müqavimət hərəkatında iştirakı çox ağrılı və uzun olmuşdur: "Vətənlə yol" adlı povestində (Литературный Азербайджан, 1961, № 9, s. 111-132), bu yolun Almaniya-Fransa-Avstriya-Yuqoslaviya-İtaliyadan, sonra isə Misir, İran və İraqdan keçdiyi nəql edilir. S.Vəliyev İtaliyada C.Qaribaldi adına partizan dəstəsində döyüşmüşdür.

Polşada müqavimət hərəkatında Zeynal Zeynalov və Həsən Novruzov (Rodan şəhəri yaxınlığında), Yuqoslaviyada Rza Orucov, Slavakiyada Hümbət Namazov və digərləri geniş fəaliyyət göstərmişlər.

Faşizmə qarşı ölüm-dirim döyüşünə Alman faşizminin yuvasında - Buxenvald ölüm düşərgəsində antifaşist təşkilatına rəhbərlik etmiş Əkbər Ağayevin qəhrəmanlığı xüsusi əhəmiyyət kəsb edir və bu haqda geniş yazılmışdır.

Hazırda ömür sürən iki antifaşist-partizan, İtaliyada müqavimət hərəkatı iştirakçısı haqqında bir qədər geniş:

**Məmməd Səməd oğlu Bağırov** 1920-ci ildə İsmayıllı rayonunun Basqal kəndində doğulmuşdur: II dünya müharibəsi cəbhələrində bu qədim kənddən 100 nəfərdən çox döyüşçü həlak olmuşdur.

Məmməd Bağırov 1944-cü ilin sentyabrında İtaliyada Umberto Fantaççi adına beynəlmiləl partizan dəstəsi tərkibində faşizmə qarşı mübarizə aparmışdır. Həmin dəstədə 20 millətin nümayəndəsi mübarizə aparırdı və onlar İtaliyanın Piston şəhərini faşistlərdən azad etmişdi. Hazırda leytenant Məmməd Bağırov öz kəndində hərbi vətənpərvərlik fəaliyyəti istiqamətində geniş muzey təşkil etmişdir. O, Cüzeppe Qaribaldi adına qızıl medalla təltif edilmişdir, İtaliya partizanları Assosiasiyasının fəxri üzvüdür, İtaliya hökumətinin bir neçə yüksək mükafatlarına layiq görülmüşdür.

**Tahir İsayev** Qazax rayonunda Şıxlı kəndində 1922-ci ildə dünyaya göz açmışdır. Müharibə cəbhəsində Mazdokun altındakı ağır döyüşlərdə yaralanaraq əsir düşmüş və Avstriyadakı əsir düşərgəsindən böyük əziyyətlərlə İtaliyaya

keçərək Berqamo şəhəri yaxınlığında partizan dəstəsinə daxil olmuşdu. Həmyerlimiz leytenant Serafimo adı altında partizanlıq etmiş və 1945-ci ilin 25 aprelində Milan şəhərinin faşistlərdən təmizlənməsi üsyanında qəhrəmanlıq göstərmişdir. Ona "Qaribaldi ulduzu" və "Milli bayraq" ordenləri verilmişdir. Şıxlı kəndində olan muzeydə onun haqqında geniş material vardır.

Belə partizanlardan biri də hazırda Bakı şəhərinin Nəsimi rayonunda yaşayan **Cəfərov Xançoban Bayram oğludur.** 1919-cu ildə Ermənistanın Qokark rayonunun Gözəldərə kəndində dünyaya göz açmış serjant Xançoban Cəfərov 1943-cü ilin iyununda Leninqrad ətrafındakı döyüşlərin birində əsir düşərək Almaniya (Hamburq) və Fransa əsir düşərgələrindən sonra İtaliyanın Pyaçensa şəhərində (13 A zonasında) əsirlər üçün olan düşərgədə 1946-cı ilədək yaşamışdır.

1947-ci ildə Vyanadan Budapeştə, oradan da Lvova gələrək, doğulduğu yerə buraxılmışdır. (Xarici ölkələrdə olması haqqında "Patriot haqqında № 144 vəsiqə" - Pyaçensa şəhəri divizionunun komendantlığının komissarı tərəfindən verilmişdir və müvafiq qeydiyyatlar vardır). Avropada faşist düşərgələrindən canını qurtarmış Xançoban Cəfərov erməni faşistləri tərəfindən öz doğma Gözəldərə kəndindən 1988-ci ildə vəhşiliklə qovulmuşdur və indi Bakıda yaşayır.

## § 8. Böyük Vətən Müharibəsi illərində "Sovet İttifaqı Qəhrəmanı" və "Şöhrət" ordeninin üç dərəcəsi ilə təltif edilmiş Azərbaycanlılar

Azərbaycanda dünyaya göz açmış vətəndaşlardan müharibə illərində 123 nəfər "Sovet İttifaqı Qəhrəmanı" fəxri adına layiq görülmüş, 34 nəfər isə "Şöhrət" ordeninin hər üç dərəcəsi ilə təltif edilmişlər. Müharibə dövrünün bu qəhrəmanları haqqında nəşr edilmiş məcmuə və yazıların əksəriyyəti rus dilində olmuşdur və bunların da hamısı indi yalnız kitabxanalarda qalmışdır.

Müstəqil Azərbaycan dövləti ordusunun döyüşçüləri və bütün gənclərimiz üçün həmin qəhrəmanlar haqqında tərtib edilmiş bu qısa oçerklər şəklində yığcam məlumatlar onların hərbi vətənpərvərlik ruhunda tərbiyəsi işində xüsusi əhəmiyyət kəsb edir.

**ASLANOV Həzi Əhəd oğlu**
(1910-1945)
***iki dəfə "Sovet İttifaqı Qəhrəmanı",***
***tank qoşunları General-Mayoru***

Həzi Əhəd oğlu Aslanov Lənkəranda dünyaya göz açmış və böyümüş, Bakı və Peterburq məktəblərində təhsil almışdır. 1929-cu ildə hərbi xidmətə başlamış, Sovet-Finlandiya müharibəsində iştirak etmişdir.

Alman faşizminin SSRİ-yə 1941-ci ilin 22 iyununda müharibə başladığı ilk günlərdə kapitan Həzi Aslanovun komandir olduğu tank batalyonu Lvov yaxınlığında yerləşirdi və faşistlərlə ilk döyüşü Zoloçev adlı yerdə başladı.

1941-ci ilin son aylarında Moskva ətrafındakı döyüşlərdə hərbi təşkilatçılıq bacarığı və şəxsi igidliyinə görə ona podpolkovnik rütbəsi verildi. Onun hərbi sərkərdəlik sahəsində xüsusi məharəti 1942-ci ilin 15-19 dekabrında Stalinqrad uğrunda vuruşlarda özünü bir daha göstərdi.

Stalinqrad şəhəri uğrunda vuruşlar zamanı polkovnik Həzi Aslanovun komandir olduğu 55-ci tank alayı Verxni-Kumskda general-feldmarşal Manşteynin ordu birləşmələrinin arası kəsilmədən təşkil etdikləri hücumların qarşısını alan hissələrdən biri olmuşdur. Həmin vuruşlara görə Həzi Aslanova 1942-ci ilin 22 dekabrında Sovet İttifaqı Qəhrəmanı fəxri adı verilmişdir.

1943-cü ilin payızında 35-ci Qvardiya tank briqadasının şəxsi heyəti aldığı yeni texnika ilə döyüşlərə hazırlaşdığı dövrdə polkovnik H.Aslanov Moskvada Zirehli tank və motorlu qoşunlar akamiyasına təhsilə göndərilir. Akademiyanı bitirmək ərəfəsində, 13 mart 1944-cü ildə ona general-mayor rütbəsi verilir. Tank qoşunları qvardiya general-mayor hərb təcrübəsində "cinahlardan zərbə vurmaq taktikasının" mahir ustası kimi tanınmış sərkərdədir və bu sahədə hərb elmini zənginləşdirmişdir. Yalnız 1944-cü ildə onun adı Ali Baş Komandan İ.V.Stalinin qələbə münasibəti ilə verdiyi əmrlərdə 8 dəfə çəkilmişdir.

General-mayor Həzi Aslanova ikinci dəfə Sovet İttifaqı Qəhrəmanı adı verilməsi materialları həmin müharibə illərində də xalqımıza düşmən olan qüvvələr tərəfindən gizlədilmişdi və ona ikinci dəfə "Sovet İttifaqı Qəhrəmanı" adı 1990-cı ildə verildi.

Görkəmli hərbi sərkərdə, iki dəfə Sovet İttifaqı Qəhrəmanı, qvardiya general-mayor Həzi Aslanov 1945-ci ilin 24 yanvarında (faşizm üzərində qələbəyə üç ay yarım qaldığı bir vaxtda) Yelqava  şəhəri (Litva) yaxınlığındakı vuruşda qəhrəmancasına həlak olmuşdur. Döyüşlərdə komandirlik rəşadətlərinə və şəxsi igidliklərinə görə o, 11 orden və bir sıra hərbi medallarla təltif edilmişdir.

Bakıda Dağüstü parkda dəfn edilmişdir. Bakıda zabitlər evi, Volqoqradda küçə, Bakı və Volqoqradda məktəb və tanker onun adını daşıyır. Lənkaranda ev

xatirə muzeyi yaradılmışdır. Onun adı təhsil aldığı Bakı Ümumi Ordu Komandirləri Məktəbinin I rotasının şəxsi heyətinin siyahısına əbədi olaraq daxil edilmişdir.

**Sovet İttifaqı Qəhrəmanı, akademik**
**BÜNYADOV Ziya Musa oğlu**
(1921-1997)

Azərbaycanın Astara şəhərində dünyaya göz açmış və 1939-cu ildə hərbi xidmətə çağırılmışdır. 1941-ci ildə Bakıda hərbi məktəbi qurtarmış və 1942-ci ilin avqustunda 5-ci Zərbə Ordusu tərkibində (I Belarus cəbhəsi) olan xüsusi atıcı rotaya komandir göndərilmişdir.

1945-ci ilin 14 yanvarında kapitan Ziya Bünyadovun rotası Pilitsa çayını keçərək, körpünü müdafiə etmiş və arxadan gələn Sovet ordu hissələrinin körpünü keçərək hücumu genişləndirməsini təmin etmişdir. Bu döyüşdə kapitan Ziya Bünyadovun rotası 100 nəfərdən çox düşməni məhv etmiş və 45 nəfərini əsir götürmüş, 5 mina atan və 3 top qənimət götürmüşdür. Bu döyüşə görə ona 1945-ci ilin 27 fevralında Sovet İttifaqı Qəhrəmanı adı verilmişdir.

Podpolkovnik Ziya Bünyadov 1946-cı ildə orduda xidmətdən tərxis edilmiş və elmi işdə böyük uğurlar qazanmışdır. Moskvada Şərqşünaslıq İnstitutunu qurtardıqdan sonra (1950) Azərbaycan Respublikası Elmlər Akademiyasının müxbir üzvü və həqiqi üzvü (1969) seçilmiş, uzun illər Akademiyanın Şərqşünaslıq İnstitutunda direktor və Akademiyanın Vitse Prezidenti vəzifələrində işləmişdir.

Akademik Ziya Bünyadov şovinist erməni tarixçilərinin çoxsaylı saxtakarlıqlarını təkzibedilməz elmi faktlarla ifşa etmiş, onların Azərbaycan torpaqlarına sahib olmaq iddialarının əsassızlığını, Ermənistanın hazırki ərazisində vaxtilə azərbaycanlıların əcdadlarının yaşadığını elmi əsərlərində sübut etmişdir.

Azərbaycanda tarix elminin totalitarizm buxovundan azad edilməsi, Azərbaycan Demokratik Respublikası (1918-1920) tarixinin öyrənilməsi, siyasi repressiya qurbanlarına bəraət verilməsi üçün lazımi sənədlərin axtarılıb tapılması sahəsində onun elmi axtarışları vətəndaşlıq mövqeyinin təntənəsidir. Azərbaycanda tarix elmi və şərqşünaslıq sahəsində əldə edilmiş nailiyyətlərin böyük bir hissəsi akademik Ziya Bünyadovun adı ilə bağlıdır. “60-70-ci illərdə Ermənistan millətçi və separatçı qüvvələri tərəfindən Qafqaz tarixinə aid, o cümlədən Ermənistan-Azərbaycan tarixinə dair cürbəcür və tariximizi təhrif edən, saxtalaşdıran, Ermənistanda meydana çıxmış müxtəlif yazıların, məqalələrin əleyhinə ilk dəfə

səsini qaldıran və onlara əsaslı, dəlilli mənbələrə istinadan cavab verən, onların qarşısını daim alan Ziya Bünyadov idi...” (H.Əliyev).

Akademik Ziya Bünyadov müqəddəs kitabımız Qurani-Kərimi Azərbaycan dilinə tərcümə etmiş və ömrünün son aylarında “Dinlər, təriqətlər, məzhəblər” kitabını yazıb qurtarmışdır. İslami dəyərlər haqqında müəllifin bu xidmətləri və digər əsərləri Azərbaycan xalqının mənəviyyatının zənginləşməsinə böyük töhfədir.

## MƏMMƏDOV İsrafil Məhərrəm oğlu

(1919-1946)

***1941-45-ci illər müharibəsinin ilk azərbaycanlı qəhrəmanı***

İsrafil Məhərrəm oğlu Şəmkir rayonunun Qapanlı kəndində dünyaya göz açmış, Gəncə Pedaqoji Texnikumunu bitirdikdən sonra 1939-cu ildə orduda xidmətə könüllü getmişdir.

Alman faşizminin SSRİ-yə qarşı başladığı müharibənin ilk günlərindən 180-ci atıcı diviziyasının 42-ci alayı tərkibində cəbhədə olmuşdur. Düşmən qüvvələri Moskva istiqamətində hücuma keçdiyi dövrdə İsrafil Məmmədovun komandir olduğu bölmə Moskvadan Şimalda Novqorod vilayətinin Pustınka kəndi yaxınlığında düşmənlə üz-üzə vuruşurdu. İyulun ilk günlərindəki döyüşdə o, qranat ilə düşmənin tank dəstəsinin başında gələn birinci tankını partlatmışdı və bundan sonra daha üç tank məhv edilmişdi. Həmin 1941-ci ilin 3 dekabrında İ.Məmmədovun bölməsinə qarşı düşmənin 2 batalyonu hücuma keçmişdi. Düşmən hücumu 4 dəfə təkrar olundu. Bu döyüşdə düşmənin 300-dən çox əsgər və zabiti məhv edildi. Bunlardan 70 nəfərini komandir İsrafil Məmmədov özü məhv etmişdi. 1941-ci il dekabrın 11-də ona Sovet İttifaqı Qəhrəmanı fəxri adı verildi. O, SSRİ Ali Soveti Prezidiumunun Fərmanı ilə elan edilən ilk Azərbaycanlı qəhrəman oldu.

Ölkənin ən mötəbər qəzeti olan “Pravda” qəzetinin 1941-ci il 11 dekabr sayında yazılmışdı: “Sovet xalqı İsrafil Məmmədov kimi qəhrəmanlar tərbiyə etmişdir. Onun qəhrəmanlığı, onun igidliyi haqqında şad xəbər bütün ölkəyə yayılmışdır”. Sovet ordusunun əsas qəzeti olan “Krasnaya Zvezda” 1941-ci ilin 23 dekabrında baş məqaləsində yazmışdı: “Əgər cəbhə dostluğunun nə olduğunu, döyüşdə bir-birinə köməyin nə olduğu bilmək istəyirsinizsə Sovet İttifaqı Qəhrəmanı İsrafil Məmmədovdan və onun yoldaşlarından öyrənin”.

Leytenant İ.Məmmədov 1943-cü ildə səhhətinə görə xidmətdən tərxis edildi və doğma Azərbaycana qayıtdı.

İsrafil Məmmədovun qəhrəmanlığı bütün ölkədə geniş təbliğ edilirdi. Onun adı ilə bağlı Azərbaycanda "Məmmədovlar hərəkatı" başlandı, onun qəhrəmanlığı haqqında şerlər və kitablar yazıldı, kinofilm çəkildi.

Qəhrəmanın adı təhsil aldığı kənd məktəbinə verilmiş, Gəncədə onun adına küçə və xatirə ansamblı vardır.

**ABDULLAYEV Məmiş Şahbaz oğlu**
(1923-1945)

Kürdəmir rayonunun Muradxan kəndində dünyaya göz açmış, orta məktəbi qurtardıqdan sonra 1943-cü ilin iyununda hərbi qulluğa getmiş və I Belarus cəbhəsində hərbi əməliyyatlar aparan 48-ci ordu tərkibində olan 339-cu atıcı alayda pulemyotçu olmuşdur. Serjant Məmiş Abdullayev 1944-cü ilin sentyabrının əvvəlində Polşa ərazisində düşmənə qarşı aparılan döyüşlərdə şəxsi qəhrəmanlıq göstərmiş və döyüşən hərbi hissənin uğurlu hücumunu təmin etmişdir. Sovet İttifaqı Qəhrəmanı adı 1945-ci ilin 24 martında verilmişdir.

**ABDULLAYEV Səməd Həmid oğlu**
(1920-1943)

Ağdaş rayonunun Qolçatı kəndində anadan olmuş və şəhərdəki pedaqoji texnikumunda təhsilini bitirdikdən sonra hərbi xidmətə çağırılmış, tibbi xidmət üzrə təlim keçərək Şimali Qafqazda hərbi əməliyyatlar aparan 18-ci ordunun tərkibindəki 318-ci dağ-atıcı diviziyasında xidmətə başlamışdır.

Tibb xidmət starşinası Səməd Abdullayev Kerç yarımadasına 1/11-43 tarixdə desant çıxarılmasında iştirak etmiş, yaralı döyüşçülərə hərbi xidmətlə yanaşı düşmənə qarşı aparılan ağır əlbəyaxa döyüşdə bir neçə faşist əsgərini məhv etmiş və ağır döyüşlərin 5-ci günü həlak olmuşdur.

Kerç şəhəri ətrafında dəfn edilmişdir. Sovet İttifaqı Qəhrəmanı adı 17/11-43-cü ildə verilmişdir. Ağdaşın Qolçatı kənd məktəbinə qəhrəmanın adı verilmişdir.

**ALLAHVERDİYEV Müseyib Abdulla oğlu**
(1909-1969)

Qazax rayonunun Dağkəsəmən kəndində dünyaya göz açmış və 1941-ci ildə könüllü olaraq orduda xidmətə getmişdir.

Boyük Vətən müharibəsi illərində döyüşən ordu sıralarında Moskva altındakı döyüşlərdən başlayaraq Budapeştə qədər döyüş yolu keçmişdir. Mayor Müseyib Abdullayevin komandir olduğu batalyon Dnepri keçərək Macarıstan ərazilərində ağır döyüşlərdə iştirak etmişdir. Batalyonun 1944-cü ilin 1 dekabrında apardığı döyüşdə düşmənin 500 əsgəri məhv edilmiş və 2200 nəfəri əsir alınmışdır. M.Allahverdiyev Budapeştin azad edilməsi əməliyyatında da iştirak etmişdir. Sovet İttifaqı Qəhrəmanı adı 1945-ci ilin 24 martında verilmişdir.

## ƏLƏKBƏROV Mikayıl Məhəmməd oğlu

(1924-1943)

Bakının indiki Abşeron rayonunun Saray kəndində dünyaya göz açmış və 1942-ci ildə orduda xidmətə könüllü getmişdir.

Hərbi əməliyyatlarda 1943-cü ilin aprelində 81-ci atıcı diviziyası (7-ci ordu) tərkibində kəşfiyyatçı kimi iştirak etmiş və həmin ilin sentyabrın sonunda Dneprin keçilməsində şəxsi igidliyi ilə fərqlənmişdir. Belə ki, kəşfiyyatçı Mikayıl çayı tez keçərək düşmən sahilindən onun müdafiə qüvvəsi haqqında məlumatı öz hissəsinə verməklə hücum əməliyyatının qələbəsini təmin etmişdir. Ukraynanın Dnepropetrovsk vilayətinin azad edilməsi uğrunda aparılan döyüşlərdə düşmənin 14 hücumunun dəf edilməsində iştirak edərək, ağır yaralanmış və iki həftə sonra aldığı ağır yaralardan həlak olmuşdur. Dnepropetrovskda Rudka kəndində dəfn edilmişdir. Sovet İttifaqı Qəhrəmanı adı ölümündən 12 gün sonra 1943-cü ilin 26 oktyabrında verilmişdir.

Saraydakı və Rudkadakı məktəblərə onun adı verilmişdir.

## ƏLİYEV Məstan Aslan oğlu

(1913-1945)

Tovuz rayonunun Əsrik Çırdaxan kəndində anadan olmuş və kənd məktəbində müəllim işləyən Məstan Əliyev 1939-cu ildə orduda xidmətə getmişdir.

Müharibə başlandığı zamandan 47-ci ordunun tərkibində cəbhələrdə olmuş, Berlin ətrafında döyüşlərdə iştirak etmişdir.

Starşina Məstan Əliyevin uğurlu döyüşlərindən biri 1945-ci ilin 16 aprelində Oder çayının sol sahilində oldu. Bu döyüşdə onun bölməsi düşmənin 72 əsgər və zabitini əsir götürdü, şəxsən özü isə 20 nəfərə qədər faşist məhv etdi. Məstan Əliyev aprelin 23-də Berlin uğrunda döyüşlərin birində həlak oldu. Ona Sovet İttifaqı Qəhrəmanı adı 1945-ci il mayın 31-də verildi. Almaniyada dəfn edilmişdir. Doğma kəndinin məktəbi onun adını daşıyır.

## ƏLİYEV Şəmsulla Feyzulla oğlu
(1916-1943)

Dərbənd şəhərində dünyaya göz açmış və Almaniya faşizmi ordusuna qarşı müharibənin fəal iştirakçısıdır.

Batalyon komandirinin siyasi hissə üzrə müavini kapitan Ş.Əliyev Şimali Qafqazda, Taman və Krımda keçirilən ağır döyüşlərdə iştirak etmişdir.

Şəmsulla Əliyev 1943-cü ilin payızında 309-cu atıcı diviziyanın tərkibində batalyon komandirinin siyasi hissə üzrə müavini idi. 1943-cü ilin noyabrında Kerç şəhərinin girəcəyində, iki zavodun ətrafında gedən döyüşlərdə "İrəli, Qafqazın qartalları!" çağırışı ilə döyüşün önündə gedirdi. Noyabrın 11-də batalyon beş dəfə hücuma qalxaraq düşmənin iki müdafiə xəttini yarmışdı. Belə ağır döyüşlərin biri də noyabrın 19-da oldu və kapitan Ş.Əliyev bu döyüşdə qəhrəmancasına həlak oldu. Sovet İttifaqı Qəhrəmanı adı ona ölümündən sonra verilmişdir.

## ƏSƏDOV Gəray Lətif oğlu
**(1923-1944)**

Biləsuvar rayonunun Şahsevən kəndində dünyaya göz açmış və 1942-ci ildə hərbi xidmətə getmişdir. Serjant Gəray Əsədov 27-ci ordunun tərkibində məşhur Kursk əməliyyatında döyüşmüş; Ukrayna, Moldaviya və Rumıniyanın azad edilməsində fəal iştirak etmişdir.

Qvardiya serjant Gəray Əsədov Markita şəhəri (Rumıniya) uğrunda döyüşdə misilsiz qəhrəmanlıq göstərmişdir; öz bədəni ilə düşmənin güclü atəş nöqtəsini susduraraq əməliyyatın uğurlu olmasını təmin etmişdir, Sovet İttifaqı Qəhrəmanı adı ona 1945-ci ilin 24 martında verilmişdir. Təhsil aldığı kənd məktəbinə və rayonun bir küçəsinə onun adı verilmişdir.

## ƏHMƏDOV Cəmil Məhəmməd oğlu
(1924-1944)

Cəbrayıl rayonunun mərkəzində dünyaya göz açmış və 1942-ci ildə orduda xidmətə getmişdir. Hərbi məktəbdə təhsili leytenant rütbəsi ilə qurtardıqdan sonra Belorusiyanın azad edilməsi üzrə döyüşlərdə fəal iştirak etmişdir. Qvardiya leytenant C.Əhmədovun komandir olduğu bölmə 1944-cü ilin 25 iyulunda Tremlya çayını hamıdan əvvəl keçərək, suyun içində döyüş mövqeyini digər hissələrin gəlməsinə qədər əldə saxlamış və əməliyyatın qələbəsini təmin etdiyinə görə Sovet İttifaqı Qəhrəmanı adına təqdim edilmişdir.

Bundan iki ay sonra 1944-cü ilin 2 sentyabrında Polşa ərzisində həlak olmuş və Varşavada Sovet döyüşçülərinə aid qəbiristanlıqda dəfn edilmişdir. Sovet İttifaqı Qəhrəmanı fəxri adı isə ona 1945-ci ilin 24 martında verilmişdir. Cəbrayıldakı məktəb və bir küçə onun adını daşıyır.

**ƏKBƏROV Qəzənfər Qulam oğlu**
(1917-1944)

Naxçıvan Respublikasının indiki Babək rayonunun Cəhri kəndində dünyaya göz açmış və Naxçıvanda pedaqoji institutu bitirərək, məktəb direktoru işləmişdir. 1941-ci ilin əvvəlində orduda xidmətə çağırılmış və həmin ilin avqustunda cəbhəyə göndərilmişdir.

Baş serjant Q.Əkbərov 1944-cü ilin əvvəlində 2-ci tank ordusu tərkibində Varşavanın azad edilməsi üzrə aparılan döyüşlərdə tank əleyhinə topçu bölməsinin komandiri olmuş və avqustun 3-də Varşavanın şimali-şərqində aparılan ağır döyüşlərdə düşmənin tanklarından ikisini və çoxsaylı canlı qüvvəsini məhv etmiş, özü də həlak olmuşdur.

Sovet İttifaqı Qəhrəmanı adı 1944-cü ilin 26 oktyabrında verilmişdir. Təhsil aldığı orta məktəbə onun adı verilmişdir.

**BAĞIROV Müseyib Bağır oğlu**
(1915-1981)

Gəncə şəhərində dünyaya göz açmış, Bakı dənizçilik texnikumunu qurtarmış (1933) və 1941-ci ildə orduda xidmətə getmişdir. Hərbi məktəbi 1943-cü ildə bitirərək 4-cü ordu tərkibindəki 69-cu qvardiya atıcı diviziyasında bölmə komandiri olmuşdur.

Qvardiya baş leytenant M.Bağırov Paltava vilayətinin Zenkov şəhəri ətrafındakı döyüşlərdə şəxsi qəhrəmanlıq göstərmiş, düşmən səngərinə birinci girərək onlarla faşisti məhv etmiş və ağır yaralansa da döyüş meydanını tərk etməmişdir. 1944-cü ilin 22 fevralında ona Sovet İttifaqı Qəhrəmanı adı verilmişdir. Kapitan M.Bağırov 1945-ci ilin oktyabrında hərbi xidmətdən tərxis edilərək Bakıda işləməyə başlamışdır.

**BAYRAMOV İsmayıl Xəlil oğlu**
(1900-1945)

Stavropol vilayətində azərbaycanlı ailəsində dünyaya göz açmış və doğulduğu Dolinovka kəndində kolxoz sədri vəzifəsindən 1941-ci ildə orduda xidmətə çağırılmışdır.

I Ukrayna cəbhəsində döyüşən 6-cı ordunun 243-cü atıcı alayında rotanın partiya təşkilatı katibi olmuşdur.

Starşina İsmayıl Bayramov 1945-ci ilin əvvəlində Polşa ərazisindəki döyüşlər zamanı fevralın 10-da Neymarkt stansiyası uğrunda döyüşdə rota döyüşçülərinin hücumuna başçılıq etmiş və əlbəyaxa vuruşda fərqlənərək, batalyonun hücumunun qələbəsini təmin etmişdir. Həmin gün düşmən mühasirəsinə düşmüş və əsir düşməmək üçün sonuncu qranat ilə özünü və ətrafındakı faşistləri məhv etmişdir. Sovet İttifaqı Qəhrəmanı adı 1945-ci ilin 10 aprelində verilmişdir. Həlak olduğu yerdə dəfn edilmişdir. Doğma kəndindəki məktəb və bir neçə küçə onun adını daşıyır.

### BALANDİN Vladimir Aleksandroviç

(1923-1924)

Vladimir Balandin Suraxanı rayonunda dünyaya göz açmışdır. O, gənc yaşlarında Bakının yaxınlığındakı Zabratda aeroklubda təlim keçirdi.

1941-ci ildə qırıcı təyyarəçilər məktəbinə daxil olmuş və 1942-ci ildə cəbhəyə göndərilmişdir.

Onun ilk döyüşü Minsk şəhəri səmasında oldu və bir döyüşdə düşmənin iki təyyarəsini məhv etdi.

Leytenent V.Balandin 1943-cü ilin fevralında eskadrilya komandiri oldu və ən çətin döyüşlərdə şəxsi qəhrəmanlıq göstərirdi. 1944-cü ilin sonunda məhv etdiyi düşmən təyyarələrinin sayı 16-ya çatmışdı.

Cəsur təyyarəçi Vladimir Balandinin düşmənlə son döyüşü 1944-cü ilin 30 dekabrında oldu. Həmin günkü döyüşdə o, düşmənin iki təyyarəsini məhv etmişdi və təyyarəsində yanacaq qurtardığı üçün onu təyyarə meydanına istiqamətləndirdi. Cəbhə xəttini keçən kimi paraşutla tullandısa da, paraşut açılmadı və o həlak oldu.

Sovet İttifaqı Qəhrəmanı adı ona 1945-ci ilin 19 aprelində verilmişdir.

### VERDİYEV Əvəz Həşim oğlu

(1916-1945)

Bakının ətrafında olan Bülbülə kəndində dünyaya göz açmış və 1939-cu ildə orduda xidmətə çağırılmışdır. 1939-40-cı ildə Sovet-Finlandiya müharibəsində iştirak etmişdir.

Əvəz Verdiyev Almaniya faşizmi ordusunun SSRİ-yə qarşı müharibəyə başladığı gündən döyüşən orduda olmuşdur. Qvardiya baş serjant Ə.Verdiyev 3-cü tank ordusunda avtomatçılar bölməsinin komandiri idi və o, 1944-cü ilin 22

iyulunda Lvov vilayətinin Kulikov şəhərciyinin azad edilməsində şəxsi qəhrəmanlıq göstərərək, batalyonun uğurlu hücumunu təmin etmişdir.

1944-cü ilin 31 iyulundan 3 avqusta qədərki dövrdə Əvəz Verdiyevin komandir olduğu avtomatçılar bölməsi Polşa ərazisində Visla çayını keçərək çayın sol sahilindəki düşmən qüvvələrini məhv etmiş və öz ordu hissələrinin yeni hücumu üçün şərait yaratmışdı. Ona Sovet İttifaqı Qəhrəmanı adı 1944-cü ilin 23 sentyabrında verilmişdir. Sonrakı döyüşlərin birində Əvəz Verdiyev ağır yaralanmış və 1945-ci ilin mayın 1-də xəstəxanada dünyasını dəyişmiş və Boleslavest şəhərində (Polşa) dəfn edilmişdir.

## VƏZİROV Aslan Fərhad oğlu
(1910-1989)

Bərdə rayonunun Zümürxan kəndində dünyaya göz açmış və 1928-ci ildə hərbi xidmətə getmişdir. 1941-ci ildə Hərbi-Mühəndislik Akademiyasını bitirmiş və müharibə cəbhələrinə göndərilmişdir.

Qvardiya polkovnik Aslan Vəzirov 70-ci Ordunun tərkibində (II Belorus cəbhəsi) – sapyor briqadasının komandiri idi. 1945-ci ilin 20 aprelində ordu hissələrinin Oder çayını keçməsi əməliyyatına rəhbərlik edirdi. Bu əməliyyat düşmənin güclü atəşi altında üç gün və gecə davam etdi və həmyerlimizin böyük hərbi məharətini sübut etdi. Həmin əməliyyata rəhbərliyinə görə ona 1945-ci ilin 29 iyununda Sovet İttifaqı Qəhrəmanı adı verildi.

Müharibədən sonra A.Vəzirov uzun illər Ümumittifaq Müharibə Veteranları Komitəsinin Bakı seksiyasına rəhbərlik etmiş, Azərbaycan Respublikası Ali Sovetinin deputatı seçilmişdir.

Veteran polkovnik Aslan Vəzirov Dneprodjerjinsk və Mogilyov şəhərlərinin fəxri vətəndaşı adına layiq görülmüşdür. Veteran 8 orden və çoxsaylı medallarla təltif edilmişdir.

## ABRAMOV Vladimir Fyodoroviç

Bakıda 1921-ci ildə anadan olmuş Vladimir Abramov orduda xidmətə Yeysk şəhərində hərbi dəniz idarəçiliyi məktəbində təhsil ilə başlamışdır.

Böyük Vətən müharibəsi başlandığı dövrdə o Tallində qırıcı təyyarə dəstəsində xidmət edirdi. Onun ilk döyüşləri Lelinqrad və Baltika səmalarında oldu.

1943-cü ilin may-iyun aylarında kapitan V.Abramov qırıcı təyyarələr eskadrilyasının komandiri idi və hər gün 2-3 döyüşə rəhbərlik edirdi.

Müharibə illərində qvardiya kapitanı V.Abramov 600 dəfədən çox döyüş uçuşu keçirmiş və 29 düşmən təyyarəsini məhv etmişdir (bunlardan beşini şəxsən, qalanı birlikdə). Ona Sovet İttifaqı Qəhrəmanı fəxri adı 1944-cü ilin 22 iyununda verilmişdir.

60-cı illərdə o general-mayor hərbi rütbəsində idi və SSRİ Silahlı Qüvvələri sistemində rəhbər vəzifədə çalışırdı.

**VƏLİYEV Mirzə Dövlət oğlu**
(1923-1945)

Qusar rayonunun Yuxarı Leker kəndində dünyaya göz açmışdır. Cəbhəyə könüllü getmişdir. Mirzə Vəliyevin döyüş yolu Şimali Qafqazdan başlamış və Ukrayna, Belorusiya, Rumıniya, Bolqarıstan və Macarıstandan keçmişdir. Topçular bölməsi komandiri baş serjant Mirzə Vəliyevin son döyüşü Macarıstan torpağında olmuşdur. Faşist tanklarının və zirehli maşınlarının fasiləsiz hücumlarının qarşısını alan topçular döyüş meydanında misilsiz qəhrəmanlıqlar göstərdilər. Döyüş meydanını tüstü bürümüşdü. Mirzə Vəliyevin topçu bölməsi heyətinin hamısı həlak olmuşdu. Mirzə özü isə ağır yaralanmışdı. Mirzə bütün qüvvəsini toplayaraq sonuncu mərmini topa qoyaraq atəşi ilə düşmənin zirehli avtomobilini nəhv etdisə də, özü də həlak oldu.

Sovet İttifaqı Qəhrəmanı adı ona ölümündən sonra 1945-ci ilin 24 martında verilmişdir.

**HÜSEYNZADƏ Mehdi Hənifə oğlu**
(1918-1944)

Bakı şəhərində dünyaya göz açmış Mehdi Hüseynzadə 1941-ci ildə orduda xidmətə çağırılmış və 223-cü Azərbaycan atıcı diviziyasının 1041-ci alayında bölmə komandiri olmuşdur[42]. Leytenant M.Hüseynzadə 1942-ci ilin iyulunda Stalinqrad ətrafındakı ağır döyüşlərdə iştirak etmiş və həmin ilin dekabrında döyüşdə ağır yaralanaraq əsir düşmüşdü. Polşa, İtaliya və Yuqoslaviya hərbi əsir düşərgələrində olmuş; Yuqoslaviyada əsirlərin qaçmasını təşkil etmək üçün gizli təşkilat yaratmış və bir dəstə əsirlə 1944-cü ilin əvvəlində əsirlikdən qaçaraq Yuqoslaviya partizanlarına qoşulmuşdur. Burada faşizmə qarşı mübarizədə faşist zabiti formasında öz cəsurluğu və əfsanəvi qəhrəmanlığı ilə şöhrət qazanmışdır. Onun bu qəhrəmanlığı “Uzaq sahillərdə” filmində (1958, İmran Qasımov və Həsən Seyidbəyli) dolğun göstərilmişdir.

---

[42] Bax: B.M.Mehdiyev. 223-я краснознаменная Белградская; Баку, 1993, стр. 272-273.

Soydaşımız Mehdi Hüseynzadə Sloveniyada “Mixaylo” adı ilə tanınırdı və o, 1944-cü ilin payızında öz partizan dəstəsi ilə İtaliyanın Adriatik sahilindəki Udin şəhərində faşist həbsxanasından 700 hərbi əsiri ( o cümlədən 147 nəfər Sovet əsgər və zabitini) azad etmişdir. Faşistlər onun başına 400 min lirə mükafat təyin etmişdilər. Qəhrəman soydaşımız düşmənlə son döyüşdə sonuncu gülləsi ilə özünü şəhid etdi. 1957-ci ilin 2 aprelində ona “Sovet İttifaqı Qəhrəmanı” (ölümündən sonra) fəxri adı verilmişdir.

Mehdi Hüseynzadə Sloveniyanın Çepovan kəndində dəfn edilmişdir. Onun qəbrinin başdaşı üstündə yazılmışdır: “Rahat yat, Azərbaycan xalqının qəhrəman oğlu, əzizimiz Mehdi...”

### HÜSEYNOV Həbibulla Eynulla oğlu
(1910-1945)

Ərdəbil şəhərində dünyaya göz açmış və Bakıda yaşayarkən 1928-ci ildə Bakıda xidmətə çağırılmışdır. 1941-ci ilin iyunundan döyüşən ordu hissələrində xidmət etmişdir (bu ərəfədə artilleriya divizionu ştabının rəisi idi). Qvardiya polkovnik H.Hüseynov 1945-ci ilin yanvar-aprelində keçirilən Şərqi Prussiya hərbi əməliyyatında 67-ci zenit artilleriyası diviziyasının komandiri idi və həmin diviziya 35-ci ordunun həyata keçirdiyi bu əməliyyatı düşmən təyyarələrinin havadan hücumundan müdafiə edir və lazım olduqda zenit toplardan yerdəki düşmən qüvvələrinə atəş açırdı.

Böyük uğurla keçirilən bu əməliyyat zamanı aprelin 16-da cəsur qvardiya polkovnik H.Hüseynov həlak oldu. Litvanın Kapsukas şəhərində dəfn edilmişdir.

Sovet İttifaqı Qəhrəmanı adı 1945-ci ilin 29 iyulunda verilmişdir.

### DADAŞOV Məhərrəm Əkbər oğlu
(1912-1945)

1912-ci ildə Salyan rayonunun Beştalı kəndində anadan olmuşdur. 1941-ci ildə orduda xidmətə traktorçu peşəsindən çağırılmışdır.

233-cü tank briqadasında xidmət edən baş serjant Məhərrəm Dadaşov 1942-ci ildən döyüş cəbhələrində olmuş və Rumıniyanın Vasluy şəhəri ətrafında 1944-cü ilin avqustunda aparılan döyüşdə fərqlənmişdir. Onun sonrakı döyüşləri Çexoslovakiyada olmuşdur.

Baş şerjant M.Dadaşovun tank heyəti avqustun 28-də düşmən ordusunun yerləşdiyi məntəqəyə daxil olaraq düşmənin 6 tank vuran topunu və bir neçə pulemyotunu şəxsi heyətləri ilə məhv etmişdir. Bu döyüşdə yaralanan M.Dadaşov

tankını idarə etməkdə davam etmiş və tankın atəş nöqtələrinin mərmiləri qurtardıqdan sonra şəxsi silahla döyüşü davam etdirmişdir.

Cəsur tankçı M.Dadaşov aldığı yaralardan sentyabrın 18-də hospitalda dünyasının dəyişmişdir.

Sovet İttifaqı Qəhrəmanı adı ona 1945-ci ilin 24 martında verilmişdir.

**CƏBİYEV Mirzə Ağamurad oğlu**
(1925-1972)

Astara rayonunun Hamoşam kəndində doğulmuş və 1943-cü ildə könüllü olaraq orduda xidmətə getmişdir. 1944-cü ildə kiçik leytenant rütbəsi alaraq 43-cü Ordu tərkibində cəbhəyə (III Belorus cəbhəsi) göndərilmişdir.

Baş leytenant Mirzə Cəbiyev 1945-ci ilin 6 aprelində Keniqsberq şəhəri ətrafındakı döyüşlərdə komandir olduğu bölmənin önündə kanalı keçərək № 5 fortu zəbt etmiş və qələbə bayrağını sancmışdır. Bu döyüşdə o şəxsən düşməndən 13 nəfər əsir götürmüşdür. Döyüşdə yaralansa da öz vəzifəsini qələbəyə qədər icra etmişdir.

Sovet İttifaqı Qəhrəmanı adı ona 1945-ci ilin 19 aprelində verilmişdir.

Müharibədən sonra kapitan Mirzə Cəbiyev Astarada sovxoz direktoru işləmişdir. Vətənində büstü qoyulmuşdur.

**CƏFƏROV Ağaşirin Ağaməmməd oğlu**
(1906-1984)

İndiki Neftçala rayonunun Ballıcalı kəndində dünyaya göz açmış və traktorçu peşəsindən 1941-ci ilin oktyabrında orduda xidmətə çağırılmışdır.

Pulemyotçu kiçik serjant Ağaşirin Cəfərov 1942-ci ilin noyabrında Cənub cəbhəsində 51-ci ordu tərkibindəki 416-cı Azərbaycan milli diviziyasında döyüşə başlamışdır. 1943-cü ilin oktyabrında Melitopol şəhəri yaxınlığındakı döyüşlərdə sərrast atəş ilə şəxsi igidlik göstərərək, düşmənin atəş nöqtələrini və canlı qüvvəsini məhv etmiş, döyüş üçün mühüm yüksəkliyin zəbt edilməsini təmin etmişdir. Sovet İttifaqı Qəhrəmanı adı 1943-cü ilin 1 noyabrında verilmişdir.

Starşina Ağaşirin Cəfərov müharibə qurtardıqdan sonra öz kəndində kolxoz və kənd soveti sədri olmuş, sonra isə Bakıda Neft-qazma idarəsində işləmişdir.

## QULİYEV Abbas Şahbaz oğlu
(1916-1997)

Naxçıvanın Babək rayonunun Şəkərabad kəndində dünyaya göz açmış və 1941-ci ilin iyulunda hərbi xidmətə getmişdir.

1943-cü ilin əvvəlində Suma şəhərində artilleriya məktəbini bitirmiş və 6-cı ordu tərkibində (I Belorus cəbhəsi) batareya komandiri olan A.Quliyev döyüş əməliyyatlarına başlamışdır.

1944-cü ilin 2 avqustunda qvardiya baş leytenantı A.Quliyevin batareyası Visla çayını keçərək geniş döyüş əməliyyatında düşmənə böyük zərbə ilə mühüm yüksəkliyi zəbt edərək əldə saxlamış və əməliyyatın qələbə ilə qurtarmasını təmin etmişdir. Ona Sovet İttifaqı Qəhrəmanı adı 1945-ci ilin 21 fevralında verilmişdir.

Kapitan A.Quliyev müharibə qurtardıqdan sonra, 1945-ci ildə hərbi xidmətdən tərxis olunmuş və Naxçıvanda rəhbər vəzifələrdə işləmişdir.

## QULİYEV Adil Hüseyn oğlu
(1922-1993)

Bakıda dünyaya göz açmış və 1941-ci ildə hərbi xidmətə çağırılmışdır. 1942-ci ildə Stalinqrad hərbi təyyarəçilik məktəbini bitirdikdən sonra həmin ilin oktyabrında 65-ci qvardiyaçı qırıcı təyyarəçilər alayında döyüşlərdə iştirak etmişdir.

Qvardiya kapitanı A.Quliyev 1944-cü ilin sentyabrın əvvəlinə qədər 141 hərbi uçuş edərək, 38 döyüşdə düşmənin 18 hərbi təyyarəsini vurmuşdur. Sovet İttifaqı Qəhrəmanı adı ona 1945-ci ilin 23 fevralında verilmişdir. 1956-cı ildə hərbi hava qüvvələri Akademiyasını bitirmişdir. Bakıda aeroportun rəisi və digər vəzifələrdə işləmişdir. SSRİ Ali Sovetinin deputatı olmuş, Bakıda fəxri xiyabanda dəfn edilmişdir.

## QULİYEV Mehdi Nadir oğlu
(1923- 1976)

Gədəbəy rayonunun Ərkinaz kəndində dünyaya göz açmış və 1943-cü ilin mayında orduda xidmətə çağırılmışdır.

Pulemyotçular dəstəsinin komandiri qvardiya serjant M.Quliyev 1943-cü ilin 27 mayında 15-ci qvardiyaçı alayın tərkibində Krasnodar vilayətinin Krım rayonunun Qorişnı kəndi ətrafındakı döyüşlərdə düşmənin 10-a yaxın hücumunu dəfn edərək onun 150-dən çox əsgər zabitini, iki dəzgah pulemyotunu məhv etmişdir. Sovet İttifaqı Qəhrəmanı adı ona 1943-cü ilin 17 noyabrında verilmişdir.

Kiçik leytenant M.Quliyev 1946-cı ildə orduda xidmətdən tərxis edilərək, Respublika Daxili İşlər Nazirliyində işləmiş və podpolkovnik rütbəsində dünyasını dəyişmişdir.

**KAZIMOV Səlahəddin Həsən oğlu**
(1920-1978)

Zaqatala şəhərində dünyaya göz açmış və 1941-ci ildə hərbi xidmətə çağırılmışdır. 1942-ci ilin aprelindən Mərkəzi cəbhədə 13-cü ordu tərkibində, 62-ci artilleriya alayında batareya komandiri vəzifəsində döyüş əməliyyatına başlamışdır.

Baş leytenant S.Kazımov Desna, Dnepr və Pripyat çaylarının keçilməsi əməliyyatlarında fərqlənmişdir.

1943-cü ilin 22-23 sentyabrında Dnepr çayını keçərkən sərrast atəş ilə düşmənin atəş nöqtələrini məhv edərək alayın Dneprin sağ sahilinə keçməsini və hücum əməliyyatının Çerniqov və Qomel istiqamətlərində genişlənməsini təmin etmiş və 1943-cü ilin 16 oktyabrında Sovet İttifaqı Qəhrəmanı adı almışdır.

Müharibədən sonrakı dövrdə Azərbaycanda Daxili İşlər Nazirliyi sistemində işləmiş və general-mayor rütbəsində nazir vəzifəsinə yüksəlmişdir.

**İLYASOV İvan Vasilyeviç**
(1912-1943)

Azərbaycanın Mərəzə rayonunun Xilmilli kəndində dünyaya göz açmış İvan İlyasov 1936-cı ildə Bakıda nəqliyyatda işləyirdi.

Müharibənin əvəlindən cəbhədə olan İ.İlyasov cənub və qərb cəbhələrində, Stalinqrad və Voronej ətrafındakı ağır döyüşlərdə fəal iştirak etmişdir.

Qvardiya kapitan İ.İlyasov 1943-cü ilin 5 iyununda başlanmış məşhur Oryol-Kursk-Belqorod döyüşlərində xüsusi qəhrəmanlıq göstərmişdir. Onun komandir olduğu atıcı rotaya qarşı Krutoy Luq kəndi yanında düşmənin 34 ağır tankı və bir batalyon döyüşçüsü hücuma keçmişdi. 13 saat fasiləsiz olaraq davam edən bu döyüşdə düşmənin külli miqdarda texnikası və 300-dən çox əsgər və zabiti məhv edildi, düşmən irəliləyə bilmədi. Bu döyüşdə həlak olan İvan İlyasova 1943-cü ilin 18 noyabrında Sovet İttifaqı Qəhrəmanı fəxri adı verildi.

**YENALİYEV Boris Musayeviç**

Dünyaya 1914-cü ildə göz açdığı Penza vilayətindən 1939-cu ildə Bakıya gələn Boris Yenaliyev müharibə başlandıqda Bakıda hərbi xidmətə başlamışdı və

1941-ci ilin avqustunda Sovet Ordusu hissələri tərkibində Cənubi Azərbaycana (İrana) göndərilmişdi.

1941-ci ilin oktyabrından etibarən serjant Boris Yenaliyev Böyük Vətən Müharibəsi cəbhələrində vuruşmuş və onun döyüş yolu Xarkov, Krım, ..., Berlinə qədər uzanmışdır.

Almaniya paytaxtını iki hissəyə bölən Şpreye çayının keçilməsi əməliyyatında Boris Yenaliyev şəxsi igidlik göstərərək, ağır döyüşlərdə 20 faşist zabit və əsgərini məhv etmiş və böyük bir əməliyyatın həyata keçirilməsini təmin etmişdir. 1945-ci 31 mayında ona Sovet İttifaqı Qəhrəmanı adı verilmişdir.

Müharibə qurtardıqdan sonra Boris Yenaliyev Bakıya qayıtmış və burada əmək fəaliyyətini davam etdirmişdir.

## KOVERİN İlya Ananyeviç

Azərbaycanın Astara rayonunda 1910-cu ildə dünyaya göz açmış İlya Koverin müharibə başlanana kimi hərbi xidmətə çağırıldı və tank hissəsində döyüşə başladı.

Tankçı İlya Koverinin döyüş yolu Qafqazdan Rumıniyaya qədər uzun olmuşdur. Və onun ən ağır döyüşü də 1944-cü ilin 16 sentyabrında Rumıniya torpağında oldu.

Bütün günü davam edən döyüşdə tank heyətində olan 5 nəfərdən yalnız İlya Koverin sağ qalır və tankı da sıradan çıxır. Döyüşün ikinci günü faşistlər Sovet əsgərini əsir götürmək üçün dəfələrlə hücuma keçirlər. Cəsur döyüşçü tankda olan silah və qranatlarla düşmənləri tankın ətrafında məhv edir.

Döyüşün 3-cü gününün axşamı İlya Koverin qaranlıq gecədə tankı tərk edərək, öz hissəsinə qayıda bilmişdi.

İlya Koverinə Sovet İttifaqı Qəhrəmanı fəxri adı 1945-ci ilin 17 avqustunda verilmişdir.

Müharibə qurtardıqdan sonra Koverin Astara rayonuna qayıtmışdır.

## KALİNİÇENKO Qriqori Martınoviç
(1903-1943)

Cənubi Ukraynanın Xerson vilayətində dünyaya göz açmış Qrirori Kaliniçenko 1928-30-cu illərdə orduda xidmət etmiş və bu xidmətdən tərxis olunduqda Bakıya gəlmiş və burada limanda və zavodda işləməyə başlamışdı.

Böyük Vətən Müharibəsinə də Qriqori Kaliniçenko Bakıdan getmişdir. Hərbi məktəbi leytenant rütbəsi ilə qurtaran Qriqori Kaliniçenko Qafqaz dağları ətəklərindən döyüşə başlamışdır.

Leytenant Qriqori Kaliniçenkonun ən ağır son döyüşü Ukraynanın əsas çayı olan Dneprin keçilməsində baş verdi. Komandir öz rotasının Dnepri keçməsini böyük ustalıqla təmin etmişdi. Lakin son dəqiqələrdə düşmən gülləsi komandirə tuş oldu. Ona Sovet İttifaqı Qəhrəmanı 1943-cü ilin 19 noyabrında verilmişdir.

### KİLDYAKOV Mixayıl Andreyeviç

Bakıda dülgər ailəsində dünyaya göz açmış Mixayıl Kildyakov dəmir yolunda işlədiyi üçün ordu sıralarına çağırışdan möhləti olmasına baxmayaraq, könüllü olaraq döyüşən Orduda xidmətə getdi və batalyon komandirinin siyasi işlər üzrə müavini vəzifəsində Dunay çayı sahilinə qədərki məsafədə döyüş yolu keçmişdir.

Mixayıl Kildyakovun son döyüşü 1945-ci ilin 30 martında Dunay çayı sahilindəki Komarno (Çexoslovakiya) şəhərini azad etmək əməliyyatı zamanı olmuşdur. Həmin gecə döyüşündə batalyonun 1-ci dəstəsi ilə sahilə çıxan komissar əməliyyatın qələbəsini təmin etmişdi, lakin son dəqiqələrdə qəflətən düşmən atəşinin qurbanı oldu. Sovet İttifaqı Qəhrəmanı fəxri adı ona 1946-cı ilin 15 mayında verilmişdir.

### KLİMOV Pavel Dmitreviç

Bakıda 1920-ci ildə dünyaya göz açmış Pavel Klimov sənaye institutunda (İndiki Azərbaycan Dövlət Akademiyası) təhsilə başlamış, 1938-ci ildə təyyarəçilik məktəbində təhsilini davam etdirmişdir.

O, müharibədə iştiraka Şimal donanmasında 1943-cü ildə başlamış və həmin ilin 31 noyabr gecəsi Şimal donanması qırıcı təyyarəçiləri içərisində faşist bomba atan təyyarəsini təkbaşına döyüşdə məhv etməyə nail olmuşdur.

Böyük Vətən müharibəsi qurtarana qədərki dövrdə bakılı Pavel Klimov onlarla düşmən təyyarəsini məhv etmiş və 1943-cü ilin 24 martında ona Sovet İttifaqı Qəhrəmanı fəxri adı verilmişdir.

1965-ci ildə polkovnik rütbəsində olan P.D.Klimov hərbi hava qüvvələri sistemində xidmət edirdi.

### KOÇALAYEVSKİ Yuriy Petroviç

1920-ci ildə Bakıda anadan olmuş Yuriy Koçalayevski Böyük Vətən müharibəsində hərbi təyyarəçi kimi iştiraka başlamışdır. Leytenant Yuriy Koçalayevski müharibə illərində 127 hərbi döyüş uçuşu etmiş və bunların əksəriyyəti düşmənin Şimal dənizində hərbi və nəqliyyat gəmilərinin məhv

edilməsinə yönəldilmişdi. Bu döyüşlərdə o düşmənin yeddi nəqliyyat gəmisini, bir neft daşıyan tankerini və bir hərbi mühafizə gəmisini məhv etmişdir. Ona Sovet İttifaqı Qəhrəmanı adı 1944-cü ilin 31 mayında verilmişdir.

**LEVİN Semyon Samuiloviç**

Bakıda 1904-cü ildə dünyaya göz açmış Semyon Levin Sovet – Finlandiya müharibəsində zabit rütbəsində iştirak etmişdir. Böyük Vətən müharibəsi başlandıqda atıcı diviziyada ştab rəisi, az sonra isə komandir vəzifəsində Volqa çayı və Donbas ətrafındakı döyüşlərdə iştirak etmişdir.

Qvardiya polkovnik S.Levinin komandir olduğu 62-ci atıcı diviziya 1943-cü ilin 1 senyabrında İlovaysk stansiyasını (Donbas) düşməndən azad etmişdir.

1945-ci ilin yanvarında həmin diviziya 3-cü Belorusiya cəbhəsi tərkibində Şərqi Prussiya ərazilərində döyüşürdü. Bu döyüşlərə görə 62-ci diviziyaya 3-cü orden verildi və onun komandiri S.Levin Sovet İttifaqı Qəhrəmanı adına layiq görüldü.

**LOZOV Vasiliy Savelyeviç**

Krasnodarın Mixaylovka kəndində doğulmuş Vasiliy Lozov 13 yaşında ikən (1927-ci ildə) Bakıya gəlmiş və 1937-ci ildə buradan könüllü olaraq orduda xidmətə getmişdir.

83-cü Zenit artilleriya alayında top komandiri olan serjant Vasiliy Lozov düşmən qüvvələri ilə döyüşlərə 1941-ci ilin noyabrında Novorossiyskdən başlamışdır. Sonrakı dövrlərdə məşhur Kursk-Belqorod döyüşlərində, Dneprin keçilməsində V.Lozov düşmən təyyarələrinə və birbaşa atəşlə düşmən tanklarına qarşı çoxsaylı uğurlu əməliyyatlarda iştirak etmişdir.

Sovet İttifaqı Qəhrəmanı adı ona 1943-cü ilin 26 oktyabrında Dnepri keçmə əməliyyatına görə veilmişdir.

Həmin əməliyyat zamanı ağır yaralanmış V.Lozov hərbi xidmətdən tərxis edilərək, Bakıya gəlmiş və burada əmək fəaliyyətini davam etdirmişdir.

**MANEVİÇ Lev Yefimoviç**
(1898-1945)

Belorusiyada 1898-ci ildə dünyaya göz açmış Lev Yefimoviç uşaq ikən öz valideynləri ilə Bakıya gəlmiş və şəhərin Qara şəhər adlanan hissəsində oxumuş və sonra zavodda işləmişdir.

Lev Maneviçin sonrakı həyatı hərbi xidmətə həsr olunmuşdur. İkinci Dünya müharibəsi illərində antifaşist istiqamətində hərbi kəşfiyyatçı olmuş və həbs edilərək polkovnik Starostin adı ilə hərbi düşərgədə (Almaniyada) saxlanılırdı. 1945-ci ilin may bayramı günlərində hərbi düşərgədə məhv edilmişdir.

Sovet İttifaqı Qəhrəmanı adı ona ölümündən sonra verilmişdir.

## MİRONOV Valentin Akimoviç

Saratov vilayətində 1923-cü ildə dünyaya göz açmış Valentin uşaq ikən öz valideynləri ilə Bakıya gəlmiş və onun uşaqlıq və gənclik dövrü burada keçmişdir.

1941-ci ildə könüllü olaraq orduda xidmətə getmiş və hərbi məktəbə göndərilmişdir.

Pulemyotçular dəstəsinin komandiri kiçik leytenant V.Mironovun cəbhə həyatı 1943-cü ilin oktyabrında Şimali Qafqazdan başlamışdır.

Sonrakı illərdə onun döyüş yolu Ukrayna, Krım və Pribaltikadan keçmişdir. Cəsur rota komandiri leytenant V.Mironovun ən ağır döyüşü Sapun-Qarada oldu. Bu döyüşdə rotadan yalnız iki nəfər sağ qalmışdı: komandir və bakılı döyüşçü Seyfulla İsmayılov. Hərbi tapşırıq böyük qəhrəmanlıqla yerinə yetirilmişdi və Sevastopol azad edildi.

Sovet İttifaqı Qəhrəmanı adı Valentin Mironova 1944-cü ilin 16 mayında verilmişdir.

Müharibə qurtardıqdan sonra V.Mironov Bakıya qayıtmış və burada Tibb institutuna qəbul olaraq hərbi həkim peşəsinə yiyələnmişdir.

## MƏMMƏDOV Məmməd Cəbrayıl oğlu
(1920-1945)

Qax rayonunun Baydarlı kəndində dünyaya göz açmış və 1940-cı ildə hərbi xidmətə çağırılmışdır. I Ukrayna cəbhəsində döyüşən 52-ci ordunun 373-cü atıcı diviziyası tərkibində sanitar təlimatçısı, baş serjant Məmməd Məmmədov 1945-ci ilin 24 yanvarında Oder çayının keçilməsi (Polşa) əməliyyatında döyüş meydanında ağır yaralanmış 16 döyüşçü və bölmə (rota) komandirini sudan çıxarmışdır. Həmin döyüşlər zamanı düşmən tərəfindən mühasirə edilmiş binadakı yaralıları silahla müdafiə edərkən atışmada həlak olmuşdur.

Sovet İttifaqı Qəhrəmanı adı ona 1945-ci ilin 10 aprelində verilmişdir. Qax rayonu mərkəzində bir küçəyə onun adı verilmişdir.

**MƏMMƏDOV Xəlil Məhəmməd oğlu**
(1916-1992)

Şuşada dünyaya göz açmış və 1938-ci ildə hərbi xidmətə çağırılmışdır. 1942-ci ildə II Ukrayna cəbhəsində 23-cü tank korpusu tərkibində batalyon komandiri olan kapitan Xəlil Məmmədov 1944-cü ilin avqustunda Rumıniyanın Tırqu-Frumov şəhərinin faşistlərdən azad edilməsi əməliyyatında düşmənin gözləmədiyi yerdən hücum edərək qələbəni təmin etmişdi. Bunun arxasınca kapitan X.Məmmədovun tank batalyonu Siret çayını keçərək Roman şəhərinə daxil olmuş və düşmənin 4 minə qədər əsgər və zabitini əsir götürmüşdü.

Sovet İttifaqı Qəhrəmanı fəxri adı ona 1945-ci ilin 24 martında verilmişdir. Mayor X.Məmmədov 1946-cı ildə hərbi xidmətdən buraxılmış və Daxili İşlər Nazirliyi sistemində general-mayor rütbəsi ilə Nazir müavini səviyyəsinə qədər yüksəlmişdir.

**MİRZƏYEV Bahəddin Şahvələd oğlu**

1914-cü ildə İsmayıllı rayonunun Sulut kəndində dünyaya göz açmış və 1936-cı ildə hərbi xidmətə çağırılmışdır. 1942-ci ildə 416-cı Azərbaycan Milli diviziyasının 1054-cü topçu alayında batareya komandiri olan baş leytenant B.Mirzəyev ağır döyüşlərdə iştirak etmişdir. Onun komandir olduğu topçular batareyası 1945-ci ilin yanvarında I Belorusiya cəbhəsi tərkibində Polşa ərazisində döyüşərkən yanvarın 16-dakı döyüşdə düşmənin 4 tankını və 10 topunu məhv edərək qələbəni təmin etmişdi.

Sovet İttifaqı Qəhrəmanı adı ona 1945-ci ilin 24 martında verilmişdir.

Kapitan B.Mirzəyev 1945-ci ildə orduda xidmətdən tərxis edilmiş və Rabitə nazirliyi sistemində hərbiləşdirilmiş müdafiə şöbəsi rəisi olmuşdur.

**MUSAYEV Mərdan Məmməd oğlu**
(1907-1982)

Tovuz rayonunun Əlimərdanlı kəndində dünyaya göz açmış və 1941-ci ildə hərbi xidmətə çağırılmışdır.

Qvardiya baş serjant M.Musayev III Ukrayna cəbhəsində 28-ci ordu tərkibində motoatıcı batalyonda bölmə komandiri olarkən 1944-cü ilin 10 martı gecəsində Borislov şəhəri uğrunda döyüşdə iştirak etmiş, Dnepr və İnqulen çaylarını keçərkən düşmənin cəbhə xəttindəki silahlı qüvvələri məhv etmiş və hücumun uğurlu olmasını təmin etmişdir. Həmin döyüşdə o, şəxsən batalyon komandirini həlak olmaqdan mühafizə etmişdir.

Sovet İttifaqı Qəhrəmanı fəxri adı ona 1944-cü ilin 3 iyununda verilmişdir. Müharibədən sonra Tovuz rayonunda müxtəlif vəzifələrdə işləmişdir.

**MUSTAFAYEV Bəkir Dursun oğlu**
(1898-1970)

Gürcüstanın Axaltsix rayonunun Qlazar kəndində anadan olmuş və 1941-ci ilin avqustunda könüllü olaraq hərbi xidmətə getmişdir. 1942-ci ilin martında Şimali Qafqazda döyüşən 56-cı Ordunun 164-cü atıcı alayının tərkibində döyüşə başlayan qvardiyaçı əsgər Bəkir Mustafayev 1943-cü ilin noyabrında məşhur Kerç əməliyyatında (Krım vilayəti) qəhrəmanlıq göstərmişdir. Noyabrın 3-də o, düşmənin möhkəmləndirilmiş səngərinə birinci daxil olaraq onun 9 nəfər əsgərini qranat və silah ilə məhv etmiş və **düşmən pulemyotundan düşmənə atəş açmışdır.** Bu döyüşdə yaralansa da döyüş yerindən çıxmamışdır.

Sovet İttifaqı Qəhrəmanı adı ona 1944-cü ilin 16 mayında verilmişdir. Müharibə qurtardıqdan sonra Səmərqənddə (Özbəkistan) yaşamışdır və orada bir küçəyə onun adı verilmişdir.

**MUSTAFAYEV Xıdır Həsən oğlu**
(1905-1975)

Gözəldərə kəndində (Ermənistan) dünyaya göz açmış və 1927-ci ildə hərbi xidmətə çağırılmışdır. Motoatıcı batalyon komandiri rütbəsində cəbhələrdə döyüşə 1942-ci ilin sentyabrında başlamışdır. I Ukrayna cəbhəsində döyüşən 3-cü qvardiya tank ordusunda batalyon komandiri olan mayor X.Mustafayevin batalyonu 1943-cü ilin 7 noyabrında Kiyev vilayətində Fastov şəhərinə birinci olaraq daxil olmuş və onu azad etməkdə həlledici rol oynamışdır.

Sovet İttifaqı Qəhrəmanı adı ona 1944-cü ilin 10 yanvarında verilmişdir.

Polkovnik X.Mustafayev 1954-cü ildə hərbi xidmətdən tərxis edilərək Bakıda işləmişdir.

**MƏHƏRRƏMOV Məhəmməd Əli oğlu**
(1919-1977)

Qasım İsmayılov rayonunun (indiki Goranboy) Qarasuçu kəndində dünyaya göz açmış və 1939-cu ildə hərbi xidmətə çağırılmışdır.

Cəbhədə döyüşlərə 1941-ci ildə 52-ci ordunun 254-cü atıcı diviziyasında bölmə komandiri vəzifəsində başlamışdır.

Baş serjant M.Məhərrəmovun dəstəsi 1943-cü ilin 2 oktyabrı gecəsi Kreşşatnik adlı yerdə Dnepr çayını birinci olaraq keçmiş və 15 gün müddətində düşmənin arxasında onun silah anbarını partlatmış, zəbt etdiyi kənddə düşmənin bir tankını və onlarla əsgərini məhv edərək, arxadan gələn hərbi hissələrin hücumunun genişlənməsini təmin etmişdir.

Sovet İttifaqı Qəhrəmanı adı 1944-cü ilin 22 fevralında verilmişdir.

Leytenant M.Məhərrəmov 1945-ci ildə hərbi xidmətdən tərxis edilmişdir.

**Məhərrəmov Məlik Məlik oğlu**

1920-ci ilin 29 avqustunda Zərdab rayonunun Bıçaqçı kəndində anadan olmuşdur. Hərbi xidmətə 1939-cu ildə çağırılmış və 1941-ci ilin iyunundan 61-ci ordunun 77-ci qvardiyaçı atıcı diviziyası tərkibində Leninqrad uğrunda və Oryol ətrafındakı ağır döyüşlərdə iştirak etmişdir. Müharibə cəbhələrində beş dəfə yaralanmışdır.

Rota komandiri qvardiya leytenant M.Məhərrəmov öz döyüşçüləri ilə birlikdə 1943-cü ilin 27 sentyabrında Dnepr çayını Nedançiçi adlı yerdə keçərək (Çerniqov vilayəti) düşmənin istehkam məntəqəsini ələ keçirmiş, düşmən qüvvələrinin əks hücumlarını dəf edərək, ümumi hücumun uğurunu təmin etmişdir. Ona və rotasının 15 döyüşçüsünə Sovet İttifaqı Qəhrəmanı adı 1944-cü ilin 15 yanvarında verilmişdir. Məlik Məhərrəmov müharibəni Berlində başa vurmuşdur.

M.Məhərrəmov 1954-cü ildə M.V.Frunze adına akademiyanı qurtarmışdır. 1973-cü ildə hərbi xidmətdən tərxis edilən polkovnik M.Məhərrəmov indi Bakı Dövlət Universitetində dərs deyir və respublikada gənclərin hərbi vətənpərvərlik ruhunda tərbiyəsi işində geniş fəaliyyət göstərir.

**MƏMMƏDOV Əli Ağa oğlu**
(1922-1944)

Bakıda dünyaya göz açmış və 1942-ci ildə Qara dənizdə qoşun hissəsində xidmətə çağırılmışdır. 1944-cü ilin 26 martında Odessa hərbi dəniz bazasının 384-cü batalyonu desant dəstəsi Nikolayev şəhəri rayonunda düşmənin arxasına çıxarılmışdı və həmin dəstə 2 gün ərzində gecə və gündüz düşmənin 18 güclü əks hücumunu dəf etmişdi. Həmin dəstə tərkibində döyüşən tank əleyhinə topçu matros Əli Məmmədov bu ağır döyüşlərdə şəxsi qəhrəmanlıq göstərmiş və son nəfəsinə qədər döyüşərək, döyüşdə həlak olmuşdur. Nikolayev şəhərində qardaşlıq qəbiristanlığında dəfn edilmişdir.

Sovet İttifaqı Qəhrəmanı fəxri adı ona 1945-ci ilin 20 aprelində verilmişdir. Bakıda 101 №-li məktəbdə qəhrəmanın büstü qoyulmuşdur.

**MƏMMƏDOV Qafur Nəsir oğlu**
(1922-1942)

Bakıda dünyaya göz açmış, 1941-ci ilin avqustunda hərbi xidmətə getmişdir. Zaqafqaziya cəbhəsində 56-cı ordu tərkibində 323-cü dəniz piyada batalyonunda rabitəçi vəzifəsində xidmət edən matros Qafur Məmmədov Tuapse şəhəri yaxınlığında aparılan ağır döyüşlərdə qəhrəmanlıqlar göstərmişdir.

1942-ci ilin 19 oktyabrında faşist ordusu hissələrinin hücumlarını dəf edərkən Qafur Məmmədov şəxsən düşmənin 13 avtomatçısını və bir minomyot heyətini məhv etmişdi. Həmin döyüşdə o, öz komandirini düşmən atəşindən müdafiə edərkən, özü həlak oldu.

Sovet İttifaqı Qəhrəmanı adı ona 1943-cü ilin 31 martında verilmişdir. Bakıda bir hərbi məktəbə, bir gəmiyə və bir küçəyə onun adı verilmişdir.

**NOSOV Aleksandr Mixayloviç**

Saratov vilayətində 1924-cü ildə dünyaya göz açmış Aleksandr Nosov valideynləri ilə birlikdə 1933-cü ildə Bakıya gəlmiş və bir neçə il Kürdəmirdə yaşamışdır.

1941-ci ildə 18 yaşlı Aleksandr könüllü cəbhəyə getmiş və onun döyüş yolu Şimali Qafqazdan başlamışdır.

Taman yarımadası uğrunda aparılan döyüşlərdən birində serjant Aleksandr Nosovun xidmət etdiyi atıcı batalyonu düşmənin 10 hücumunu dəf edərək, 6 tankını vurmuşdu. Rota komandiri Saidov ağır yaralanaraq döyüşdən çıxarıldıqda, onu qvardiya serjant Aleksandr Nosov əvəz etdi və çox ağır döyüş qələbə ilə qurtardı. Serjant Aleksandr Nosova növbədən kənar kiçik leytenant rütbəsi verildi.

Həmin günlərdə aparılan ikinci döyüşdə Aleksandr Nosov tank əleyhinə qranat ilə şəxsən düşmənin 3 tankını partlatmışdı.

Sovet İttifaqı Qəhrəmanı adı ona 1943-cü ilin 23 oktyabrında verilmişdir.

**HƏKİMOV Mikayıl Kəbir oğlu**
(1916-1944)

Bakıda dünyaya göz açmış Mikayıl Kəbir oğlu orduda dəniz donanması hissəsində matros olmuşdur.

Böyük vətən müharibəsi başlandıqda Qara dəniz donanmasından Taqanroq və Mariupolda desant çıxarma əməliyyatlarında iştirak etmişdir.

Faşist ordusu geriyə çəkilərkən 1944-cü ilin qışında Nikolayev şəhərinin buxtasını minalamışdı və onu partlatmalı idilər. Bunu bilən Sovet ordu komandanlığı həmin planı pozmaq haqqında əmr verdi. Bu əməliyyatı həyata keçirməli olan 67 nəfərdən ibarət desant dəstəsinə Mikayıl Həkimov da daxil idi. Desantçılar Cənubi Buğ çayının axınının əksinə kiçik qayıqlarda 25 kilometr məsafəni qət edərək, buxtaya çatdılar və iki gün qızğın döyüşlər oldu. Bu ağır döyüşlərin birində Bakılı Mikayıl Həkimov da həlak oldu.

1945-ci ilin 20 aprelində həmin desant əməliyyatında qəhrəmancasına həlak olan 67 nəfərin hamısına Sovet İttifaqı Qəhrəmanı adı verildi.

## OSTAPENKO İvan Qriqoryeviç

Kubanda 1914-cü ildə dünyaya göz açmış İvan Ostapenko 16 yaşında olarkən iş dalınca Azərbaycana gəlmiş, Neftçala rayonunda balıq təsərrüfatında və kolxozda işləmişdir.

1941-ci ildə orduda xidmətə çağırılmış və onun cəbhə yolu Rostov uğrunda döyüşlərdən başlanmışdır.

Minomyotçular dəstəsində xidmət edən İ.Ostapenko Kuban, Donbas, Krım cəbhələrində döyüşmüş və üç dəfə yaralanmışdır.

Kiçik serjant İ.Ostapenko 1944-cü ilin sonunda Dunay yaxınlığındakı əməliyyatlarda iştirak etmiş, Dunayın qərb sahilinə keçilməsi əməliyyatında igidlik göstərmişdir.

Sovet İttifaqı Qəhrəmanı fəxri adı ona 1945-ci ilin martında verilmişdir.

Müharibə qurtardıqdan sonra Azərbaycana qayıdaraq, neft trestlərinin birində işləmişdir.

## PETRUXİN Nikolay Dmitriyeviç
(1908-1945)

Bakıda dünyaya göz açmış Nikolay Petruxin Suraxanıda yaşamış və 30-cu illərin əvvəlində hərbi xidməti qurtarıb, yenə də Bakıya qayıtmış, neft sənayesində işləmişdir. Böyük Vətən Müharibəsi başlandıqda N.Petruxin Qara dəniz donanmasında xidmətə göndərilmiş və snayper peşəsinə yiyələnmişdir.

1944-cü ilin martında Nikolayev şəhərinin azad edilməsi üzrə desant əməliyyatında iştirak edən N.Petruxin şəxsi qəhrəmanlıq göstərmişdir: iki gün ərzində düşmənin 18 hücumu dəf edilmişdi. Çox ağır keçən bu döyüşlərin birində N.Petruxin həlak olmuşdur.

Sovet İttifaqı Qəhrəmanı adı ona 1945-ci ilin 20 aprelində verilmişdir.

**POPOV Nikolay Fyodoroviç**
(1905-1945)

Samarada dünyaya göz açmış Nikolay Popov 1925-ci ildə Bakıya gələrək, neft mədənlərinin birində işə başlamışdı. Böyük Vətən müharibəsi başlandıqdan az sonra cəbhəyə gedərək 340-cı atıcı alayın tərkibində Şimali Qafqaz, Donbas, Ukrayna, Belorusiya, Polşa ərazilərində döyüşmüş və Visla çayı sahilinə çatmışdır.

Kiçik leytenant Nikolay Popovun düşmənlə son döyüşü müharibənin sonuncu ilində Visla sahilində oldu. Burada keçirilmiş ağır döyüşlərin birində o, qəhrəman kimi döyüşdü və həlak oldu. Az sonra ona Sovet İttifaqı Qəhrəmanı fəxri adı verildi və bu haqda xəbər Bakıda yaşayan həyat yoldaşı O.N.Popovaya çatdırıldı.

**PİRİYEV Əlif Turxan oğlu**
(1922-1986)

İndiki Neftçala rayonunun Qoltuq kəndində dünyaya göz açmış və 1941-ci ilin oktyabrında hərbi xidmətə çağırılmışdır. Dördüncü Ukrayna cəbhəsində vuruşan 32-ci qvardiyaçı atıcı diviziyasının 80-ci alayında bölmə komandiri olan serjant Əlif Piriyev Kursk döyüşlərində və 1944-cü ilin mayında Sapun-Qaranın (Sevastopol şəhəri ətrafında) azad edilməsində şəxsi qəhrəmanlıq göstərmişdir.

Qvardiya baş serjant Ə.Piriyevin bölməsi 1944-cü ilin 8 mayında Sapun-Qarada düşmənin betonla möhkəmləndirilmiş 3 atəş nöqtəsini məhv edərək ümumi hücuma şərait yaratdı və mayın 9-da Sapun-Qaranın düşməndən azad edilməsi əməliyyatında yaralansa da, döyüşdən çıxmamışdı.

Sovet İttifaqı Qəhrəmanı fəxri adı ona 1945-ci ilin 24 martında verilmişdir.

Kiçik leytenant Ə.Piriyev 1953-cü ildə orduda xidmətdən tərxis edilərək Bakıda işləmişdir.

**RƏFİYEV Nəcəfqulu Rəcəbalı oğlu**
(1912-1970)

Ordubad şəhərində dünyaya göz açmış və 1935-ci ildə hərbi xidmətə çağırılmışdır. Böyük Vətən müharibəsi başlandığı dövrdə kiçik leytenant Nəcəfqulu Rəfiyev I Belorus cəbhəsində əməliyyatlar aparan 3-cü tank alayında bölmə komandiri vəzifəsində döyüşürdü.

1944-cü ilin 26 iyununda bölmənin tankları Ptiç çayını (Bobruyskdən cənubda) keçərək, geriyə çəkilən düşmənin yolunu kəsmiş və Mogilyov vilayətinin Qorets rayonunun düşməndən azad edilməsində fədakarlıq göstərmişdir.

Sovet İttifaqı Qəhrəmanı fəxri adı ona 1944-cü ilin 26 sentyabrında verilmişdir. Mayor N.Rəfiyev 1956-cı ildə hərbi xidmətdən tərxis edilmiş və Bakıda işləmişdir.

Ordubadda bir küçəyə onun adı verilmişdir.

## RİXARD Zorge
(1895-1944)

Bakıda Sabunçu qəsəbəsində neftçi texnik Adolf Zorgenin ailəsində doğulmuş Rixard Zorge (Almaniya vətəndaşı Albert Zorgenin nəvəsi) üç yaşında olduqda valideynləri ilə Almaniyaya qayıtmış və orada orta və ali təhsilini bitirmişdir.

Rixardın babası Albert və dayısı Fridrix Zorge kommunizm hərəkatında fəal iştirak etmişdilər və görünür Rixardın da bu hərəkata meylinə bunun təsiri olmuşdur.

1924-cü ildə Sovetlər İttifaqına qayıdan Rixard Zorge, 1929-cu ildə Sovet kəşfiyyat xidmətinin işinə cəlb edilmiş, 30-cu illərdə Almaniya və Yaponiyada işləyərkən bu iki ölkənin Sovetlər ölkəsinə qarşı hərbi əməliyyatlara hazırlaşmaları və hətta bu hücumların konkret vaxtları haqqında məlumatları Sovet rəhbərliyinə gizli yollarla çatdırmışdır.

Almaniya faşist ordusu ilə Moskva altında keçirilən gərgin döyüşlər zamanı Rixard Zorge Yaponiyadan xəbər vermişdi ki, Yaponiya (Almaniyanın müttəfiqi) Sovetlər İttifaqına qarşı müharibəyə başlamayacaqdır. Buna əsasən Sovet rəhbərliyi Uzaq Şərqdə yerləşdirdiyi ordunun bir hissəsini Moskvanı müdafiəyə cəlb etmişdi.

1941-ci ilin oktyabrında Rixard Zorge Yaponiya polisi tərəfindən həbs edilmiş və 1943-cü ilin sentyabrında onun haqqında ölüm hökmü verilmişdir.

R.Zorge 1944-cü ilin 7 noyabrında Yaponiyada edam edilmişdir. Ona Sovet İttifaqı Qəhrəmanı adı 20 il sonra, 1964-cü ilin 5 noyabrında verilmişdir. Bakıda xatirə ansamblı yaradılmış, qəhrəmanlığı haqqında bədii film çəkilmişdir.

## SAFONOV İlya Moiseyeviç

Krasnodar vilayətində 1913-cü ildə dünyaya göz açmış İlya Safonov 1928-ci ildə Azərbaycana gəlmiş və Xaçmazda, sonra isə Bakıda işləmişdir.

Müharibə başlandıqda cəbhəyə yollanmış və döyüşlərlə 1944-cü ilin əvvəlində Dnepr sahillərinə çatmışdır.

Minomyotçular rotası komandiri zabit İlya Safonovun dəstəsi 1944-cü ilin 7 fevralında Dnepri ilk keçənlərdən oldu və bu böyük əməliyyatın uğurla keçməsində mühüm rol oynadı.

Sonrakı döyüşlər Xerson şəhərinin Tiraspolun (Moldaviya) azad edilməsi günlərində oldu.

Bu son döyüşdə İ.Safonov ağır yaralandısa da, döyüşdən çıxmadı və əməliyyat uğurla başa çatdı.

Sovet İttifaqı Qəhrəmanı fəxri adı ona 1944-cü ilin 31 iyulunda verilmişdir.

Müharibə qurtardıqdan sonra İlya Safonov Bakıya qayıtmış və Bakı aeroportunda dispetçer işləmişdir.

## STATSYUK Nikolay Arsenyeviç

Xmelnitski vilayətində 1917-ci ildə dünyaya göz açmış Nikolay Statsyuk 1936-cı ildə Bakıya gəlmiş və neft mədənində traktorçu işləmişdir.

Müharibə başlandığı günlərdə Nikolay Statsyuk SSRİ-nin qərbində orduda xidmət edirdi. Tank hissəsinə xidmət edən Nikolay ağır döyüşlərdə geriyə çəkilməyin acı həqiqətlərinin şahidi olmuşdur.

Sovet ordusu ilə faşist ordusu arasında 1943-cü ildə baş vermiş ağır tarixi Kursk döyüşündə N.Statsyuk da iştirak etmiş və qəhrəmancasına vuruşmuşdur.

Faşist ordusunun məğlub olaraq geriyə çəkilməsi dövründə tank bölməsi komandiri N.Statsyuk Visla və Oder çaylarını dəstənin başında hərəkət edən öz tankında keçərək qəhrəmancasına vuruşmuşdur. Son döyüşlərin birində o, öz tankı ilə düşmənin 8 tankını sıradan çıxardı. Sovet İttifaqı Qəhrəmanı fəxri adı ona 1945-ci ilin 24 martında verilmişdir.

Müharibə qurtardıqdan sonra N.Statsyuk Bakıya qayıtmış və neft mədənləri idarəsində rəis müavini vəzifəsində işləmişdir.

## SUXOV Nikolay Dmitryeviç

Bakıda 1914-cü ildə dünyaya göz açmış Nikolay Suxov gənc yaşlarından Bakının aeroklubunda təyyarəçilik üzrə məşqlərdə iştirak etmişdir.

Orduda xidmətə çağırılarkən təyyarəçilik məktəbinə göndərilmiş və müharibə başlandığı dövrdə kiçik leytenant N.Suxov təyyarəçilər dəstəsinin komandiri idi.

Onun döyüş yolu Qomel, Xarkov, Oryol, Stalinqrad istiqamətlərində, əks hücumlar dövrü isə Bobruysk, Polşa istiqamətində olmuşdur.

Qvardiya kapitan N.Suxov müharibə illərində 350-dən çox hərbi uçuş yerinə yetirərək, düşmən üzərinə bomba zərbələri endirmişdir. Ona Sovet İttifaqı Qəhrəmanı fəxri adı 1944-cü ilin 1 iyulunda verilmişdir.

## TSIQANOV Yevgeniy Terentyeviç

Bakıda 1921-ci ildə dünyaya göz açmış Yevgeniy Tsıqanov 14 yaşından başlayaraq Bakıdakı aviomodelçilər klubuna tez-tez gedərdi və o, 1939-cu ildə orduda xidmətə çağırıldıqda təyyarəçilik məktəbinə göndərilmişdi.

Böyük Vətən müharibəsinin əvvəlində qırıcı təyyarəçi Y. Tsıqanov Kronştad və Leninqrad göylərini müdafiə edirdi.

Müharibə illərində Yevgeniy Tsıqanov 492 hərbi uçuş etmiş, bunlardan 65-də düşmənlə üz-üzə vuruşaraq, düşmənin 14 təyyarəsini şəxsən, 8 təyyarəsini isə yoldaşları ilə birlikdə məhv etmişdir. Y.Tsıqanovun son dəfə səmaya qaldırdığı eskadrilya düşmənin 13 təyyarəsini məhv etmişdi.

Bakılı Yevgeniy Tsıqanova Sovet İttifaqı Qəhrəmanı fəxri adı 1944-cü ilin 22 yanvarında verilmişdir.

## SADIXOV Yusif Mədət oğlu
(1918-1971)

Azərbaycanın Tovuz rayonunda dünyaya göz açmış və 1938-ci ildə hərbi xidmətə çağırılmışdır.

Birinci Belorusiya cəbhəsində döyüşən qvardiya tank ordusunun artilleriya divizionunda top komandiri olan starşina Yusif Sadıxov 1942-ci ilin fevralından cəbhələrdə fəal döyüşmüşdür.

Starşina Sadıxovun komandir olduğu topçular dəstəsi 1945-ci ilin əvvəlində Almaniya faşist ordusuna qarşı başlanmış son döyüşlərdə xüsusilə fərqlənmişdir. Onlar yanvarın 16-da Pilitsa çayını (Polşa ərazisindədir) keçərək düşmənin atəş nöqtələrini məhv etdilər və hücum əməliyyatının qələbə ilə qurtarmasını təmin etdilər. Yanvarın 18-də isə Zqej rayonunda düşmənin əks hücumunu dəf edərkən Sadıxovun topçular dəstəsi öz sərrast atəşləri ilə düşmənin bir tankını, 2 BTR-ni və bir qrup əsgərini məhv etdilər.

Sovet İttifaqı Qəhrəmanı adı ona 1945-ci ilin 1 mayında verilmişdir. Tovuzda qəhrəmanın adına bir küçə vardır.

## SÜLEYMANOV İdris Həsən oğlu
(1915-1986)

İndiki Goranboy rayonunun rayon mərkəzində dünyaya göz açmış və 1936-1939-cu illərdə hərbi xidmətdə olmuşdur. 1941-ci ilin iyulunda cəbhələrdə döyüşmüşdür. Kiçik leytenant İdris Süleymanovun komandir olduğu bölmə 1942-

ci ilin noyabrında Şimali Qafqazda döyüşən 43-cü atıcı briqadanın tərkibində Mazdok ətrafındakı döyüşlərdə fərqlənmişdir. Müharibənin bizim üçün ağır olduğu bu çağında leytenant İdris Süleymanov döyüşün ağır məqamlarında öz döyüşçülərini "hücum" əməliyyatına qaldıraraq düşmənin müqavimətini qırmış və yaralanmasına baxmayaraq, qələbə əldə edilənə qədər döyüşdən çıxmamışdır. Döyüşlərdə bir neçə dəfə yaralanmışdır.

Sovet İttifaqı Qəhrəmanı adı ona 1942-ci ilin 13 dekabrında verilmişdir.

1943-cü ildə hərbi xidmətdən tərxis edilmişdir.

**SƏFƏROV Fariz Məcid oğlu**
(1920-1964)

Ağdaş rayonunun Ləki qəsəbəsində dünyaya göz açmış və 1939-cu ildə orduya xidmətə çağırılmışdır.

Müharibə başlandığı vaxt Fariz Səfərov ölkənin qərb sərhədlərində idi və kəşfiyyatçı dəstəsində ağır döyüşlərdə iştirak edirdi.

1943-cü ilin sentyabrında F.Səfərovun xidmət etdiyi hissə Zaporojye uğrunda döyüşlərdə iştirak edirdi. Cəsur kəşfiyyatçı olan baş serjant F.Səfərov öz dəstəsi ilə kiçik qayıqla Dnepr çayının o biri sahilinə keçərək mövqe tutmaq haqda əmr almışdı. Zirək komandir düşmənin atəşi altında bu ağır desant tapşırığını yerinə yetirdi. Döyüşün son mərhələsində kəşfiyyat dəstəsinin pulemyotunun patron daraxları tükəndi. Komandir F.Səfərov təpənin arxasından çıxaraq alman pulemyotçusunu məhv edərək onun pulemyotu ilə faşistlərə atəş açdı və əməliyyatın qələbə ilə qurtarmasını əmr etdi.

Sovet İttifaqı Qəhrəmanı adı ona 1944-cü ilin 19 martında verilmişdir.

Fariz Səfərov müharibə qurtardıqdan sonra Sovet Ordusunda xidmət etmiş və mayor rütbəsində dünyasını dəyişmişdir.

**FROLOV Mixayıl Fyodoroviç**

Şamaxı rayonunun Xilmilli kəndində 1910-cu ildə dünyaya göz açmış Mixayıl Frolov traktor və kombayın sürməkdə mahir idi.

Müharibə başlandıqda tankist Mixayıl da Vətəni müdafiəyə yollandı və düşmənlə ağır döyüşə 1943-cü ilin payızında Dneprin keçilməsi günlərində başladı.

1943-cü ilin 22 sentyabrında başlanan hücum əməliyyatı üç gün davam etdi və Mixayıl Frolovun tankı panton körpüsü ilə Dneprin sağ sahilinə ilk çıxanlardan biri oldu. Dneprin sağ sahilində hücumu davam etdirmə əməliyyatlarının birində tankist Mixayıl Frolov ağır yaralanaraq, hospitala müalicəyə göndərildi.

1944-cü ilin sonunda Mixayıl Frolov xəstəliyinə görə ordudan tərxis edildi və o, Şamaxıya qayıtdı.

Mixayıl Frolova 1960-cı ildə Bakıda evquraşdırma kombinatında işlədiyi vaxt, yəni 20 il sonra, Sovet İttifaqı Qəhrəmanı adı verildi. Qəhrəman tankistin komandiri polkovnik Storojenkonun xeyirxahlığı nəticəsində ali mükafat öz sahibini 20 ildən sonra tapdı.

## FYODORENKO Stepan Alekseyeviç

Ukraynada (Kiyev şəhərində) dünyaya göz açmış və az sonra yetim olmuş Stepan Fyodorenko 1923-cü ildə (15 yaşında) iş dalınca Azərbaycana gələrək, Quba rayonunda nökərçiliyə başlamışdı.

Orduda xidmət etdikdən sonra o, yenə də Azərbaycana qayıdaraq Bakıda işləməkdə davam edirdi.

Müharibə başlandıqda Vətəni müdafiəyə qalxan Stepan Fyodorenko 1943-cü ilə qədər Bakıda Zenit artilleriya hissəsində xidmət etmiş, sonrakı dövrdə isə Donbasın və Ukraynanın, digər ərazilərin düşmən tapdağından azad edilməsində qəhrəmancasına döyüşmüşdür.

Serjant S.Fyodorenko 1944-cü ilin iyununda Orş və Borisov şəhərlərinin azad edilməsi əməliyyatlarında düşmən arxasına göndərilmiş atıcı dəstəyə rəhbərlikdə şəxsi qəhrəmanlıq və hərbi ustalıq göstərdiyinə görə Sovet İttifaqı Qəhrəmanı adına təqdim edilmişdi.

Ona Sovet İttifaqı Qəhrəmanı fəxri adı 1945-ci ilin 23 martında verilmişdir.

## XARLAMOV Georgi Nikolayeviç
(1905-1945)

Kubanda dünyaya göz açmış Georgi Xarlamov gənc yaşlarında Azərbaycana gələrək, Qaradağ sement-qır zavodunda çilingər işləmişdir.

Müharibənin başlandığı 1941-ci ilin sentyabrında o, cəbhənin döyüş zonasında vuruşurdu.

Bölmə komandiri starşina Georgi Xarlamov və onun rabitəçiləri Ukraynanın Ocakov, Xerson, Odessa şəhərlərinin düşməndən azad edilməsində fəal iştirak etmişdir.

1945-ci ilin martında Georgi Xarlamov Almaniya ərazisində vuruşurdu. Onun düşmən ilə son döyüşü martın 26-da oldu. Ağır yaralanmasına baxmayaraq o, döyüşdən çıxmadı və düşmənin təkrar gülləsi ilə həyatla vidalaşdı.

Georgi Xarlamova Sovet İttifaqı Qəhrəmanı fəxri adı 1945-ci ilin 31 mayında verilmişdir.

## ÇELYADİNOV Dmitriy Alekseyeviç

Valideynləri ilə birlikdə Bakıya köçmüş 13 yaşlı Dmitriy Bakıda ali texniki təhsil almış və müharibə başlanan gün orduda xidmətə getmişdir.

Artilleriya batareyasına komandirlik edən Dmitriy Çelyadinovun döyüş yolu Şimali Qafqaz, Kuban və Krım (Kerç körfəzi) torpaqlarından keçmişdir.

Baş leytenant Dmitriy Çelyadinov Kerç ətrafında 1943-cü ilin son aylarında keçmiş ağır döyüşlərdə komandirlik məharəti və cəsurluq göstərmişdir. Bu döyüşlərin birində cəsur komandir Dmitriy Çelyadinov həlak oldu.

Sovet İttifaqı Qəhrəmanı fəxri adı ona 1944-cü ilin 16 mayında verilmişdir.

## ŞAXNOVİÇ Moisey Davıdoviç

Ukraynada 1920-ci ildə dünyaya göz açmış Moisey Şaxnoviç 1938-ci ildə orduda xidmətə çağırılmış və Zaqafqaziya hərbi dairəsinə göndərilmişdir. Az sonra onu Bakıda yerləşən hərbi məktəbə təhsilə göndərdilər.

Tank əleyhinə artilleriya batareyası komandiri baş leytanant Moisey Şaxnoviçin döyüş yolu Cənub hissəsindən başlandı.

Sonrakı dövrdə onun döyüş yolu Don və Volqa çayları ətrafında, Stalinqradın qəhrəmancasına müdafiəsindən keçdi.

Kapitan M.Şaxnoviç 1943-cü ildə Melitopol şəhərinin düşməndən azad edilməsində xüsusi hərbi şücaət və bacarıq nümayiş etdirmişdir. Bu döyüşlərdə o, dörd dəfə yaralanmışdır.

Sovet İttifaqı Qəhrəmanı fəxri adına layiq görülmüş kapitan Moisey Şaxnoviç səhhətinə görə hərbi xidmətdən tərxis olunduqdan sonra Azərbaycana gəlmiş və ömrünün sonunadək burada yaşamış və işləmişdir.

## ŞEVERDYAYEV Nikolay Petroviç

Şamaxı rayonunun Çuxur-Yurt kəndində 1922-ci ildə dünyaya göz açmış Nikolay Şeverdyayev Stalinqrad hərbi-təyyarəçilik məktəbini qurtaran kimi döyüşən orduda xidmətə getdi. Leytenant N.Şeverdyayevin “İl-2” təyyarəsində ilk uçuşları Şimal cəbhəsində Ladoqa gölü ətrafında düşmənin arxasına çıxarılan desant əməliyyatını düşmən təyyarələri hücumlarından müdafiə etmək məqsədi güdürdü və o, bu vəzifəni layiqincə yerinə yetirməkdə fəal iştirak etdi.

Qvardiya kapitan Nikolay Şeverdyayev Oder çayı ətrafında hücum əməliyyatları aparan ordu hissələrimizə mane olan düşmən artilleriyasını məhv etmək əməliyyatında da fəal iştirak edərək, mahir və cəsur təyyarəçi olduğunu dəfələrlə sübut etmişdir.

Müharibə illərində Nikolay Şeverdyayev 132 döyüş uçuşu etmiş və ona Sovet İttifaqı Qəhrəmanı fəxri adı verilmişdir.

Müharibə qurtardıqdan sonra N.Şeverdyayev Bakının №8 orta məktəbində müəllim işləmiş, gənclərin hərbi-vətənpərvərlik ruhunda tərbiyəsində geniş fəaliyyət göstərmişdir.

**ŞLYAXTUROV Pyotr Petroviç**
(1911-1963)

Volqoqrad şəhərində dünyaya göz açmış Pyotr Şlyaxturov 1931-ci ildə Bakıya gəlmiş və neft mədənlərində işləmişdir. Müharibə başlandıqda o, Bakıdan cəbhəyə könüllü olaraq getmiş və Moskvanın müdafiəsində iştirak etmişdir.

Serjant Pyotr Şlyaxturov minaatanlar bölməsində cəsur döyüşlərinə görə dörd orden ilə təltif edilmişdir.

Pyotr Şlyaxturov Polşa ərazisində aparılan döyüşlər zamanı Visla çayının keçilməsində Moskva adına diviziyanın tərkibində şəxsən düşmənin 6 atəş nöqtəsini susdurmuş və əməliyyatın uğurla başa çatmasına xeyli kömək etmişdir.

Sovet İttifaqı Qəhrəmanı fəxri adı ona 1945-ci ilin 24 martında verilmişdir.

Müharibə qurtardıqdan sonra Moskvada "Qələbə" rəsmi-keçidində iştirak edən Pyotr Şlyaxturov orduda xidmətdən tərxis olunmuş və yenə də Bakıya gələrək, neft mədənlərində işləmişdir.

**ŞÜKÜROV Şirin Ağabala oğlu**

Əlibayramlı şəhərində 1910-cu ildə dünyaya göz açmış və 1941-ci ilin iyulunda hərbi xidmətə getmişdir.

1941-ci ilin avqustundan cəbhələrdə döyüşmüş və I Belorusiya cəbhəsində hərbi əməliyyatlar aparan 339-cu atıcı diviziyanın Polşadakı döyüşlərində fərqlənmişdir. Belə ki, 1945-ci ilin 14 yanvarında Sovet Ordusu Zvolen şəhərinin cənub-şərqində düşmən cəbhəsini yarmaq məqsədilə hücuma keçdikdə sıravi-atıcı Şirin Şükürov düşmənin səngərinə hamıdan əvvəl daxil olaraq, arxasınca gələn döyüşçülərlə birlikdə avtomat və qranatlarla düşmən əsgərlərini məhv etmiş və yaralanmasına baxmayaraq, bütün səngərləri zəbt etməyincə döyüşdən çıxmamışdır.

Sovet İttifaqı Qəhrəmanı fəxri adı ona 1945-ci ilin 27 fevralında verilmişdir.

Müharibə qurtardıqdan sonra Əlibayramlıda işləmişdir.

## 1941-45-ci illər müharibəsində "Şərəf" ordeninin üç dərəcəsi ilə təltif edilmiş Azərbaycanlı döyüşçülər haqqında bəzi məlumatlar

1) **Aslanov Aslan Tərxan oğlu** (Quba rayonunda 1920-ci ildə doğulmuşdur). Müharibəni Moskva altında döyüşlərlə başlayan A.Aslanov Smolensk-Belorusiya-Litva-Şərqi Prusiya ərazilərində gedən ağır döyüşlərdə iştirak etmiş, II dünya müharibəsində iştirakını 1945-ci ilin avqustunda Yaponiyada döyüşlər zamanı qurtarmışdır.

2) **Qavrilov Valeriy Mixayloviç** (Bakıda 1922-ci ildə doğulmuşdur) 1943-45-ci illərdə cəbhələrdə ağır döyüşlərdə iştirak edərək, "Şərəf" ordeninin üç dərəcəsini almışdır. Xatırladaq ki, bu ordenin I dərəcəsi sonda verilir.

3) **Kərimov Əli Kərim oğlu** – Avtomatçılar bölməsi komandiri (starşina), snayper (44 faşist məhv etmişdir), Qələbə rəsmi-keçidi (1945, Moskva) iştirakçısı olmuşdur.

4) **Mehdizadə Sultan Ağa oğlu** – Bakı şəhərində doğulmuşdur. Baş serjant, kəşfiyyatçı, snayper dörd dəfə yaralanmışdır. Döyüş yolu Stalinqraddan Berlinədək. Berlin uğrunda döyüşlərdə şəxsən 3 tank vurmuşdur.

5) **Naxmedov Ağacan** – Astara rayonunun Sarel kəndində doğulmuşdur. Sıravi kəşfiyyatçı – A.Naxmedov "Şərəf" ordeninin üç dərəcəsinə layiq görülmüşdür.

6) **Hüseynov Əli Nəcəf oğlu** (Lerik rayonunun Dəstər kəndində doğulmuşdur) kiçik serjant, top komandiri, "Şöhrət" ordeninin I dərəcəsini Berlin uğrunda döyüşlərdə almışdır. Reystaq binasının divarına "burada Azərbaycan oğlu, Lerik rayonunun Dəstər kəndindən Əli Hüseynov olmuşdur" sözləri yazılmışdır.

7) **Eldarov Süleyman Ələsgər oğlu** – Şəki rayonunda doğulmuşdur. Baş serjant, top komandiri 7 dəfə yaralanmışdır. Döyüş yolu Stalinqraddan Çexoslavakiyaya qədər. 1945-ci ildə keçirilmiş Qələbə rəsmi-keçidi iştirakçısıdır.

8) **Heydərov Muradəli Şahvələd oğlu** (Məmmədqasımlı kəndində doğulmuşdur), sıravi topçu Muradəli Heydərov Qafqazdan Berlinədək döyüş yolu keçmiş, düşmən mühasirəsindən ağır döyüşlə qəhrəmancasına çıxmış və doğma kəndinə 9 orden və medalla qayıtmışdır.

9) **Novruzəliyev Qonaqbəy Mövlan oğlu** – Müharibənin əvvəlindən sonunadək cəbhələrdə olaraq, onu Praqada qurtarmışdır. Bu ağır döyüşlərdə iki dəfə ağır yaralanmış, əsirlikdən qaçaraq partizan dəstəsində iki il partizanlıq edərək nümunəvi xidmət və qəhrəmanlıq göstərmişdir. Partizan dəstəsi tərkibində ağır döyüşlərlə Sovet Ordu hissəsi ilə birləşərək, müharibəni nizami ordu tərkibində Praqada qurtarmışdır.

10) **Rəhimov Rəhim Cəfər oğlu** – Naxçıvan rayonunun Suet kəndində doğulmuşdur. Minomyotçu və minomyot bölməsi komandiri olan Rəhim Rəhimov Qafqazdan Şərqi Prussiyaya qədər döyüş yolu keçmişdir. İki dəfə yaralanmış, 4 orden və medalla təltif edilmişdir.

***III fəsil***

# İKİNCİ DÜNYA MÜHARİBƏSİNİN YEKUNLARI. FAKTLAR VƏ DÜŞÜNCƏLƏR

## §1. II Dünya müharibəsinin son mərhələsi. Uzaq Şərqdə müharibə alovunun söndürülməsi

Almaniya faşizmi ordu hissələri öz paytaxtında darmadağın edilməklə II dünya müharibəsinin Avropa ocağı söndürüldü, lakin Uzaq Şərqdə Yaponiyanın ABŞ və İngiltərəyə qarşı 1941-ci ilin 7 dekabrında başladığı müharibə vəziyyəti davam edirdi.

SSRİ, ABŞ və İngiltərə müttəfiq dövlətləri başçılarının Tehran (noyabr 1943) konfransında Sovetlər İttifaqı rəhbərliyi razılıq vermişdi ki, Alman faşizmi məğlub edildikdən sonra SSRİ-nin müttəfiqləri ilə müharibə aparan Yaponiya dövləti ordusuna qərbdən zərbə endirmək yolu ilə qələbəyə kömək ediləcəkdir. Buna uyğun olaraq 1945-ci 28 iyununda İ.V.Stalin Sovet ordusunun Baş Ştabına göstəriş verdi ki, Yaponiyanın SSRİ sərhəddində yerləşmiş Kvantun ordusunu darmadağın etmək üçün hazırlığa başlansın. Göstərilən hərbi əməliyyatı Zabaykal cəbhəsinin və Primorye ordu qrupunun bölmələri və Uzaq Şərqdəki hərbi dəniz donanması hissələri yerinə yetirməli idilər. Bütün hazırlıq işi 1945-ci ilin 1 avqustunadək qurtarmalı idi. 1945-ci ilin 30 iyulunda marşal A.M.Vasilevski Uzaq Şərqdə yerləşən bütün Sovet silahlı qüvvələrinin Baş komandanı təyin edildi.

Yapopiyaya qarşı Sovet Ordusu tərəfindən hərbi əməliyyatlar 1945-ci ilin 9 avqustunda başlandı. Hərbi əməliyyatlarda 1-ci, 5-ci, 25-ci, 35-ci ordu hissələrinin döyüşçüləri xüsusilə fərqləndilər. Yaponiyanın güclü Kvantun ordusunun darmadağın edilməsi əməliyyatı sentyabrın 1-nə başa çatdı və sentyabrın 2-də Yaponiya təslim olmaq haqqında sənədi imzaladı.

Həyata keçirilmiş hərbi əməliyyatların nəticəsində Sovetlər İttifaqının ordu hissələri Mancuriyanı, Lyaodun və Kvantun yarımadalarını, Şimali Koreyanı (38-ci paralelə qədər). Saxalin adasının cənub hissəsinə və Kuril adalarının hamısını Yaponiya silahlı qüvvələrindən təmizlədilər. Yaponiya ordusunun 574 min əsgər

və zabiti (o cümlədən 110 generalı) əsir alındı, 1434 topu və digər silahları qənimət kimi götürüldü.

II dünya müharibəsinin sonuncu mərhələsi olan Yaponiyaya qarşı birgə aparılan hərbi əməliyyatlarda Sovet Ordusu tərkibində olan xeyli Azərbaycanlı komandir və döyüşçü də iştirak etmişdir.

Yaponiyaya qarşı hərbi əməliyyatlarda iştirak etmək üçün göndərilən hərbi hissələrdən biri 223-cü Azərbaycan milli diviziyası olmuşdur. Həmin diviziya 1945-ci ilin 5 iyulunda eşelonlarla Uzaq Şərqə döyüş cəbhəsinə göndərildi və II dünya müharibəsinin qurtarmasını Uzaq Şərqdə qarşıladı.

Sovet ordusunun ayrı-ayrı hissələrində xidmət edən Azərbaycanlı komandir və döyüşçülərdən bir çoxu Uzaq Şərqdə hərbi əməliyyatlarda geniş iştirak etmişlər.

Hazırda Bakıda yaşayan vitse-admiral Həmid Həbib oğlu Qasımbəyov söyləyir ki, Avropada Almaniya faşizmi üzərində "Qələbə" əldə edildiyi günlərdə biz dənizçilər artıq Uzaq Şərqdə idik və Amerika Birləşmiş Ştatlarına, əlavə döyüş silahları gətirmək üçün göndərilmişdik.

Gənc leytenant şturman Həmid Qasımbəyov 1945-ci ilin  avqustunda Kuril adalarına desant çıxarılması əməliyyatında iştirak etmişdir.

Bu əməliyyat hərbi gəminin dənizin minalanmış hissələri ilə hərəkəti şəraitində aparılırdı. Əməliyyat zamanı şturman H.Qasımbəyovun gərgin fəaliyyəti nəticəsində Yaponiya donanması tərəfindən dənizdə gizlədilmiş 25 mina tapılaraq zərərsizləşdirildi. Az sonra leytenant Həmid Qasımbəyov "Qırmızı ulduz" ordeni ilə təltif edildi.

1949-cu ilin yayında kapitan-leytenant Həmid Qasımbəyovun komandir olduğu hərbi gəmi Sakit Okean sahillərində Kuril adaları, Kamçatka, Kunaşir və Şikatan adaları arasında əməliyyatlar həyata keçirirdi.

Həmyerlimiz H.H.Qasımbəyov Yaponiya təslim olduqdan sonra da dörd il Uzaq Şərqdə hərbi Dəniz Donanmasında xidmət etmişdir.

Böyük Vətən müharibəsi illərində Stalinqrad, Krım (Kerç), Melitopol və Odessa rayonlarında Yassa-Kişinyev döyüş əməliyyatında, 396-cı və 416-cı diviziyaların tərkibində döyüşmüş zabit Baxşıyev Abumüslüm 1944-45-ci illərdə Rumıniya, Bolqarıstan, Yuqoslaviya, Çexoslovakiya və Avstriyada aparılmış hərbi əməliyyatlarda iştirakdan sonra 1945-ci ilin 12 mayında 52-ci atıcı diviziyasının tərkibində Uzaq Şərq hərbi dairəsinə, oradan da Çoybalsana (Monqolustan), Xinqan dağlarından keçərək Xarbin (Çin) istiqamətində döyüşlərlə Port Artur ətrafına qədər çıxmışdır. Həmyerlimiz 1948-ci ilədək burada xidmət etmişdir.

Avropada hərbi əməliyyatlar qurtardıqdan sonra Qərb cəbhəsindəki, hərbi hava ordusunun tərkibində olan I xüsusi aviasiya alayında xidmət edən leytenant Pərviz Əli oğlu Tağızadə söyləyir ki, onların hərbi hissəsi 1945-ci ilin 2 iyununda Şərqi Prusiyadan eşalonlarla Monqolustana göndərildi və avqustun ortalarında

hərbi əməliyyatlar başlandı. Bu əməliyyatlar zamanı Çançun, Xarbin, Mukden və digər şəhərlərdəki Yaponiya silahlı qüvvələri məhv edildi. P.Ə.Tağızadənin xidmət etdiyi alay 1946-cı ilin əvvəlində Çita şəhərinə qaytarıldı.

Almaniya faşistləri ilə müharibədə "Şöhrət" ordeninin üç dərəcəsi ilə təltif edilmiş Aslan Aslanov II dünya müharibəsinin sonunda Uzaq Şərqdə Yaponiya müharibəkirlərinə qarşı da döyüşmüşdür.

Yaponiya imperializminə qarşı müharibədə eləcə də indi ömrünü sürməklə davam edən həmyerli veteranlarımızdan Qara Əli oğlu Sarıyev, Şirin Hüseyn oğlu Tağıyev, Qalina İvanovna Rabayeva, İlyas Hacı oğlu Hacıyev, Əli Nəib oğlu Göyüşov, Hüseyn Camal oğlu Hüseynzadə, Kərim Əli oğlu Məmmədəlizadə, Fəraməz İlyas oğlu Fəraməzov, Ramiz Səməd oğlu Quliyev, Borisenko Aleksey Timofeyeviç, Qavrilenko Leonid Anufreyeviç, Vasilevskaya Valentina İqnatyevna, Zamçanov Aleksandr Kiriloviç, Nixamkin İzrail Semyonoviç və digərləri iştirak etmişlər.

Məlumdur ki, Yaponiya 1945-ci ilin 2 sentyabrında təslim olsa da, Yaponiya ilə sülh müqaviləsi hələ də imzalanmamışdır.

## § 2. Müharibə illərində əsir düşmüş vətəndaşlarımız haqqında (faktlar və düşüncələr)

Rəsmi məlumata görə SSRİ üzrə 1941-45-ci illər müharibəsində 1,6 milyon nəfər vətəndaşın əsir düşməsi müəyyən edilmişdir.

Əlbəttə bunların böyük əksəriyyəti müharibənin ilk aylarında zəbt edilmiş ərazilərin dinc əhalisi və mühasirəyə düşən ordu hissələri hesabına olmuşdur.

Müharibə qurtardıqdan sonra ölkənin rəhbəri İ.V.Stalin hesab etdi ki, Almaniyada və Avropanın başqa ölkələrində saxlanılan Sovet əsirləri SSRİ-yə qarşı mübaribədə istifadə edilə bilər. Buna görə də həmin əsirlərin xüsusi yük vaqonlarında ölkəyə qaytarılmasına başlanıldı.

Hələ müharibə illərində Ali Baş komandan Stalinin 270 saylı xüsusi əmri ilə əsir düşmüş bütün hərbi qulluqçulara "vətən xaini" damğası vurulmuşdu.

Müharibə qurtardıqdan az sonra, 1945-ci ilin 7 iyulunda ümumi əfv (bağışlanma) elan edildi və bu sənəddə göstərilirdi ki, Vətənə xəyanət edərək cəbhələrdə düşmən tərəfə keçən hərbi hissələrdə qulluq edənlərdən başqa, Sovet ordusunun sıravi və serjant heyətlərində qulluq etmiş bütün hərbi əsirlər öz evlərinə buraxılırlar və belə də edildi.

Lakin üç il sonra, 1949-cu ildə həmin əfv edilmiş hərbi əsirlərin hamısı SSRİ-nin şərq rayonlarındakı hərbi düşərgələrə yenidən sürgün edildilər. Bu isə

ədalətsizlik və siyasi səhv idi. Böyük qələbədən üç il sonra bu keçmiş hərbi əsirlərin Sovet siyasi sistemi üçün qorxulu olması inandırıcı deyildi.

Azərbaycanlı hərbi əsirlərin həyatı haqqında bizə hələlik nə məlumdur?

1941-ci ilin 22 dekabrında Hitler hərbi əsirlərdən ibarət müsəlman legionlarının yaradılması haqqında sərəncam vermişdi və nəzərdə tutulurdu ki, Qafqazlı, Türküstanlı və Gürcüstanlı müsəlmanlardan ibarət üç legion yaradılaraq, gələcəkdə Sovet ordusuna qarşı mübarizədə istifadə edilsin. Bəzi məlumatlara görə, sonra Azərbaycanlı əsirləri Şimali Qafqazlı əsir müsəlmanlardan ayıraraq ayrıca bir legionda birləşdirmişdilər.

Mətbuatda dərc edilən məlumatlarda deyilir ki, legionun ayrı-ayrı bölmələrinə mayor Əbülrəhman Fətəlibəyli, Beydulla Babayev, Hətəm Əlibəyov, Abbas bəy və digərləri başçılıq edirdilər. Əlbəttə ümumi rəhbərlik faşist zabitləri tərəfindən həyata keçirilirdi. Bəzi məlumatlara görə azərbaycanlıların yerləşdiyi legionda 70 minə yaxın əsir olmuşdur. Bu legionların qərargahı Polşada yerləşirdi[43].

Həmin dövrdə Türkiyədə yaşayan Məhəmməd Əmin Rəsulzadə Almaniyaya gələcək “Şərq Nazirliyi”nin (Nazir Rozenberq idi) siyasi bölməsində Qafqaz şöbəsinin başçısı professor Fon Mende ilə görüşərək azərbaycanlı əsirlər məsələsini müzakirə etmişdi.

Azərbaycanlı əsirlərdən ibarət yaradılmış legion haqqında M.Ə.Rəsulzadə “Çağdaş Azərbaycan tarixi” mövzusunda Ankarada 1950-ci ilin 28 mayında etdiyi məruzədə belə demişdir: İkinci Dünya müharibəsi illərində “Azərbaycanlı hərbi əsirlərlə təmasda ola bildik. 1942 və 1943-cü illərdə Almaniyanın Xarici İşlər Nazirliyinin dəvəti ilə digər Qafqazda siyasi emiqrantlarla birlikdə Berlinə getdiyim zaman biri mənfi, digəri müsbət iki şeyə şahid oldum. Hitler Almaniyasının mövqeyi Qafqaziya məsələlərinə olan münasibətdə... mənfi idi... Lakin bu sırada fürsət taparaq Almaniyadakı Azərbaycanlı hərbi əsirlər ilə təmasda olmağa çalışdıq və buna qismən müvəffəq olduq[44].

M.Ə.Rəsulzadə 1943-cü ildə Berlində “Azərbaycan” adlı qəzet nəşr edirdi və bu qəzetin nəşrində hərbi əsirlərdən də iştirak edirdi. Müharibə illərində azərbaycanlı əsirlərin Türkiyədə qəbul edilməsini nəzərdə tuturaq M.Ə.Rəsulzadə “Əsrimizin Siyavuşu” əsərində yazmışdır: “Türkiyə Azərbaycanın sığınacaq yeridir.” Anadolu türklərinin 1941-45-ci illər müharibəsi dövrü əsir düşmüş və Türkiyəyə gələ bilmiş Azərbaycan türklərinə köməyi xüsusi tədqiqat tələb edən bir

[43] Bax, Nəsiman Yaqublu, Məhəmməd Əmin Rəsulzadə. Bakı, 1991, s.224.
[44] Yenə orada, s.224.

mövzudur və heç şübhəsiz ki, bu mövzu tədqiq edilərək işıqlandırılacaqdır. Bununla belə əvvəlcədən demək olar ki, bu tədqiqat Türkiyə və Azərbaycan türklərinin tarixi dostluq ənənələrinin qırılmaz tellərlə bağlı olduğunu bir daha sübut edəcəklər.

"Azərbaycan" qəzetinin redaksiyasında keçirilən görüşlərdə həmin əsirlər Azərbaycanda QPU və NKVD rejiminin ağırlığı, Bakıda əhalinin tərkibinin ruslaşdırılması və erməniləşdirilməsinə narazılıqlar haqqında söyləyirdilər. Belə söhbətlərin nəticəsi olaraq M.Ə.Rəsulzadə bu qənaətə gəlmişdir ki, nəsillər arasındakı mənəvi əlaqə qırılmamışdır. Aydındır ki, bu mühakimədə o, əsasən köhnə və yeni dövr mühacirlərinin siyasi baxışlarının müqayisəsinə əsaslanırdı.

1943-cü ilin 6 noyabrında Berlində Azərbaycan Milli Komitəsinin qurultayında (M.Ə.Rəsulzadənin başçılığı ilə) azərbaycanlı əsirlərdən təşkil edilmiş legionun nümayəndələri də iştirak etmişdi.

1943-cü ilin sonunda M.Ə.Rəsulzadə Almaniyaya, oradan da Vyanaya getməyə məcbur olmuşdu. Faşist Almaniyası müharibədə məğlub olduqdan sonra M.Ə.Rəsulzadə yenidən Almaniyaya qayıtmışdı. Bu dövrdə Stalin hərbi əsirlərin geri qaytarılmasını tələb edirdi; çünki düşünürdü ki, bu əsirlərdən indi İngiltərə və Amerika hakim dairələri Sovet dövlətinə təsir etmək üçün istifadə edə bilər. M.Ə.Rəsulzadə hesab edirdi ki, bu əsirləri vətənlərində ölüm hökmü gözləyir və bunları xilas etmək lazımdır. Bu məqsədlə o Münhendə "Azərbaycan Demokrat Birliyi" adlı bir cəmiyyət yaratmışdı və 1946-cı ildə həmin cəmiyyət adından azərbaycanlı əsirlərə müraciət qəbul edildi. Bu müraciətdə deyilirdi: "Vətənə qayıtmağa tələsməyin, əsirliyə görə siz cəzalanacaqsınız. Ana Vətən Türkiyə də sizin arxanızdadır". Bu müraciətin təsiri ilə əsirlərin bir hissəsi Türkiyəyə getməyə razı olmuşdu. M.Ə.Rəsulzadə 1947-ci ildə Ankaraya gəlmiş və 1948-ci ildən başlayaraq azərbaycanlı əsirlər Türkiyəyə gəlməyə başlamışdılar. Azərbaycanlı hərbi əsirlərin burada yerləşməsinə M.Ə.Rəsulzadə geniş köməklik etmişdir. Bəzi mənbələrdə 1948-ci ildə Türkiyədə 3680 azərbaycanlı əsirin olması göstərilir. Türkiyəyə gəlmiş bu əsirlərə mədəni xidmət etmək üçün M.Ə.Rəsulzadə 1949-cu ilin 1 fevralında (Ankarada) "Azərbaycan Kültür Dərnəyi"ni təşkil etmişdi. Həmin Dərnək 1952-ci ildə Ankarada Azərbaycan dərgisinin nəşrinə başladı. Bu dərgidə əsirlikdən gəlmiş mühacirlərin də məqalələri çap olunurdu.

Bu sətirlərin müəllifi təxminən 25 il sonra (1975-ci ildə) Türkiyədə 12 günlük səfərdə olarkən, orada yaşayan qərib azərbaycanlılarda Vətən həsrətinin güclü olduğunu və bu həsrəti yaradan Sovet siyasi sisteminə qarşı onlarda nifrətin də güclü olduğunun şahidi olmuşdur.

Azərbaycanlı əsirlərin böyük bir hissəsi xarici ölkələrdə, ilk növbədə Almaniyada həlak olmuşlar. Nəşr olunmuş bəzi yazılarda göstərilir ki, müharibənin ilk illərində Almaniyaya gətirilmiş hərbi əsirlərin içərisində olan bütün yəhudilər

Hitlerin əmrilə məhv edildiyi dövr 1500 nəfərə qədər azərbaycanlı əsir də yəhudi hesab edilərək həmin dövrdə məhv edilmişdir. Təbiidir ki, belə məlumatların dəqiqliyi şübhə də doğurur.

Türkiyə jurnalisti İrfan Ülkünün "Qızıl ulduzdan hilala doğru (Heydər Əliyevin fırtınalı həyatı)" adlı kitabında verilən məlumata görə (müəllif, kitabı yazması ərəfəsində Naxçıvanda Heydər Əliyevdən müsahibə almışdı) Türkiyədə sığınacaq tapmış 143 nəfər müsəlman hərbi əsir (onlardan 100 nəfərdən çoxu azərbaycanlı idi) Sovet hökumətinin qəti tələbi ilə 1945-ci ilin sentyabrında İqdırdakı Baraltac körpüsündə rus hərbçilərinə təhvil verilmiş və oradaca güllələnərək cəsədləri Araz çayına atılmışdır[45].

İkinci dünya müharibəsi illərində həlak olmuş vətəndaşlar haqqında Respublika Xatirə Kitabının nəşrinin başlanması ilə əlaqədar olaraq (I cildi 1999-cu ilin əvvəlində çapdan çıxmışdır) hərbi əsirlərimizin müqəddəratı məsələsi şübhəsiz ki, yenidən diqqəti cəlb edəcəkdir və bu haqda rəsmi məlumatların əldə edilməsinə ehtiyac vardır.

## *IV fəsil*

# MÜHARİBƏ VETERANLARI HƏRƏKATININ TƏŞKİLATLANMASI VƏ GƏNCLƏRİN HƏRBİ-VƏTƏNPƏRVƏRLİK TƏRBİYƏSİNDƏ VETERANLARIN FƏALİYYƏTİ

### § 1. Müharibə veteranlarının təşkilatlanması

İkinci dünya müharibəsi qurtardıqdan sonra bu müharibənin iştirakçılarının müəyyən təşkilatlarda birləşməsi qanuni və vacib məsələ idi. Belə addımlar digər ölkələrdə də atılırdı.

1950-ci ildə Ümumdünya Müharibə Veteranları Federasiyası yaradıldı. Federasiyanın mərkəzi Parisdə yerləşir. Keçmiş SSRİ-də, o cümlədən Azərbaycanda müharibə veteranları təşkilatlarının yaranmasına 1960-cı ildə başlanıldı. Belə ki, faşizm üzərində qələbənin 15-ci ildönümü günlərində SSRİ-nin bütün iri şəhərlərində Böyük Vətən müharibəsi veteranları seksiyası yaradıldı və bu seksiyalardan biri də Bakıda yaradılmışdı və ona uzun illər Sovet İttifaqı

---

[45] Bax, İrfan Ülkü, Qızıl ulduzdan hilala doğru (türkcədən tərcümə). Bakı, 1994. s.18.

Qəhrəmanı qvardiya polkovnik Aslan Vəzirov rəhbərlik etmişdir. A.A.Vəzirov dünyasını dəyişdikdən sonra bu seksiyaya general-mayor Akim Abbasov başçılıq edirdi.

1965-ci ildə "Böyük Vətən Müharibəsində qələbənin 20 illiyi" medalı təsis edildi və onun müharibə iştirakçılarına təqdim edilməsi veteran hərəkatına bir canlanma gətirdi. Sonra Qələbənin 25 illiyi də qeyd edildi.

1992-93-cü illərin kəsiyini əhatə edən bir il ərzində Azərbaycana rəhbərlik edən "cəbhəçi bəylərin" hakimiyyəti dövrü (Prezident Əbülfəz Əliyev idi) 1941-45-ci illər müharibəsi veteranları təhqirlərə məruz qaldılar. Yalnız dünya miqyaslı siyasi xadim Heydər Əliyevin Azərbaycana (xalqın xahiş və tələbi ilə) 1993-cü ildə yenidən rəhbərliyə qayıtmasından sonra Respublikada 1941-1945-ci illər müharibəsi veteranlarının qanuni hüquqları bərpa edildi. Prezident H.Əliyev 1994-cü ilin 28 iyununda qəbul etdiyi "Veteranlar haqqında qanun"da faşizm üzərində qələbənin böyük əhəmiyyəti nəzərə alınaraq, 1945-ci ilin 9 mayının "Qələbə günü" kimi Azərbaycanda bayram edilməsi bərpa edildi. Bu qələbə bəşər tarixinə faşizm üzərində Qələbə günü kimi əbədi olaraq həqq olunmuşdur və buna görə də "Qələbə" naminə özlərini qurban vermiş şəhidlərin xatirəsi, bu qələbəni alnı açıq qarşılayaraq şanlı veteran adı ilə indi ömür sürənlər heç bir zaman unudulmayacaqdır.

Faşizm üzərində qələbənin 40-cı ildönümü (1985) günlərində Azərbaycanın müharibə veteranlarından 60 min nəfərinə I və II dərəcəli "Vətən müharibəsi" ordeni verildi. Bunların hamısı həmin müharibənin atəş cəbhələrində fəal vuruşmuş və xüsusi xidmətləri olmuş veteranlardır.

1987-ci ilin ikinci yarısında Azərbaycanın bütün şəhər və rayonlarında Veteran Şuraları yaradıldı və Respublika Veteranlar Şurası təşkil edildi. Rayonlarda keçirilən təsis konfranslarından sonra bütün iri müəssisə və təşkilatlarda da veteranlar şuraları yaradıldı.

1991-ci ilin sonunda SSRİ-nin dağılması zəminində keçid dövrü başlandı və bu dövrün əvvəlində Azərbaycanda yaşayan müharibə veteranları üçün də yeni vəziyyət yarandı. Belə ki, bu veteranlar hər addımda təhqir edilir, Rusiyanı müdafiə etmiş qüvvə kimi hallandırılırdı. Dağlıq Qarabağ münaqişəsindən çıxmaq üçün bu müdrik insanlardan məsləhət almaq, gənclərin hərbi vətənpərvərlik ruhunda tərbiyəsində istifadə etmək əvəzinə veteranlar baykot edildilər.

AXC-Müsavat iqtidarının bir illik hakimiyyəti dövrü (1991/92-1992/93) daxili və xüsusilə xarici siyasət tam naşı səviyyədə, populist şüarlar ətrafında aparılırdı. Yekəxanalıq səviyyəsində aparılan xarici siyasət sahəsində "Şimali və Cənubi Azərbaycanı birləşdirmək", "Çinə türk bayrağı sancmaq", Ermənistana atom bombası atmaq kimi cəfəng və gülünc şüarlar və təkliflər irəli atılırdı.

Aydındır ki, yalnız Türkiyəyə arxalanmaq yolu ilə Dağlıq Qarabağ münaqişəsini həll etmək mümkün deyildi.

Heydər Əliyev Azərbaycana rəhbərliyə qayıtdığı ilk günlərdən başlayaraq xarici siyasətdə Azərbaycanın pozulmuş ərazi bütövlüyü tələbinin beynəlxalq hüquq normaları əsasında qarşıya qoyulması məsələsini ön plana çəkdi. Bunun vacibliyi ondan ibarət idi ki, erməni siyasətçiləri Dağlıq Qarabağ məsələsində beynəlxalq aləmdə Azərbaycanın təcavüzkar obrazını yaratmışdılar və bu böhtanı alt-üst etmədən münaqişənin hər hansı bir yol ilə həll edilməsi haqda tələb və təklif vermək sadəlövhlük olardı.

Yeni təfəkkürə malik dünya miqyaslı siyasətçi Heydər Əliyev özünün xaricə səfərlərindəki tutarlı və əyani çıxışları, eləcə də diplomatik kanallarla istiqamətləndirdiyi siyasəti nəticəsində bu vəzifəni nəinki həll etdi, eyni zamanda ona nail oldu ki, indi Azərbaycan Amerika Birləşmiş Ştatları üçün, Xəzəryanı və Qara dəniz hövzəsi dövlətləri üçün strateji əhəmiyyət kəsb edən bir ölkəyə çevrilmişdir.

İndi Azərbaycan dünya miqyasında tanınan və mövqeyi ilə hesablaşılan bir dövlətdir. Hazırda Azərbaycanda 25 ölkənin səfirliyi mövcuddur, 29 ölkənin isə başqa ölkələrdəki səfirləri eyni zamanda Azərbaycanda da akkredite edilmişlər. Azərbaycanın isə hələlik 16 ölkədə səfirliyi fəaliyyət göstərir.

Beləliklə, Azərbaycan müstəqil bir dövlət kimi öz beynəlxalq hörmətini və imicini xeyli yüksəldə bilmişdir.

Heydər Əliyevin Respublika Prezidenti kimi 1994-cü ildə imzaladığı "Veteranlar haqqında qanun"da müəyyən edildi ki, veteranlar sırasına 1) Böyük Vətən müharibəsi cəbhələrində və faşizmə qarşı aparılan müqavimət hərəkatlarında bilavasitə iştirak etmiş döyüşçü və komandirlər, 2) Həmin müharibə illərində hərbi xidmətdə olmuş, lakin özündən asılı olmayaraq döyüş cəbhələrinə göndərilməmiş hərbi qulluqçular, 3) Göstərilən müharibə illərində arxa cəbhədə qələbə naminə fədakar əməklə məşğul olmuş və 4) II dünya müharibəsi illərində hüquq-mühafizə orqanlarında və sərhəd qoşunlarında xidmət etmiş şəxslər daxildirlər.

1991-ci ildə Azərbaycanın öz dövlət müstəqilliyini bərpa (1920-ci ilin 28 aprelində itirilmişdi) etməsi ilə əlaqədar olaraq indi müstəqil Azərbaycanda silahlı qüvvələrin yaradılması günü 26 iyun (1918-ci ildən), sərhəd qoşunları yaradılması isə 16 dekabr (1918) hesab edilir və tarixi günlər kimi qeyd edilir.

Azərbaycanın öz dövlət müstəqilliyini bərpa etməsi dövrü (1991) ona qarşı Ermənistan işğalçılarının Dağlıq Qarabağı öz ərazilərinə birləşdirmək üçün davam etdirdikləri müharibə dövrünə təsadüf etdiyinə görə çox ağrılı və gərgin olmuşdur.

Bu dövrün ən ağrılı cəhəti nizami milli ordu hissələrinin təşkil edilməməsi üzündən erməni işğalına qarşı hərbi müqavimətin zəifliyi oldu. Belə ki, xırda hərbi dəstələr və Daxili İşlər Nazirliyinin cəbhələrə qısa müddətə göndərdiyi döyüş

dəstələri ümumi komandanlığa tabe olmurdu və faktiki olaraq belə komandanlıq da yox idi. Cəbhələrdə partizan müharibəsinə oxşar bir üsulla döyüşlər gedir və erməni ordu hissələri ərazilərimizi zəbt etməkdə davam edirdilər.

Ermənistanın faşistləşmiş ordu hissələri ilə apardığımız vətən müharibəsində ən uğursuz dövr özlərini "cəbhəçi" adlandıran bəylərin ölkəyə rəhbərlik etdiyi bir illik (1992-93) dövr oldu. Dağlıq Qarabağın Ermənistanın idarəçiliyinə keçirilməsi üçün Laçın dəhlizinin açılmasına şərait də cəbhəçi "bəylər" və şəxsən prezident Əbülfəz Elçibəy tərəfindən yaradıldı. Belə xəyanəti edən "cəbhəçi bəylər" hakimiyyətdə olduqları bir il müddətində II dünya müharibəsi veteranlarının məsləhətlərindən və bacarıqlarından istifadə etsəydilər, cəbhələrdə uğursuzluqlar qat-qat az olardı.

Böyük Vətən müharibəsi cəbhələrində Azərbaycandan 700 min nəfərə qədər döyüşçü olmuş və bunların yarısına qədəri cəbhələrdə və Avropada müqavimət hərəkatlarında həlak olaraq əbədiyyata qovuşmuşlar. Öz vətənləri Azərbaycana qayıtmış döyüşçülərin sayı isə ilbəil azaldı və "Qələbə"nin 50 illiyi (1995-ci il) dövrü bunların sayı 32 min nəfərə endi.

80-cı illərin sonlarında Azərbaycana Əfqanıstanda döyüşmüş hərbçilərin qayıtması başlandı.

Sovetlər İttifaqının dağılmasının başlanğıcını onun heç bir əsas olmadan qonşu Əfqanıstana qarşı 1979-cu ildə müharibə başlamasını hesab etmək olar. Buna cavab olaraq bir sıra ölkələr (Pakistan, Səudiyyə Ərəbistanı, Çin, Misir, İngiltərə) gizli yolla Əfqanıstana hərbi kömək etməyə başladılar. Və nəticədə 9 illik ağır müharibədən sonra Sovet qoşunları Əfqanıstanı biabırcasına tərk etməyə məcbur oldular. Bundan sonra yerlərdə Əfqanıstan döyüşçüləri təşkilatı da yaradılmağa başlandı.

Əfqanıstanda 40-cı Sovet ordusunun itkiləri haqqında dəqiq məlumat verilmir. Həlak olanların sayının 14613 nəfər olduğu bildirilir. Azərbaycandan isə Əfqanıstanda aparılan döyüşlərdə 7 min nəfərə qədər iştirak etmişdi və bunlardan 208 nəfəri həlak olmuşdur.

1994-cü ildə Azərbaycan-Ermənistan döyüş cəbhələrində atəşkəsə nail olunduqdan sonra "Azərbaycan Vətən Müharibəsi döyüşçüləri birliyi" və "Qarabağ Müharibəsi əlilləri" təşkilatları yaradıldı. Bundan başqa Azərbaycanda Çernobil qəzasında zərərçəkmişlərin (şüalanmaq əsasında) və Bakıda 1990-cu il yanvar faciəsi qurbanlarının təşkilatları da vardır.

Əlbəttə, bütün bu veteran təşkilatlarının vahid bir mərkəzdən idarə olunması (tərkibdə müvafiq seksiya və ya bölmələrin olması şərti ilə) idarəçiliyi asanlaşdırar və işi gücləndirərdi.

Prezident Heydər Əliyevin II dünya müharibəsinin başa çatmasının 50 illiyi ilə əlaqədar 1995-ci ilin yanvar-may aylarında etdiyi çıxışları və imzaladığı

fərmanları 1995-ci ildə "Azərbaycan xalqının hünəri əbədi yaşayacaqdır" adlı kitabçada toplanmışdır.

Hazırda respublika Veteranlar şurasına general-mayor Bahadur Məmməd oğlu Hüseynov rəhbərlik edir (şuranın ilk sədri isə general-mayor Mustafa Cəfər oğlu Nəsirov olmuşdur). Respublika Veteranlar Şurası sədrinin birinci müavini fəal müharibə iştirakçısı Balaoğlan Rüstəmovdur. Respublika Veteranlar Şurasının tərkibində olanlar: Çingiz Həsənov, Əlövsət Baxışev, Nağı Qasımov, əmək veteranı Şəfiqə Abdullayevadır. Bakı şəhər Veteranlar şurasına polkovnik Səlim Səlimov, Bakı şəhər veteranlar komitəsinə polkovnik Ağasəf Haqverdiyev başçılıq edirlər.

Respublika Veteranlar şurası keçmiş SSRİ məkanında yerləşən müstəqil dövlətlərin, eləcə də bir sıra digər ölkələrin veteran təşkilatları ilə öz əlaqələrini genişləndirir və müvafiq beynəlxalq tədbirlərdə iştirak edir.

## §2. Hərbi-vətənpərvərlik tərbiyəsinin məzmunu və əsas istiqamətləri

Vətənpərvərlik (vətənçilik) Vətənin varlığı və gələcəyi qayğısı ilə bilavasitə bağlı olan düşüncə tərzidir. Vətənini sevən hər bir vətəndaş ömrü boyu bu düşüncə ilə yaşayır və yaradır. "Vətənini sevməyən kəs dünyada heç nəyi sevə bilməz" (C.Bayron) kəlamında böyük məna vardır. Azərbaycan ədəbiyyatının görkəmli nümayəndəsi Abbas Səhhət bu haqda daha səlist demişdir: "Vətənini sevməyən insan olmaz, olsa da o şəxsdə vicdan olmaz".

Hərbi vətənpərvərlik ruhunda tərbiyə almış gəncdə lazım gəldikdə "qəhrəmanlıq anı" məqamı tez biruzə verir. Döyüşdə qəhrəmanlığın ən yüksək zirvəsini təşkil edən bu məqamda Vətəninin azadlığını öz canından belə çox sevən gənc, həyatı üçün ən təhlükəli bir addım ataraq ölüm-dirim savaşına girişir. Burada əsas məsələ odur ki, həmin gənci misilsiz qəhrəmanlığa məcbur etməyə heç kəsin ixtiyarı yoxdur. Bu addımı o özü, öz iradəsinin və əqidəsinin gücü ilə atır. Fəlsəfə elmində bunu mütləq azadlığa aid, bəlkə də yeganə, misal (nümunə) hesab edirlər.

Beləliklə milli şərəf hissi, Vətəni müdafiə vəzifəsinin milli-qeyrət və namus səviyyəsində başa düşülməsi hərbi-vətərpərvərlik tərbiyəsinin əsasını təşkil edir.

1941-45-ci illər müharibəsi dövrü Azərbaycan xalqının cəsur oğul və qızları cəbhələrdə saysız-hesabsız qəhrəmanlıq nümunələri göstərmişdir. Bu haqda kitabın əvvəlki bölməsində yazılmışdır.

1998-ci ilin fevralının əvvəlində Azərbaycan gəncləri gününə həsr edilmiş bədii-idman bayramındakı çıxışında Prezident H.Əliyev demişdir: "Bizim gənclərimiz XX əsrin müharibələrində qəhrəmanlıq nümunələri göstəriblər. Biz Azərbaycanın qəhrəman oğulları ilə həmişə fəxr etmişik və onların xatirəsi daim qəlbimizdə yaşayacaqdır".

Azərbaycanın müasir gəncliyi 70 il dövran sürmüş Sovetlər hakimiyyəti dövründəki ümumsovet və beynəlmiləlçilik tərbiyəsi istiqamətindən fərqli olaraq indi öz ölkəsində müstəqil milli dövlətin olması şəraitində formalaşır. Buna görə də həmin gəncliyin milli və hərbi vətənpərvərlik ruhunda tərbiyə edilməsi xüsusi əhəmiyyət kəsb edir.

***

Azərbaycan xalqının öz vətəninin bütövlüyü və dövlət müstəqilliyi uğrunda çoxəsrlik mübarizəsi qəhrəmanlıq nümunələri ilə doludur. Müvafiq tarixi dövrlərdə bu mübarizədə xalqımız içərisində Cavanşir, Babək, Cavad xan, Koroğlu, Nəbi kimi cəngavər sərkərdələr və generallar yetişmişdir. Məlumdur ki, Şah İsmayıl Xətainin xalqımıza üç vəsiyyəti olmuşdur: Vətənimiz, dilimiz, qeyrətimiz.

XX əsrin əvvəlində yaradılmış Azərbaycan Xalq Cumhuriyyəti (1918-1920) dövründə il yarım ərzində Milli Ordu yaradılmışdı və həmin ordu Rusiya ordusunun Azərbaycanı işğal etməsinə qədərki dövrdə öz milli dövlətinin sərhədlərini igidliklə müdafiə etmişdir.

1941-45-ci illərdə Almaniya faşizminə qarşı uzunmüddətli və son dərəcə qanlı müharibə Azərbaycan xalqının tarixən cəngavər və hərb sənətində də istedadlı bir xalq olduğunu göstərdi. Müharibənin başlandığı 22 iyunda (1941) Azərbaycandan 18 min nəfər könüllü olaraq cəbhələrə getdilər.

Faşizmə qarşı müharibənin ilk günlərindən başlayaraq ümumxalq vətənpərvərlik əhvali-ruhiyyəsi arxa cəbhədə də geniş miqyas almışdı. 1941-ci ilin 27 noyabrında Bakıda Mirzə Fətəli Axundov adına Opera və balet Teatrında Azərbaycan ziyalılarının 2000 nəfər nümayəndəsinin mitinqi çağırılmışdı. Mitinqdə Ü.Hacıbəyov, M.Topçubaşov, Səməd Vurğun, Sabit Orucov, Ələsgər Ələkbərov və digər görkəmli ziyalılar çıxış edərək, xalqı vətəni müdafiyə çağırmışdılar.

Züleyxa Seyidməmmədova 1941-ci ildə Moskvada Jukovski adına Hərbi Hava Akademiyasının şturman fakultəsini qurtarmış və kiçik leytenant rütbəsində cəbhəyə getmişdi. Sovet İttifaqı Qəhrəmanı Marina Raskovanın komandir olduğu qadınlardan ibarət aviopolkun tərkibində Moskva və Stalinqrad cəbhələrində, sonra isə Vyanaya qədərki döyüşlərdə 500 dəfədən çox döyüş uçuşunun iştirakçısı olmuşdur. Azərbaycan qadınlarından Şövkət xanım Səlimova müharibə illərində gəmi kapitanı olmuş yeganə qadındır. Onun idarə etdiyi gəmi düşmən təyyarələrinin zərbələri altında Xəzər dənizi-Volqa çayı vasitəsilə Stalinqrad cəbhəsini hərbi sursatla və benzinlə təmin edir, geriyə dönərkən isə çox saylı yaralı döyüşçüləri Azərbaycan hospitallarında müalicəyə gətirirdi. Bu xidmətlərinə görə o, “Qırmızı ulduz” ordeni və digər hərbi orden və medallarla təltif edilmişdir.

Müharibə illərində Azərbaycanın bütün əhalisinin hər beş nəfərindən biri (3,4 milyon əhalidən 681 min nəfər) ümumi Vətəni müdafiə etmək üçün cəbhəyə getmişdi. Bunlardan 10 min nəfərdən çoxu qadın və qızlar idi. Bu illərdə Azərbaycan xalqı yüksək vətənpərvərlik hissi ilə öz övladlarını düşmənlə mübarizə cəbhələrinə göndərərək, onların əvəzinə də əmək rəşadətləri göstərmişdir. İndiki Qəbələ rayonunun 70 yaşlı sakinləri Əzim Əzimov üç oğlunu, 85 yaşlı Rəşid Məmmədov isə iki oğlunu xeyir-dua ilə cəbhələrə göndərmişdilər. Həmin müharibə illlərində Azərbaycan xalqını təmsil edən hərbi sərkərdələrdən 12 nəfəri diviziya komandiri, 32 nəfəri isə alay komandiri olmuşdur. Bu müharibədə Azərbaycan türklərini təmsil edənlərdən 40 nəfərdən çoxuna Sovet İttifaqı Qəhrəmanı fəxri adı verilmiş, 14 nəfər isə "Şərəf" ordeninin hər üç dərəcəsi ilə təltif edilmişlər. Müharibə illərində göstərdikləri döyüş rəşadətlərinə görə 176 min Azərbaycanlı dövlətin orden və medalları ilə təltif edilmişdilər. Yüzlərlə vətəndaşımız isə Avropada antifaşist hərəkatlarında iştirak etdiklərinə görə bu ölkələrin orden və medalları ilə təltif edilmişlər.

Müharibə illərində Bakıda bir çox yeni silah növləri: katyuşa mərmiləri, minomyotlar, Şpakin pulemyotu (P.P.Ş.) və s. hazırlanırdı, bütövlükdə isə müharibə illərində Azərbaycanda 130 növ silah hazırlanmışdır.

Yaralı döyüşçüləri müalicə etmək üçün müharibə illərində Bakıda və Azərbaycanın digər şəhərlərində 150-dən çox hərbi xəstəxana (hospital) yaradılmışdı. Azərbaycan Pedaqoji Universitetinin indiki əsas binasında (Üzeyir Hacıbəyov küç. №34) yerləşən 1543 saylı hospitalda 4 ilə yaxın bir müddətdə 90206 cəbhəçi müalicə olunmuşdur. Respublikada yerləşən bu müalicəxanalarda 450 mindən çox cərrahiyyə xidməti edilmişdi və yaralıların 70%-dən çoxu sağalaraq yenidən cəbhəyə qayıtmışdılar. Yaralı döyüşçülərə yardım üzrə Respublika Dövlət komitəsinə Respublika Nazirlər Şurasının sədr müavini professor Əziz Əliyev rəhbərlik edirdi.

İkinci Dünya müharibəsi illərində Azərbaycan xalqının beynəlxalq əhəmiyyət kəsb edən fəaliyyəti şübhəsiz ki, cəbhələri yanacaq ilə təmin etməkdən ibarət olmuşdur. Müharibə dövrünün bu əmək rəşadəti hərbi-vətənpərvərlik ruhuna da tamamilə uyğundur.

1990-1994-cü illərdə Qarabağı zəbt etmək üçün Ermənistan ordusunun apardığı əməliyyatlar öz qəddarlığı ilə Almaniyanın faşist ordusunun qəddarlığını qat-qat ötüb keçmişdir. Bu münaqişə dövrü Azərbaycanlı döyüşçülər vətənpərvərlik nümunələri göstərmişlər.

Erməni faşistləri ilə 90-cı illərin əvvəllərində qəhrəmancasına mübarizə aparan gənclərdən biri Vaqif Qurbanov olmuşdur. Cəsur təyyarəçi baş leytenant Vaqif Qurbanov 1992-ci ilin aprel ayında SU-25 hərbi-təyyarəsini Rusiyanın "N" hərbi təyyarə meydanından icazəsiz qaldıraraq respublikamızın Yevlax təyyarə

meydanına endirmişdi. Həmin təyyarə ilə vətən oğlu Vaqif Goranboy və Gülüstan ətrafı ərazilərinin azad edilməsində, Şuşa yaxınlığında mühasirəyə düşmüş döyüşçülərimizin xilas edilməsində misilsiz xidmətlər göstərmişdir.

Cəsur vətənpərvər olan təyyarəçi Vaqif Qurbanovun son uçuşu 1992-ci ilin 13 iyununda oldu. Həmin gün o, Əsgəran-Ağdam istiqamətində gedən döyüşlərdə düşmənə göydən zərbə endirmək və bizim MM-24 vertolyotlarımızın uçuşunu müdafiə etmək üçün hərbi tapşırığı yerinə yetirdikdə düşmən toplarının güclü atəşinin qurbanı oldu. Cəsur təyyarəçi baş leytenant Vaqif Qurbanov Azərbaycanın Milli hərbi aviasiyasının təməlini qoyan, düşmənlə müharibədə qəhrəmancasına həlak olan ilk təyyarəçimizdir.

Hərbi təyyarəçi mayor Adil İsmayılov da SSRİ hərbi təyyarə məktəbini bitirdikdən sonra 1992-ci ildə Azərbaycana qayıdaraq "N" hərbi hissəsində xidmət etmişdir. O, 1993-cü ilin noyabrında Heydər Əliyevin xalqa müraciətindən sonra Horadiz döyüş əməliyyatında vertolyot bölməsində qəhrəmancasına xidmət etmiş və ağır döyüşlərin birində həlak olmuşdur. Cəmisi 25 il ömür sürmüş qəhrəman Adil İsmayılovun qardaşı Əvdil İsmayılov həlak olmuş qardaşının xidmət etdiyi "N" hərbi hissəsində qulluq edir və hərbi təyyarəçilik məktəbini bitirmişdir.

Ermənistan ordusunun ölkəmizə qarşı vəhşi hərbi əməliyyatları ərəfəsində respublikanın Cəbrayıl rayonunda şəhər sovetinin sədri olmuş İlqar Mehdiyev hərbi əməliyyatların birində əsir düşmüşdü. Onun vəzifəli şəxs olduğunu bilən ermənilər əsir alınmış İlqarı alçaltmaq üçün öz məkrliyi ilə seçilən bir işgəncə üsulu seçdilər: bir tərəfdə Azərbaycanın, o biri tərəfdə Ermənistanın bayraqları asılmışdı. Sonsuz əziyyətlərə, ağlasığmaz işgəncələrə hədəf olmamaq üçün ondan Ermənistan bayrağına təzim etmək, Azərbaycanın bayrağını isə cırıb ayaq altına atmaq tələb olunurdu. İlqar isə üçrəngli, ay-ulduzlu bayrağımızın önündə diz çökərək, onu öpüb gözlərinin üstünə qoymuş, erməni bayrağını isə qoparıb yerə atmışdı. Bundan sonra onu necə dəhşətli işgəncələrin gözlədiyini söyləməyə lüzum yoxdur. Lakin bu yolu İlqar özü seçmişdi. O, əzab və işgəncələri düşmən qarşısında alçalmaqdan, dövlətçilik rəmzi olan bayrağımızı təhqir etməkdən üstün tutmuşdu.

Azərbaycanımızın öz dövlət müstəqilliyini bərpa etməsindən (1991-ci il) sonra milli və hərbi vətənpərvərlik tərbiyəsi dövlət siyasəti səviyyəsində xüsusi əhəmiyyət kəsb edir.

Gənclərimizin hərbi vətənpərvərlik hissi ruhunda tərbiyə edilməsinin mühüm istiqamətlərindən bir də *milli sərkərdələrimizin döyüş yolunu öyrətməkdən ibarətdir*. Son zamanlar "Azərbaycan generalları" kitabçası, Böyük Vətən Müharibəsində Azərbaycan diviziyalarının və azərbaycanlıların iştirakı haqqında bir sıra əsərlər nəşr edilmişdir. Bu işin davam etdirilməsi bütün xalqın vətənpərvərlik ruhunda tərbiyə edilməsinə xidmət edir.

Lakin bütün bunlarla yanaşı müstəqil Azərbaycan gəncliyini milli və hərbi vətənpərvərlik ruhunda tərbiyə etmək üçün son on ildə məcburən cəlb edildiyimiz Qarabağ müharibəsinin həm acı dərslərindən, həm də uğurlu döyüşlərinin nümunələrindən geniş istifadə etmək lazımdır.

Amerika professoru Foqel Kvist keçmiş SSRİ-dəki milli-etnik münaqişələr haqqında kitab nəşr etdirmişdir. Kitabın ayrıca fəsli Dağlıq Qarabağ münaqişəsinə həsr edilmişdir. O, bu kitabında yazmışdır: "Qarabağ münaqişəsini doğuran səbəbləri dəqiq anlamaq və obyektiv qiymətləndirmək münaqişəni törədən məsul şəxslərin məsuliyyətini aşkarlamağı tələb edir. Yalnız belə olarsa, tökülmüş qanlar, törədilmiş vəhşiliklər, özü də heç bir müharibə standartlarına sığmayan vəhşiliklərin sükanı arxasında dayanmış qüvvələr və şəxslərin əsl siması aydınlaşar... Münaqişənin yaranma səbəbləri haqqında bir çox detallar hələ də sirr buluduna bürünmüşdür. Hadisələrin geniş miqyas aldığı 1988-ci ilin əvvəlində Sovet mətbuatı azad deyildi. Münaqişə haqqında verilmiş məlumatların əksəri şübhəli xarakter daşıyırdı, həmin məlumatların çoxu rus və erməni dairələrindən verilirdi... Qarabağ böhranı haqqında erməni tərəfinin nöqteyi-nəzəri daha geniş dairələrə məlumdur".

Etiraf etmək lazımdır ki, Ermənistanın daşnak və faşistləşmiş qüvvələrinin separatçılığını dünyaya tanıtmaqda çox gecikmişik. Yalnız son illərdə bu sahədə müəyyən addımlar atılmışdır.

Erməni şovinistlərinin öz xalqının gəncliyini türklərə açıqcasına nifrət ruhunda tərbiyə etməsi müqabilində biz keçmişdə daşnaklar tərəfindən xalqımızın başına gətirilmiş soyqırım və terror haqqında danışmaqdan belə ehtiyat etmişik, qorxmuşuq.

Xalqımız erməni qəsbkarları ilə Qarabağ uğrunda döyüşlərdə 20 mindən çox şəhid vermişdir. Bu şəhidlərin xatirəsini əbədiləşdirmək sahəsində də geniş miqyaslı tədbirlər görülmüşdür. Böyük Vətən Müharibəsi veteranlarının geniş iştirakı ilə həmin şəhidlər haqqında bir neçə kitab yazılmış[46], onların adları

---

[46] Rafiq Səməndər. Şəhidlər. Bakı, 1990;
Vasif Səmədov, Salar Aslanov. "Təki Vətən yaşasın". Bakı, 1993;
Yenə də onların. Vətən üçün lazım gəlsə. Bakı, 1994;
Mehman Süleymanov. Milli qəhrəmanlar. Bakı, 1994;
Fəridə Ləman. Qazax mahalının şəhidləri. B, 1995;
Nəcəf Nazim. İstiqlal Ulduzları (Azərbaycanın Milli Qəhrəmanları). Bakı, 1995;
Bahadur Xanməmmədov. Didərgin şəhidlər (Zəngəzurun Qafan rayonu üzrə). Bakı, 1995;
Rizvan Zeynalov. Azərbaycanın Milli qəhrəmanları. Bakı 1996;
İ.Z.İsmayılov. Nəsimi rayonunun şəhidləri, Bakı, 1997;
Xələf Xələfov. Culfa şəhidləri, Bakı. 1998.

oxuduqları məktəblərə və işlədikləri müəssisələrə verilmiş, küçələrə onların adları qoyulmuşdur. Şəhid ailələri dövlət və xalqın daimi qayğısındadır.

Bu sətirlərin müəllifi 1997-ci ildə "Nəsimi rayonunun şəhidləri" adlı kitabı (həcmi 205 səhifə) nəşr etdirmişdir. Kitabda 163 nəfər şəhid haqqında (şəkilləri ilə birlikdə) müfəssəl məlumat verilir. Bunlardan 139 nəfəri Qarabağ uğrunda döyüşlərdə şəhid olmuş (onlardan 20 nəfəri ölümlərindən sonra Azərbaycanın Milli qəhrəmanı adına layiq görülmüşlər), 24 nəfəri isə 1990-cı ilin Yanvar faciəsi şəhidləridir. Bu şəhidlərdən 27 nəfəri Azərbaycanın ordenləri ilə təltif edilmişlər.

1997-ci ilin sentyabrında şəhidlərin valideynləri Nəsimi rayon İcra hakimiyyətinə dəvət edilmiş və orada kitabın təqdimatı keçirilərək, hər bir şəhid ailəsinə kitabın bir nüsxəsi verilmişdir. Həmin təqdimatda çıxış edən bir şəhid anası demişdir: "Bu günə qədər evimdə oğlumun şəklinin qarşısında müqəddəs kitabımız ***Qurani Kərimi*** qoymuşam. Bu gündən sonra bizə verdiyiniz bu kitabı ***Qurani Kərimin*** altında əbədi saxlayacağam. Müəllif üçün bu sözlər böyük mükafatdır.

İslamın yaradıcısı Peyğəmbərimiz **Həzrət Məhəmməd Əleyhissalam** demişdir: "*Vətəni müdafiə imandandır*". Bakının Nəsimi rayonundan olan şəhid Rövşən Həsənov Xocalıdakı son döyüşündə son anda, erməni dığasına belə deyib: "*Bu torpaq bizimdir*". Digər şəhid Ceyhun Səlimov Ağdərədə həlak olarkən yoldaşlarına bu sözləri deyib: "*Bu torpağı qoruyun*". Başqa şəhid Tofiq Məmmədovun cəbhəyə getməzdən əvvəl yazaraq, evdə gizlətdiyi "Vəsiyyətnamə"sində bu sözlər vardır: "*Mən bu torpaqdan ötrü ölməyə hazır olan Türk oğluyam*"[47].

Göründüyü kimi gənclərimizin əksəriyyəti doğma Qarabağımızı müdafiə etmək üçün canlarını da qurban vermək əzmində olmuşlar və cəbhələrdə uğursuzluqlarımızın əsas səbəbi 1991-1992-ci illərdə ölkə rəhbərliyinin zəifliyi və onun seçdiyi hərbi xidmət rəhbərlərinin hərbi əməliyyatlara rəhbərlik etmək səviyyəsində olmaması idi.

Öz miqyasına və mənfi təsirinə görə erməni təcavüzünün 1988-93-cü illərdə Azərbaycana vurduğu zərbə bəlkə də, 1828-ci ildən sonrakı dövrdə məruz qaldığımız ən böyük zərbədir. *Bu zərbənin səbəbini hansı sahədə axtarmaq lazımdır?*

Ən üzdə görünən səbəb, şübhəsiz ki, Rusiya dairələrinin imperiyapərəst siyasəti ilə erməni-daşnak separatizminin məqsədlərinin üst-üstə düşməsidir və bu iki qüvvə tez dil tapa bildi. Bu diltapma Sovet sisteminin son illərinə təsadüf etdi.

---

[47] Bax: İ.Z.İsmayılov. Nəsimi rayonunun şəhidləri, Bakı, 1997.

1985-93-cü illərdə Azərbaycana rəhbərlik etmiş şəxslər düşmən qüvvələrinin bu incə siyasətini başa düşə bilmədilər və bəlkə də, başa düşsələr də rəhbərlikdə qalmaq xatirinə əhəmiyyət vermədilər. Milli vətənpərvərlik tərbiyəsində bu məqamları da yada salmaq lazımdır.

Orduya çağırışçı gənclərin, xüsusilə əsgərlərin milli və hərbi vətənpərvərlik ruhunda tərbiyə edilməsində ədəbiyyat və incəsənət xadimlərinin gənclərlə görüşləri böyük təsir qüvvəsinə malikdir. Xalq şairi **Xəlil Rzanın** "*Dur ayağa məmləkətim, qalx ayağa millətim*" misraları ilə başlanan şeri və buna oxşar digər şerlərin təsir qüvvəsi çox böyükdür. Eyni sözləri görkəmli şair Məmməd Arazın Azərbaycana həsr etdiyi şerlər haqqında da demək olar. Xalq mahnılarının gözəl ifaçısı Niyaməddin Musayevin mahnılarındakı "*Talandı torpağımız...*", "*Bu xalqın intiqamı qiyamətə qalmasın*" kimi sözlərlə başlayan mahnıları güclü təsir qüvvəsinə malikdir.

Böyük Vətən Müharibəsi döyüşlərinin ən ağır çağlarında belə təsirli şerlərin və mahnıların döyüşçülərdə vətənpərvərlik ruhunu qaldırması 1941-1945-ci illər müharibəsi veteranların yaddaşındadır və bu məzmunda iş, Azərbaycanın milli ordusu döyüşçüləri arasında da aparılmalıdır.

## § 3. Gənc nəslin hərbi vətənpərvərlik ruhunda tərbiyəsində veteranların rolu

**Bizim gənclərimiz XX əsrin müharibələrində qəhrəmanlıq nümunələri göstərmişlər. Biz Azərbaycanın qəhrəman oğulları ilə həmişə fəxr etmişik....**

**HEYDƏR ƏLİYEV**

70 illik Sovet dövrü Azərbaycan tarixində ziddiyyətli bir dövrdür. Bu dövrdə həm nailiyyətlər, həm də itkilər olmuşdur. Bununla əlaqədar olaraq fəlsəfə elmləri namizədi Canpolad Musayevin "Xalq qəzeti"ndə 1997-ci ildə nəşr etdirdiyi yazısında Azərbaycanın "Sovetlər İttifaqının tərkibində 70 illik mənasız zaman kəsiyi" ifadəsi təəssüf doğurur. Müəllif bu müddəanı dövlətçilik tarixi məsələsinə şamil edirsə də, bu cür ümumiləşdirmə qüsurludur. Çünki, göstərilən 70 illik dövrdə Azərbaycan xalqının milli dövlətçiliyi tam olmayıbsa da, onun iqtisadi və mədəni inkişafı çox səmərəli olmuşdur. Bu inkişaf səviyyəsi olmasaydı 1991-ci ildə bərpa edilən müstəqil dövlətçiliyimiz çox zəif maddi və mədəni özülə istinad etməli olardı.

İkinci dünya müharibəsi qurtardıqdan sonra Azərbaycanda gənclərin hərbi vətənpərvərlik ruhunda tərbiyəsində zəifləmə əlamətləri getdikcə daha çox müşahidə edilirdi. Əvvəla, müharibə qurtardıqdan sonra müharibə illərində yaradılmış bütün milli diviziyalar buraxılmışdı və ümumi Sovet ordusunun Zabit

heyəti içərisində azərbaycanlıların sayı sürətlə aşağı düşürdü. İttifaqın hərbi məktəblərində təhsil alanlar içərisində də azərbaycanlıların sayı getdikcə azalırdı. Hətta Bakıda 1939-cu ildə yaradılmış iki hərbi məktəbdə (Ümumi Hərbi Komandirlər məktəbi və Hərbi Dəniz Donanması məktəbində) 1970-ci ildə hər birinə qəbul olunan 300 müdavimdən birincisində 10-15 nəfər, ikincisində isə 2-3 nəfər Azərbaycan millətini təmsil edən gənc təhsil alırdı.

Rusiya dövlətinin Hərbi Nazirliyinin orqanı "Krasnaya zvezda" qəzetinin 1992-ci il 4 iyun tarixli sayında göstərilir ki, 1991-ci ilin əvvəlində İttifaq Ordusunun alay (polk) komandiri müavinindən yüksək vəzifələrdə azərbaycanlı komandirlərin sayı cəmisi 9 nəfər idi. Müqayisə üçün qeyd edək ki, Böyük Vətən müharibəsi illərində və ondan əvvəlki dövrdə, hətta Azərbaycanda Xalq Cümhuriyyətinin fəaliyyəti illərində (1918-1920) azərbaycanlı zabitlərin sayı qat-qat çox olmuşdur. Burada ədalət naminə qeyd etmək lazımdır ki, Heydər Əliyevin respublikaya rəhbərlik etdiyi 70-80-ci illərdə SSRİ-nin 105 ali hərbi məktəbində 2000 azərbaycanlı zabit hazırlanmışdı ki, onlardan indi Azərbaycan Milli Ordusunda 14 general və 229 polkovnik fəaliyyət göstərir.

Sovet inzibati-amirlik sistemi şəraitində azərbaycanlı gənclərin hərbi hazırlığında da böyük xətalar edilmişdir: azərbaycanlı gənclərin müasir texnikaya malik hərbi hissələrdə qulluq etmələri getdikcə məhdudlaşdırılırdı. Qismən də, bəzi valideynlərin təqsiri üzündən gənclərimizin bir hissəsi ordunun "fəhlə batalyonları" adlanan hissələrində qulluq edirdilər.

XX əsrin sonunda Azərbaycan xalqının siyasi həyatında ən gərgin dövr 1988-93-cü illər olmuşdur. Həmin illərdə başlanmış xalq hərəkatı, ona rəhbərlik edən qüvvələrin zəifliyinə və pərakəndəliyinə baxmayaraq xalqın öz qüvvəsinə inamının sübutu idi. Bu hərəkat əsas etibarilə Moskva rəhbərliyinin Dağlıq Qarabağ münaqişəsində ermənipərəst siyasətinə, Mixayıl Qorbaçovun Ermənistan və Qarabağ ermənilərinin separatçılığına qarşı heç bir tədbir görməməsinə cavab olaraq başlanmışdı. Bu geniş və dinc xalq hərəkatından qorxuya düşən Mərkəzi Sovet rəhbərliyi başqalarına dərs olsun deyə onu tezliklə silah gücünə boğmağı qərara aldı. 1989-cu ilin 5 dekabrında Sovet Ordusu Bakının indiki Azadlıq meydanında mitinqlər şəklində davam edən xalq hərəkatını (Meydan hərəkatı) vəhşicəsinə qovdu. Azərbaycanda kifayət qədər silahlı qüvvə olmasına baxmayaraq Moskva rəhbərliyi 1990-ci ilin 11-19 yanvarı arası Bakıya kənardan 74 min nəfərlik, əksəriyyəti ermənilərdən və ruslardan ibarət olan, silahlı və zirehli qüvvə göndərdi. Hiss olunurdu ki, hansısa böyük bir təxribat hazırlanır... Yanvarın 19-u axşamı DTK tərəfindən Bakıda televiziya partladıldı. Xain prezident M.Qorbaçovun şəxsi əmri ilə Bakı üzərinə göndərilmiş vəhşi hərbi dəstələr 1990-cı il yanvarın 19-dan 20-nə keçən gecə vahimə şəraitində küçələrə çıxmış dinc əhalini faşist vəhşiliyi ilə atəşə tutdular. Moskva radiosu tərəfindən Bakıda fövqəladə

vəziyyət yanvarın 20-də səhər elan edilənədək, şəhərdə Sovet ordusu tərəfindən 82 nəfər amansızcasına öldürülmüş, 20 nəfəri isə ölümcül yaralanmışdı. Bütövlükdə isə yanvar faciəsi günləri Bakıda 131 nəfər öldürülmüş, 744 nəfər yaralanmış, 841 nəfər həbs olunmuşdu. Bunların əksəriyyəti gənclərdən ibarət idi.

Bakıda dinc əhaliyə qarşı törədilmiş qanlı vəhşiliklərə cavab olaraq Xəzər dənizinin ümumi gəmiləri heyəti Bakı buxtasında cəmləşərək Buxtanı Sovet hərbi gəmiləri üzünə bağladılar. Buxtadakı gəmilər 5 gün ərzində sahildən atəş altında qalsalar da, oraya heç bir hərbi gəmini buraxmadılar. Bakıya imperiya qoşunları daxil olduğu 19 yanvarda gəmilərin əksəriyyəti Bakıdan 3 saatlıq məsafədə, Neft Daşlarında idilər. Bu xəbəri eşidən kimi bütün gəmilər Bakı istiqamətində üzməyə başladı və yanvarın 20-də Bakı buxtasında 100-ə qədər gəmi lövbər salmışdı. Həmin gəmilərdə min nəfərdən çox neftçi və gəmi xidmətçiləri var idi. Xəzər gəmiçiliyi idarəsinə mənsub olan "Naxçıvan" gəmisi də həmin gəmilərə qoşulmuşdu.

Beləliklə, 100-dən çox mülki gəmi Bakı buxtasında Sovet hərbi gəmiləri ilə qarşı-qarşıya durmuşdular. Rus admiralı Sidorov mülki gəmilərin kapitanlarından tələb edirdi ki, Bakı buxtasını tərk etsinlər. Bu gəmilərin heyəti isə "SOS" siqnalı ilə Bakıda törədilmiş qanlı cinayətləri bütün dünyaya xəbər verirdi. Dənizçilərin Baltik dənizindən aldıqları radioqrammada deyilirdi: "Qardaşlar, möhkəm dayanın, noviqasiya olmadığı üçün Xəzərə üzə bilmirik". Az bir müddətdə dünyanın 50-dən artıq ölkəsinin gəmiçilərindən belə həmrəylik cavabları alındı.

Bakı buxtasına sədd çəkən gəmilər dar ağaclarından Sovet bayrağını endirərək, matəm bayrağını qaldırmışdılar. Bu gəmilər dəniz vağzalı ətrafında toplaşdılar və "Sabit Orucov" sərnişin gəmisində qərargah yaradıldı.

Yanvarın 24-də "Sabit Orucov" gəmisinə təkrarən toplaşan veteran-gəmiçilər qərara gəldilər ki, gəmilərin düşmən əlinə keçməməsi üçün onları buxtadan çıxarmaq lazımdır və gəmilər Xəzər Neft Donanması bazasına yığışdı. Az sonra hərbi gəmilərdə yerləşdirilmiş sərxoş matroslar Azərbaycan gəmilərinə basqın edərək hər gəmidən iki-üç nəfər həbs etdilər və Bakının 30 kilometrliyindəki Şüvəlan qəsəbəsinə apararaq qollarını arxadan qandalladılar. Səhəri gün həbs edilmiş 40-a yaxın Xəzər gəmiçisi təyyarə ilə Krasnodara, oradan da qatarla Orenburqa aparıldı və yalnız bir aydan sonra buraxıldılar. Görünür, Moskva bu "güzəşti" Bakıda törətdiyi vəhşiliklərin üstünü örtmək üçün etmişdi.

1990-cı ilin 20 yanvar faciəsi eyni zamanda Azərbaycan xalqının XX əsrin sonu tarixində qəhrəmanlıq dastanı oldu. Həmin gün Azərbaycan xalqı 70 illik Sovet dövrünün qorxusunu-qırmızı terrorunun zindanlar və həbsxanalarını adlayıb keçdi. Həmin gecə xalqın azadlıq hərəkatında dönüş yarandı, bu hərəkat zəfərə yönəldi.

Yanvarın 23-də Bakıda iki milyonluq xalqın öz şəhidlərini tarixdə misli görülməmiş birlik şəraitində, düşmənlərə nifrət ilə dəfn etməsi dünyanı heyrətə gətirdi. Bu matəm günlərində Azərbaycan xalqı bir əsrə bərabər mübarizə təcrübəsi və dərsi aldı. Həmin günlərdə Sovet Ordusu Lənkəranda, Cəlilabadda, Neftçalada və Gəncədə də Bakıda törətdiyi vəhşiliklərə bənzər hərbi əməliyyatlar həyata keçirdi.

1990-cı ilin yanvar faciəsində, ondan sonrakı Xocalı soyqırımında (fevral 1992) Rusiya silahlı qüvvələrinin fəal iştirakı Rusiya hakim dairələrinin bu xain siyasətinin üzdə görünən faktlarıdır. Bütün bunlar ona görə edildi ki, Azərbaycan öz ərazisində Rusiyanın ordu hissələrinin qalmasına razılıq verməmişdi.

1991-ci ilin sonunda Sovetlər İttifaqı dağıldıqda və ittifaqa mənsub olan silahlar bölüşdürüldükdə Rusiyanın şovinist və imperiyapərəst siyasətçiləri Azərbaycana ən köhnə silahların verilməsinə nail oldular. Az sonra isə həmin Rusiya işğalçı Ermənistana əlavə 1 milyard dollar qiymətində ən müasir silahları da peşkəş verdi və bu proses indi də davam edir.

Ölkə üçün ağır bir şəraitdə yenidən hakimiyyətə gələn Heydər Əliyev 1993-cü ilin noyabr ayının 2-də radio və televiziya ilə xalqa müraciət etdi və dəfələrlə hərbi hissələrdə vəziyyəti yoxladı. Görülən tədbirlər nəticəsində Azərbaycan ordusuna döyüş hazırlığı xeyli yüksəldi. Bütün bunların nəticəsi idi ki, erməni silahlı qüvvələrinin 1993-cü ilin dekabrında və 1994-cü ilin yanvar-aprel aylarında başladıqları geniş miqyaslı hücumları nəticəsiz qaldı.

1994-cü ilin 12 mayında Ermənistanla Azərbaycan arasında gedən müharibə cəbhələrində atəşkəs əldə edildi. Bununla da Azərbaycanda milli ordu yaradılması və Ermənistanın işğalçı dövlət olduğunu geniş beynəlxalq ictimaiyyətə sübut etmək üçün şərait yarandı.

Azərbaycanın müstəqil dövləti öz qüdrətli ordusunu yaradarkən müasir Türkiyə dövlətinin ilk prezidenti Atatürkün hərbi sərkərdəlik irsindən geniş istifadə edir. Böyük öndər Mustafa Kamal Atatürkün ən böyük xidmətlərindən biri onun öz qəhrəmanlığı ilə türk əsgərini qəhrəman etməsidir. **M.Atatürk** demişdir: "*Hər hansı bir ordunun dəyəri zabit və komanda heyətinin dəyəri ilə ölçülür*".

Türkiyənin çoxəsrlik hərb tarixi sübut edir ki, Osmanlı türkləri öz müstəqilliklərini döyüş (savaş) qabiliyyətləri və hünərləri ilə saxlamışlar. 8 cildlik "Osmanlı tarixi"nin müəllifi Alfons Lamartin (1790-1869) yazmışdır: "Türklər millət kimi dünyanın ən fəxri insanlarıdır.... Onlar dünyanın birinci millətləri olmalarını öz namusları ilə qazanmışlar".

Prezident Heydər Əliyev böyük ehtiram hissi ilə qeyd edir ki, "Türkiyənin keçdiyi cumhuriyyət yolu, demokratiya, iqtisadi inkişaf yolu bu gün Azərbaycan üçün böyük örnəkdir". [48]

Ermənistan silahlı qüvvələrinin Azərbaycan ərazilərini zəbt etmək üçün başladığı silahlı basqınlar Sovet dövlətinin mövcudluğu şəraitində başlandığı üçün bu müharibə beynəlxalq ictimaiyyətin diqqətini cəlb etmədi. Çoxları bunu Sovet dövlətinin daxili işi hesab etdi; halbuki, başlanan bu müharibə daşnakların çoxdan hazırladıqları "Böyük Ermənistan" yaratmaq planının[49] tərkib hissəsi idi.

Vətən sərhəddən başlandığı üçün bütün müharibələrdə olduğu kimi, düşmən hücumunun ilk zərbəsi də Azərbaycanın sərhəd qoşunlarına dəydi. Qarabağ savaşının başlanmasının ilk günlərində Azərbaycanın sərhəd qoşunları 3 zabit, 6 gizir və 17 döyüşçü itirdilər. Bunlardan 6 nəfəri "Azərbaycanın Milli Qəhrəmanı" fəxri adına (5 nəfəri ölümündən sonra) layiq görülmüşdür. Xalqımız Qarabağ uğrunda döyüşlərdə 20 mindən çox şəhid vermişdir. Bu müharibə cəbhələrində bəzi uğursuzluqlarımızın səbəbləri ayrıca bir araşdırmanın mövzusudur və görünür bu uğursuzluqların təqsirkarları aşkar edilərək, lənətlənəcəklər.

Bununla belə siyasi və bədii ədəbiyyatda Qarabağ savaşındakı uğursuzluqlarımızdan nəticə çıxarmaq çox vacibdir və həmin savaşın fəal və namuslu iştirakçılarının xatirə və memuarlarının yazılması da təşkil edilməli və nəşr etdirilməlidir.

Gənc şairə Minayə Əliyevanın 1998-ci ildə çap etdirdiyi "Bəsdir yatdın Misri qılınc kölgəsində" adlı kitabçasında şüurlara təsiredici misralar çoxdur. Kitabda "qızları əsir düşən millətim", və buna oxşar sətir və ifadələr böyük təsir qüvvəsinə malikdir. Belə kitabların bütün hərbi hissələrdəki "Azərbaycan əsgərinin kitabxanalarında" olması və oxunması çox vacibdir.

Gənclərin hərbi-vətənpərvərlik tərbiyəsində müharibə veteranlarının onlarla görüşləri böyük təsir gücünə malikdir.

Qarabağ müharibəsində Azərbaycanın milli qəhrəmanı adı almış Rövşən Əsgərov və Fəxrəddin Cəbrayılov, Zabit Quliyev, Fariz Mədətov hazırda gənclərin vətənpərvərlik ruhunda tərbiyəsi istiqamətində fəaliyyət göstərirlər.

Ali və orta məktəblərdə tədris edilən hərbi hazırlıq dərslərində gənclərin hərbi-vətənpərvərlik tərbiyəsinə xüsusi diqqət yetirilir və bu işdə müharibə veteranları da fəal iştirak edirlər. Məsələn: Azərbaycan Dövlət Neft Akademiyasında hərbi kafedra 1939-cu ildən fəaliyyət göstərir və kafedrada indi zabitlərdən 20 nəfərdən çoxu erməni işğalçılarına qarşı müharibədə iştirak

[48] "Xalq" qəzeti, 12 may, 1998.
[49] Bu haqda bax: İsmayılov İ.Z. Azərbaycanın XX əsrdə dövlətçilik siyasəti məsələləri, Bakı, 1995, s. 101-108.

etmişdir. Akademiyanı qurtaran məzunlar zabit rütbəsi alırlar. Akademiyada işləyən müəllimlərin 18 nəfəri 1941-45-ci illər müharibəsi iştirakçısıdır.

Respublikanın bütün rayonlarının məktəblərində Qarabağ uğrunda döyüşlərdə həlak olmuş döyüşçülərin xatirəsi əbədiləşdirilmişdir və bu iş davam edir. Quba rayonunun 40-dan çox məktəbinə şəhid döyüşçülərin adı verilmiş və onların büstü qoyulmuşdur. Nəsimi rayonunda 36 şəhidin adı oxuduqları məktəbə və ya işlədikləri müəssisəyə, sağlığında yaşadıqları küçəyə verilmiş, bu yerlərdə onların büstü qoyulmuş, xatirə lövhəsi vurulmuş, xatirə guşələri yaradılmışdır. Rayonun ərazisində yerləşən Tibb Universitetinin qarşısında mərmər abidə kompleksinə universitetdə oxumuş şəhid tələbələrin adları ehtiramla həqq edilmişdir. Bir çox rayonlarda belə abidə komplekslərində həyat rəmzi olan bulaq yaradılmış və onun suyunun daimi axması böyük məna kəsb edir.

Bakıdakı Həzi Aslanov adına Mərkəzi Zabitlər evi (1927-ci ildə yaradılmışdır) və Gəncədəki, Naxçıvandakı, Lənkərandakı və Çuxanlıdakı (Salyan rayonunda) zabitlər evləri gənclərin və ilk növbədə orduda xidmət edən döyüşçülərin hərbi-vətənpərvərlik tərbiyəsi istiqamətində geniş fəaliyyət göstərir. Respublika Silahlı Qüvvələrinin mahnı və rəqs ansamblı, Gənclər və İdman Nazirliyinin müvafiq qurumları da bu istiqamətdə geniş iş aparırlar.

Hərbi vətənpərvərlik tərbiyəsinin tərkib hissəsi olan müharibə qurbanlarının xatirəsini əbədiləşdirmək işinə veteran təşkilatlarının qayğısı diqqətəlayiqdir. 1942-43-cü illərdə Bakıda yerləşən hospitallarda dünyasını dəyişmiş döyüşçülərdən və Qafqaz uğrunda döyüşlər zamanı həlak olaraq Bakıda dəfn edilən müharibə iştirakçılarının məzarları "Qardaşlıq qəbristanlıqları"na çevrildi və həmin qəbristanlıqlar indi də böyük hörmətlə saxlanılır. Bu qəbristanlığın bir hissəsi Nəsimi rayonunun xidmətinə verilmişdir. Həmin sahədə dəfn edilən 181 nəfər döyüşçü (bunlardan 25 nəfəri azərbaycanlıdır) məzarlarında uyuyan bütün şəhidlərin adı-soyadları daş lövhələrdə yazılmışdır və bu qəbristanlıqlar hər il "Qələbə" bayramı günü rayon veteranları tərəfindən ziyarət edilir. Buradan aydındır ki, Qələbə günü 9 may təkcə bayram deyil, eyni zamanda 1941-45-ci illərdə həlak olmuşların hamısının xatirə günüdür.

Böyük Vətən müharibəsi illərində 4223 nəfər iştirakçı döyüşlərdə aldıqları ağır yaralardan sonra dünyalarını dəyişərək Bakıdakı Qardaşlıq qəbristanlıqlarında dəfn edilmişlər. Bunlardan ikisi Sovet İttifaqı Qəhrəmanıdır: İvanov Roman Qavriloviç (kapitan), Vetoşnikov Qeorgi Aleksandroviç.

Dəfn edilənlərdən 337 nəfəri Mərkəzi qəbristanlıqda, 116 nəfər Çəmbərəkənddə, 430 nəfər Sabunçu qəbristanlığında, 203 nəfər Nərimanov rayonu ərazisinin cənub hissəsində uyuyurlar. Bütün bu məzarlıqlara nəzarət Bakının rayonları arasında bölünmüşdür və Veteran təşkilatları onların lazımi səviyyədə saxlanılmasına nəzarət edirlər.

## §4. Milli və hərbi vətənpərvərlik ruhunda tərbiyənin vəhdəti haqqında

Milli vətənpərvərlik (vətənçilik) tərbiyəsində milli kökə arxalanaraq, milli ruhdan ilham alaraq istinad etmək ümumi bəşəri bir qanundur.

Türk ulularımızda, Turan hökmdarlarında belə ümumi türk kökünə arxalanmaq istəyi çox güclü olmuşdur. Bununla belə indi təkcə türk kökünə qayıtmaq kifayət deyil. Burada müasirliyin tələbi də nəzərə alınmalıdır. Bu tələb görkəmli mütəfəkkirimiz Əlibəy Hüseynzadənin (1864-1940) əsərlərində geniş əsaslandırılmış və şərh edilmişdir[50]. Bununla belə milli kök, milli ruh həmişə birinci və aparıcı olmalıdır. Gənclərdə milli və hərbi vətənpərvərlik ruhunun təbii halda birləşməsi istəyi və (nümunəsi) türk əsgəri Məhmətcikdə geniş şəkildə təcəssüm edilmişdir. Hər şeydən əvvəl əsgəri xidmətə böyük arzu elə!

Dünya miqyasında sayca o qədər də böyük olmayan Azərbaycan millətinin böyük istedada və buna görə də qədim və zəngin mədəniyyətə malik olduğunu başa düşüb etiraf edən əcnəbi alim və səyyahlar az deyildir: Şərqin çoxsaylı mütəfəkkirləri ilə yanaşı və bir çox Qərb alimləri və yazıçıları (Höte, Aleksandr Düma, Puşkin, Lermontov...) xalqımızın cəngavərliyini, zəngin mədəni irsə malik olduğunu etiraf etmişdir. Təəssüf hissi ilə qeyd etmək lazımdır ki, gənclərimizin bir hissəsində, xüsusilə orta təhsilini rus dilli məktəblərdə almış gənclərdə Azərbaycan ədəbiyyatı çox səthi mənimsənilir. Digər tərəfdən bu geniş və zəngin mədəni irs müqabilində onu qoruyub saxlamaq və dünya miqyasında təbliğ etmək sahəsində Azərbaycanımızda laqeydlik (daha kəsərli də demək olar) olmaqla yanaşı, qayğı da azdır.

1995-ci ilin 18-19 aprelində Moskvada "İkinci dünya müharibəsinin ibrət dərsləri və faşizm üzərində qələbənin əhəmiyyəti" mövzusunda Beynəlxalq Elmi Konfrans keçirilmişdir. Həmin konfransda "Erməni xalqının ikinci dünya müharibəsində iştirakı" mövzusunda məruzə edən akademik F.Q.Sarkisyan öz məruzəsini əsasən bir fakt əsasında şərh etdi: bu müharibədə bir neçə erməni marşalı və çoxlu erməni generalları iştirak etmişdir. Bəs nə üçün biz öz tarixi şəxsiyyətlərimizi geniş təbliğ etmirik?

Məşhur alman şairi Höte ömrünün son illərində yazdığı iki cildlik "Qərb-Şərq divanı"nın ayrıca bir fəslində Nizami Gəncəvinin (1141-1209) etik-fəlsəfi görüşlərinin təhlilini vermiş və böyük şairin bu görüşlərinə yüksək qiymət vermişdir. Marietta Şaginyan 1981-ci ildə çap etdirdiyi "Nizami haqqında etüdlər"ində yazmışdır: "...azərbaycanlı Nizami XII əsrdən XVI əsrdə yaşamış ingilis Mora və XVII əsrdə yaşamış italiyalı Kampanellaya öz əlini uzadır".

---

[50] Bu haqda bax: İ.Z.İsmayılov, Azərbaycanda dövlətçilik fikri oçerkləri, B., s. 54-55.

M.Şaginyan erməni olmasaydı, "kömək əlini uzadır" yazardı. Həqiqətən də Nizami sosial ədalətə əsaslanan xəyali sosializm ideyaları haqqında öz yüksək humanist fikirlərini adı çəkilən Avropa mütəfəkkirlərindən dörd əsr əvvəl söyləmişdir. Lakin hələ də xəyali sosializmin banisi Tomas Mor hesab edilir. Baxmayaraq ki, Nizami Gəncəvinin buna ehtiyacı da yoxdur. Dahi mütəfəkkirlik adı ona daha yaxşı yaraşır.

XII əsrdə yaşamış alim-astronom Nəsirəddin Tusi (1201-1274) "Əxlaqi-Nasiri" adlı məşhur traktatında azadlıq və bərabərlik ideyalarını təbliğ edərək, hakimiyyətin seçki əsasında təşkil edilməsi fikrini müdafiə etmişdi. Həmin dövrdə Avropa belə fikirlərdən çox geridə idi.

XIV-XVI əsrlərdə yaşamış və yaratmış görkəmli şəxsiyyətlərimiz – İmaməddin Nəsimi (1369-1417) və Məhəmməd Füzuli (1494-1556) öz humanist fikirləri ilə insan şəxsiyyətini əlçatmaz zirvələrə qaldırmışlar.

Azərbaycan xalqı içərisində böyük mütəfəkkirlər yetişməsində XIX əsr də məhsuldar olmuşdur: Mirzə Kazım bəy (1802-1870), prof. Mirzə Cəfər Topçubaşov (1790-1869), Mirzə Şəfi Vazeh (1794-1852), Mirzə Fətəli Axundov (1812-1878) və digərləri belə simalardandır. Mirzə Kazım bəy sağlığında dünyanın 20-dən çox Elmlər Akademiyasının həqiq və fəxri üzvü seçilmişdir.

XIX əsrin birinci yarısında yaşamış məşhur şair Mirzə Şəfi Vazehin iki cildlik lirik şerlərini bir əsrə qədərki dövrdə alman Fridrix Bodenştad öz adına yazaraq təbliğ etdi və bunların əksəriyyəti ana dilində hələ də tapılmamışdır.

Azərbaycan tarixi, onun Rusiya ilə İran arasında bölüşdürülməsindən sonrakı dövrdə mütəmadi olaraq saxtalaşdırılmışdır və bu saxtalaşdırma indi də davam edir: tarix elmləri namizədi Qriqori Volınski Rusiyada nəşr olunan "Общая газета"nın 1998-ci il 30 aprel-6 may tarixli sayında 1819-cu ildə Gülüstan sülh müqaviləsinin bağlanmasını görün necə əsaslandırır: "İslamın şiyə təriqətinə mənsub olan azərbaycanlılar sünni olan sultan Türkiyəsi tərkibinə daxil olmaq istəmirdilər. Belə bir şəraitdə Azərbaycanın şimal hissəsi Rusiya tərkibinə daxil oldu". Müəllifin yazmasından belə çıxır ki, Şimali Azərbaycan əhalisinin hamısı şiyə təriqətinə mənsubdur və guya bu əhali öz ərazisini Rusiya ilə birləşməyə könüllü olaraq tərəfdar çıxmışlar.

Məlumdur ki, Türkiyəyə münasibətdə İ.Stalin I Pyotrun siyasətini davam etdirmişdir və bu siyasət 70 illik Sovet siyasətində davam etdi. Xarici ölkələrdən ermənilərin Ermənistana gətirilməsi haqqında Stalinin 1948-ci ildə imzaladığı qərar da bu siyasətin davamı idi.

Rusların Qara dəniz körfəzlərinin zəbt etmək məqsədində Türkiyəyə düşmən olan ermənilərin Qafqazda daha güclü olması Rusiyaya lazım idi və bu siyasəti Mixail Qorbaçov daha kobud şəkildə davam etdirirdi. Buna görə də, o,

Ermənistandan 1988-ci ildə 200 min nəfər azərbaycanlının qovulmasına razılıq verdi. Halbuki, onlar öz qədim torpaqlarında yaşayırdılar.

Ermənilərin azərbaycanlılara qarşı əbədi düşmənçiliyi bununla məhdudlaşmır. Nankor qonşumuz olan bu ermənilər milli sərvətlərimizi və xüsusilə də mənəvi sərvətlərimizi oğurlamaqda bizə sanki qənim kəsilmişlər:

1960-cı ildə Ermənistanda "Ermənistan xalçaları" adlı kitab nəşr edilərək, dünyanın bir çox ölkələrinə göndərilmişdir. Halbuki, kitabda rəsm edilən bu xalçaların hamısı Qarabağ, Quba, Şəki, Gəncə və digər rayonlarımızda tarixən toxunmuş xalçaların nümunələridir.

Sovet hakimiyyətinin bütün dövründə "Sarı gəlin" mahnısını və "Yallı" rəqsini ermənilər hər yerdə özününküləşdirərək ifa edirdilər və bu oğurluq indi də davam edir.

Amerikada yaşayan erməni kinorejissoru R.Mamulyan 1936-cı ildə "Arşın mal alan"ı ekranlaşdıraraq, "erməni operettasının kraliçası" adlandırdı və bu oğurluq hələ də tamamilə ifşa edilməmişdir.

Yazıçı-jurnalist Şəmistan Nəzirli 1991-ci ildə nəşr etdirdiyi "Azərbaycan generalları" kitabında yazır ki, prof. Satur Ağayan 1978-ci ildə nəşr etdirdiyi kitabında Rusiya ordusunda xidmət etmiş azərbaycanlı kapitan Mənsur ağa Vəkilovu "Martiros Vəkilov" (kitabın bir səhifəsində isə hətta Vəkilyan) kimi təqdim etmişdir. Borçalının Təkəli kəndindəki nüfuzlu Yadigarovlar nəslinə mənsub olan general və zabitlərimizi ermənilər "Ediqaryan", gürcülər isə "Ediqaraşvili" kimi təbliğ ediblər[51].

Müstəqil dövlətimizdə qanunçuluğun keşiyində duran orqanlar və vəzifəli şəxslərimizin mədəni irsimizin oğurlanmağının qarşısını almağın yolları haqqında düşünmələrinin vaxtı çatmayıbmı?

Və nəhayət, daha bir məsələ haqqında: müstəqil Azərbaycan dövləti üçün başqa dövlətlərin ərazisində vaxtilə dəfn edilmiş tarixi şəxsiyyətlərinin məzarlarının indi ölkəmizə gətirilməsi və belə şəxsiyyətlərimizin hamısının bir yerdə "Panteon" şəklində məzarlaşdırılması mühüm siyasi və tərbiyəvi əhəmiyyət kəsb edir. Hüseyn Cavidin məzarının Vətənimizə gətirilməsi Respublika prezidenti Heydər Əliyevin tarixi xidmətidir. Gec-tez Nəriman Nərimanovun, Məmməd Əmin Rəsulzadənin, Mirzə Fətəli Axundovun, Mirzə Şəfi Vazehin və digər görkəmli şəxsiyyətlərimizin məzarlarının Vətəndə məskunlaşması arzu edilən bir tədbirdir və görünür bu haqda münasib addımlar atılacaqdır.

1994-cü ilin ortalarında atəşkəs barədə Bişkek protokolunun imzalanması ilə ondan əvvəlki 6 illik müharibə dövrünə sanki müvəqqəti də olsa son qoyuldu və Azərbaycanda milli ordu quruculuğu, dövlətçiliyi möhkəmləndirmək üçün şərait

---

[51] Bax: Ş.Nəzirli, Azərbaycan generalları, B.1991, s.9-10.

yarandı. Digər tərəfdən cəbhələrdə bu nisbi sakitlik erməni və rus missionerlərinə Azərbaycan xalqı içərisində "ümumi barış" ideyalarını təbliğ etmək üçün şərait yaratdı. Bu təbliğatın təsiri ilə Azərbaycan xalqının müəyyən təbəqələri içərisində "əsas düşməni" kənarda axtarmaq əhvali-ruhiyyəsi özünə yer tapmağa başladı. Hətta keçmiş "erməni kirvələr" ilə əlaqələr yaratmağa meyl edənlər də tapıldı. Xəlvəti benzin alveri bu meylin konkret təzahürü deyilmi? Burada erməni şovinistlərinin əsas məqsədi azərbaycanlıların şüurundan "erməni təcavüzkarının düşmən surətini" silməkdən ibarətdir. Azərbaycan dövlətçiliyi üçün belə planların böyük təhlükə olması aydındır.

Belə bir şəraitdə erməni faşist ideoloqları ümumdünya erməni strateji mərkəzlərinin göstərişi ilə Azərbaycanda zəbt etdikləri ərazilərdən qaçqın düşmüş ərazilərdən doğma torpaqlara qayıtmaq istəyini öldürmək istiqamətində hərtərəfli fəaliyyətə başladılar. Ən əvvəl "Qarabağ münaqişəsi"nin dinc yolla həll edilməsinin qeyri mümkünlüyü geniş təbliğ edilməyə başlandı (halbuki, Kosovada Albanların hüquqlarının NATO tərəfindən müdafiə edilməsi belə imkanın mümkünlüyünə əsasdır). Populist siyasətçilər isə yalnız müharibə yolunu təbliğ etməkdə davam edirlər.

Azərbaycan xalqı içərisində birliyə mane olmaq istəyən rus və erməni missionerləri, respublikada yaşayan azsaylı xalqların (talış, tat, udin, ingiloy və s.) xristianlaşdırılması, hətta bəzi azərbaycanlılara maddi kömək edərək onların xristian kilsələrinə cəlb edilməsi istiqamətində fəaliyyəti genişləndirirlər. Əlbəttə, belə əhvali-ruhiyyənin Azərbaycan ordusuna xidmət edən gənclər üçün qorxusu daha çoxdur.

***Bəxtiyar Vahabzadə***
*Azərbaycan Xalq şairi*

## VETERANLAR MARŞI

Bir zamankı üzbəüz
Durdu gecəylə-gündüz
Faşist fəlakətinə
Qalxan oldu köksümüz.

Biz gənc ikən anladıq
Xeyir nədir, şər nədir.
Şərəfli ömrümüzün
Kökü cəbhələrdədir.

Uzun illər dəzgaha
Dəyişsək də səngəri
Çınlar qulağımızda
Hələ güllə səsləri.

Bizi cavan saxlamış
Eşqimiz, əqidəmiz.
Yaşamışıq həmişə
Əsgər ürəyilə biz.

Versək də borcumuzu
Bu müqəddəs Vətənə.
Ona borclu bilirik
Ömrümüzü biz yenə.

### *Nəticə*

## Gənclərimizin hərbi vətənpərvərlik tərbiyəsini gücləndirmək istiqamətində təkliflər

***Orduda xidmət etməyən gənc cəmiyyətdə hörmət qazana bilməz***
***HEYDƏR ƏLİYEV***

XX əsrin son onilliyində dünyanın siyasi həyatında baş vermiş dəyişikliklər, ilk növbədə Sovetlər İttifaqının dağılması, öz təsirini az-çox bütün xalqların həyatında göstərmişdir. Yaranmış şəraitdən istifadə edərək, öz dövlət müstəqilliyini bərpa etmiş Azərbaycan xalqı üçün isə bu onillik ağrılı oldu. Burada əsas səbəb Rusiyanın imperiyapərəst dairələrinin Ermənistanın separatçı qüvvələrinə Azərbaycan ərazisinin 20%-ni zəbt etmək üçün kömək etməsidir. Digər tərəfdən tarixən Azərbaycan xalqının iki yerə parçalanmasının ikinci iştirakçısı olan İran hakim dairələri də son iki əsrdə həmişə Azərbaycan xalqına düşmənçilik mövqeyindən çıxış etmişdir və etməkdə davam edirlər.

Azərbaycan ərazilərini zəbt etmək məqsədilə Ermənistanın faktiki olaraq 1988-ci ildə başladığı hərbi əməliyyatlarda azğın düşmənlə mübarizədə çox itkilərimiz olmuşdur. 20 mindən artıq şəhid vermişik, 50 min nəfər şikəst olmuş və

itkin düşmüş, girov götürülmüşlərin sayı isə 4 mindən çoxdur, ərazilərimizin 20%-i erməni tapdağındadır.

Belə bir uğursuzluq müharibə alovu görmüş İkinci dünya müharibəsi veteranlarını, Əfqanıstan döyüşləri iştirakçılarını, Qarabağ müharibəsi adlanan müharibənin döyüşçülərini çox narahat edir. Əlbəttə özlərinin yaşadıqları yurdlarından qovulmuş soydaşlarımızın dərdləri daha dözülməzdir. Şəhid ata-analarının qəmli gözləri tez-tez yaşarır. İstər-istəməz belə suala cavab axtarırsan: necə oldu ki, bu qədər itki müqabilində ərazilərimizi əldə saxlaya bilmədik?

Görünür əsas səbəb, döyüş qabiliyyətinə malik ordumuzun olmamasıdır. Halbuki, 1918-1920-ci illərdə Azərbaycan Xalq Cumhuriyyəti hökuməti qısa müddətdə nizamlı ordu hissələri yaratmışdı.

1988-92-ci illərdə Azərbaycanda hakimiyyətdə olanlar və ilk növbədə iki prezident (Ayaz Mütəllibov və Əbülfəz Əliyev) belə bir ordunun yaradılmasının ən vacib vəzifə olduğunu başa düşmədilər. Ayaz Mütəllibovun prezidentliyi dövründə, 1991-ci ilin 5 sentyabrında Müdafiə Şurası yaradılmışdı, ordu yaradılması üçün orduda xidmətə çağırış isə üç ay sonra, 5 dekabrda elan edilmişdi və bu çağırış 25% yerinə yetirilmişdi.

Milli ordu yaradılmasına belə biganəlikdə bəzi imkanlı valideynlərimiz də təqsirkardırlar: onlar öz övladlarının Azərbaycan Ordusunda xidmətdən yayınmasına cürbəcür saxta yollarla nail oldular. Bu yollardan biri bəzi gənc çağırışçıların 26 yaşına qədər ikinci ali məktəbdə oxudulması, hətta xarici ölkələrə təhsilə göndərilməsi olmuşdur. Belə hallar daha çox rəhbər vəzifələr tutan vətəndaşların övladları hesabına olurdu. Belə valideynlər unudurlar ki, vətəndaşlıq borcu vəzifə borcundan daha üstündür və buna vicdanla riayət etmək lazımdır.

Prezident H.Əliyev milli ordumuzun yaradılmasına xüsusi diqqət yetirmişdir. 1997-ci ildə yazıçıların X qurultayında etdiyi çıxışında H.Əliyev demişdir: “Hər bir valideyn borcludur, övladını uşaqlıqdan düzgün tərbiyə etsin ki, o böyüyəndə öz vətəndaşlıq borcunu yerinə yetirməlidir, orduda xidmət etməlidir. Həmin fikri davam etdirərək Prezident xüsusi olaraq qeyd edir ki, “Azərbaycan silahlı qüvvələrində xidmət edən hər bir kəs cəmiyyətimizin ən hörmətli, ən mötəbər adamı olmalıdır”. Bu fikrini Heydər Əliyev 1998-ci ilin fevralında belə tamamlamışdır: “Orduda xidmət etməyən gənc, cəmiyyətdə hörmət qazana bilməz”.

Bütün bu deyilənləri nəzərə alaraq, xüsusilə gənclər arasında milli qeyrət, vətənpərvərlik ruhunu gücləndirmək naminə aşağıdakı tədbirləri həyata keçirməyi məqsədə uyğun sayırıq.

1) 1993-cü ilin ikinci yarısından başlayaraq gənclərimizdə milli mənlik və vətənpərvərlik hissi xeyli güclənməkdədir. Azərbaycan əsgəri marşının hətta məktəblilər və kiçik yaşlılar tərəfindən sevilə-sevilə oxunması buna parlaq

sübutdur və bu, qürur doğurur. Bu müsbət hala uyğun olaraq gənclərin Vətəni müdafiəyə hazırlıq işinə daha geniş cəlb edilməsi naminə yaxşı olar ki, hər ilin 1 sentyabrında bütün məktəblərdə ilk dərslər "Vətənpərvərlik və milli şərəf" mövzusuna həsr olunsun. Bu tədbirdə müharibə veteranları böyük məmnuniyyətlə iştirak edərlər.

2) Dağlıq Qarabağ münaqişəsinin əvvəlində erməni müəlliflərinin həyasız iddialarına qarşı bir neçə kitabça yazıldı və görünür hesab edildi ki, düşmən təbliğatına kifayət qədər cavab verildi. Halbuki, heç bir elmi əsas olmadan, ermənilər tərəfindən dünya ictimaiyyəti içərisində Azərbaycana qarşı düşmənçilik fikirlərinin geniş təbliği davam edir. Buradan aydındır ki, erməni şovinistlərinin heç bir əsas olmayan həyasız tələblərinə və təbliğatına qarşı faktiki sənəd və dəlillərlə arasıkəsilmədən yazılı cavab verməliyik. Belə ədəbiyyatı bir neçə xarici dildə nəşr etdirərək dünya ictimaiyyətinə çatdırmaq lazımdır.

3) Azərbaycanda hərbi quruculuq işində qardaş Türkiyə xalqının çoxəsrlik təcrübəsini öyrənmək və ondan bəhrələnmək məqsədəuyğundur. Türkiyə ordusu, onun hər bir əsgəri Vətən uğrunda döyüşlərinə görə tarixən şöhrət qazanmışdır. Türkiyədə orduda xidmət böyük şərəf hesab edilir və bu xidmətə yararlı bütün vətəndaşlar böyük sevinc hissi ilə əsgəri mükəlləfiyyəti yerinə yetirirlər. Türkiyədə valideynlər hesab edirlər ki, ailədən sonra gənclərin həqiqi vətəndaş kimi yetişməsini iki məbədə tapşırmaq olar: məktəb və ordu.

4) Birləşmiş Millətlər Təşkilatı Konfransının 1998-ci il iyulun əvvəlində təsis etdiyi Daimi Beynəlxalq Ədalət Məhkəməsi bu yaxınlarda öz işinə başlayacaqdır: həmin məhkəmə birinci növbədə soyqırım və bu silsilədən olan beynəlxalq cinayətlərə baxacaqdır. Mərkəzi Praqada yerləşən bu təşkilat öz əməli işinə 2000-ci ildən başlayacaqdır. Xalqımıza qarşı əvvəllər və son on ildə törədilmiş erməni soyqırımlarının geniş sənədləşdirilməsi işinə indidən başlamaq və göstərilən Beynəlxalq Məhkəməyə müraciət etmək ən vacib vəzifələrimizdən biri olmalıdır.

Bu tədbirin vacibliyini sübut edən bircə fakta diqqət edək: Azərbaycan Prezidenti Heydər Əliyev 1998-ci ildə azərbaycanlıların soyqırımı və köçürülməsi haqqında iki fərman imzaladıqdan az sonra Ermənistan mətbuatı və ictimaiyyəti dünyaya səpələnmiş erməni diasporu vasitəsilə fərmanlara qarşı hücuma keçdi. Belə həyasızlıq erməni şovinistlərinin adət etdikləri köhnə taktikanın davamıdır. Buna cavab daimi olmalıdır.

Qərbin görkəmli tədqiqatçıları Stenford və Ezzel Kural Şoular, Çastin və Karolina Makkartilər (ABŞ), Jorj de Molevil (Fransa), Bernard Devis (İngiltərə) əsaslı dəlillərlə bu nəticəyə gəlmişlər ki, 1915-ci ildə erməni soyqırımı olmamışdır. Əksinə, 1915-ci ilin əvvəlində Rusiya qoşunları Şərqi Anadoluya hücum etdiyi dövrdə erməni könüllü dəstələri də türklərə qarşı hərbi əməliyyatlara başlamışlar.

Ümumiyyətlə həmin hərbi əməliyyatlarda 2 milyona qədər türk və 200 min erməni həlak olmuşdur. Buradan aydındır ki, ermənilərə qarşı türklər tərəfindən soyqırım edilməsi haqqında daşnak iddialarının heç bir əsası yoxdur və 1915-ci ildən sonrakı 84 ildə bu iddia heç bir Beynəlxalq təşkilat tərəfindən qəbul edilməmişdir. Hətta ABŞ-ın Ermənistandakı səfiri Maykl Lemmo 1999-cu ilin aprelində demişdir; ermənilərin "1915-ci ildə bizə qarşı genosid olmuşdur" demələri və bunu hüquqi şəkildə qəbul etdirmək cəhdləri "icra edilməyən duaya amin deməyə" oxşayır.

Jorj de Molevil ermənilərin arasıkəsilmədən hay-küylə qaldırdıqları 1915-ci il erməni soyqırımı məsələsini nəzərdə tutaraq yazır ki, "Avropa üçün gələcəkdə çox ağır nəticələrə səbəb ola biləcək erməni təbliğatının özbaşınaçılığını dayandırmaq üçün bütün sağlam fikirli adamların reaksiyası vacibdir". Müəllif eləcə də, xüsusi olaraq qeyd edir ki, erməni təbliğat maşınında bolşeviklərin üç metodundan istifadə edilir: 1) tarixi təzədən yazmaq cəhdi, 2) təqib olunan rəqibi günahlandırmaq, 3) düşmənin guya gizli sui-qəsdə hazırlaşması haqqında hay-küy salmaq.

Ermənistanın daşnak və digər şovinist qüvvələri Azərbaycanın ərazilərinin 20% zəbt etməkdə özlərinə bəraət qazandırmaq istiqamətində indi geniş təbliğat aparırlar. "Armyanskiy vestnik" jurnalının 1998-ci ildə buraxılmış 2-ci sayında bu mövzuya aid çap olunmuş dörd məqalədən birinin müəllifi Ruben Zərgəryanın məqaləsi belə adlanır: "Azərbaycanın insanlığa qarşı törətdiyi hərbi cinayətlərinə görə tribunalın keçirilməsi zəruriliyi". Ermənilərin bu dərəcədə mütəşəkkil həyasız hay-küyünün qarşısında bizim haqq işimizin dünya miqyasında təbliğinin çox zəifliyinə heç bir bəraət yoxdur. Gec də olsa hərəkətə gəlməyin vaxtı çoxdan çatmışdır və bunu mütləq etmək lazımdır.

Azərbaycan Respublikasının Prezidentinin "Vətən müdafiəçilərinin xatirəsini əbədiləşdirmək haqqında" 1997-ci il 23 dekabr tarixli fərmanı bu sahədə görüləcək işlərin fəaliyyət proqramıdır.

1905-ci ildə və 1918-ci ilin martında, 1920-ci ilin yazından sonrakı dövrlərdə erməni terrorizminin qurbanlarının məzarlarının yerlərini müəyyən etmək, bu yerlərdə xatirə abidələrinin ucaldılması hər bir namuslu azərbaycanlının Vətəni və xalqı qarşısında şərəfli borcu səviyyəsində icra edilməlidir. Belə abidələrin olması tarixi hadisələrə aid qaldırılacaq tələblərin kəsərliliyinə böyük kömək edər.

5) İndiki və gələcək nəsillərimizdə hərbçi xidmətinə sevgi meylini gücləndirmək,əhalidə hərbi vətənpərvərlik ruhunu yüksəltmək üçün "Azərbaycan generalları" adlı muzeyin yaradılması vaxtı çatmış tədbirdir.

6) Müstəqil Azərbaycan dövləti Milli Ordusunu Vətəni müdafiə etməyə qadir səviyyədə yaradarkən ikinci dünya müharibəsi illərində faşizmə qarşı mübarizəni böyük qələbə ilə qurtarmış Azərbaycanlı veteranlarının döyüş yolunun

qiymətləndirilməsi işinin təşkilinə xüsusi diqqət və qayğı ilə yanaşır. Azərbaycan Respublikası Prezidenti H.Ə.Əliyevin 1994-cü il 28 iyununda qəbul etdiyi "Veteranlar haqqında qanun"da deyilir: "Dövlət orqanları Veteran təşkilatlarına öz hüquq və vəzifələrini həyata keçirməkdə hərtərəfli kömək göstərməlidirlər".

İkinci dünya müharibəsi illərində həlak olmuş 300 min nəfərdən çox azərbaycanlı döyüşçülərinin xatirəsini əbədiləşdirmək üçün xalqımızın müqəddəs and yeri olan Dağüstü Parkda, Həzi Aslanovun məzarına yaxın yerdə "Naməlum əsgərin məzarı" xatirə ansamblının ucaldılmasına ehtiyac duyulur.

7) Respublikanın şəhər və rayonlarının hamısında şəhid qəhrəmanların adlarının əbədiləşdirilməsi, xüsusilə onların təhsil aldıqları orta məktəblərə şəhidlərin adının verilməsi məktəbli gənclərə xüsusi təsir bağışlayır və bu işi gücləndirmək lazımdır.

8) 1941-45-ci illər müharibəsində həlak olmuş azərbaycanlı döyüşçülər haqqında Xatirə Kitabının nəşrinin başlanması tədqirəlayiqdir: bununla yanaşı Qarabağ uğrunda döyüşlərdə şəhidlik zirvəsinə yüksəlmiş gənclərimiz haqqında bütün rayonlar üzrə geniş məzmunlu xatirə kitablarının nəşrinə nail olmaq lazımdır.

9) Respublikanın orta məktəblərində hərbi hazırlıq dərslərinin yüksək keyfiyyətdə aparılması üçün bu fənnləri tədris edən müəllimlərin hazırlanmasına xüsusi qayğı lazımdır.

10) Dünyanın əksər ölkələrində ali qanunvericilik və dövlət orqanlarında veteranlarla iş üzrə müəyyən qurumlar mövcuddur. Məsələn, Rusiya Federasiyası Duması tərkibində veteranlarla iş üzrə komitə yaradılmışdır. ABŞ-ın İcra Aparatında olan 14 departamentdən biri "Veteranlara aid işlər departamenti" adlanır. Bu ölkənin senatında və Nümayəndələr palatasında da Veteranlar Komissiyası (komitəsi) vardır. Azərbaycan Respublikasının Milli Məclisində Veteranlarla iş üzrə ayrıca komissiya yaradılması məqsədəuyğundur.

11) Gənc nəslin hərbi-vətənpərvərlik ruhunda tərbiyəsində uzun müddət fəal işləyən veteran-müəllimlərin, fəal müharibə veteranlarının əməyini qiymətləndirmək üçün Respublika Veteranlar Şurası xəttilə "Fəxri veteran" adı təsis edilməsi məqsədəuyğundur. Qeyd edək ki, belə adın verilməsi Rusiyanın bəzi muxtar respulikalarında həyata keçirilmişdir və müsbət nəticə verir.

## MÜNDƏRİCAT

***Oxucuya müraciət***
***Hərbi sərkərdəlik tariximizə ötəri nəzər*** (giriş əvəzi)
***I fəsil.*** **İkinci dünya müharibəsinin başlanması**
§ 1. Müharibənin mərhələləri
§ 2. Sovet–Finlandiya müharibəsi
***II fəsil.*** **Böyük Vətən müharibəsi II dünya müharibəsinin əsas və ən ağır mərhələsidir.**
§ 1. Böyük Vətən müharibəsinin ilk dövrünün ağır döyüşləri
Moskva altında döyüşlər
Stalinqradın müdafiəsində azərbaycanlı döyüşçülərin geniş iştirakı
§ 2. Qafqaz uğrunda döyüşlərin başlanması və Azərbaycanda milli diviziyaların təşkil edilməsi
§ 3. Milli diviziyaların döyüş yolu
§ 4. Qafqaz uğrunda döyüşlər – Böyük Vətən müharibəsində qələbənin ən mühüm mərhələlərindən biridir.
§ 5. Azərbaycan xalqının faşizm üzərində qələbədə böyük xidməti
§ 6. Müharibənin sonrakı mərhələlərində Azərbaycanlı zabit və əsgərlərin döyüş rəşadəti
§ 7. Azərbaycanlı döyüşçülərin faşizmə qarşı partizan və müqavimət hərəkatlarında iştirakı
§ 8. Böyük Vətən müharibəsi illərində "Sovet İttifaqı Qəhrəmanı" və "Şöhrət" ordeninin üç dərəcəsi ilə təltif edilmiş azərbaycanlılar.
***III fəsil.*** **İkinci dünya müharibəsinin yekunları. Faktlar və düşüncələr.**
§ 1. II dünya müharibəsinin son mərhələsi. Uzaq Şərqdə müharibə alovunun söndürülməsi
§ 2. Müharibə illərində əsir düşmüş vətəndaşlarımız haqqında (faktlar və düşüncələr)
***IV fəsil.*** **Müharibə veteranları hərəkatının təşkilatlanması və gənclərin hərbi vətənpərvərlik tərbiyəsində veteranların rolu**
§ 1. Müharibə veteranları hərəkatının təşkilatlanması
§ 2. Hərbi vətənpərvərlik tərbiyəsinin məzmunu və əsas istiqamətləri
§ 3. Gənc nəslin hərbi vətənpərvərlik ruhunda tərbiyəsində veteranların rolu
§ 4. Milli və hərbi vətənpərvərlik ruhunda tərbiyənin vəhdəti haqqında
Veteranlar marşı
***Nəticə*** Gənclərin hərbi-vətənpərvərlik tərbiyəsini gücləndirmək istiqamətində təkliflər

**İSMAYILOV İSRAFİL ZAKİR OĞLU**

# AZƏRBAYCANLILARIN II DÜNYA MÜHARİBƏSİNDƏ İŞTİRAKI

**I.Z.ISMAILOV**

# TAKING PART THE AZERBAIJAN PEOPLE IN THE WORLD WAR II

**ИСМАЙЛОВ ИСРАФИЛ ЗАКИР ОГЛЫ**

# УЧАСТИЕ АЗЕРБАЙДЖАНЦЕВ ВО ВТОРОЙ МИРОВОЙ ВОЙНЕ

Yığılmağa verilmişdir 2.07.99.
Çapa imzalanmışdır 5.08.99.
Formatı 60x84, mətbəə kağızı № 2.
Şərti çap vərəqi 12,5. Uçot nəşr vərəqi 12,5.
Tirajı 500, sifariş № 180.
Qiymәti müqavilə ilə
Qızıl Şərq mətbəəsi